AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

Nobəri
Qara Əliyev

- 25904 -

# FÜZULİ QƏZƏLLƏRİNƏ TƏXMİSLƏR



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«Elm və təhsil»
Bakı -2012

84(5 Ilrel)
N 76

**Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 23-24 noyabr 2011-ci il tarixli 10 №-li iclasının qərarı ilə nəşr edilir.**

**Nəşrə hazırlayanlar:** **Cənnət Nağıyeva**
**filologiya elmləri doktoru**

**Tahirə Nurəliyeva**
**filologiya üzrə fəlsəfə doktoru**

**Elmi redaktor:** **Qiymət Məhərrəmli**
**filologiya üzrə fəlsəfə doktoru**

**Kompüter icraçıları:** **Əsədzadə Ülviyyə,**
**Fərzəndova Aynur**

**Nobəri Qara Əliyev. Füzuli qəzəllərinə təxmislər. Bakı: "Elm və təhsil", 2012, 468 s.**

$\frac{4603000000-314}{N098-2012}$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2012**

## Müqəddimə

XX yüzillikdə, xüsusilə yüzilliyin birinci yarısında Azərbaycanda bir sıra istedadlı şair, mütərcim, şair təbiətli ədəbiyyatşünaslar yetişmişdir ki, onların klassik ənənələri davam etdirməkdə xüsusi xidməti olmuşdur. Bu cür müəlliflərdən Mirzə Həsən Yüzbaşızadə oğlu Mirzə Xəlil Yüzbaşovu, Əlağa Vahidi, Əli Nəzmini, Salman Mümtazı, Kərbəlayi Qara Suleyman oğlu Əliyevi və başqalarını göstərmək olar. Bu şairlərin əksəriyyətinin yaradıcılığında lirik janrın qəzəl növü əsas yer tutmuşdur. Onların divan ədəbiyyatının, ümumiyyətlə əruz vəznində yazılan şeirlərin dövrün müəyyən qüvvələrinin təsiri nəticəsində zəifləməsinin qarşısını almaqda böyük xidmətləri olmuşdur. Lakin həmin şairlərin bir çoxunun əsərləri bu günə qədər kölgədə qalmış, nə nəşr üzü görmüş, nə də ki tədqiqata cəlb edilmişdir. Ədəbiyyat tarixində belə adlar ən yaxşı halda ötəri çəkilmiş, ya da ki, tamam unudulmuşdur. Belə şairlərdən biri də iri həcmli "Divan" müəllifi Nobəri təxəllüslü şair Kərbəlayi Qara Məşhədi Süleyman oğlu Əliyev olmuşdur.

Nobəri 1885-ci ildə Azərbaycanın ən səfalı güşələrindən olan, şairlər məskəni Şuşa şəhərində, tacir ailəsində anadan olmuş, Şuşa realnı məktəbində təhsil almışdır. Ərəb, fars, türk, rus dillərini mükəmməl bilmiş və bu dillərdə yaranan əsərlərlə yaxından tanış olmuşdur.

Nobərinin gənc yaşlarında bir sıra ölkələrə – İrana, Səudiyyə Ərəbistanına, İraqa və başqa ölkələrə səyahətləri olmuşdur. Sovet hökuməti qurulana kimi ticarətlə məşğul olan şair iyirminci illərdən sonra Bərdə şəhərində, otuzuncu illərdə Bakıya köçəndən sonra isə dövlət ticarət sistemində çalışmışdır.

Nobəri 1967-ci ildə Bakıda vəfat etmişdir.

Qara Əliyevin gənc yaşlarından lirik şeirə, xüsusilə Füzuli şeirlərinə böyük marağı olmuş, əlinə qələm aldığı gündən Füzuli şeirləri üslubunda əsərlər yazmışdır. Füzuli sənətinə vurğunluq, qələm yoldaşları ilə bir yerdə olduğu vaxtlarda Füzuli, və Nəvai şeirlərinin təkrar-təkrar oxunuşu, müzakirəsi də ona təsirsiz qalmamış, yaradıcılığının inkişafına güclü təkan vermişdir.

Məlumdur ki, Füzuli əsərləri hələ şairin öz dövründən geniş xalq kütləsi tərəfindən çox rəğbətlə qarşılanmış, məclislərdə sevilə-sevilə oxunmuş, çox şairlərin ilham mənbəi olmuşdur. Türk dünyasında Füzulidən sonra yaşayıb-yaradan elə şair yoxdur ki, əsərlərində Füzuli lirikasının təsiri duyulmasın. Ona görə də, Füzuli qəzəllərinə cavab yazmaq, əsərlərini təzmin etmək şairlərin ən sevimli məşğuliyyəti olmuşdur. Bu sahədə Nobəri yaradıcılığı xüsusilə seçilir. Şairin hazırda AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan iri həcmli lirik şeirlər "Divan"ı onun klassik şeiri, xüsusilə, Məhəmməd Füzuli ənənələrini necə ustalıqla davam etdirməsini yaxşı açıqlayır. Füzuli sənətinə vurğunluğun nəticəsi idi ki, dahi şairin əsərlərini təzmin etmək onun yaradıcılığının əsas istiqamətlərindən biri olmuşdur.

Türkdilli ədəbiyyatda təzmin tarixi çox qədim olsa da, təxmini hesablamalara görə bu, əsasən XV yüzillikdən başlamışdır. Sonralar ədəbiyyatda bir ənənə halını alan bu forma görkəmli şairlərin əsərlərinə külli miqdarda tərbih, təxmis, təsdis və s. kimi formalarının yaranmasına gətirib çıxarmışdır. Xaqani, Nizami, Hafiz, Sədi, Nəsimi, Saib Təbrizi, xüsuilə Əlişir Nəvai və Məhəmməd Füzuli kimi dahi söz sənətkarlarının lirik şeirlərinə müxəmməslər bağlamaq XIX-XX yüzillikdə yaşayıb-yaradan şairlərin əsas və sevimli



peşəsinə çevrilmişdir. Bu sahədə Füzuli lirikası əsas diqqət mərkəzində olmuşdur.

Füzuli əsərlərini təzmin etmək sahəsində Nobərinin xidmətləri ölçülməzdir. Nobərinin ilham mənbəyi olan, lirizmdə uca zirvələr fəth edən Füzuli sənətkarlığı ona elə təsir etmişdir ki, o, Füzuli "Divan"ında, xüsusilə "Divan"ın ilk redaksiyası nüsxəsində olan bütün qəzəllərə müxəmməslər bağlamışdır. Bu, çox böyük zəhmət, həm də istedad tələb edən işdir. Doğrudur, Nobəri dahi özbək şairi Mir Əlişir Nəvainin də bir çox qəzəllərinə müxəmməslər bağlamışdır. Lakin Füzuliyə etdiyi xidmət xüsusilə seçilir.

Məlumdur ki, bir müəllifin bütün qəzəllərinə təxmis yazmaq ancaq XIV yüzillikdə yaşayıb-yaradan İran şairi Hafiz Şiraziyə nəsib olmuşdur[1]. Azərbaycan ədəbiyyatında eyni halı Füzuliyə şamil etmək olar. Belə ki, ilk dəfə Nobəri Füzuli qəzəllərinin hamısına, əlbəttə ki, əlində olan "Divan"a əsasən müxəmməslər bağlamışdır. Bəzən də bir qəzələ iki təxmis yazmışdır. Nobəri yolunu sonralar mərhum şairlərimiz Həkim Qəni, şair-alim Hacı Mail davam etdirmişlər. Belə ki, onlar Nobəri yazdığı qədər olmasa da, başqalarına nisbətən Füzuli qəzəllərindən daha çox təsirlənmiş və onun qəzəllərinə təxmislər yazmışlar. Ümumiyyətlə, türkdilli ədəbiyyatda, xüsusən Azərbaycan və özbək ədəbiyyatında bu dahi sənətkarın qəzəllərinə bağlanmış müxəmməslərin sayı ölçülməz dərəcədə çoxdur[2]. Həkim Qəninin "Füzuliyə

---

[1] Nəsirəli Sirxəndi. Hafiz qəzəllərinə təxmislər, əlyazması, Daşkənd, Özbəkistan EA Biruni adına Şərqşünaslıq İnstitutu, şifr :176

[2] Füzuliyə təxmislər, Bakı, "Yazıçı", 1993, tərtib edəni və ön söz müəllifi Cənnət Nağıyevadır.

təxmislər" kitabına isə onun Füzuli qəzəllərinə yazdığı yüz iyirmi üç təxmisi daxil edilmişdir[1].

Nobərinin hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan əsərlərinin əlyazmaları içərisində onun iki avtoqraf əlyazmasına Füzulinin qəzəllərinə və bir qitəsinə yazdığı təxmislər daxildir. Bu əlyazmalar S–464/9417 və S–465/9418 şifr altında saxlanılır. Azərbaycan dilindədir. Hər iki əlyazmanın paleoqrafik xüsusiyyətləri – xətti, kağızı və başqa xüsusiyyətləri eyni olduğundan təsviri belə bir şəkildə vermək olar.

Əlyazmalarda əsərin mətni, başlıqlar, qəzəllərin say nömrəsi, səhifələnməsi və s. bənövşəyi mürəkkəblə, nəstəliq xəttilə yazılımışdır (ölçüsü: 20x28sm, həcmi: 934-256 vərəq). Cildi adi müasir boz rəngli kartondan, ikinci cild isə qəhvəyi rəngli süni dəri – kolenkordandır. Əlyazmanın birinci cildinin titul vərəqində müəllifin belə bir qeydi var: "Bismillahür – rəhmanür – rəhim. Allah–təalanın köməyi ilə həmin Füzuli qəzəliyyatını təxmis etdim. Allah–təalanın – həmin işdə mənə yardım olmagını arzulayıram. Bu kitab Şuşa şəhəri şairlərindən olan Kərbəlayi Qara mərhum Məşhədi Süleyman oğlu Əliyevə məxsusdur və 1885- ci ildə Şuşada anadan olub".

Nobəri təxmisləri iki əlyazmada (kitabda) dörd cild təşkil edir. Birinci kitaba birinci cild 1-210 qəzəl (3502 beyt), ikinciyə - iki, üç, dördüncü cildlər daxildir. İkinci cild 211-251, üçüncü 252-295, dördüncü isə 296-303 nömrə ilə yazılmış təxmislərdir və 1674 beytdir. Qəzəllərə yazdığı təxmislərin sayı üç yüz dörddür. Bunları nəşr edib oxucu kütləsinə çatdırmaq Nobərinin sənətkarlığını açıqlamaqla bərabər, həm də Füzulinin şöhrətini, dahi sənətkarın təsir

[1] Həkim Qəni. Füzuliyə təxmislər, Bakı, "Boz oğuz" nəşriyyatı, 1997.



dairəsini bir daha təsdiqləmək üçün çox əhəmiyyətli bir iş olacağı şübhəsizdir.

Nobəri Kərbəlayi Qara Süleyman oğlu Əliyevin "Füzuliyə təxmislər" əsərini nəşrə hazırlayarkan əlyazmada olan bəzi cəhətlər – Füzuli "Divan"ının 1958-ci il nəşri ilə müqayisədə aşkarlanan uyğunsuzluqlara, misal üçün, qəzəllərdə beytlərin yerlərinin əlyazmada 1958-ci il nəşrinə nisbətən dalqabaq verilməsi, qəzəllərin ardıcılığının düz gəlməməsi kimi cəhətlərə toxunulmamış, əlyazmada olduğu kimi saxlanmışdır. Əlbəttə ki, "Divan"ın redaksiyaları arasında mətnşünaslıq baxımından uyğunsuzluqlar olacağı mümkündür. Mətnşünaslıq baxımından da eyni istiqamətdə hərəkət edilmişdir. Belə ki, 1958-ci il nəşrində gedən variant daha səhih olsa belə, Nobəri təxmisində bir sözə belə toxunulmamış, orijinalda olduğu kimi çap edilməsi məsləhət görülmüşdür.

Nobərinin özünün də mənbədən aldığı variantı olduğu kimi verdiyi aşkarlanır. Misal üçün, Füzulinin "etmədi" rədifli qəzəlinə Nobəri iki təxmis yazmışdır. Təzmin olunan qəzəl Füzuli "Divan"ının 1958-ci il nəşrində təsadüf edilmədi. Diqqətlə araşdırıldıqda bu iki təxmisdə təzmin olunan qəzəllər arasında mətnşünaslıq baxımından fərqlər vardır ki, onlar təxmis müəllifi tərəfindən olduğu kimi saxlanmışdır. Belə məlum olur ki, təzmin olunan qəzəllər ayrı-ayrı əlyazmalardan alınmışdır.

Əlyazmanın bir çox yerində "vav" bağlayıcısı ilə izafət tərkiblərinin qatışdırıldığı müşahidə olundu ki, ancaq bunlar əsər çapa hazırlanarkan təshih edildi. Çünki, onlar mənaya və vəznə xələl gətirirdi. Misal üçün, Füzulinin

Aşiq oldum yenə bir taza güli-rənayə

misrası ilə başlanan qəzəlinin beşinci beytində deyilir:

Ayağın bağlamış avarələrin sənətinə,

Yox nihayət səri-kuyində gəzən şeydayə.

Beytin ikinci misrasında "səri-kuyində" ifadəsi Nobəri əlyazmasında "sərvi-kuyində" şəklində getmişdir. Əski əlifba ilə həmin ifadənin birinci sözündə olan "re" hərfindən sonra bir "vav" hərfi də əlavə edilmişdir. Əlyazmada verilən şəkildə həmin ifadə səhvən "sərü kuy" (tərcüməsi: baş və küçə") kimi də oxuna bilər ki, bunlar mənaya və vəznə xələl gətirir. Ərəb və fars dillərini mükəmməl bilən Nobəri əsərlərində bu cür, xırda da olsa nöqsanlar vardır. "Həzzi-xab" (tərcüməsi: yuxu həzzi) əvəzinə yazılmış "Həzzü-xab" (tərcüməsi: həzz və yuxu) kimi ifadənin çapa getməsinə yol vermək olmazdı. Odur ki, bunlar təshih olundu.

Nobəri "Füzuliyə təxmislər" əsərinin IV cildinin sonunda Füzuliyə həsr etdiyi şeirlərini vermişdir. Bu şeirlərin də olduğu kimi, təxmislərin sonunda çapa verilməsi məqsədə uyğun hesab edildi. Belə ki, həmin şeirlər Füzulinin şöhrətini, Nobərinin Füzuli sənətinə vurğunluğunu bir daha təsdiqləyir.

Cənnət NAĞIYEVA
filologiya elmləri doktoru

Tahirə NURƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru



-1-

Aşiq ol ey dil, cəhan qeydin başından qıl cüda,
Aşiqdir bais olan bu xilqətə ən ibtida.
Əqli-kamil başda yox, qeyri-həva ondan səva,
Qəd ənarəl-eşqə-lilüşşaqi-minhac əl-hüda,
Saliki- rahi-həqiqət eşqə eylər iqtida.

Canı ver cananinə, hicranidən al intiqam,
Badeyi-ləli-ləbi-cananidən qeyri həram.
Doldurar meyxanəni avazeyi-neyi sübhu-şam,
Eşqidir ol nəşəyi-kamil kim, ondandır müdam,
Meydə təşviri-hərarət, neydə təsiri-səda.

Sadiq olmaq dilbərə bir ehtirami-eşqidir,
Leylinin mehrin tutan Məcnun qulami-eşqidir.
Zikri-canan aşiqə türfə kəlami-eşqidir,
Vadeyi-vəhdət həqiqətdə məqami-eşqdir
Kim, müşəxxəs olmaz ol vadidə sultandan gəda.

Vadeyi-mehrü məhəbbət istəməz hər adəmi,
Əhli-eşqin yox gərək könlündə bu dünya qəmi,
Fürqəti-yari bilər zövqi-vüsalın həmdəmi,
Eyləməz xəlvətsərayi-sirri-vəhdət məhrəmi,
Aşiqi məşuqədən, məşuqi aşiqdən cüda.

Nasiha,əvvəl dilin sən tərki-büğzi-kinin et,
Özünə doğru təriqin rəsmilə ayinin et,
Sən özüm əvvəlcə tərkin bu riyayi-dünyanın et,
Ey ki, əhli-eşqə söylərsən: məlamət tərkin et!
Söylə kim, mümkünmidür təğyiri-təqdiri-xuda?

Canı ver cananına, bir bax bu cüdi-aşiqə,
Gör dilindən ovc edən əflakə dudi-aşiqə,
Eyləməz təsir ol qəlbi-hüsud aşiqə,
Eşq kilki çəkdi xətt hərfi-vücudi-aşiqə
Kim, ola sabiti-həqq isbatında nəfyi-maəda.

Nobəra, zahid səni eylər məzəmmət rəşkdən,
Lazım olmuşdur qulaq yummaq səmai- xoşkdən.
Təşnədir, zahid suyu içməz bu tahir mişkdən,
Ey Füzuli, intəhasiz zovq buldun eşqdən,
Boylədir hər iş ki, həqq adilə qılsan ibtida.

-2-

Zülməti-küfridən bizi sən eylədin rəha,
Olsun rəha olan dilimiz varına fəda.
Hatifdən oldu guşinə xoş sout bir səda
Ya mən əhatə elmükəl-əşyaə külləha,
Nə ibtida sənə mütəsəvvir, nə intəha.

İsa dəmində zahir olub həyy edən dəmin,
Musayə əjdəhadır olan lütfi-əkrəmin.
Küffarə nari-düzəx olur mənzəri-kəmin,
Kim versə can yolunda bulur xaki-məqdəmin,
Guya ki, xaki-rahinədir nəqdi-can bəha.

Ey dil, səni bu mehrü məhəbbət səlim edib,
Mehri onun təvayiz cismi həlim edib,
Rəhmi səbəbdi səxt qlubi rəhim edib,
Sənsən edən məzahiri-ümmidü bim edib,
Musaya elm gənci, əsasını əjdəha.



Bildim Məhəmmədi kim, edər ehtiram qurb,
Ondan səvayə oldu yanında hərami-qürb,
Gördün rəva ki, olsun o şahə xasu am qurb,
Səndən bulubdu Əhmədi-mürsəl məqami-qurb,
Təhsini "ya" və "sin" ilə təşrifi -"ta" və "ha".

Kim tərki-taət eyləsə layiq ona sitəm,
Etdin bizi Məhəmməd ilə şadü möhtərəm,
Daim bu lütfə hər nəfəs aldıqca şakərəm,
Yəqubda nişaneyi-şövqin ğəmü ələm,
Yusifdə nəşəyi-nəzərin behcətü bəha.

Kim amil olsa hökmünə görməzdir afəti,
Qul taət etsə şahına artar şərafəti,
Doğru təriqi kim tuta duzəx nə hacəti,
Bulmazdı, qəhrin açmasa xani-siyasəti
"Həl min məzid" loğməsinə duzəx iştiha.

Hər xeyrə xeyir, bəd işə bəd bu şəhirdir,
Dam bildi cürmüdə dil dəstigidir
Rəhim et ilahi, Nobərə çun kim, həqirdir,
Ya rəbb, bəlayi-qeydə Füzuli əsirdir,
Ol bidili bu dami-küdurətdən et rəhm.

-3-

Qəhrü qəzəblə vermə ilahi əzab mənə,
Rəncü əzab qəhrini görmə rəva mənə,
Cudi-kərəmlə həşr dəmi ver cəza mənə,
Ya rəbb, həmişə lütfünü qıl rəhnüma mənə,
Göstərmə ol təriqi ki, yetməz sənə, mənə.

Göstər mənə həmişə o feli ki, xeyrdir,
Məbədkəhimdi sinə, dilim onda deyrdir,
İdris gözdi cismdə idrak Üzeyir
Qət eylə aşinalığım ondan ki, qeyrdir,
Ancaq öz aşinaların et aşina mənə.

Xənnasıdan bəri eylə qürbü cəvarimi,
Bari-ibrət ilə gəran eylə barımı,
Döndər həmişə doğru təriqə üzarımı,
Bir yerdə sabit et qədəmi-etibarımı
Kim, rəhbəri-şəriət ola müqtəda mənə.

Titrər müdam xoyfü herac[1] ilə dil, cigər,
Yox məndə qəhrü qeyz ilə bir taqətü hünər,
Nəxli-ümidim axirətə verməsə səmər,
Yox məndə bir əməl sənə şayəstə, ah, əgər.
Əmalima görə verə ədlin cəza mənə.

Əfzuni-fərəhdi qəlbimə, pak oldu məsləkim,
Bimisl, binəzir idi, xəllaqə yox şəkim,
Rəzzaqdır ümumə Əli küllühüm həkim,
Xofü xətərdə müztəribəm, var ümmid kim,
Lütfin verə bəşarəti-əfvü əta mənə.

Sənsən əzəl, təmam əzəldən qədimsən,
Küllən ülumə sirrü nihanə əlimsən,
Hər şey fənadi dəhrdə, sən müstəqimsən,
Mən bilməzəm mənə gərəkin, sən həkimsən,
Mən eylə, verme, hər nə gərəkməz sənə, mənə.

[1] herac-qorxu



Şadəm ki, vermisən mənə bir pak etiqad,
İksir etiqadım edib qəlbimi fitad,
Yox bir kədər dilimdə, üzüm xəndə, qəlbi şad
Odur mənə murad ki, odur sənə murad,
Haşa ki, səndən özgə ola müddəa mənə.

Təzviri-dami-dəhrə məni qılma dəstgir,
Mücrümlər ilə etmə məni həşrdə şəhir,
Dərgaha elticayə gəlib Nobər-həqir,
Həbsi-həvvadə qoyma Füzulisifət əsir,
Ya rəbb, hidayət eylə təriqi-fəna mənə.

-4-

Olub başımda qüdrətdən nəhayət bir həva peyda,
Həvayi-zövqi-vəhdətdən edir könlüm səfa peyda,
Gözümdür feyzi-baridən edən daim ziya peyda,
Zəhi, zatın nihanü ol nihandan məsiva peyda,
Bəhari-sününə əmvac peyda, qər napeyda.

Nəimü qudrətin bihədd, kərəmlə lütf cudundur,
Ümumə taətin vacib, hamu rəğib sücudundur.
Kəlamın ayeyi-Quran ki, vahidsən şühudundur,
Büləndü pəsti-aləm şahidi-feyzi-vücudundur,
Degil bihudə olmaq yox ikən ərzü səma peyda.

Bu qüdrətdir məni adəm kəmalə xaliqdən yetmiş,
Həman xak üzrə əşcarın dayanmış barilən bitmiş,
Rüsumi-küfr bilmərrə müstəhher qəlbidən getmiş,
Kəmali-qüdrətin izhari-qüdrət qılmağa etmiş
Qübari-tirədən ayineyi-aləmnüma peyda.

Sübuti- qüdrət izhari olubdur xilqət adəmdə
Turabi-tirədən insan vicudə gəlmiş ol dəmdə,
Eşitdi, gördü, fərq etdi məzaqi-qəmlə xürrəmdə
Müəkkər qəhri-lütfündür olan mirati-aləmdə,
Onunçun ki, küdurət zahir eylər, gəh səfa peyda.

Bu qüdrət kafidür, ancaq sana, ey qadirü sübhan,
Yaratdın adəmi ondan pərisurət olan min can,
Kimə müqdur olur etsün turabi-tirəni insan
Gəhi torpağa eylər hikmətin min məhliğa pünhan,
Gəhi sünin qılar toprağdan min məhliğa peyda.

Vücub əndər vücub olmuş ki, qüdrət qalmaya məxfi,
Səntək sahibi-qüdrət ümümə olmaya məxfi,
Gülüstani-təəccübdə gülün ta solmaya məxfi,
Cahan əhlinə ta əsrari-elmin qalmaya məxfi,
Qılıbdır hikmətin küffar içində ənbiya peyda.

Sənayü-həmd edər Nobər, tohi-dildən sənə hər gün,
Behəmdüllah onun qəlbi zəkalıdır, degil düşgün,
Bu həm bir lütfdür vəsfi-xudavəndin yazar hər gün,
Nişani-şəfqətindir kim, olur izhar həmdin çün,
Füzuli tirə təbindən kəlami-canfəza peyda.

-5-

Ey qılan qüdrətin izhar bizə ərzü səma,
Xakidən xəlq olunan insidə bu fəhmü zəka,
Dildə güftar kəfa qüdrətinə, gözdə ziya

Əşrəqət min fələkil-behcəti şəmsün və bina,



Mələəl-aləm nurən və sürurən və bəha.

Buyi-vəhdətdən alıb gülşən əra ətrini gül,
Zikri-tohidi-xudavəndin edər hər bülbül,
Qeyrisindən bu cahan xaliqi bir kimsə degil,
Çıxdı bir gün ki, ziyasında təmamiyyi-rəsul,
Oldu məhv eylə ki, xurşid şüaində Süha.

Ey olan zatı nihan, qadirü sübhanü qədim,
Güllühümü sirri-nihan hikmətinə sənsən əlim,
Qüdrətin qalmaya məxfi bu cahan əhlinə kim,
Oldu bazari-cəhan rövnəqi bir dürri-yetim
Ki, degil iki cəhan hasili ol dürri-bəha.

Oldu nurani günəş feyzi-cəmalına görə,
Artırıbdır şərəfin rütbeyi-alinə görə,
Əzmi-merac eyləyib şəni-cəlalına görə,
Rütbeyi-hikməti-meracı- kəmalına görə,
Hükəma firqeyi-dün, fəlsəfə cümlə-süfəha.

Bimüəllimdir olan cümlə ülumə alim,
Şəridir həşrə kimi tabei-dinə qaim.
Bunu inkar qıldın nəfsinə olmuş zalim,
Müntəhi-mərifəti halı dil ilə daim
Qılır əhli-həqqə əsrari-həqiqət inha.

Etdi isbat xudavəndi-cahan heyyü qədim,
Qadiri-ləmyəzəl əqdəsü qəhharü rəhim,
Qəhri-küffarə onun möminədir hökmü həlim
Necə təqrir eyəyüm vəsfini bir şahin kim,
Ona vəssaf ola "Yasin"ü müərrif "Taha".

Talib ol şövqətinə Nobər, bu tacsərin
Ki, mübarək qədəmin bildi şərəf ərşü bərin,
Tutiya qıl gözünə sürmə edib xaki-dərin,
Ey Füzuli, rəhi-şərini tut ol rəhbərin,
Bu təriq ilə zəlalətdən özün eylə rəha.

-6-

Ey xoş ol kim, siddiğilə ilə məhkum edib iman sənə,
Eyləyib feyzi-bəqa kəsbin, veribdir can sənə,
Rücətin baği-cinan məxsusdur rizvan sənə,
Ey olub merac bürhan-ülüvvi-şan sənə,
Yerə enmiş göydən istiqbal üçün Quran sənə.

Bərqərar oldu səma həkk Məhəmməd naminə,
Vermisən rövnəq zəminü asiman inzaminə,
Hamil oldun xaliqin göydən gələn əhkaminə,
Hiyni-dəvayi-nübuvvət müddəiüz-zaminə
Cahil ikən el yetər elmin sənin bürhan sənə.

Bağlanıb bütxanələr büt səcdəsi oldu qələt,
Əhli-dinin qəlbini mehrin qılıbdur səbtü zəbt,
Gər dimağ əhli-kin bu sahədə etdisə xəbt
Kilki-elmin çəkdi hərifi-sayiri-ədyanə xətt,
Hökm isbat etdi nəfyi-sayiri-ədyan sənə.

Qat olubdur mehriniz xilqət dəmi maütinə
Hər kimin təxhirinə yetdisə, o gəldi dinə,
Nur verdin gərdişin seyrində mahü mehrinə.
Baqiyi-möcüzlər nə hacət müddəi isbatına,
Aləm içrə möcüzi-baqi yetər Fürqan sənə.



- 28907 -

Oldu iman əhlinə vacib təriqü ta·ətin,
Rağib etdi onları ehkami-dinə rəğbətin,
Bu inayətdir dilə kim, onda vardır söhbətin
Vəsf cibrili-əmin etmiş qəbuli-xidmətin,
Sirri-həqq kəşfinə onunla yetib fərman sənə.

Rövşən etmişsən mənim bu dideyi-ədrakimi,
Mehiün iksiri zər xilqətdə qılmış xakimi,
Həm səzavar eylədin tövhidə qəlbi-pakimi,
Sənsən ol xatəm ki, rəf etmiş cəmii-hakimi,
Xatəmi-hökmi-risalət tapşırıb yəzdan sənə.

Küfru zülmatındəki dini sən etdin aşkar,
Sərnigün qıldın büti bütxanələrdən xakisar,
Mərhəbalər könlümə kim, şərə vermiş ixtiyar,
Ol qədər zövqü şəfaət gövhəri-zatında var
Kim, gəlir ərzi-xəta mənigə bir əhsan sənə.

Ta vücudi- pak ilə meracə sən oldun rəvan,
Oldu pabusin gəlib fəxrə rəvaqi-asiman,
Mehr nurun artırıb rövşəntər oldu bu cahan,
Mahi-novdur, yoxsa sən etdikdə seyri-asiman,
Qaldırıb barmaq gətirmiş asiman iman sənə.

Sən ki, iqrar eylədin Nobər, fənadır bu cahan,
Pənctən əsmasın et ta var nəfs verdi-zəban.
Çun bulardır həşrdə bir rəhbəri-bağı-cinan,
Ya nəbi, lütfün Füzulidən kəm etmə ol zəman
Kim olur təslim miftahi-dəri-ğüfran sənə.



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

-7-

Dost, ancaq dəhrdə bir sən kifayətsən mənə,
Olsa aləm düşmənim yetməz herasi-tən mənə,
Geydirib müjgan oxu pirahəni-ahən mənə,
Kargər düşməz xədəngi -təneyi-düşmən mənə,
Kəsrəti-peykanın etmişdir dəmirdən tən mənə.

Könlümün yoxdur cahan qeydilə xülyası qəmi,
Həsrəti-ruyin tökər ruxsarıma gözəldən nəmi,
Şöhrəti-eşqim dutub izzətlə mülki-aləmi,
Eymənəm səngi-məlamətdən ki, tutmuş çevrəmi,
Oldu zənciri-cünun bir qələyi-ahən mənə.

Göz nədir hicran günü yaş ilə hər dəm dolmasa,
Rəngi-ruyim zərd olub bərgi-xəzantək solmasa,
Zəndə qalmaz bu könül vəsli-nigarı bulmasa,
Dəmbədəm şəmi-cəmalından münəvvər olmasa,
Ey gözüm nuri, gərəkməz dideyi-rövşən mənə.

Eşqidən məcnun olan gərdən qurtarmaz touqidən,
Lərzə əndamın tutar vəsli-nigarə şouqidən,
Yox her asim hicridə, dildə qəmi-mafouqidən,
Heç məskəndə qərarım yoxdur ol zouqidən
Kim, haçan xaki-səri-kuyin olar məskən mənə.

Tacü təxtin səltənət dövründə də çox xülyası var,
Mülki-dünyanın müluki dəhrdə min qovğası var,
Aşiqin bir dilbəri-ruhül-fərəh əfzası var,
Başda bir sərvi-səmənbər vəslinin xülyası var,
Sud qılmaz bağıban nəzzareyi-gülşən mənə.



Anlamaz zalim olan, məzluma etməz mərhəmət
Müstəbidlərdən olur pozqun rəvvaqi məmləkət,
Səltənətdən şəqq olur Nobər, cahana şeytənət!
Ey Füzuli, odlara yansın büsati-səltənət!
Eydir ondan, həqq bilur, bir guşeyi-gülxən mənə.

-8-

Surətimdən ey pəri, halın nümayandır sənə,
Könlümün fəryadı bu eşqimdən ünvandır sənə
Mürği-ruhim sinədə hər gün sənaxandır sənə,
Ey mələksima ki, səndən özgə heyrandır sənə,
Haqq bilir, insan deməz hər kim ki, insandır sənə.

Abi heyvan ləblərin, zülməti-zülf anə məkan,
Min Skəndərlər salıb bu mai həy arvan,
Əmsə gər aşiq ləbin mütləq tapar cavidi-can,
Verməyən canın sənə bulmaz həyati cavidan,
Zəndeyi-cavid ona derlər ki, qurbandır sənə.

Qeys olubdur agahi-mənayi-xilqət, bildi eşq,
Onu agah eyləyən bu halə Leyli oldu eşq,
Cun zəmiri-qəlbinə Leyli üzündən doldu eşq,
Aləmi pərvanəvəş şəmi-cəmalın qıldı eşq,
Cani-aləmsən, fəda hər ləhzə min candır sənə.

Qeysidən eşqi-dilim mizanıda yüngül deyil,
Yardır zikri-dilim, bülbül kimi gül-gül deyil,
Qəm qubarıdır gələn ruxsarə gözdən, gil deyil,
Aşiqə şövq ilə can verməkliyi müşkil deyil,
Çun Məsihi-əsirisən, can vermək asandır sənə.

Tənələrdir artıran sinəmdəki hicran dağın,
Döndəribdir kəsrəti-kəryəm qəraya göz ağın,
Töhmətin bil ey gözəl, bu sər bərəhnə çıxmağın,
Çixma yarım gecələr, əğyar tənindən saqın,
Sən məhi-övci-məlahətsən, bu nöqsandır sənə.

Zahirən badi-səba dildarə əhvalım demiş,
Qəmzə tiğilə dəxi sınmış pərü balım demiş,
Başımın eldə olan töhmətli bu qalım demiş,
Padşahım, zülm edib aşiq sənə zalim demiş,
Xub olanlardan yaman gəlməz, bu böhtandır sənə.

Gahi düzdür Nobəri, gəh əgridir dövrü zəman,
Xeyli kəslərdir edən məntək bu dövri imtəhan,
Bir budur eşq əhlinə cananidən xatirnişan,
Ey Füzuli, xub olanlardan təğafildür yəman,
Gər cəfa həm gəlsə onlardan bir əhsandır sənə.

-9-

Rəhm eylə saqi, könlümə, vermə əzab ona,
Peymanə tut ki, səndən ola bir səvab ona,
Meysiz bu dar, fani cahandır xarab ona,
Cam içrə meyi ki, dairə salmış hübab ona,
Ayineyi-dərgəh əks salır afitab ona.

Gərçe bu həqdə təfriqəpərvərdir etiqad,
Ver nuş edim piyalədə meyi hərçe badü bad,
Rəf eyləyəndi qəmləri, əfsurdə qəlbi şad,
Zahid sual edərsə ki, meydən nədir murad?
Bizdə səfadır, onda küdurət - cavab ona.



Vəssaf yazdı vəsf meyi-nabə min kitab,
Hər çənd bu sözüm olacaq zahidə etab,
Bilməz onun məzaqini ol xanəsi xarab,
Qan-yaş töküb yanında gəzər atəşin kəbab,
Məşuqə bənzər atəşü aşiq kəbab ona.

İmdad etmədi mənə bu talezəbun,
Dəm-dəm töküldü arezimə əşki-laləgun,
Doldurdu həsrətin dilimə ləxtə-ləxtə xun,
Eylər könüldə rəşk xəttin şövqüni füzun,
Oddan çıxar buxar saçıldıqca ab ona.

Dildən tap qeyzini ey mahu, götür,
Meyxaneyi-məhəbbətgəhə aşiqi gətür,
Xof-xətərli eşq rəhindən onu ötür,
Çeşmin mərizi oldu könül ləlinə yetir,
Rənçi-xümmarə düşdü, dəvadır şərab ona.

Etmə xəyal Nobəri, badəpərəst olu,
Ləli-ləbin şərabı ilə başıdır dolu,
Ziddi-şəriət olsa onun halı bəs nolu?
Məsduddur Füzuliyə meyxanələr yolu,
Ya rəbb, hidayət eylə təriqi-savab ona!

-10-

Geydiribsən eşqidə ey mah, pirahən mənə,
Bir fərəh verməz dəxi, sənsiz gülü gülşən mənə,
Həsrəti-ruyin olub dutğun dilimdə çənn mənə,
Dostam, aləm səninçün olsa gər düşmən mənə,
Ğəm degil, zira yetərsən, dost, ancaq sən mənə.

Bu bəlasız başımı sövdaya saldım mən nədən?
Hasilim oldu mənim qəm-qüssədən zəif bədən,
Səmti-yarə getməgi yoxdur mənə bir özgədən,
Eşqə saldım mən məni, pənd almadım bir dustidən,
Heç düşmən eyləməz anı ki, etdim mən mənə.

Aşiqə cananidən cövrü sitəm əskik deyil,
Şami-hicran guşeyi-çeşmində nəm əskik deyil,
Firqətində aşiqə bir qəmli dəm əskik deyil,
Canü tən olduqca məndən dərdü ğəm əskik deyil,
Çıxsa can, xak olsa tən nə can gərək, nə tən mənə.

Səhhəti yoxdur mənin, mütləq onu örtər kəfən,
Zəiflikdən bir müqəvva meslidir cism ilə tən,
Yox bədən, guya həva tutmuş tənimdə pirahən,
Vəsl qədrin bilmədim firqət bəlasın çəkmədən,
Zülməti-hicr etdi çox tarik işi rövşən mənə.

Güldən ötrü eyləyir gülzaridə bülbül fəğan,
Bir gül üzlü yar üçün fəryadə gəldim mən həman,
Bağa yoxdur rəğbətim, sən olma məndən bədgüman,
Dudi əxgərdir mənə sərvilə gül, ey bağiban,
Neylərəm mən gülşəni, gülşən sənə, gülxən mənə,

Bari-eşqi-yarinə hamil olma, ey könül!
Yetəməzsən mənzilə, sən cahil olma, ey könül!
Vəsli-naməqduruna sən sail olma, ey könül!
Qəmzə tiğin çəkdi ol məh, qafil olma, ey könül!
Kim, müqərrərdir bu gün ölmək sənə, şivən mənə.

Zahidin pəndin bilir Nobər riyayi-rəşkdən,
Bilmişəm məqsudini vəzi-ruya sərməşqdən,



Müttəhim eylər məni gözdən gələn bu əşkdən,
Ey Füzuli, çıxsa can, çıxmam təriqi-eşqdən,
Rəhgüzari-əhli-eşq içrə qılın mədfən mənə!

-11-

Məhəbbət artırmağa dil edər şitab sənə,
Fərəq odulə edər bağrımı kabab sənə,
Yazar həmişə sənin vəsfinə kitab sənə,
Kamali-hüsn veribdir, şərabi-nab sənə,
Sənə halaldir, ey müğberə, şərab sənə.

Nə sud, yetməz əlim daməni-vüsalına, ah,
Gərək gədayə tərəhhüm həmişə eyləyə şah,
Məhəbbətin dilə düşcək gətirdi vəslə pənah,
Səni mələk görəli yazmaz oldu eşqi-günah,
Vəli yazıldı bu yüzdən bəsi səvab sənə.

Salıbdı sinəmi təngə liyali-əfraqım,
Haçan müyəssər olar vəslilə olan çaqın,
Tamam xubilər olmaz kəsiti dırnaqın,
Ləbin sualına verməz cavab üşşaqın,
Sual olursa bu səndən, nədir cavab sənə?

Keçər-gedər mənə hər cür əzablar eylədigün,
Yetər dəxi deli-zarə cəfalar eylədigün,
Hanı bu hüsnilə xub iddialar eylədigün,
Cəza günündə sorulmaz xətalar eylədigün,
Yetər fəğan ilə mən verdiyim əzab sənə.

Məni bu halə salan axır oldu talei-dun,
Deyir nigarə sən oldun cahanda cani-mədyun,

Ümmid riştəsini dəhr dövrü saldı dügün,
Məni qərarım ilə qoymaz oldun, ey gərdun,
Yeridir ahim ilə versəm inqilab sənə.

Bu rahi nur xətərü eşqdə dayanma, çəkil!
Edər vücüdunu qüssə çəkincə, zarü əlil,
Əgərçe səbr eyləməkdir vəsli-yarə kəfil,
Səfayi-cövhəri-tiğindən umma rəhm, ey dil
Ki, sanma su verər, ey təşnə, bu sərab sənə.

Sənin də Nobəri, canan qərarın aldı bu gün,
Fəzayi-eşqidə rütbən sənin ucaldı bu gün,
Tərəhhüm etdi, o məhru yanında qaldı bu gün,
Füzuli, başına ol sərv sayə saldı bu gün,
Ülüvvi-rütbə ilə yetməz afitab sənə.

-12-

Eylədir hicran odu kim, eyləməz dil tab ona,
Şami-hicrandır olan cansuz bir əsbab ona,
Nə günə aram yox, nə şamilərdə tab ona,
Riştə cismim ki, dövri-çərx vermiş tab ona,
Mərdümi-çeşmim düzər hərdəm dürri-sirab ona.

Bərgi-hümra qonçələr hüsnün gülüstanındadır,
Cüft ola şəmmamələr həm sinə bustanındadır,
Vəsfi-ruxsarın dilin mədhilə dəstanındadır,
Sayeyi-şəmi-ruxun zülfün şəbistanındadır,
Necə yetsin qədr ilə xurşidi-aləmtab ona.



Dil xəyali-vəslilə ey gül, qılıbdür əzmi-eşq,
Səxtidir əlbəttə kim, ol binəvayə rəzmi-eşq,
Dil bəirdür edən hicran təamin həzmi-eşq,
Dərd dürdidür səfabəxş, hərifi-bəzmi-eşq,
Saqiya çox etmə təklifi-şərabi-nab ona.

Mahi-no kim, göydədir, yerdə şəbahətdir qaşın,
Xəm qəddim misli olan bir qəddü qamətdir qaşın,
Əyri bir xəncər kimi qəlbə mehabətdir qaşın,
Qaməti-xəm birlə bir əhli-kəramətdir qaşın,
Daş olar, əlbəttə, əgər baş əgməsə mehrab ona.

Aşiqə təhqir edən kimdir, məzəmmət söyləyən,
Kimdi Qeysi-aqili rüsva edib Məcnun deyən.
Eşqdən bir pirəhən kimdir sədaqətlə geyən,
Çeşmini əhli-nəzər qətlinə təyin eyləyən,
Nazü qəmzəndir mühəyya eyləmiş əsbab ona.

Tutdu canan dil quşun zülfündəki bir tar ilən,
Daneyi-xali-siyah ilə rüxi-gülnar ilən,
Rəqs edər mürği-dilim türfə gülü gülzar ilən,
Xubilər könlüm açar bir tərləmiş ruxsar ilən,
Gör nə gülşəndir ki, atəşdən verərlər ab ona.

Ney kimi könlüm salar səhralara şuri-nəva,
Yarıma yetməz nedim, cansuzi-dildən bu səda.
Eşqilə məmlu səru dildə məhəbbətdən həva,
Silki-əhli-halə çəkmiş zahidi əşki-riya,
Sən kimi bir sim qədrin bildirib cimab ona.

Verdi Hatif Nobərə ol mahrudən bir xəbər,
Bu xəbərdən şad olub qəmnak olan qəlbü cigər.

Şadlığımdan mən bunu hiss eylədim bir müxtəsər,
Ey Füzuli, qalmamış qovqayi-Məcnundan əsər
Qaliba, Əfsaneyi-Leylindan əsər gətirmiş xab ona.

-13-

Həsrətinlə rəncdir təngə dili-məhzun mənə,
Elnüma bir dərd olub bu dideyi-purxun mənə,
Məskən olmaz kuh ilə səhra və nə hamun mənə,
Eşq ətvarın müsəlləm eylədi gərdun mənə,
Munca kim, bildi yügürdü, yetmədi Məcnun mənə.

Daməni-vəslə degil mümkün ola dəstrəstliq,
Naləden mümkün degil mürği-dilə dilbəstəlik,
Heyrətimdəndir olan zahir mənimçün sustlik,
Qıldı məndən rəf təklifi-namazi məstlik,
Saldı ancaq nəşeyi-cami-meyi-gülgun mənə.

Ey könül, bu gülşəni, gülzari həm, bağı unut,
Yox ləyaqət güldə kim, şəffaf ola mesli-xütut,
Bu xuraman qamət yara demə sərvi-sübut,
Bağiban, gər meyl qılmam sərvianə, məzur tut,
Sərvdən yekrəng olur qaməti-mövzun mənə.

Mən cünuni-eşqiyəm neylər mənə qovğayi-eşq?
Yox həmin bazaridə biəşətra sövdayi-eşq,
Dərdi-sərdir bizlərə bu söhbəti-bicayi-eşq,
Dustlər, qan-yaş töküb qıldı məni rüsvayi-eşq,
Vəh ki, düşmən çıxdı axır dideyi-purxun mənə.

Tut əlimdən, ey sənəm, ümmidi-nəxlim solmamış,



Müntəzir yollarda bu əşkilə çeşmim dolmamış,
Can ədəm səhrasına rahi-təəlüq bulmamış,
Olmaram hər qanda kim, olsam giriftar olmamış,
Bir bəladır göz, bir afətdir dili-məhzun mənə.

Nobəra, zəhmət çəkib yazmağımın olmaz tamam,
Qəmzə peykanı dilə ol qəmzədəndir sübhü şam,
Navəki-cananına Məcnun olub qıl ehtiram,
Ey Füzuli, navəki-ahimlə aldım intiqam.
Dönə-dönə gərçi bidad etdi çərxi-dun mənə.

-14-

Qeystək səhrayi-sərgərdanəm, ar etməz mənə,
Dəştü səhra vəhşisi xovf üzrə kar etməz mənə,
Fərq ömrüm dövrünə leylü nahar etməz mənə,
Qəm diyarında əcəl peyki güzar etməz mənə,
Yox sanır varım məgər kim, etibar etməz mənə.

Dil təsəlli ya rəbb, ola, olmaz vüsala yetmədən,
Tərki-fəryad eyləməz ta çeşm xabə getmədən,
Nalədən əl çəkməz ol bağında yarə yetmədən,
Yar cövr etməz mənə əğyar təlim etmədən,
Billah, əğyar eyləyən ehsanı yar etməz mənə,

Tənə daşıyla dolub rəşk artıran əğyar əli,
Başıma səngi-sitəm əğyaridən hər yan gəli,
Bu imiş həqqdən müqəddər könlümə söylər bəli,
Dağıdar hər ləhzə bərgi-eyşimi ahim eyli,
Qanğı nahəq zülmdür kim, ruzigar etməz mənə.

Eşqi-yar eylər məni fikri-vüsalilə dəqiq,

Rəzqimi mehri-niğar etmiş mənə ruzi-rəziq,
Əbrişəm tək pərdəyi-qəlbim edib hicran rəqiq,
Eşq dərdilə xoşam, tərki-nəsihət qıl, rəfiq,
Mən ki, tiryəki-mizacəm zəhr kar etməz mənə.

Qeyri mümkün eyləmək təbdil çərxin gərdişin,
Əhli-eşqə eyləmiş canan mühəvvəl eşq işin,
Navəki-müjkanün zəxminə baz eylər düşün,
Çərxidən aşurmadan yadinlə ahim atəşin,
Üzr edib gərdun şərərdən zər nisar etməz mənə.

Eşq tərki aşiqə dünyadə mütləq ardır
Kim, onu tərki-yəqin tərki-ruxi-dildardır.
Tənə daşı aşiqə biqeydidən divardır,
Nəqdi-can taraci-qəmdən saxlamaq düşvardır,
Eşq ta səngi-məlamətdən həsar etməz mənə.

Nobəri zövq artırar vəsf nigarə dəmbədəm,
Əl çəkib cananidən getməz kənara bir qədəm,
Mahru dildarına sidq ilə olmuş bir xədəm,
Yadi-ləlinlə Füzuli gözləyib rahi-adəm,
Var bir tədbir, amma aşikar etməz mənə.

-15-

Gözümün didələri mənzəri-ruxsarə fəda,
Çeşmi-cananda olan cəzbəli-didarə fəda,
Murği-dil etdi özün zülfdə bir tarə fəda,
Canımın cöhvəri ol ləli-şəkkərbarə fəda,
Ömrümün hasili ol şiveyi-rəftarə fəda.

Vermişəm zülf əlinə mürği-dili nalani,



Can alan gözlərinə tapşırmışam bu canı,
Sud bildim özümə eşqidə bu sövdanı,
Dər çəkmiş sərim ol xali-siyəh qurbani,
Tab görmüş tənim ol türreyi-tərrarə fəda.

Mən qəbul eyləmişəm canu dilə dərdi-səri,
Nuşi-canımdı mənim şami-fəraqın zəhəri,
Nari-hicranına dil tab edə yoxdur təhəri,
Gözlərimdən tökülən qətreyi-sərəş kim göhəri,
Ləblərindən saçılan lölöi-şəhvarə fəda.

Sağalan yarə degil dildə oxun yarələri,
Dərdi-eşqə düşənin təbbidə yox çarələri,
Xübruları salan dərdə bu biçarələri,
Çaki-sinəmdə olan qanlı cigər parələri,
Məst çeşmində olan qəmzeyi-xunxarə-gədə.

Düşəli eşqinə, əl çəkmişəm öz canımdan,
Alov almış cigərim bu dili-suzanımdan,
Dönmərəm etdiyimiz əhd ilə peymanımdan,
Parə-parə dili-məcruhi-pərişanımdan,
Səri-kuyində olan hər itə bir parə fəda,

Dili naşadıma bir şad ənis axtardım,
Qəflətən sən kimi bir mahliqayə vardım,
Vəslinə talib olub xaliqə çox yalvardım,
Canü dil qeydini çəkməkdən özüm qurtardım,
Canı cananıma etdim, dili dildara fəda.

Canü dildən bilirəm, Nobəri, cananı əziz,
Sərvidən çox tuturam qaməti-tubanı əziz,
Naləli dildi tutan bülbüli-nalanı əziz,

Ey Füzuli, nola gər saxlar isəm canı əziz,
Vaxt olar kim, olu bir şuxi-sitəmkara fəda.

-16-

Gecə ilə dündüzüm sənsiz bərabərdir mənə,
Fikri-firqət hər zaman canə bir əxgərdir mənə,
Göz yaşın hicranidə tökmək muəssərdir mənə,
Hər zaman mənzur bir şuxi-sitəmgərdir mənə,
Qanda olsam bir bəla hərdən müqərrərdir mənə.

Kəbəyi-ruxsarına zəvvar olub düşdüm yola,
Ta yetəm məqsuduma dil kamını hasil bula,
Zəmzəmi-ləli-ləbin əbilə bu camım dala,
Ol xəmi-əbruyə qılsam səcdə hər saət nola,
Qiblə ilə ol xəmi-əbru bərabərdir mənə.

Düşdi xilqətdə dilə eşq üzrə bir sövdayi-yar,
Can bəhayi-vəsl olur, bihudədir sanmaq dinar,
Vəslinə can məndədir, sevdayə səndə ixtiyar,
Qəm deyil, cismimdə gər sənqi-məlamət zəxmi var,
Şəhneyi-bazari-sevdayəm bu ziyvərdur mənə.

Hər qədər gəldi qəmin, mən etdim ona ehtiram,
Dildə mənzil vermişəm fovci-qəmə rahət mənam,
Mənbə bahəmdir qəmin, tənha deyil can ruzi-şam,
Gözdə xunalidə peykanın xəyalіə xoşam,
Hər biri, guya ki, bir bərgi-güli-tərdir mənə.

Bildi dərdim çarəsiz, məndən əlin çəkmiş həkim,
Anlamışdır guşeyi-qəlbimdə dərdi-müstəqim,



Mehrin ilə olub əzayi-cism üzrə rəkim,
Zəxmlərdən etmədim hərgiz ədayi-şekvə kim,
Hər oxun bir neməti-qeyri-mükkərrərdir mənə.

Yarə yetməz aşiqi-biçarənin kutah əli,
Kəsrəmi-ənduhidən motun vücudi incəli,
"Lam" Leylidə olar, Məcnunda "nun", aşiq bili,
Əql irşadilə bulmaq kami-dil mümkün, vəli,
Dami-rah ol həlqeyi-zülfi-müənbərdir mənə.

Ah kim daği-dilü pünhanimi yoxdur bilən,
Odlanıbdır ataşi-hicri-nigar ilə bu tən,
Çarəsiz dərdə duçar odum hicrində mən,
Əxtəri-bəxtim vəbalın gör ki, ol məhdən gələn
Mehrilərdir özgəyə, cövrü cəfalardır mənə.

Nobəra, şükr etgilən, çəkdin belə rəcü təəb,
Fikri-canandır olan canındaki dərdə səbəb.
Şad olursan yar ilə söhbət edən ləbbeləb,
Ey Füzuli, mənzili-məqsudə yetsəm nə əcəb,
Xidməti-piri-muğan irşadı rəhbərdir mənə.

-17-

Yoxmu çeşmimdə mənim qabili-didar sənə,
Yoxsa bədguluq edib mən tərəf əğyar sənə,
Duldi bir nalə edən bübüli-gülzar sənə,
Qəmdən öldüm, demədim hali-dili-zar sənə,
Ey güli-tazə, rəva görmədim azar sənə!

Bəzmi-eşqində mənə saqi içirmiş meyi-nab
Ki, olam naili-didar, edəm mən də savab,

Bunu təsdiq eləyir hər kim ola alicənab.
İç meyi-nab ki, bağrından edər cümlə kəbab,
Atəşi-eşq ilə üşşaqi-cigərxar sənə.

Yoxdı məcra gözümün yaşı kimi Ceyhunda,
Bəhri-ümman dayanıb qəmli dilü nur xunda,
Nuş edən dəmdə meyi durmuş idim yaxunda,
Nərgizin əksi demə cami-meyi-gulgunda,
Qədəh olmuş, göz açıb, dideyi-xunbar sənə.

Şami-hicranda yox həsrət olan göz xabi.
Şübhədən qüssə olur canü dilin əhbabi.
Canda yoxdur bu qədər qüssəvü qəmlər tabi,
Arizin gül-gül edibdir meyi-gülgun nabi,
Vəh ki, bir güldən açılmış neçə gülzar sənə.

Gülistan içrə gəz, ey qönçə dəhan, arizi gül,
Sənə min nəğmə desin şaxi-gül üzrə bülbül,
Döşənib payinə gül, nəzmilə dursun sünbül,
Bağı seyr et bu ləbi-ləl ilə kim, qonçəvü gül,
Göstərə xuni-dilü dideyi-xunbar sənə.

Var sinəndə dilü zarə iki türfə yemiş,
Bu davanı dilimə dərdi mualici demiş.
Ol təbibi ki, məni dərdə salıb xəstələmiş,
Der idim qamətinə sərv, vəli özgə imiş,
Hərəkatü-rəvişü şiveyi-rəftar sənə.

Yox sənə ərz eyləyən hali-dili-müşkülümi,
Şami-hicranidəki dildə olan niskilimi.
Qoyub heyrətdə məni, lal edibdir dilimi,
Əgilib tərfi-binaguşilə dərdi-dilimi.



Ya qaşın ərz edə, ya türreyi-tərrar sənə.

Çəkmişəm əl düşəli eşqinə bu aləmdən,
Gəzirəm çölləri xalq inciməsün naləmdən,
Degil əskik gözümün yaşı mənim qülzimdən,
Ta giriftarinəm, azad ola bilməm qəmdən,
Heç kim olmasın, ey şux, giriftar sənə.

Bilmədin dil səru zülfündə mənə eylədiyin
Naləsilə sənə bu dərdi bəyan eylədiyin,
Səri-kuyində gəlib dadü fəğan eylədiyin,
Ləli-nabın həvəsi bağrımı qan eylədiyin,
Ah kim, qanlı yaşım qılmadı izhar sənə.

Nobəra, yoxdu məgər sinədə ahin əsəri,
Nərm dil eyləyə ol mahruxü tac səri,
Vədeyi-vəsli verə aşiqə şadan xəbəri,
Ey Füzuli, fələgin var səninlə nəzəri
Kim, qəmü möhnətini verdi nə kim var sənə.

-18-

Qüssələnmə, ey könül, qanın gərəkməzmi sənə?
Şami-hicran üzrə əfqanın gərəkməzmi sənə?
Firqətə çeşmi-xunəfşanın gərəkməzmi sənə?
Qəmzəsin sevdim, könül, canın gərəkməzmi sənə?
Tiğə urdum cismi-üryanin, gərəkməzmi sənə?

Sineyi-zarında dil bir lalədir bərkəndə dağ,
Bu dağı purkaleyi-könlündə qoymuş gül yanağ,
Gülüstan canansız neylər gül açsa hər budağ,
Atəşin ahimlə eylərsən mənə təklifi-bağ,

Bağiban, gülbərgi-xəndanın gərəkməzmi sənə?

Hər səhər dəm müşk bu gisulara sığal gətir,
Ətri-gisudan dili-məhzunuma xoşbu yetir,
Sən məni bu ətirlə sərməst qıl, huşum itir,
Yelə vermə dağıdıb hər dəm, ayaqlardan götür,
Ey pəri, zülfi-pərişanın gərəkməzmi sənə?

Eylədin, ey gül, məni kuyində nalan əndəlib,
Az qalıb Sənan kimi boynum görə şəkli-cəlib,
Vəsl ümmidilə sən hər gün mənə verdin fərib,
Ey kəmanəbru, rəqibə vermə qəmzədən nəsib,
Ox atarsan daşa, peykanım gərəkməzmi sənə?

Ey fələk, qət eylədim kuyi-nigarə rahimi,
Kəc rəvaqındır puran ol mahrudan cahimi,
Quldan əskik eylədin yanında qəlbi-şahimi,
Yandırıb canım, cahansız etmə bərgi-ahimi,
Asıman, xurşidi-rəxşanın gərəkməzmi sənə?

Vaiz, fikr eylə gör vəzin mənə şayiqmidir?
Mənmi tənha aşiqəm, ya məndən ol sabiqmidir?
Eşqi-Məcnun hər yetən canü dilə layiqmidir?
Kufr zülfündən məni mən eyləmək layiqmidir,
Sufi, insaf eylə, imanın gərəkməzmi sənə?

Ağlama, ey Nobəri, hicran dəmi leylü nəhar,
Bülbüli-şeyda kimi hər ləhzə qılma ahu zar.
Qoyma kim, olsun xəzan ömründəki fəsli-bahar,
Tutalım kim,əşk seylabına yoxdur etibar,
Ey Füzuli, çeşmi-giryanın gərəkməzmi sənə?



-19-

Ruh aləmindən oldu dilim can fəda sənə,
Ordandı meyli-canü dilin mütləqa sənə,
Canü dilin fədası olubdur rəva sənə,
Ey bivəfa ki, adət olubdur cəfa sənə,
Billah, cəfadı ol ki, demək bivəfa sənə.

Rəşki-dil oldu sərvidə bağ içrə yerişin,
Pabusa nail elədi gulzarı gərdişin
Bağı götürdi başına gül ilə xoşbeşin,
Gəh naz, gəh kirişmədi, gəh qəmzədir işin,
Canın sevənlər olmaya ey aşına sənə.

Bir arzu muariz olubdur bu xəstəyə.
Hicranın ilə qəmli olan dəsi-bəstəyə.
Gəl izin ver mərami-dilin istiyə,
Min can oleydi ta ki, məni-dilşikəstəyə.
Ta hər birilə bir kəz olaydım fəda sənə.

Hicr atəşilə dil gecə ta sübhədək yanır,
Fikr eylədikcə firqətini canım odlanır,
Göz həsrətində rəncə düşür, könlüm oxlanır,
Eşqində mübtəlalığımı eyb edən sanır
Kim, olmaq ixtiyar ilədir mübtəla sənə.

Düşdün, həvayi-eşqi tutub xofili rəhi,
Mümkün deyil qulamə tuta dəməni-şəhi,
Asan hesab eyləmə, müşküldi bu zəhi,
Ey dil ki, hicrə dözməyib istərsən ol məhi,
Şükr et bu halə, yoxsa gələr min bəla sənə.

Gördüm nə qədri həsrəti-ruyində mən məlal,
Şam olmadı ki, ta besəhər etməyim xəyal,
Duşvar fikrdir dili-zarə, budur məhal,
Ey gül, qəmində əşk ruxi-zərdim etdi al,
Bildirdi ola surəti-halım səba sənə.

Sanmış həqir Nobəri, canan gəlib dilə,
Göndərdiyi səba ilə peyğamıdır belə,
Fəryadü ahu zar ki, sən vermisən elə,
Düşməz ki, şah qürbi, Füzuli, gəda ilə,
Ol şəhdən iltifat nə nisbət mənə, sənə.

-20-[1]

Oldum diyari-eşqdə mən mübtəla sənə.
Gördüm dilin məhəbbətin, ey gül, rəva sənə,
Xilqəm zamanı oldu könül aşina sənə,
Ey bivəfa ki, adət olubdur cəfa sənə,
Billah, cəfadır olsa deməк bivəfa sənə.

Xoşdur mənə vüqar ilə mən sarı gülüşün,
Pünhan təbəssüm ilə dodaqaltı gülüşün,
Hər dəm güləndə zahir olur dürrtək dişin,
Gəh naz, gəh kirişmədi, gəh qəmzədir işin,
Canım sevənlər olmaya, ey aşina sənə.

Məsudlıq görünmədi bu bəxti bəstədə,

[1] Təxmis Füzulinin əvvəlki qəzəlinə təkrar olduğu üçün orijinalda həmin nömrə "yenə 19" kimi verilmişdir.



Səhhət nişanı yoxdu məni zari-xəstədə,
Əl çəkmərəm vüsalidan olsam can üstə də,
Min can oleydi kaş məni-dilxəstədə,
Ta hər birilə bir kəz oleydım fəda sənə.

Qəmzən nə qədəri ox ata filfoür dil qanır,
Yetcək dilə cigər alışıb odlanır, yanır,
Asıb zəxmi-tiridən eşq əhli oxlanır,
Eşqində mübtəlalığımı eyb edən sanır
Kim, olmaq ixtiyarilədir mübtəla sənə.

Mən neyləyim ki, olmadı canan dil agəhi
Kim, hər zaman xəyal edirəm xubru şəhi,
Dərdim füzundı çarəsin et, rəhm qıl dəxi,
Ey dil ki, hicrə dözməyib, istərsən ol məhi,
Şükr et bu halə, yoxsa gələr min bəla sənə.

Qəm bükdi əlif qamətimi, qıldı çun hilal,
Əl çəkmədi məlali dilimdən nə mahü sal.
Qaldım həmişə naləkonan həsrəti-vüsal,
Ey gül, qəmində əşk ruxi-zərdimi etdi al,
Bildirdi ola surəti-halım səba sənə.

Faş etmədim nihan qəmini aşinalara,
Tab elədim fəraqida Nobər, cəfalara,
Uydum fəzayi-eşqidə mən dilrubalara,
Düşməz çu şah qürbi, Füzuli gədalara,
Ol şəhdən iltifat nə nisbət mənə, sənə.

-21-

Ola amadə ğurub etmə ki, xurşidi-səma,
Dildə asibi-fəraqi-ruxi-çanan peyda,
Duta purkaləyi-dil həsrətilə qəmli həva,
Şəb ki, miftahi-məhi-no ola gəncinəguşa,
Qıla peymaneyi-gərduni cəvahir peyma.

Sübhidən məğribə təğyiri-həva gunəgun
Ki, həva gün qədəri etməyə bir an sukun.
Şübhə yox var ola bu gərdişə bir rahnümun.
Kuzeyi-çərx nihan eyləyə xurşid suyun,
Qətrə-qətrə qıla əncüm rəşəhatın peyda.

Gün qurubunda gözə zahir ola əvvəli-şam,
Göz xumarilə dolub rahət ola vəqti-mənam,
Zülfi-canan kimidir Leylidəki rəngi-zulam
Lalərəng ola şəfəqdən fələki-minafam,
Dişrə salmiş kimi əksi-meyi-gülgun mina.

Şərqidən Qərbə tərəf mehr ötürə saqiyi-dəhr,
Nur dünyanı onunla itirə saqiyi-dəhr,
Tirəlik leyl tərəfdən yetirə saqiyi-dəhr,
Məhi-no camını dovrə gətirə saqiyi-dəhr,
Əncümi-çərxə sala nəşəyi-təsiri-həva.

Oyada sübh nəsimilə bizi badi-həlim,
Ta tuta cami-meyi seyri-səmavati bilim,
Başımı məst eyləyim ta yetişə yarə əlim,
Mən həm ol ruhfəza rahi tökəm sağərə kim,
Nəxli-işrət rəşəhatından ala nəşvü nüma.



Nocəvanlıq dəmidir hər kəsə dövri-işrət,
Çun bu ovqat olur əldə muəyyən fürsət.
Lazım oldur eyləmək piri-muğanə hörmət,
Tutar olsa, nə əcəb, mey ətəyin dürd sifət,
Eyləyübdür neçə toprağı bu iksir tila.

Çəkmərəm Nobəri, mən yarı qoyub dəhr qəmin,
Cana cantək tutaram zövq ilə canan sitəmin,
Dəri-meyxanə ərа zikrim olar vird həmin,
Cam dövründə, Füzuli, oxuram mey vəsfin,
Atəşi-xirməni-qəm, abi-həyati-hükəma.

-22-

Fikri-cananım şəbi-hicranə həmsərdir mənə,
Dil odun xamuş edən gözdən gələn tərdir mənə,
Cövrinə cananımın bu sinə dəftərdir mənə,
Fəqr mülki təxtü aləm tərki əfsərdir mənə,
Şükrlillah, dövləti-baqi müyəssərdir mənə.

Sormasun əhvalımı yoxdursa qeydi hər kimin,
Çəkməyirsə mən kimi şamü səhər canan qəmin,
Tökməyirsə arizə hicran günündə göz nəmin,
Zülfü ruxsari xəyalilə nədir halın demin,
Oyləyəm kim, gecəvü gündüz bərabərdir mənə.

Mehrini tutmaz dilim hər dilbəri-məhruların,
Mayil olmaz qeydinə hər qaməti-dilcuların.
Vaiz əcrin bilməyir taqi-kəman əbruların,
Vair az et vəsfini tubaqədü hurilərin
Həmdəmin tubaqiyamü hurneykərdır mənə.

Mahrü-dildarsız şəm şöləsi gəlməz vecə,
Bəzmi-aşiq yarsiz rovşən olur aya necə,
Şəm nuri olmaz ol ruxsar taban nuricə,
Aradan, ey şəm, çıx bir guşə tut kim, bu gecə
Bəzm bir xurşidtələtdən munəvvərdir mənə.

Şad olub könlüm bilir ol aftabın kəlməsin,
Hiss edibdir qalibən ol mahrudan pa səsin,
Qorxum oldur söndürəm şəmtək vicudum şöləsin,
Verdi badi-sübh bir xurşidtələt müjdəsin,
Şəmvəş sönmək bu gün vəh kim, müqərrərdir mənə.

Eşqi-yar ilə mənim olsun həyata məhləkim,
Mehri-canan qəbridə olsun dilimdə mustəqim,
Xakə dönsə can əgər eşqə muqəyyəd məsləkim,
Zahida, sən qıl təvəccöh guşeyi-mehraba kim,
Qibleyi-taət xəmi-əbruyi-dilbərdir mənə.

Hər görən mütləq baxar divanəyə, avarəyə,
Dərdsizlər çox baxar dərmansız biçarəyə,
Nobəra, naxoş gərək dərdinə dərman arayə,
Ey Füzuli, cəm olur peyvəstə el nəzzarəyə,
Ərsəyi-dəşti-cünun səhrayi-məhşərdir mənə.

-23-

Badeyi-mehrin verən bir nazlı dilbərdir mənə,
Mən qulami-kəmtərin, ol şahi-sərvərdir mənə,
İsmi-canan zikri hər ovqatə əzbərdir mənə,



Fəqr mülki təxtü aləm tərki əfsərdir mənə,[1]
Şükrlillah, dovləti-baqi müyəssərdir mənə.

Bülbül asa ey könül, başda olan qalın nədir?
Munca dadü naləyə dünyada təmənnalıq nədir?
Gözdə həsrət qətrəsi, ruxsarıda alın nədir?
Zülfü ruxsarı xəyalilə demə halın nədir,
Oyləyəm kim, gecəvü gündüz bərabərdir mənə.

Sən eşit məndən, könül, ol hüsni-rəna vəsfini,
Mu miyanü gül dəhan, ruxsari-ziba vəsfini,
Bərgi-güldən xoştərin gülruy hümra vəsfini,
Vaiz, az eylə bu gün ol huri-tuba vəsfini,
Həmdəmim tubaxuramü-hurpeykərdir mənə.

Ey həriqi-atəşi-hicran, dilü canım unut,
Ey nəfsi rahət dəm al, ey dil, fərəhlə qanı tut,
Kami-dil hasil olar, mehrin qılar yarım sübut.
Aradan, ey şəm, çıx get, bu gecə bir guşə tut,
Bəzm bir xurşidtələtdən münəvvərdir mənə.

Açdı üzdən dilbərim zülmətsəray pərdəsin,
Xatirimi şad edib nurani çeşmim didəsin,
Yad edibdir ol məhi-taban dili-əfsurdəsin.
Verdi badi-sübh bir xurşidtələt müjdəsin,
Şəmvəş sönmək bu gün vəh kim, müqərrərdir mənə.

[1] Eyni rədifli qəzələ iki təxmiş yazılmışdır. Elə ona görə də, təxmisin nömrəsinin yerində "təkrar 21" sözləri yazılmışdır. Füzulinin təzmin olun bu qəzəlləri arasında mətn fərqləri olduğundan məlum olur ki, onlar ayrı-ayrı mənbələrdən alınmışdır.

Heyf qıl hər şamilər sən dideyi-bixabına,
Get riya bu taəti təlim qıl əhbabına,
Eşq ətvari sənin uyğun degildir tabına.
Zahida, sən qıl təvəççöh guşeyi-mehrabına,
Qibleyi-taət xəmi-əbruyi-dilbərdir mənə.

Nobəra, sən eylədin çun ol məhi-ruxsarə meyl,
Dərd artırdın dilə, qəm-qüssə gəldi xeyl-xeyl,
Mərdumi-çeşmin tökər ruxsarə əşkin misli-sel,
Ey Füzuli, cəm olur nəzzarəmə peyvəstə el,
Ərseyi-dəşti-çünun səhrayi-məhşərdir mənə.

-24-

Abi-heyvandır ləbin olsa əgər imkan ona,
Xizrdil olmaq gərək, aşiq yetə asan ona,
Kim, Skəndər dil desə olmaz bumu şayan ona,
Şərbəti-ləlin ki, derlər çeşmeyi-heyvan ona,
Ol verər can dəmbədəm üşşaqə, mən həman ona.

Gözlərin dovrindədir müjgan tiri səfbəsəf.
Sinədə dildir olan bu oxlara şayan hədəf,
Dil xiridarın olub, can riştəsi əldə kələf,
Oxlarındır kim, tikantək sancılıbdır hər tərəf,
Gülbünidir xəm qədim, hər qönçə bir peykan ona.

Bülbüli-gülşən tutub bərgi-güli minqarıda,
Naləzəndir bağıda, fəryad edir gülzarıda.
Sən gəzərkən surətin görmüş qalıb əfkarıda,
Xalü xətir bilmən ol ayineyi-ruxsarıda,
Ya gözümdən əks salmış mərdumü müjgan ona.



Tutiya eylər gözə dil ziri-payin xakını,
Əldə etsün sərf edər variyatü əmlakını,
Tiri-mujgandır olan hər ləhzə könlüm sakını,
Tutma, ey qan, dəmbədəm tuğyan edib tən çakını,
Qoy bu mənzərdən dəxi, nəzzarə qılsın can ona.

Ağzıun vəsfinə min vəssaf etməz iktifa,
Vəsf edərsə hər qədər kafi deyildir mütləqa,
Qaliba dərya edib badi-səbadan iltica,
Bəhrə, lölö dişlərin vəsfin məgər söylər səba
Kim, qulaq salmış sədəf içrə düri-qəltan ona.

Mehrini tutcaq dilə çəkdim bu dünyadan ətək,
Hazır oldu cismü can, qurbanın olsun təkbətək,
Başa saldım mən sənin zövqi-vusalın ey mələk,
Könlümə qan uddurub salmış xəttin şövqin fələk,
Tifltək kim, oxudarlar zəcr ilə Quran ona.

Ahi-dildən, Nobəri, ol mahru rəhm eyləməz,
Ah odu yandırdıqın mənzur edib səhm eyləməz,
Rəhmi-dil olsa əgər aşiq dilin zəxm eyləməz,
Ey Füzuli, ol sənəm əhvalına rəhm eyləməz,
Daşə bənzər bağrı, təsir eyləməz əfqan ona.

-25-

Çox gözəldir gözlərin mən olmuşam heyran ona,[1]
Zulfü zunnarın görüb tapşırmışam iman ona,

[1] Bu təxmis də təkrardı.

Düşmüşəm bir dərdə kim, yox kimsədə dərman ona,
Şərbəti-ləlin ki, derlər çeşmeyi-heyvan ona,
Ol verər can dəmbədəm üşşaqə, mən min can ona.

Guş tutmuş bəhri-dil, tutsun dəhanından sədəf,
Bilmişəm ləli-ləbin dovründə əfzundur şərəf,
Yəxa çak etdim ola peykaninə sinəm hədəf,
Oxlarındır kim, tikantək sancılıbdır hər tərəf,
Gulbünidir xəm qədim, hər qönçə bir peykan ona.

Qətrə-qətrə qan durub bu dideyi-xunbarıda,
Dil fəraqında qalıb fəryadü ahu zarıda,
Fikrə dil piçidədir bir mətləbi-düşvarıda,
Xalü xəttindir bilmən ol ayineyi-ruxsarıda,
Ya gözümdən əks salmış mərdumü müjgan ona.

Fikri-vəsl ilə gəzər könlüm cahan əmlakını,
Gəh düşər göydən, gəzər ərzi-şəhanın xakını,
Bu yerə münəccər edər axırda dil idrakını,
Tutma, ey qan, dəmbədəm tuyğyan edib tən çakını,
Qoy bu mənzərdən dəmi nəzzarə qılsın can ona.

Bir səbadır könlümün munca qəmilə aşına,
İltimas etdim desin dərdi-dilü-zarım səna,
Bəlkə lütfünlə ola qəmdən dilü canım rəha,
Bəhrə, lölö dişlərin vəsfin demiş ye kim, səba
Kim, qulaq tutmuş sədəf içrə düri-qəltan ona.

Xaldır ruxsarıda, ya əks salmış mərdümək
Kim, edib ruxsarını ənzarə xeyli şux-şənk,
Yoxsa kim, ol nəşədir sərxoş edən əczayi bənk,
Könlümə salmış xəttin zövqin verib qanun fələk,



Tifltək kim, oxudarlar zəcr ilə Quran ona.

Nobəra, dərdi-dili izhar qıl cananına,
Səbr zəhrin hicrdə qat eyləmə dərmanına,
İltimas eylə gələ dərdim təbibi yanına,
Ey Füzuli, ol sənəm rəhm eyləməz əfğanına,
Daşə bənzər bağrı, təsir etməz əfğan ona.

-26-

Eşqi-canandır, ey könül, xəlvət dəmi qismət sənə,
Aşkara eyləsən mütləq gələr töhmət sənə,
Mehri-canan dildədir, kimdir deyən bədbəxt sənə,
Gərci, ey dil, yar üçün üz verdi yüz möhnət sənə,
Zərrəcə qəti-məhəbbət etmədin, rəhmət sənə.

Varə-varə, ey könül, kuyi-nigarə doğru get,
Tut təriqi-eşqini sərmənzili-məqsuda yet,
Zahir eylər dərdini cananına axırkı beyt,
Saxlama, ey dil, qəmi-eşqini, yarə zahir et
Kim, verə həbsi-bədəndən çıxmağa ruxsət sənə.

Ah kim, canan dilin dərdi-nihanın bilmədi,
Hicrinə canım baxıb məqsudi qəlbə gəlmədi,
Müttəsil sakit durub, qəhr ilə qaldı gülmədi,
Çareyi-behbudimi sordum mualicdən, dedi:
Dərd dərdi-eşqisə, mümkün degil səhhət sənə.

Ey təbibi-dərdimin, bimarın oldum sənin,
Bir dəmi-insafə gəl, nərm eylə qəlbi-ahənin,
Qədrdə bir tutma sən əğyar ilə bu xahənin,
Tutaram ruzi-qiyamətdə, həbibim damənin,

Məstsən qəflət şərabından, bu gün möhlət sənə.

Etgilən bilmərrə bu covrü sitəmdən içtinab,
Mərhəmət qıl aşiqi-biçarəyə, eylə-savab,
Rəsmdir lütf eyləyər fəqr əhlinə alicənab,
Əhli-eşqi atəşi-hicranə eylərsən kəbab,
Dönə-dönə imtəhan etdim, budur adət sənə.

Aşiqə cövr eyləyib, axır onu gətdin dilə,
Ahi-biaram ilə verdim onu ömrün yelə,
Rəhmdən xali dilin həm xülqi-ətvarın belə,
İncidir naləm səni, nola əgər bir tiğ ilə,
Çeşmi-cəlladın edə əhsan mənə, minnət sənə.

Qibləyə üz döndərib, ey Nobəri, etdin niyaz,
Zahidi, həm abidi etdi bu halın sərfəraz,
Yarıdan üz döndərib etdinmi ondan ehtiraz?
Səndə dün gördüm, Füzuli, meyli-mehrabü namaz,
Tərki-eşq etməkmi istərsən, nədir niyyət sənə.

-27-

Oldu, ey dil, hicridə ahü fəğan adət sənə,
Bu imiş ruzi-əzəl cananıdən qismət sənə,
Eyləmək lazım gəlir hicran ilə ülfət sənə,
Gərçi, ey dil, yar üçün üz verdi yüz möhnət sənə,
Zərrəcə qəti-məhəbbət etmədin, rəhmət sənə.

Yaridən peymanə tut, meyil-şərab zahir et,
Xirqeyi rusvalığı cismə libasi-faxir et,
Məsti-eşqi-yar olub dünyada ismin şahir et,
Saxlama nəqdi-qəmi-eşqini, ey dil, zahir et



Kim, verə həbsi-bədəndən çıxmağa rüxsət sənə.

Belə qalsa canu dil bu dərd ilə əldən gedi
Ahi-cansuzi-dilim axır təni bihal edi.
Ey gül, eşqin məgər imdadi cana bumidi,
Çareyi-bihudəmi sordum mualicədən, dedi:
Dərd dərdi, eşq isə, mümkün degil səhhət sənə.

Baisi-dağı-dilü canım olub simin tənin,
Ah kim, nərm olmadı barəmdə qəlbi-ahənin,
Həddən əfzuntər olub həqqimdəki covrün sənin,
Tutaram ruzi-qiyamətdə həbibim damənim,
Məstsən qəflət şərabından bu gün möhlət sənə.

Yox dəxi bu atəşi-hicranına canımda tab,
Dəmbədəm təğyiri-hal eylər məni rəncü əzab.
Etgilən bu covrdən, ey bimürüvvət içtinab,
Əhli-eşqi atəşi-hicrana eylərsən kəbab,
Dönə-dönə imtəhan etdim, budur adət sənə.

Ah çəkdim hicridə, can nəqdini verdim yelə,
Naləvü fəryadidən şeydalənib düşdüm dilə,
Eşqi-ruxsarun məni saldı nəhayət müşkülə,
İncidir naləm səni, nola əgər bir tiğ ilə,
Çeşmi-cəlladım edə ehsan mənə, minnət sənə.

Nobəri eşqidən, bu eşqidən etdinmi sən də ehtiraz?
Məscidə üz döndərib etdin riya, razü niyaz,
Bu sifətlə olmayıb dünyada sadiq eşqbaz,
Səndə dün gördüm, Füzuli, meyli-mehrabü nəmaz,
Tərki-eşq etməkmi istərsən, nədir niyyət sənə?

-28-

Nigarım ah-naləmdən mənimə zar olmasın, ya rəb,
Onu şad eylə, hər dərdə giriftar olmasin ya rəb!
Nə dərd olsa qəbulumdur, o bimar olmasın, ya rəb!
Mənimtək heç kim zarü pərişan olmasın, ya rəb!
Əsiri-dərdi-eşqü daği-hicran olmasın, ya rəb!

Məni bihuş edib canan üzündə müşk bu tərdən,
Səhərdəm tutmuşam xoşbu həman zülfi-müənbərdən,
Özümdə qəti-ümidim həvasın tərk edən sərdən,
Dəmadəm cövrlərdir, çəkdiyim birəhm bütlərdən,
Bu kafərlər əsiri bir müsəlman olmasın, ya rəb!

Cahan fanidir ma leylə, mənə leylə onu gördüm,
Təriqi-eşqi-cananı səadətli bilib durdum,
Behəmdullah ki, damani-nigarə mən də əl vurdum,
Görüb əndişeyi-qətlimdə ol mahi, budur virdim
Ki, bu əndişədən ol mah peşiman olmasın, ya rəb!

Demin kim, eşqi-sadiq edir tərki-vəfa rəsmin,
Neçün kim, mülki-eşq içrə vəfasızlıq degil ayin,
Bilər aşiq vəfa cövrin, onun nuş eyləyər zəhrin,
Çıxarmaq istələr[1] təndən çəkib peykanın ol sərvin
Çıxan olsun dili-məcruh, peykan olmasun, ya rəb!

Təbiba, əl götür məndən, degülsən dərdimə alim,

[1] 1958-ci il nəşrində "etsələr" yazılıb. Bizcə "istəsələr" mənası verən "istələr" daha səhihdir. Vəzni daha şəhih saxlamaq xatirinə"istələr" yazılmışdır.



Müşəxxəs nəbzidən olmaz nədir dərdim, nədir halim,
Məni dərdə salan dilbər bilibdir xoşdur əhvalim,
Cəfavü-cövrə mötadəm, nolar onsuz mənim halim,
Cəfasının həddi cövrinə payan olmasun, ya rəb!

Nigarın kuyi rahətdir ona, üşşaqi yol bulsa,
İtaətdə olub, anə xlusi-bəndəlik qılsa,
Vəfadır cövri-cananı rəhi-rəsmi-vəfa bilsə,
Demin kim, ədli yox, ya zülmü çox hər hal ilə olsa,
Könül mülkünə ondan qeyri sultan olmasun, ya rəb!

Mənəm, ey Nobəri, aşiq o məhruya bu ayəndə,
Ləbi-meygunitək meyi yox nə Rum, Hind, nə Çində,
O meynuşinə mən oldum dolu peymanə fikrində,
Füzuli buldu gənci-afiyət meyxanə küncündə,
Mübarəkdir bu mülk, ol mülk viran olmasun, ya rəb!

-29-

Müjgan oxu yetdikcə olur sinədə nayab,
Guya dil olub oxlarını tutmağa sərdab,
Hər qədr müyən zəxmi ola könlüm edər tab,
Ey navəki-şövqin sipəri-sineyi-əhbab,
Zülfün xəmi ərbabi-vəfa boynuna qullab!

İmanım üçün rükndür ol cismi-lətifin,
Qibləmdi üzün, Kəbə sərvi-kuyi-şərifin,
Mim əvvəlidir, axırı dal ismi-hərfin,
Mehrabdə şəkli-xəmi-əbruyi-lətifin,
Vacib bu səbəbdən hamıya səcdeyi-mehrab.

Gulxəndə həyat etsəm əgər ömrümədir şən,
Xaki-səri-kuyindir olan mənzərə gülşən,
Sənsiz edərəm hicridə min dad ilə şeyvən,
Söz der idim şəmə sənə eyləyə rovşən,
Nəzzarəyi-ruxsarına həm şəmidə yox tab.

Bilmiş şəbi-hicranıda canan dil əzabın,
Göz həsrətini dil-cigərin şiddətü tabın,
Göstərməz olub aşiqinə qeyzü itabın,
Xurşid cəmalından o məhə saldı niqabın,
Sübh oldu, dur ey bəxt, nədir munca gəranxab?

Əğyarı səri-kuyində görsəm güli-rəşkim ,
Səbrim tükənər zəhrilə qəmlu olu müşkim,
Hər dəm tökülər həsrət olan gözdəki əşkim,
Dun sübh yetirdim fələkə seyli-sirişkim,
Qərq etdi fələk üzdə olan əncümü girdab.

Heyrət məni hər dəm aparır payeyi-xabə,
Məhzun oluram yetmədiyim zovqü səvabə,
Fikrim məni tuş eylədi bir səxt hesabə,
Saqi, məgər ol ləl sözün der meyi-nabə
Kim, düşdü əyaqinə, əlin öpdi meyi-nab?!

Nobər, belədir dari-cəhan kar üsuli,
Səy eylə ki, ta şad edəsən qəlbi müluli,
Dağun olacaq simü-zərin cəmi hüsuli,
Cəmiyyəti-əsbabə könül vermə, Füzuli
Kim, təfriqədir hasil cəmiyyəti-əsbab.



-30-

Şərqdən doğdu günəş ey dil, dəxi tərk eylə xab,
Səcdəni taqi-xəmi-əbruyə qıl, eylə səvab,
Göstərib ixlasi-dil, al dilbərindən intixab,
Sübh çəkmiş çərxə tiğin, daşə çalmış aftab,
Zahir etmiş ol məhi-dəllakə eyni-intisab.

Rənc verməz başə tiği, görməz ondan dil əza,
Nərmi-tərdir əlləri, şimşadvəşü mərmərnüma,
Bu təraş rahətə əhsən dəxi, səd mərhəba,
Dəmbədəm təhriki-tiğindən bulur canım səfa,
Oylə kim, su movc edib, hər dəm qılar zahir hübab.

Harda bir ustad olar bu ruyi gül peykər kimi,
Zülfi mişkin çinbəçin pur ətri-susən, ənbər kimi,
Gözləri dəşti-xutən ahudəki gözlər kimi,
Hər səri-muyimdə bir baş olsa muyi-sər kimi,
Kəssə də min tiği-xunrizindən etməm içtinab.

Mahruyyət ol məhin istibati-təsdiqindədir,
Qabiliyyət dəstnün zövqilə təşviqindədir,
Xəm dürər əbruləri no mah tərkibindədir,
Kəşfi-əsrari-məlahət cövhəri-tiğindəndir,
Kim, alur başlar, tökər sovda cəmalından niqab.

Sərtəraş etdikcə bu olmuş dəxi fikrim mənim,
Vəslinə vasil edə tiğilə canım, xahənim,
Kəssə başım xoş mənə, minnət çəkər pirahənim,
Qussəsindən başımın qıl kimi incəlmiş tənim
Kim, mənimlə tiği ortasında başımdır hicab.

Əldə tiği dövr edər ətrafidən sağü sola,
Başdakı muyim təraşı kaşəki hər gün ola,
Can fəda qıllam əgər ol mahru razı bula,
Tiği-çapuk seyrinə ahuyi-Çin dersəm nola,
Seyr qıldıqca tökər səhrayi-Çinə muşknab.

Mən onun şimşad əlində tiğidən xovf etməzəm,
Qeyr bir ustada rugərdan olub da getməzəm,
Nobəra, səbr eylərəm, dil xahişindən ötməzəm,

Muyi-julidəmlə tiğindən ümidim kəsməzəm,
Ey Füzuli, xali olmaz bərgi-lamedən səhab!

-31-

Sənsən edən hər gecə rahətlə xab,
Mən çəkirəm hicr şəbində əzab,
Tərdi üzün dışra verib gül gülab,
Sübh salıb mah ruxundən niqab,
Çıxsa ki, tamaşayə çıxır aftab!

Ərz edək ey dil, o gözəl dilbərə,
Arizi gül bərgi, saçı ənbərə,
Püstə dəhan, incə ləbi əhmərə
Rişteyi-canıma yetər bir kərə,
Salma səri-zülfi-səmənsayə tab.

Qoy mən olum can ilə qurban səna,
Etmə məni munca qəmə mubtəla,
Soylə müəyyən dəmi-vəslin mənə,
Məst çıxıb, salma nəzər hər yana,



Görmə rəva kim, ola aləm xərab.

Mən sənə dil verdim əzəl çaqidən,
Qət nəzər eylədim afaqidən,
Badə tutub sən kimi xoş saqidən,
Kəsmə nəzər canibi-üşşaqdən,
Naleyi-dilsuzdən et ictinab.

Dil nə qədər eyləsə sənsiz zəcə[1],
Kəsrəti-dadi dəxi gəlməz vecə,
Yetdi qəmin canu dilə tazəcə,
Sübhədək əncüm saçıram hər gecə,
Ey şəbi-hicri mənə yovmi-hesab.

Şami-fəraqində bir od tutdu can,
Oldu cəhənnəm odu dildə əyan,
Vermədi qəm xab gözə bir zaman,
Duzəxə yanmaz sitəmindən yanan,
Qabili-cənnət degil əhli-əzab.

Xeyli zaman oldu ki, görməm səni,
Çox gəzirəm sən dolanan gülşəni,
Tutmalıyan piri-muğan daməni,
Saldı ayaqdan qəmi-aləm məni,
Ver mənə qəm dəfinə, saqi, şərab!

Gözdi çəkən həsrətini ayu il,
Gəryədədir şamü səhər müttəsil,
Daşdı dili, ləhm degil eylə bil,

---

[1] Ehtimal ki, "zəcr"- əzab mənasında işlənmişdir.

Halinə uftadələrin rəhm qıl,
Heç gərəkməzmi sənə bir səvab?

Nobəri, de munca məlalın nədir?
Möhnəti-canana xəyalın nədir?
Gəlsə o məhparə sualın nədir?
Yar sual etsə ki, halın nədir,
Xəstə Füzulli, nə verərsən cavab?

-32-

Hüşyar ol, ey könül, hala degildir vəqti-xab,
Vəqti-dovri-camidir, meyxanədən açıldı bab,
Üz tutub meyxanəyə getməkdədir şeyx ilə şab,
Qaliba bir əhli-dil topraqıdır dürdi-şərab
Kim, qılıb hörmət, binalər tutmuş üstündə hübab.

Əşkidir məmlu edən giryan gözümdən mişkimi,
Ahdır faş eyləyən əhli-cahanə eşqimi,
Oldu əğyarım çəkən vəsli-nigarə rəşkimi,
Bərgü baran sanma kim, gördikcə ahur-əşkimi,
Bilməzəm nəmdir mənim, ağlar mənə, yanar səhab.

Çulqamış əflakı ahim şiddətindən tirə dud,
Fovci-dərdü ğəm edər sənsiz dilü canə vurud,
Əşkdir hər yan axan gözdən misali-zəndərud,
Ey soran halım, bu istiğna sualından nə sud,
Halım eylərsən sual, amma eşitməzsən cavab.

Mehrilə bahəm gedər qəbrə tənimdə bu fuad,
Adım elərdə olub aşiqliq ilə səndən ad,
Qəbrim üstə gəl ki, ta könlüm ola qəbrimdə şad,



Dəşti-qəmdə xaki-qəbrim üzrə sərvi-girdibad
Çəksə baş, ol sərvdən su kəsmə, ey seyli-sərab.

Aftab istər üzün görsün vücubi-əmrdür,
Sər bürəhnə eyləyən ol mehri gözdə xəmrdür,
Yüz sürər bamü dərü divarına müstəmrdür,
Yetməyib vəslinə sən Leylivəşin bir ömrdür
Mən kimi Məcnun olub səhrayə düşmüş aftab.

Zahidin ağzındadır aşiqlik adilə sözüm,
İstəmir əhli-riya xudbini ta görsün gözüm,
Ruberu olsam ona qəhrən deyirdim mən özüm,
Ol büt əbrüsin qoyub mehraba döndərməm yüzüm,
Qoy məni, zahid, mənə çox vermə tanrıçun əzab.

Eşq, ey Nobəri, sən ömrünə verdin xitab,
Nə muradın oldu hasil, nə müəssər vəsli-kam,
Keçdi dövri-ömrünə vəqti-həyatın çun mənam,
Nəqdi-ömrü bir sənəm eşqində sərf etdin təmam,
Ey Füzuli, ah əgər səndən sorulsa bu hesab!

-33-

Çəkmişəm hicranıda həddən füzun rəncü təəb,
Canü dil yandırmışam hicranıda, sənsən səbəb,
Sakit ollam nalədən kuyində əz ruyi-ədəb,
Qılsa vəslin şamımı sübhə bərabər yox əcəb,
Rəsmdir fəsli-bahar olmaq bərabər ruzü şəb.

Mən sənin heyranınam, vazehdi güntək aşikar,
Mün şəbi-hicranını süb eylədim, göz əşkbar,
Vəsl olubdur xahişi qəmgin dilin bietibar,

Gün ki, sayən düşdüyü yerdən durar, bir vəçhi var,
Gəlsə aliqədrlər fəqr əhli durmaqdır ədəb.

Hərr qədər covrün ola könlümdə vardır anə şövq,
Məst çeşm müstəgəm, uftadeyi-meyxanə yox,
Müşkbu zülfi ilə divanə nün boynuna tuq,
Olmadı meyxaneyi-eşqində məsti-cami-zövq,
Üzmədi bəzmi-fələkdə Zöhrə qanuni-tərəb.

Kufri tərk etdim, tutub eşqin yolun gəldim dinə,
Açdı bəxtim bir qapı beyti-səadətdən mənə,
Din ilə imanımı tapşırdım, ey canan, sənə,
Cənnəti-vəslindir ol məqsəd ki, iman əhlinə
Qılsa həq ruzi cəhənnəm atəşi, sənsən səbəb.

Gördüyüm tək mən səni Leylini Məcnun görməyib,
Mən kimi sərgəştəni səhrayi hamun görməyib,
Kuhkən məntək dilin əfsurdə dağun görməyib,
Qaliba, məqsəd vüsalındır ki, gərdun görməyib,
Çərx sərgərdan gəzər, bilməz nədir rəncü təəb.

Səndədir canımdakı dərmanı yox, dərdi-əlac,
Mayili-ruxsarına billah, gərəkməz təxtü tac,
Vəsli-ruyindir olan bimari-eşqə ehtiyac,
Bəsteyi-zənciri-zülfündür nəsimi-tərmizac,
Təşneyi-cami-vüsalındır mühiti-təşnələb.

Nobərə etmə səri-zülfündəki mudən dəriğ,
Gərdəni-rüsvasına zənciri gisudan dəriğ,
Səcdəgahın eyləmə mehrabi-əbrudan dəriğ,
Qılma feyzi-neməti-vəslin Füzulidən dəriğ,
Yoxdur özgə mətləbi, səndən səni eylər tələb.



-34-

Arizin görsün günəş, hər sübhdən eylər şitab,
Baş salıb hər yan baxar xeyli şıtaban bab-bab,
Mehrə göstər ruyini, xoşhal qıl, eylə səvab,
Sən üzündən aləmi rövşən qılıb saldın niqab,
Yazıya salsın bu gündən sora nurin aftab.

Nurini səndən tutub ruyi-səmada mehrü mah,
Həm şəbi-yelda olub zülfi-siyahindən siyah,
Bir gəda tək diz çökər təziminə əyanü şah,
Sən nə nuri-paksən, ey məzhəri-suni-ilah
Kim, alır şəmi-ruxundən nur afitabü mahitab.

Şovqi-ruyindir düşən gül şaxəsində yaprağa
Kim, fərəhlə əsdirir gül bərgini soldan sağa,
Cəm edər qumriləri, bülbülləri güllər bağa,
Əksi-ruyin suya salmış sayə, zülfün toprağa,
Ənbər etmiş toprağın adın, suyun ismin gülab.

Naz edib, naz əhlinin sən nazını verdin yelə,
Yad edib bülbül üzün gülzaridə gəlmiş dilə,
Qaliba bilmiş verib ruyin nəzakət hər gülə,
Ləlgun meydir əlində sağəri-simin ilə,
Ya nikini-ləldir rəşki-ləbindən oldu ab.

Ol zamanki eşqiün səhrasına qoydum qədəm,
Onda bildim kim, mənim qarşımdadır rahi-ədəm,
Artıq oldu rəğbətim zövqi-vusalə dəmbədəm,
Kilki-qüdrət lovhi-sinəmdə səni qılmış rəqəm,
Eyləyüb məhbublər məcmuəsindən intixab.

Aftabın rəşkidir kim, ondan ənvardır üzün,
Nərgizə heyrət verib çeşmi-xütən heyran gözün,
Oldu məşhuri-cahan ürfan içində bu sözün,
Yeldə bulmuş buyi-zülfün, suda əks arezin,
Kim, yeli bağrına basmış, suya göz tikmiş hübab.

Guşeyi-meyxanədir hal əhlinə bir dəyr eşq,
Tuldır sərmənzili bihədd dərindir beyr eşq,
İbtidası rəncdir, üxrası, Nobər, xeyr eşq,
Ey Füzuli, hər əməl qılsan xətadır qeyri-eşq,
Budur mən bildiyim, Vəllahü ələm bis-səvab.

-35-

Çoxdur ey dil, dəhrində məşhur olan kari-əcib,
Bu əcayibdən biri Fərhada həm olmuş nəsib,
Nəzm edib bu sahədə bir fazilü kamil ədib,
Kuhkən Şirinə öz nəqşin çəkib vermiş firib,
Gör nə cahildir, yonub daşdan özinə bir rəqib.

Zəxm qəmzən asibi hər dəm verər dəm tər aşiqə,
Belə zəxmin rəncini həm kar eyləməz nər aşiqə,
Çunki həmrahi degil rənci bilən sər aşiqə,
Qaşların yayi bir ox lütf eyləmiş hər aşiqə,
Mən həm ondan eylərəm bir ox təmənna,ya nəsib.

Tərki-idrak eyləsəm huşi başında olmasam,
Həsrətin əhilə mən gültək saralıb solmasam,
Dərdü qəmdən Qeystək səhra gəzib baş yolmasam,
Tutiyayi-xaki-payın feyzinə yol bulmasam,



Nuri-çeşmim eyb qılma, kor olur derlər qərib.

Bilmək üçün səhhəti-halim niyarım gəlməyib,
Rəhm əliylə göz yaşın giryan gözümdən silməyib,
Yarı yanında görüb bu qəmli könlüm gülməyib,
Müztəribdir çareyi-dərdimdə, bəh kim bilməyib,
Bir davasız dərdə uğratmış özin miskin təbib.

Qəm qubarı bağlayıb giryan gözümdə dəhnələr,
Qorxum oldur su qalıb, göz ruzənində cələnər,
Bu diyari-eşqidə ey dil, nələr gördüm, nələr,
Bərqi-ahimdən evim hər guşə bulmuş rəxnələr,
Gəl, gör, ey gül, kim, giriftari-qəfəsdir əndəbil.

Hicr ucundan ağlaram fəryad ilə şami-səhər,
Bilmirəm munca nədir göz mərdumində əşki-tər,
Az olan dəm yaşıma imdad edir xuni-cigər,
Ey mənə səbr et deyən, hali-dilimdən bixəbər,
Eşq olan yerdə nədir aram, ya neylər şəkib?

Nobəri, sən ağladın hicranıda leylü-nahar,
Olmadı agah dili-nalanına ol gülüzar,
Yada salmur, neyləmək, bir dəm səni mehri-nigar,
Ey Füzuli, incimə səndən təğafül qılsa yar,
Rəsmdir kim, göstərər əhbabə istiğna həbib.

-36-

Əl çəkir məndən təbibim, dərd ilə canım görüb,
Ah peydərpey çəkən bu qəlbi-suzanım görüb,
Dəftəri-hikmətdə yox bu dərdə dərmanım görüb,
Ol ki, hər saət gülərdi, çeşmi-giryanım görüb,

Ağlar oldu halıma birəhm cananım görüb.

Saldı axır bir nəzər heyrətlə ruyi-zərdimə,
Tutdı ayinə nəfəs çəkdikcə ahi-sərdimə,
Gördi halim nərğidir, əl qoydu nəbzi-bərdimə,
Eyləyən təyini-əczayi-müdava dərdimə,
Tərk edib, cəm etmədi hali-pərişanım görüb.

Eşqi-canandır olan ruhi-rəvanə dərdi-sər,
Atəşi-hicran yaxar canü dili şamü səhər,
Tutmadı bir kimsədən ol mahru, halım xəbər,
Salmadı ruxsarıma himmətli gözdən bir nəzər,
Heç bir rəhm etmədi bu daği-hicranım görüb.

Gör mənə hicranidə ol mahru canan nə edib,
Göz yaşım damanıma, göy səmtinə ahim gedib,
Tundru olmuş mənə, qeyrə inayətlər edib,
Tut gözün, ey dudi-dil, çərxin ki, dövrin tərk edib,
Qalmasın heyrətdə çeşmi-govhərəfşanım görüb.

Hurilər pizvanıda heyran sənə, göydə mələk,
Sən çıxanda şamilər aydır olan seyrində ləng,
Gün deyər səd mərhəba, surətdə bu məndən qəşəng,
Pərtovi-xurşid sanma yerdə, kim dovri-fələk,
Yerə vurmuş aftabın mahi-tabanım görüb.

Zövqi-gülşən sənlədir, həm zovqi-bağ, gülüstan,
Qonçələr dilbəstədir məhbubi-ruyin bizəban,
Bağıbani-gülşənə qəddim olubddur rəşki-çan,
Suda əksi-sərv sanma, kim qoparıb, bağban
Suya salmış sərvini, sərvi-xuramanım görüb.



Bağbanə xoş gələr güldən nə olsa rənci-dil,
Arizin mənzur ona gülşəndə görsə xəndə gül,
Nobəri, ellərdədir səndən sarı bu qalü qul,
Ey Füzuli, bil ki, ol gül arizin görmüş degil,
Ol ki, eyb eylər mənim çaki-giribanım görüb.

-37-

Məni görcək saldı canan arizi-alə niqab,
Əbrə daxil oldu çun ruyu səmada aftab,
Arizin punhan edib, ondan çəkir canım əzab,
Ruzgarım buldu dövrani-fələkdən inqilab,
Qan içər oldum, ayağın kəsdi bəzmimdən şərab.

Qəm girehgir eylədi təndə kəlafi-riştəmi,
Tirə könlümdən bənim axdı üzarə göz nəmi,
Olmadı nalan dilin hicran şəbində həmdəmi,
Şöleyi-ahimlə yandırdım dili-sərgəştəmi,
Bir od oldum, çizginən çovrəmdə olmazmı kabab?

Könlüm istər rindilə hər dəm edə həmrahlıq ,
Rindlərdir eyləyən həmrahə xeyrxahlıq,
Bir söz ilə meyi edib meyxanədə kostaxlıq,
Ləlin ilə bəhs edib badə, zəhi gumrahlıq,
Vacib olmuş eyləmək ol biədəbdən ictinab.

Qəmzə peykanı verər hərdəm dili-məcruhə bim,
Kaş oleydi qəmzədən ol tirə müjganın rəcim,
Qoymur onlar aşiqi kuyində olsun müstəqim,
Verməz oldu yol vüsalə sübhə zulfün, ah kim,
Rişteyi-tədbiridən dövrani-kəcrov açdı tab.

Gün kimi zahir olub eşqim, bilir aləm onu,
O məni neyyerdən bülub, mən bulmuşam neyyerdə bunu,
Şovqdən çak eylədim məcnun olan gündən donu,
Olmadı ol mahə rovşən yandığım hicran günü,
Yandığın şəb ta səhər şəmin nə bilsin aftab.

Zülfun ətritək gəlir hərdəm dəmağə bıdü müşk,
Daneyi-xalı necə ruxsarıda qarə zirişk,
Yaş tökər gözdən cigər, hərdəm çekər min ahi-xoşk,
Göz ki, peykanın xəyalilə tökər hər yan sirişk,
Bir sədəfdir, qətreyi-baranı eylər dürri-nab.

İstəmir etsin mənə ol mahi-ruxsarım nigah,
Ruzgarımdır olan zulfi-siyahitək siyah,
Cismi-nur dərdim edib hicran odu solqun kiyah,
Oldu ahi-əbri-dudim pərdəyi-ruxsari-mah,
Ah kim, almaz cəmalından o mahə hərgiz niqab.

Dil təmənnası budur, vəsli-nigar olsun nəsib,
Canımı zali-fələk almağı olmuş ənqərib,
Nobəra, canan verər kami-vusalə min fərib,
Kəsmədən məndən səri-kuyində azarın rəqib,
Ey Füzuli, necə derlər cənnət içrə yox əzab.

-38-

Əhli-eşqin dərdinə olseydi gər alim təbib,
El deməzdi adına nafəhmdir zalim təbib,
Ahilər kim, bilmədi naçar olan halım, təbib,
Dərd-eşqim dəfinə zəhmət çəkər daim təbib,



Şukrlillah kim, ona zəhmət, mənə rahət nəsib.

Könlümün fəryadını yoxdur edən yarə əyan,
Munca kim, yaşım olur şamü səhər gözdən rəvan,
Qüssəvü qəm dəfinə mənfi deyirlər gülstan[1],
Şərhi-qəm təqririnə hər bərgi-güldur bir lisan,
Eyləməz bihudə gül gördükdə əfğan əndəlib.

Yarı bilmir aşiqin hicrində rəngi solduğun,
Göz rəvaqinə onun hər ləhzə qan, yaş dolduğun,
Ahı peydərpey çəkib fəryad ilə baş yolduğun,
Bilsə zövqim vəslidən firqətdə əfzun olduğun,
Dəmbədəm mənin rəva görməzdi rəşkindən rəqib.

Yar bilməz halımı, könlümdə qalmış bu məlal,
İncidir canü dilim yarın məlalı mahü sal,
Ərz edə bilsəm ona daği-dirunim laməhal,
Təni-qəflətdir pəritələtlərə izhari-hal,
Mən hərifi-sadədil, xuban cəmalı dilfirib.

Dərdi eşqin çarəsin mümkün degil bilsin həkim,
Mehri-yar ilə dolub xilqət zamanında rəkim.
Can təmənnasındadır ol mahi-taban gultəkim,
Şəmi-qürbilə təfaxür qılma, ey pərvanə, kim,
Xirməni-ömrün köpər bərqi-fənadan ənqərib.

Dün gecə bu Nobəri xab içrə gül ruyin görüb,

[1] Həmin sözün yanında xətt çəkilmişdir. Ehtimal, müəllif bu sözü başqa l sözlə əvəz etmək istəmişdir.

Rahi-dər təbirində zülfi-sərü muyin görüb,
Qorxulu bir hal ilə peykani-əbruyin görüb,
Nola ağlarsa Füzuli rövzəyi-kuyin görüb,
Lacərəm giryan olur qilcaq vətən yadın qərib.

-39-

Dərdə saldım canımı gulruyi-xəndanın görüb,
Olmuşam əfsurdədil zülfi-pərişanın görüb,
Sinə çakəm mən dəxi çaki-gəribanın görüb,
Payibənd oldun səri-zülfi-pərişanın görüb,
Nitqidən düşdüm ləbi-ləli-dürəfşanın görüb.

Dutdudum murği-dili-gisuda mişkin tarına,
Tapşırdım sərxoşluğum ol nərgisi-xummarına,
Rəhm edərsənmi görüm dərdə düşəm bimarına,
Oda yaxdım şəmvəş can əxgəri-ruxsarına,
Çərxə çəkdim dudi-dil sərvi-xuramanın görüb.

Hər sənəm lazım gəlir yada sala avarəsin,
Vəsl ümidilə onun axir o görsün yarəsin,
Dərdə salmışdır özi, etsin gərəkdir çarəsin,
Gəzdirir hər yan gözün əşkn üzrə bağrım parəsin,
Xələti-gülgun ilə rəşk üzrə covlanım görüb.

Şəmi-hicranındadır məchur könlüm dərdnak,
Olma razı kəsrəti-qəmdən ola canım həlak,
Çarəsi yox dərdimin qeyri ətbbadə səvak,
Bir zaman çəkməz ki, dil tiqindən olmaz çak-çak.
Açılır hərdəm tutulmuş könlüm ehsanın görüb.

Afəti-dovranısan, bax ruyinə ayinədə,



Damə tutdurdun dilim ol zulfə, xali-çənədə,
Qəmzən oxları edib pirahənim min pinədə,
Könlümü tənhalıq eylərdi pərişan sinədə,
Olmasaydı cəm əgər yanında peykanım görüb.

Göz baxır ruxsarına, qəmzən alır dildən qisas,
Munca zülmi-nahəqqə varmı əlində bir əsas,
Rəhmsizsən, var sənin purkaleyi-qəlbində pas,
Bəndü zindani-rəmü möhnətdən olmuşdum xilas,
Ah kim, düşdüm yenə çahi-zənaxtanın görüb.

Nobəri, səd ah kim, ol məhvəşə yetməz əlin,
Vəhm qıl ta solmasın gülzari-ömründə gülün,
Könlüm olsun sineyi-zarında nalan bülbülün,
Ey Füzuli, munca kim, tutdun nihan hali-dilin,
Aqibət fəhm etdi ol çaki-giribanın görüb.

-40-

Dil ki, fəryad eyləyir hicrində yarın ruzü şəb,
Yetməz ol canana bu naləm əcəbdəndür, əcəb,
Canımı istər vəsl ol mahə, canımdır tələb,
Qeyrə eylər iltifat bisəbəb ol nuşləb,
İltifatb etməz mənə bilməm nədir mətləb, səbəb?

Qüssə qanım xoşk edib təhrikidən qalmış rəkim,
Dərdimin dərmanıdır ruxsarı bərgi-gultəkim,
Dərdi bidərmanıma daru ilə neylər həkim,
Cövr olur adət qəzəb vaxtı, nə adətdir bu kim,
Cövrün az eylər mənə ol mahru eylər qəzəb.

Bülbüli-gülşən qalır heyran mənim əfqanıma,

Anlamış kim, ağlaram bir noguli-xəndanıma,
Naləsin ağaz edər bülbül mənim ünvanıma,
Nola qəmzən fikri düşdisə dili-suzanıma,
Zalimin gər olsa ataş mənzili, olmaz əcəb.

Firqətində ağlaram ta sübh olunca bərqərar,
Yoxdur aramı dilin hicranıda leylü nəhar,
Kəsrəti-fəryadıdan həmsayəm eylər ahü zar,
Dəmbədəm gər dürri-əşkim düşsə gözdən vəçhi var
Ya uşaqlardır yetim, onlarda yox rəsmi-ədəb.

Mərdümi-çeşmim görüb ol nərgisi-xummarını,
Dovri-ruxsarə düşən purpiçü mişkin tarını,
Tacru eşqi-dilim gərm eyləmiş bazarını,
Covri könlümdür, çəkən gözdür görən ruxsarını
Allah, Allah, kam alan kimdir, çəkən rəncü əzab.

Sakit olmaz bülbüli-şuridələr gül görmədən,
Naləsin dağun edər səhralara qəm sinədən,
Mən necə dad etməyim səndən sarı, ey gülbədən,
Yari imdad eyləməz üşşaqi bidad etmədən,
Hər necə ruzi müqəddər olsa, vacibdir tələb.

Ney kimi dillətməyin bu Nobəri-dilbəstəni,
Naləsilə yandırar hər yanı od tutmuş təni,
Yarı qəmnak eyləsə şadan olandır düşməni,
Mütrüb, ağlatma sürudinlə Füzuli xəstəni,
Seyli-əşqindən sakın, qopmaya bünyadi-tərəb.

-41-

Hər bir nəfəs cigərdə olur səndən iltifat,



Kəsin nəzər məişətə, mümkün degil həyat.
Tufani-qəmdə aşiqə sənsən verən nicat,
Vəslin mənə həyat verir, firqətin məmat,
Sübhanə xaliqəl xələqəl movtə vəl-həyat..

Canü dilə fəraqın ilə foci-qəm dolur,
Rəncü qəm ilə rəngü ruxi-aşiqün solur,
Yadi vüsalın ilə xəyalata qərq olur,
Hicranına təhəmmül edən vəslini bulur,
Tuba limən yüsaidüs-səbrü bəs-səbat.

Gər olmasaydı aşiqə əğyar hiyləsi,
Çarə edərdi dərdinə yari-cəliləsi,
Dağun olardı dildə olan qəm qəbiləsi
Mehrindi aftabi-məqasid vəsiləsi,
Maşaə mən ərадə bihil-fovzə vən-nəcat.

Salmış dilimə mərhəmətin mehr zövqini,
Qoydun dilə məhəbbəti, buldum vüsuqini,
Bənd eylədikdə gərdəni-rüsvayə toqini,
Tökmiş riyazi-təbimə barani-şovqini,
Mən ənzələl-miyahə və əhya bihən-nəbat.

Dil ibtida hiss eyləmiş bəzli-cudini,
Can ilə dil bilibdi bu sövdada sudini,
Bu kainata fəxr eyləyübdür vücudini,
Haqq afərinişə səbəb etdi vücudini,
Əvcəbtə biz-zühuri zühurəl-mükəvvənat.

Peymanəyi-məhəbbətini bilmədim günah,
Bu meyi həlal olmasına yoxdur iştibah,
Nuş eylərəm bu badəni dayim, nə gah-gah,

İyzəd səriri-hüsnə səni qıldı padşah,
Əla kəmalə zatikə- fi-əhsənis-sifat[1].

-42-

Könül, bu mərdümi-çeşmə amandı, imdad et,
Fəraqında tökülən əşk qətrəsin yad et,
Xəyalə vəsli tutub xatirü dilim şad et,
Yurü, yetir mənə, ey simi-əşk, bidad et,
Gər aqça ilə alınmış qul isəm, azad et!

Xəyalilə salıram xatirə üzün zövqin,
Salıb da gərdənimə zülfi-müşkbu tovqın,
Cünun misalı dolannam soraqi-dil sovqin,
İtirmə itləri avazının, könül, zovqin,
Yetər qara gecələr hərzə-hərzə fəryad et!

Məgər bu naleyi-şəb içrə məramındır,
Bu qəm ki, mən çəkirəm xahişindi, kamındır,
Həyatü ömrümə sən məh, bu can qulamındır,
Xarab olan könül, ey büt, sənin məqamındır,
Təğafül eyləmə, bir qaç daş ilə abad et!

Əgərçe çoxdur olan vəslinə sənin sayil,
Vəli gərək ola aşiq təəşşüqə qabil,
Hərasim oldu rəqib eyləsün səni qafil,
Xilafi-adətə çox olma, ey pəri, mayil,

---

[1] Sonuncu – yeddinci beyt təzmin edilməmiş, onun yeri buraxılmış, ancaq Füzuli beyti yazılmışdır.



Sənə bu müşkil işi kim dedi ki, bunyad et?

Xəzan vaxtı gülün bilmədikmi solduğunu,
Zəhərli badi-xəzan bərgi-şaxi yolduğunu,
Rəvaqi-səhni-gülüstan qəm ilə dolduğunu,
Eşitmədinmi, könül, eşq müşkül olduğunu,
Yetər füsun ilə təsxiri-adəmizad et!

Fəzayi-eşqidəki bilmə gərdişi yüngil,
Dəqiqəyi-firqətə gün hicri-şamına bil il,
Vüsal abı uzaqdır, yetincə təşnədi dil,
Səba, əsirlərin qəsdin eyləmiş ol gul,
Bizi həm onda əgər düşsə fürsətin yad et!

Təfaxir eylə könül, sən nigarə Nobərsən,
Kəlami-torfən ilə gül kimi müəttərsən,
Xəyali-yarın, çərxtək müdəvvərsən,
Füzuli, rütbeyi-fəzl izdiyadan istərsən,
Diyari-Rum gözəl, tərki-xəyali-Bağdat et!

-43-

Vəsli-ruxsarına var əldə bu gün min ayat,
Xeylidir müddəini sakit edən dildə səbat,
Ya nəbi, qəmli dili-aşiqədir səndə nicat,
Əksi-ruxsarın ilə oldu müzəyyən mirat,
Bədəni-mürdəyə feyzi-nəzərin verdi həyat.

Sərv oxşar belə bir qəddi- xuramana məgər,
Bu xuraman qədinə cönbəş edər canda cigər.
Mənzərin aşiq üçün hər iki dunyaya dəyər,
Bənzədərdim qədi-mövzuninə fil-cümlə əgər

Can içində əlif etsəydi qəbuli-hərəkat.

Rəmzilər çoxdu sənin ol ləbi-xəndaninda,
Mərhəmət aşiqə var ləfzi-dürəfşaninda.
Yox nicatı olanın qeyzili fərmanında,
Xət bu məzmun ilədir tərfi-zənaxtaninda
Ki, bu zindanın əsirinə yox ümmidi-nəcat.

Səhl bilməm hamuya vəslinə dəstrəstəliyi,
Gənc ruxsarinadır xeyli dərin bəstəliyi,
Açar ol babi həman dildəki mehr üstəliyi,
Kakilın qıldı müqərrər mənə sərgəştəliyi,
Deməsin kimsə ki, var gərdişi-gərdunə səbat.

Hər zaman kim, dili-üşşaqə xədəngin toxunu,
Həvəs eylər ki, tuta canə bu zəxmin çoxunu,
Bəzl edər gözləriün mənzərinə var-yoxunu,
Sədəqə qəmzən edər aşiqə müjgan oxunu,
Oylə kim, mərdümi-münim veri möhtacə zəkat.

Olsa təsir əgər hicr şəbi naləmdə ,
Qalmaram sübhə kmi möhnətü həmmü qəmdə,
Dilimin xahişidir vəslə yetişmək ümdə,
Afərin cövhəri-məqbulinə kim, aləmdə
Mümkün olmaz bu sifat ilə ki, sənsən bir zat.

Mehri-cananı tutub Nobəri, çox şad oldun,
Kuyi-canana, dili-zarına irşad oldun,
Yadi-xeyr ilə cahan xəlqi ərə yad oldun,
Ey Füzuli, vərəvü zöhd ilə mötad oldun,
Bilmədin halını, bihudə keçirdin ovqat.



-44-

Göz ki, açdın ey könül, səmti-rəhi-canană tut!
Hansı yerdə yardır, döndər üzün ol yanə tut!
Huş-guşilə qulaq meyxanədə rindanə tut!
Ey əsiri-dami-ğəm, bir guşeyi-meyxanə tut!
Tutma zöhhadın müxalif pəndini, peymanə tut!

Eyləyib məcnun məni, ta şöhrəyi-şəhr eyləmə,
Əşki-çəşmim qətrəsin hicranıda nəhr eyləmə,
Rəhm qıl, eyşi-həyatım canıma zəhr eyləmə,
Dişlədimsə ləlin, ey qanım tökən, qəhr eyləmə,
Tut ki, qan etdim, ədalət eylə, qanı qanə tut!

Rəhm qıl, mahru, bu aşiqi-sirdaşına,
Qəmzə peykanın dəxi qeyz ilə tutma qaşına,
Yaxma cismi-canımı hicran çəkincə başina,
Könlümü şəmi-ruxundan cizginirkən başina,
Mən qılma, anı həm ol şəmə bir pərvanə tut!

Halımı eylə təsəvvür, bil şəbi-hicranimi,
Hicridə qan yaş tökən bu dideyi giryanimi,
Yandırır firqət odu ta sübh olunca canimi,
Muddəi bihudə söylərsə sənə əfganimi,
Ol sözə tutma qulaq, mən çəkdiyim əfğanə tut!

Yar eşitməz mən çəkən ahi-dil ilə şivəni,
Ey mənə naseh olan ahimlə yandırram səni,
Nalədən sakit olar tərk etsə bülbül gülşəni,
Etməzəm zənciri-zülfu tərkin, ey naseh, məni
Xah bir aqil xəyal et, xah bir divanə tut.

Bülbüli-gulzarıda mən çəkdiyim əfğan yox,
Bu dili-viranətək bir miskin viran yox,
Hansı aşiqdir onun canani var, hicranı yox,
Ey deyən dunyada məntək bir ulu sultan yox,
Sən məni bir cuğd bil, dunyanı bir viranə tut.

Səhl bilmə Nobəri, könlündə hicranın dağın,
Döndərər, bu afəti-candır, qaraya göz ağın,
Qurtarar can riştəsin yandırsa daim dil yağın,
Ey Füzuli, Zal dəhrin sən firibindən sakın,
Olma ğafil, ər kimi təprən, özün mərdanə tut.

-45-

Talib olma, ey könül, bu mülki-dünyani unut!
Tacü təxtin fikrini, mülki-Süleymanı unut!
Səy qıl, tut daməni-cananını, canı unut!
Bəhri-eşqə düşdün, ey dil, ləli-canani unut!
Baliğ oldun, gəl rəhimdən içdiyin qanı unut!

Gəlmisən mərdanə bu dəhrə, onun tərk eylə mərd,
Kəs təəluq dəhridən, etmə onun qeydini dərd,
Agah eylər bu fəna dəhri sənə axır ki, fərd,
Verdi rehlətdən xəbər muyi-səfidü ruyi-zərd,
Çöhreyi-gülgun ilə zülfi-pərişanı unut!

Qoyma bu bimehr olan dünyada bir daş üstə daş,
Bu cahan mülkində var hər bir zamanda ixtişaş,
Bəzm işrətxanədə axır gedər canın şabaş,
Çək nədamətdən göyə dudi-dilin, tök qanlı yaş,
Sərvi-nazın tərkin et, gülbərgi-xəndanı unut!



Baisi-rənci-dili dünyada olma bir kəsin,
Tut qulaqa bu fəna dünyada fanilik səsin,
Tapkilan dərdi-dili-bimarının dadrəsin,
Gör qənimət fəqr mülkində gədalıq şivəsin,
Etibari-mənsəbü dərgahi-sultanı unut!

Bir libasi-fəqr ilə bu mülki-dünyanı dolan,
Rahat olmaz bir dəmi soltanlığın təxtin bulan,
Rəngidir başdan-başa dünya, onun rəngi solan,
Çəkmə aləm qeydini, ey sərbuləndi-fəqr olan,
Səltənət təxtinə irdin, bəndü zindanı unut!

Qoy səni məftuni-ruxsar eyləsin bir mahvəş,
Zülfi leyl olsun sənə, ruxsarı taban bir günəş,
Səltənət təxtində var rusvaliq ilə keşməkeş,
Lövhi-xatir surəti-canani qıl ayinəvəş,
Onu yad et, hər nə kim yadında var, anı unut!

Nobəri, bu gülşəni-dunyada çoxdur gül-çiçək,
Məgər dünyaya açıb heyrətlə nərgiz mərdümək?
Hər günü fani edər şamı, buna yox şübhə-şək,
Ey Füzuli, çək məlamət rəhğuzarından ətək,
Ləhzə-ləhzə çəkdiyin bihudə əfğanı unut!

-46-

Xəyali-yar ilə könlün cahanda şad tutdun, tut!
Dil-virani fikri ilə onun abad tutdun, tut!
Cahanı tərk edib, yarə dili mötad tutdun, tut!
Tilsimi-gənc üçün min ismi-əzəm yad tutdun, tut!
Tilsimi sındırıb, gənci töküb ismi unutdun, tut!

Rəqibin qəlbi nərm olmaz, hesab eylə onu daşdan,
Demə təğyir edər halın axan bu gözdəki yaşdan,
Nə dilbərdə tərəhhüm yox, nə çarə yarü yoldaşdan,
Töküb mey, camını tutmaq təmənnasın çıxar başdan,
Bu gün qanlar töküb, aləmdə xunabə yutdun, tut!

Min ahi-sərd ilə sönməz alovlanmış cigər dağı,
Fəğanım naləyə salmış mənimtək bülbül bağı,
Axar bir şəmi-suzantək gözümdən bu cigər yağı,
Şərabi-nab zövqindən nə hasil kim, degil baqı,
Riyazi-ömrə min kəz su verib, axır qurutdun, tut!

Nigarə can verən aşiq gərək olsun necə Hatəm,
Ona min bar can versə hesab etsin ki, olmuş kəm,
Fəraqinda onun olsun dili ahən kimi möhkəm,
Çu nə Cəmşid bulmuşdur bəqa kefiyyətin, nə Cəm,
Bu bəzm içrə Cəmü-Cəmşid əlindən cam tutdun, tut!

Götürmə əl sən, ey Nobər, o məhrunun vüsalından,
Kanar etmə dilin hər kiz, şəbi-hicran xəyalından,
Ayırma qəlbi-məhzunu qəmü dərdü məlalından,
Füzuli, qıl qiyas halın əhli-dəhr halından,
Qumarü mekrü təzvirü hiyəl əhlindən utdun, tut!

-47-

İgnədir cismim, dilər tari-telindən bir xəyyat,
Bu xəyyatı etgilən yəldayi-zülfündən bərat,
Türreyi-mişkində bu xeytidəndir qat-qat,
Murdə cismin iltifatından bulur hərdəm həyat,
Ölərəm gər qılmasan hərdəm mənə bir iltifat.



Kimsə bilməz səy edə sirrin o qunçəvəş ləbin,
Qərqi-dəryayi-xəyal etsə vicudi rouzəqin,
Qıl məni vaqif həman əsrarə sən, ey məhcəbin,
Ləbiün vəsfin yazub itmamə yetməzdir yəqin,
Abi-heyvan versə Xızra kilkü zülmətdən dəvat.

Həsrəti-ruxsarına göndər bərati-hüsnini,
Naili-didar edib göstər sifati-hüsnini,
Ta ki, dil aram olub bulsun nicati-hüsnini,
Mən fəqirəm, sən ğəni, gəl ver zəkati-hüsnini,
Şər içində həm sənədir, həm mənə vacib zəkat.

Sənsiz ey gülrux, yəqin bir ləhzə gülməz aşiqin,
Naili-vəsl eyləsən fəryad qilmaz aşiqin,
Atəşi-hicran nədir dünyada bilməz aşiqin,
Görməyincə hüsnini imanə gəlməz aşiqin,
Yüz peyğəmbər cəm olub, göstərsə gər min möcizat.

Yerbəyer dünyada hər gülşəndə xəndandır gülün,
Dəhr bağında oxur gül şaxəsində bülbülün,
Qəlbi-üşşaqə dolan mehrindir lütfi-yungülun,
Məzhəri-asari-qüdrətdir vücudi-kamilin,
Feyzi-fitrətdən qərəz sənsən, tufeyli-kainat.

Nurin ilə asıman xurşidinə verdin cəmal,
Müddəini eylədin bilmərrə sən dünyada lal,
Vəsfinə bir dil gərək tahir ola safü zülal,
Covhəri-zatindadır məcmui-ovsafi-kəmal,
Bu sifat ilə ki, qanda vardır bir pak zat?

Nobəri tərk eyləməz vəsfi-nigarın bir dəmin,

Rəhguzari-yarından qət eyləməzdir məqdəmin,
Bu məhəbbət qəlbinə mümkün degil hər adəmin,
Eşqə düşdün ta Füzuli, çəkmədin dünya qəmin,
Bil ki, qeydi-eşq imiş dami-təəllüqdən nicat.

-48-

Dili-zarın nihan dərdin səba, ol yarə izhar et!
Bu şeyda bülbülün dadın o gülruxsarə izhar et!
Müşəvvəş huşimi başdan gözü xummarə izhar et!
Səba, əğyaridən pinhan, qəmim dildarə izhar et!
Xəbərsiz yarımı hali-xərabımdan xəbərdar et!

Fəraqi-yar qəndabı dili-uşaqə zəhr eylər,
Cununi-eşq olan aşiq özün rusvayi-dəhr eylər,
Nə meyli-səltənət qılmaz, nə qeygi-mülki-şəhr eylər,
Gətir adım yanında eylə kim, gördün ki, qəhr eylər,
Xamuş olma, yenə düşnam təqribilə təkrar et!

Bu qədri qəm kifayətdir, degilsən ey könül, qulzəm
Məgər qəm çəkməyə gəlmiş bu dünyaya bəni adəm,
Dilə nalə nədir munca, rəvaqi-çeşmə munca nəm,
Könül, qəm günlərin tənha keçirmə, istə bir həmdəm
Əcəl xabından, əfğanlar çəkib, Məcununu bidar et!

Məhəbbət badəsin nuş et, həzər et, içmə möhrum mey,
Fəna dünya qəmin çəkmək kifayətdir, dəxi ta key,
Xəyalı-yarından qeyri dilə lazım degil bir şey,
Çu yox eşq atəşi bir şölə çəksə taqətin, ey ney,
Baş ağrıtma, dəmi-eşq urma, ancaq naleyi-zar et!

Fəğanın Nobəri, canan sanur hicrində bihudə,



Bu qədri nalən əlbəttə, onu eylər dilazurdə,
Sənin bu eşqini ellər biliblər mulki-aləmdə,
Füzuli, baxmaq olur ol gülşən yadilə xurşidə,
Nə vəch ilə kim, olsa gün keçər, fikri-şəbi-tar et!

-49-

Dil fəraqında edər bülbüli-nalan ilə bəhs,
Nobahar əbri dəxi dideyi-giryan ilə bəhs,
Sunbuli-bağü çəmən zülfi-pərişan ilə bəhs,
Xətti-ruxsarın edər lütfdə reyhan ilə bəhs,
Hüsni-surətdə cəmalın güli-xəndan ilə bəhs.

Gül desəm arezinə səhb hesab etmə xəta,
Qamətə sərv desəm mötərizəm, oldu cəfa,
Bunu əlbəttə, deməz qəddinə nazir urəfa,
Üzünə durmasın ayinə urub lafi-səfa,
Nə rəva məh qıla xürşidi-diraxşan ilə bəhs.

Qəddin üşaqqə deyir, ruzi-qiyamət vardır,
Mehri-ruyində sənin özgə əlamət vardır,
Onda bimar dili-üşşaqə hacət vardır,
Gərçi şümşadidə çox lafi-lətafət vardır,
Həddi yoxdur ki, edə sərvi-xuraman ilə bəhs.

Üzünə qarşu günəş şöləsi həm zayil olur,
Gul əgər ariz bəhs dura bərgi solur,
Ləbini qönçə görür, qatilə öz bağrı dolur,
Düşər od şəm dilinə bu səbəbdən ki qılur
Dil uzadıb gecələr ol mahi-taban ilə bəhs.

Saxlasın bürci-səadət əbədi kobkəbini,

Aşiqə bir keçidün hicridə ruzü şəbini,
Ey könül, zahir eylə dilbərə öz mətləbini,
Can tələb qılsa bula dərdinə ləli-ləbini,
Canibi-ləlini tut, ey könül, et can ilə bəhs.

Gul üzün bəhsin edir qunçə ləbin söyləsələr,
Zülf yadilə əgər yasəməni iyləsələr,
Hurini cənnət əra vəsf eyləmək istəsələr,
Cənnəti kuyinə zöhd əhli münasib desələr,
Nə münasib ki, qılam bir neçə nadan ilə bəhs.

Nobəri ahi-dili-zarına firqətdi səbəb,
Rəhmə gəl, vermə ona hicrin ilə rəncü təəb,
Damənidən tutuban, səndən edər vəsli tələb,
Sifəti-hüsnün ilə xəstə Füzuli, nə əcəb,
Husni-guftaridə gər eyləsə Həssan ilə bəhs.

-50-

Mürüri-dovrdə vardır həvadis,
Gedib Fərhadü Məcnun, Nobərdi salis,
Olub eşqi onun eldə əhadis,
Cahan içrə hər fitnə kim, ola hadis,
Ona sərvi-qəddindir əlbətdə bais.

Yumuxdur qönçətək püstə dəhanın,
Əsəl rəşkidir ol şəhd zəbanın,
Verilməz xubrulardan nişanın,
Mədarisdə təhqiqi-muyi-miyanın,
Dəqayiqdən ortaya salmış mubais.

Ləbi-meygununa meyxanə hasid,



Bunun isbatına eşq əhli şahid,
Vəslinə yetən olsun da hamid,
Müvəhhidlərə qılma inkar, zahid,
Meyi-vəhdəti sanma ümmül-xəbais.

Yəqin etdim sənə yoxdur bədl, mən,
Bu hüsnü surətə əhsənətü əhsən,
Mənəm ey məh, sənə musəddiq xahən,
İki didəsiz aləmə Yusifü sən,
Sizə yox cahan içrə imkani-salis.

Yaşım gülbərg üzrə manəndi-şəbnəm,
Fəraqində gözüm eylər fərahəm,
Əl üzməm vəslindən heyhat nadəm,
Mənə cəm olur qanda kim, var bir qəm,
Mənəm mülki-qəm içrə Məcnuna varis.

O gündən kim, sənə dil oldu mail,
Səri-kuyindir manəndi-sail,
Olubdur möhnətü ənduha mail
Töküb əşk kuyində, vəslin dilər dil,
Saçar nəf üçün danə torpağə haris.

Pəndim Nobər, dili-zarü məluli,
Budurmi aşiqü məşuqə üsuli,
Olur canə qəmü dərdin vusuli,
Üzarü ləbin vəsfin eylər Füzuli,
Ona həm müfəssir derəm, həm mühəddis.

-51-

Nuri-pakındır olan bu dili-tarikə sirac,

Zülmət kufri edən tirə dilimdən ixrac,
Cismi-pakın şərəfi tapdı cahan içrə rəvac,
Ey qubari-qədəmin ərşi-bərin başinə tac,
Şərəfi-zatına ədnayi-məratib merac.

Ziri-payında sənin topraq əvəz olmalı gül,
Arizindən götürüb nuri-gunəş bir yüngül,
Çərxi mehrindi verən dövrə, keçər ay ilə il,
Müntəha şərinə ədyani-təmammiyu rəsul,
Bəhrsən, şairi-ərbabi-risalət əmvac.

Damənindən yapuşar aqil olan əhli-xirəd,
Bildirin müttəqiyə xaliqi pəhmanü əhəd,
Ayeyi-fatehədə zikr olur Allahüs-səməd,
Xazini-gənci-şəfaət səni qılmış iyzəd,
Hiç kim yox ki, sənə olmaya axir möhtac.

Əhsən, ol dil ki, səni hadiliyə etdi qəbul,
Şübhə yox, taətidir dərgəhi-həqdə məqbul,
Bildi layiq səni həqq, eylədi Qurani nüzul,
Sünnətin məğfirət əsbabına münhaci-vüsul,
Taətin məsiyyət əmrazına tədbiri-əlac.

Cismi-pakındır olan müddəinün başına daş,
Sərnigun butlər olub sacidi-büt sinə xəraş,
Nə gözəl çəkdi sənin surətini ol nəqqaş,
Xəlqə təqlidi-sülukın səbəbi-hüsni-məaş,
Mülkə təğyiri-təriqin əsəri-sui-mizac.

Feyzi-isminlə duru noh fələk, çərxi-kəbud,
Nuri-pakındır edən göydəki xurşidi səud.
Nuri səndən götürüb mah, edər dəhrə vurud,



Qaim olmazdı nizamü nəsəqi-əsli-vücud,
Verməsəydin əsəri-ədl ilə dünyaya rəvac.

Ya Nəbi, mərhəmət et, Nobər ola vasili-feyz,
Dərgəhi-həqdə onu eyləginən naili-feyz,
Olmasın cürmi ona həşr dəmi hayili-feyz,
Şükrllilah ki, Füzulini edib daxili-feyz,
Rəğbətin daireyi-xovifdən etmiş ixrac.

-52-

Dildi məcməri-atəşi-hicranına sınmadı sac,
Şöleyi-ahi-dilim əflakidə tapmış rəvac,
İntizari-badeyi-ləlindən oldum naəlac,
Münhərifdir, saqiya, ənduhi-dövrandan məzac,
Badə tut kim, illəti-ənduh qəflətdir əlac.

Qoy aparsın könlümü bir dilbəri-sahibcəmal,
Səbr edib vəslin gözət, hicrana yansın mahü sal,
Vəsli-canandan sənə ancaq kifayətdir xəyal,
Fəqr mülkün tut gər istiqnadə istərsən kəmal,
Səltənətdən keç kim, ol vadidə çoxdur ehtiyac.

Anla ey dil, aşiqə bir yarıdandır mərhəmət,
Eşqi-yara sadiq ol kim, Qeysidəndir bu sifət,
Mehrini könüldə qıl bir mahruyin səbtü xəbt,
Çəkmə təxtü ta qeydin, bisərü palıq gözət
Kim, əyağə bənddir təxtü bəladır başa tac.

Eybi yox hicranıda gər nalə qılsan müttəsil,
Vəsli-canandır olan səbr eyliyən qəlbə kəfil,
Daməni-vəslə əlin yetdikdə mütləq eylə bil,

Bir pəri zülfün tutub, xalindan alsan kami-dil,
Tut ki, Çin mülkini tutdun, Hinddən aldın xərac.

Çox davam etmə, könül, bu ahü zar, eşqidə,
Nalə qılma ney kimi leylü nəhar, eşqidə,
Düşməyi səhralara sən etmə ar eşqidə,
Tərkü təcrid ixtiyar et kim, diyari-eşqidə
Fəqr bazarinə əsbabi-fənadandır rəvac.

Şad olarsan ağlayıb, canan desən leylü nahar,
Gözlərin yaşın tökə qəmzən çu barani-bahar,
Vəsli-yar ilə olar xali dilindən ahu zar,
Nəqşi-zayildir, ümuri-dəhrə qılma etibar,
Olsa hasil fəqrdən hüznü qinadən ibtihac.

Nobəri, mən bir mələkmənzər üzün qurbaniyam,
Hökm onundur, hər zaman mən bəndəyi-fərmaniyam,
Qeydi-dünya çəkmərəm, lakin onun giryaniyam,
Ey Füzuli, mən məlamət mülkünün soltanıyam,
Bərqi-ahim taci-şimindir, sirişkim təxtü-tac.

-53-

Ün tutur neyi-dil, onu qəmdən xəbərdar eyləgəc,
Artırır eşq əhlinə qəm ün çəkib zar eyləgəc,
Cana min dərd artırır hüznə giriftar eyləgəc,
Can çıxar təndən könül zikri-ləbi-yar eyləgəc,
Tən bulur can yenlədən ol ləfzi təkrar eyləgəc.

Ey könül, aram tut bir ləhzə ahu zarindən,
Rəxti-xabi-nazıda rahatlanır ol gülbədən,
Pozma yarın rahatin, sakitlənib, etmə şivən,



Qılma, ey əfğan, gözün bidar, məsti-xab ikən,
Olmaya bir fitnə peyda ola, bidar eyləgəc.

Dərdi-eşqin çarəsin bilməz, müqərrərdir həkim,
Bu mərəz canü dilə cananidəndir müstəqim,
Ahi-dil xoşk eyləyib qanım qurutmuşdur rəkim,
Söbətimdən ar edib, ey gül, məni tərk etmə kim,
Gül olur əfsürdə tərki-söhbəti-xar eyləgəc.

Söhbətin türfə dəhəndən qünçə, gültək canfəza,
Açılan güllər olur canandan ariznüma,
Qiyməti-ləli-ləbü-dəndanına candır bəha,
Varimı fikri-dəhanilə yox etdim, kim qəza
Boylə əmr etmiş mənə, yoxdan məni var eyləgəc.

Dildə bu mehrü məhəbbət hər kəsə bir şeydədir,
Lamdır Məcnun dilində, eşqi-şirin feydədir,
Mehri-canan bu mətah dəhridən biqeydədir,
Arizi-ruxsar et bu gün, ey məh, küm ol gün göydədir
Küm, necə əncüm olur, gün arizi-ruxsar eyləgəc.

Hər tikandır bülbülün güllərdə peyda qətlinə,
Tişətək amadədir Fərhad şeyda qətlinə,
Çərx həm kəc dövridir Məcnunun əmda qətlinə,
Hər zaman bir tiğdir guya Züleyxa qətlinə,
Yusifi olmaqda əhli-eşq bazar eyləgəc.

Daği pünhanım bilir, ey Nobəri, aləm mənim,
Əşki-çeşmimdir olan gülşənlərə jaləm mənim,
Olmadı fəryadıma imdad edən adəm mənim,
Ey Füzuli, xoş gəlir ol gülruxa naləm mənim,
Açılır gül könlü bülbül naleyi-zar eyləgəc.

-54-

Olma yoldaş cahanə, yandan keç!
Xeyrxah ol, hamu lisandan keç!
Yaxşıya yaxşı ol, yamandan keç!
Ey könül, yarı istə, candan keç!
Səri-kuyin gözət, cahandan keç!

Dişrə çıxma bu eşq soqindən,
Düşmə bir dəm nigar şovqindən,
Çəkmə gərdən cünun toqindən,
Ya təməh kəs həyat zövqindən,
Ya ləbi-ləli-dilsitandan keç!

Bil qənimət dilə bu rahət evi,
Məhfəli-yaridir ibadət evi,
Dildir ol məhvəşə itaət evi,
Mülki-təcriddi fəraqət evi,
Tərki-mal eylə, xanımandan keç!

Dil verib yarə, vəsl niyyətin et,
Kamından istifadə fürsətin et,
Ömr azdır, nə var qənimətin et,
Laməkan seyrinin əzimətin et,
Bu xarab olacaq məkandan keç!

Aşiqin dildə sadədir niyyəti,
Tərki-dəhr et ki, puçdur ləzzəti,
Ruhidən boş qalar bu can səbəti,
Əhli-dünyanın olmaz axirəti,
Gər bunu istərsən, andan keç!



Nobəri tərki eyş, işrətdir,
Yarına gər yetə qənimətdir,
Yarisir zindəlik əziyyətdir,
Məskənin bəzmgahi-vəhdətdir,
Ey Füzuli, bu xakdandan keç!

-55-

Sərməst oluram nərgisi-məstanını görgəc,
Huşum dağılır dideyi-fəttanını görgəc,
Dilşad oluram arizi tabanını görgəc,
Könlüm açılır zülfi-pərişanını görgəc,
Nitqim tutulur qönçeyi-xəndanını görgəc,

Fərq eyləmədi hicridə şamım səhərimdən,
Ta sübh gedir qəmlə dolan qan cigərimdən,
Dərdim bilinir gözdən axan əski-tərimdən,
Baxdıqca sənə qan saçılır didələrimdən,
Bağrım dögünür navəki-mujganını görgəc.

Kim, görsə səni aciz olar tapmağa irad,
Sən novi-bəşərsənmi və ya husni-pərizad,
Gulşən gülünə, yoxsa sənə bülbül edər dad,
Tuba kimi ol qaməti-şimşadı edən yad,
Olmazmı xəcil sərvi-xuramanını görgəc.

Mümkündüki hər dil çəkə bu eşq bəlasın,
Ta vərtəyi-qəmdən eyliyə cism xılasın,
Sənsiz quru dil hər gecə nalə əsasın,
Çox eşqə həvəs edəni gördüm ki, həvasın,
Tərk etdi, sənin aşiqi-nalanını görgəc.

Eşq atəşini gətdi cahan mülkinə Adəm,
Cənnətdə qalardısa nə ənduh, nədir qəm,
Bir söz dəxi, təkrar edirəm bu sözə bahəm,
Kafər ki, degil mötərifi-nari-cəhənnəm,
İmanə gələr atəşi-hicranını görgəc.

Heyran baxışın hər dəm edər qəmli dilim şad,
Rəftarın edər şivəgəh bu könlümü mötad,
Püstə dəhənə, qoncə ləbə kim edər irad,
Naziklik ilə qonçəyi-xəndani edən yad,
Etməzmi həya ləli-dürəfşanını görgəc.

Öyrətdi mənə mürşidi-kamil üsuli,
Movqeysiz olan sözlərə yox nəzm qəbuli,
Ey Nobəri, cananına ver qəlbi-məluli,
Sən hali-dilin soyləməsən nola, Füzuli,
El fəhm qılır çaki-giribanını görgəc.

-56-

Düşürsən xatiri-naşadıma bir məhliqa görgəc,
Pərişan hal olur hər dəm gözüm zülfi-duta görgəc,
Olar məğrur dili-aşiq nigarından vəfa görgəc,
Olur qəddim duta aşiqin yolunda bir bəla görgəc,
Təriq əhlinə adətdir təvazöh aşina görgəc.

İanət gözlərəm ey dil, sənə dövlətlü şahimdən,
Həmiyyət istərəm hər dəm dilə hümmət pənahımdən,
Məni əff eyləyüb, keçün nə var olsa gunahımdan,
Nihan eşqi məlum etsə halım dudi-ahimdən,
Əcəb yox kim, gumani-gənc edər kim əjdaha görgəc.



Kəman əbru dilə xəsmim müəyyəndir bağrıma peykan,
Məni xovfə salur hər dəm nigahi-qeyzin, ey canan,
Bu zəxmin asibun çəkmək dilə hərgiz, degil asan,
Oxun hər ləhzə kim, canım dələr, könlüm qılar əfğan,
Bə eyni eylə kim, fəryad edər itlər gəda görgəc.

Nə keçdi ortamızdan, sən müğəddirsən necə sözdən,
Rəqibin mekridir, ya kim, özün kəsdin nəzər bizdən,
Hərarətdən yanar canım, axan yaşım sorar sizdən,
Füzun olduqca eşqim gərm olur əşki-tərim gözdən,
Əgərçə su bürudət kəsbini eylər həva görgəc.

Nə qeydim var olur hərgah əlim damanina yetsə,
Qəm ənduhilə möhnət edib can tərkini getsə,
Muradım nəxli bər versə sükufəmdən səmər bitsə,
Rəvaci-nəqd nəqşi-sikkədəndir nola qədr etsə
Mənə el, cismi-üryanımda nəqşi-buriya görgəc.

Rəqib artıq edir cövrin səni bimehr bildikcə,
Ənduhü qəm qoyar dağ dilə yarə yetdikcə,
Fəraqında gözüm yaşın qubar, qəmlə sildikcə,
Məni-dərvişə el həm cövr edər, sən cövr qıldıqca,
Kim edər zülm mənin, padşahım, sən rəva görgəc.

Usanma Nobəri, yarın sənə cövr cəfasından,
Təmənnaya əmin ol sən onun mehrü vəfsından,
Doyarsan bir zaman vəslin dilə zovqü-səfasından,
Füzulini yaşur, ey zəf, məhvəşlər bəlasından,
Ki, məhvəşlər qılır yüz min cəfa bir mübtəla görgəc.

-57-

Ey könül, hər bir şəbi-hicrana bil kim, var sübh,
Gər bunu sorsan özü həm eyləməz inkar sübh,
Zülfi-yarə bir xonək bad eyləyər təmmar sübh,
Gər degil bir mah mehrilə mənimtək zar sübh,
Başin açıb bəs neçün hər gün yaxa yırtar sübh.

Çaki-sinən baisi olmuş sənin bir gülbədən,
Sən cununi-eşq olub səhrayə düşməzsən nədən?
Getdi Məcnun, yoxsa yox rəsmi-təriqi oyrədən,
Gün degil, hər gün bir ay mehrilə köksün çak edən,
Tazə-tazə dağılardır kim, qılır izhar sübh.

Şəm olur mehman nigarın bəzminə hər vəqt şam,
Mümkünüm yoxdur alam cansuz şəmdən intiqam,
Dil degil rahat künə kuzdə şəbi-hicrə mənam,
Tiği-xurşid ilə rəf olsa yeridir kim, müdam
Yandırıb pərvaneyi-şəmə verir azar sübh.

İbtidadandır bizə bu eşq odu Adəmdə kim,
Firqəti Həvvada qalmış möhnət ilə qəmdə kim,
Şöləvər olmuş mənim bu od dəxi sinəmdə kim,
Sübhi şamü şami sübh olmuş mənəm aləmdə kim,
Şam bəzmi-şəm olub, ayrıldı məndən yar sübh.

Tirəlik tərkin edər didarə nail olmağa,
Məhfəli-cananımı xurşidi-rəxşan qılmağa,
Gün davamı arizi-cananıdan kam almağa,
Gör nə aşiqdir ki, bir xurşid vəslin bulmağa
Sərf edər hər ləhzə min-min lölei-şəhvar sübh.



Zülməti-şəbdən bizə ruz ağın göstərib,
Seyr qılsın naz ilə cananə bağın göstərib,
Bağ ərə xurşid nurından çırağın göstərib,
Eşqdə sadiqlik izhar etdi dağın göstərib,
Qaliba derlərdi kazib, qıldı ondan ar sübh.

Nobəri, sən hər şəbi-hicranda qıldın fəğan,
Qətrə-qətrə göz yaşın ruxsarına etdin rəvan,
Bilmədinmi yarıdan hicran olubdur imtəhan,
Hicr şamında qəm etmişdi Füzuli qəsdi-can,
Olmasaydı mərhəmətdən dəm vurub qəmxar sübh.

-58-

Şeh tökər bərgi-gülə hiddətlənüb ağlar sübh
Kim, şəbi-hicranidən görmüş mənimtək nar sübh,
Aşiq olmuş yaxa yırtmaqda mənə oxşar sübh,
Qansı mahın, bilməzəm, mehrilə olmuş zar sübh,
Hər gün eylər xəlqə bir dağı-nihan izhar sübh.

Gecənin çahında gün bir dəstgiri-eşqdir,
Gün boyu görməz üzün düşkündi, piri-eşqdir,
Anlayıbdır sübh kim, gün bir fəqiri-eşqdir,
Batdı əncum, çıxdı gün, ya bir əsiri-eşqdir,
Tökdü dürri-əşq, çəkdi ahi-atəşbar sübh.

Aşiqin qəlbində yox fani cahanın qəmləri,
Həm qəbul etməz olar biqeyd olan adəmləri,
Çarəsizdirlər ki, yox dağı-dilə mərhəmləri,
Nola gər əmvatə əhya versə sübhün dəmləri,

Zikri-ləlindir kim, eylər dəmbədəm təkrar sübh.

Həsrəti-ruxsarıdan aşiq olar xunincigər,
Şam hicran tulinə tab eyləməzdir ta səhər,
Gün dəvamında olur qəm çəkmək anə dəri-sər,
Bir müsəvvirdir ki, zərrin kilk ilə hərdəm çəkər,
Səfhəyi-gərdunə nəqşi-arizi-dildar sübh.

Zülməti-şəbdir olan aşiqlər ilə müddəa,
Fovci-qəm dildə olur hicran şəbi gözdə büka,
Sübh olur eşq əhlini ancaq edən qəmdən rəha,
Müjdə br xurşiddən vermiş mənə badi-səba
Kim, nisar eylər ona, yüz min düri-şəhvar sübh.

Şam görməz arizin, ta sübh gözdən yaş tökər,
Olmaq üçün gülşəni-ruyindəki gül bərgi tər,
Bağilə gülzaridə seyr eyləsün ol taci-sər,
Aşiqi-sadiqdir izhari-qəm eylir hər səhər,
Ah ilə xəlqi yuxusundan qılır bidar sübh.

Sübh bir miftahidir, zülməti-şəbdir bir kilid,
Şamidən sübh eyləyər dünyaya gün nurin pədid,
Gün qurubi Nobərə bir nagahan qəmdir cədid,
Ey Füzuli, şəmi-qəm əncamına yoxdur ümid,
Bir təsəllidir sənə ol söz ki, derlər var söz.

-59-

Degil məqasidi-aşiq cahanda cahü şukuh,
Batırdı onları tufan verən zamanda Nuh,
Yapış nigarın əlindən, sən ey dili-məcruh,



Əgər murad isə vermək səfayi-covhəri-ruh,
Fələk misalı yürüt sağərü şərabə səbuh.

Məni məzəmmət edib zahidə demə saleh,
İtaəti-ruxi-canan ümumədir vazeh,
Açarsa yar üzünü zahidi edər valeh,
Buyurma tövbə mənə ol şərabdan naseh
Ki, görsə onu tutar əzm tərki-tövbə Nəsuh.

Gözümdə yoxdu mənim badədən gözəl bir şey,
Şərabi-ləli-ləbin həsrətin çəkim ta key,
Bizə bu badədi tahir ki, nuşi eydir ey,
Hücumi-qəmdə mənə onu etdi zövrəqi-mey
Kim, etmədi onu yufan dəmində kəştiyi-Nuh.

Məni fəraq oduna yandırıbdı lutfi-kəmin,
Füzun olur günü gündən mənə neçün sitəmin,
Kəm oldu başıma sayən, qəlildir kərəmin,
Müdam çeşminə qan doldurur xədəngi-qəmin,
Yuva başımda tutan quşları edir məçruh.

Nə novi sakit olar aşiqin fəğan dili,
Yetişməz olsa onun daməni-nigara əli,
Xəyal eyləməyin gözlərinə xab gəli,
Dil oldu tiği-fəraqinlə şərhə-şərhə, vəli,
Nə sud, olmadı bu hali-dil sənə məşruh.

Demə ki, eylədi könlüm mujən xədənginə bim,
Onu fərəhlə göztələr tənimdə qəlbi-səmim,
Nə qədri ox dilə yetsə səadətimdir mənim,
Tənimdə sancılı navəklərinlə şadəm kim,
Dəri-bəla bu kilid ilədir mənə məftuh.

Həmişə Nobəri sən eylə aruzuyi-vüsal
Məqami-hicridədir vəslinə ümmidü xəyal,
Fəraqi-yar dəvami degil ki, mah ilə sal,
Füzuli oldu onun fikri ilə muy misal,
Hənuz bilmədi ol sirrə ehtimali-vüzuh.

-60-

Sübhin nəsimi zülfun ətrilə tutdu xoş meh,
Dil həzz alıb bu mehdən hər sübh oldu valeh,
Sən ey nəsimi, subhin ol bir qulami-saleh,
Ol mişk bu qəzalə ixlasım eylə vazeh,
Bəliği səba səlamən miskiyyətər-rəvayih[1].

Ol surəti-məlihə oxşarmı bir şəmail,
Bu hüsni-binəzirə könlüm olubdı mayil,
Sən məhvəli-nigarə hər gün olanda daxil,
Olacaq həbibə vasil bizdən sən olma qafil,
Latəqtəür-rəsail, latəktümüs sərayih[1].

Hicran şəbində ahım yandırdı cismü canı,
Dərdin desin nigarə, yox bu dilin bəyanı,
Dildən töksə dərdim məmlu edər cəhanı,
Yüzdə sirişk qanı, söylər qəmi-nihanı,
Qəd təzhərü-məani bil-xətti fil-ləvaih[2].

---

[1] Tərcüməsi: Ey səhər yeli, məndən mişk qoxulu salam yetir.
[1] Tərcüməsi:məktubları məndən kəsmə, ürəyindəkini məndən gizləmə.
Tərcümələr Füzuli "Əsərləri" nin 1958-ci il nəşrində olduğu kimi verilir.
[2] Tərcüməsi: Mənalar lövhələr üzərində xətt ilə zahir olur.



Sinəmdə zəxmi-peykan, bağrım tənimdə şan-şan,
Mülki-dilimdi viran, təğyirə yoxdur imkan,
Üzdən qəmim nümayan, bilmiş bunu hər insan,
Mən mübtəlayi-hicran, məndən kanar canan,
Vəl-ömrü keyfə məkan mislür-riyahi rayih[3].

Nobər, qalınca ağlar, cananı et xəbərdar,
Sən əndəlibi-gülzar, güldən gözəl o ruxsar,
Qıl yarə eşqi izhar, dərd ilə qalma, zinhar,
Eşqi Füzuliyi-zar, tərk etmək oldu düşvar,
Ya arifən bima sar latüksirin-nəsayih[4].

-61-

Göz kimi eşq əhlinə qatilü xunxarə yox,
Aşiqi-zari çəkən zülf kimi darə, yox,
Mən kimi bu sahədə bəxti olan qarə yox,
Kimsədə ruxsarına taqəti-nəzzarə yox,
Aşiqi öldürdü şövq, bir nəzərə çarə yox.

Səndən ötər hicridə ağlaram sübhü-şam,
Şami-fəraqə mənim yoxdu gözümdə mənam,
Asibi-hicranidən vəslin alar intiqam
Bağrı bütünlər mənə tənə edərlər müdam,
Halımı şərh etməyə bir cigəri parə yox.

Dərdini dil hicridə söylə, kimə söyləsin?
Tərk qılıb gül üzun, hansı güli iynəsin,
Varmı olan əhli-dil qəmlərini dinləsin,

---

[3] Tərcüməsi: Ömür nə cür olursa olsun, külək kimi əsib gedəndir.
[4] Tərcüməsi: Ey olan şeyləri bilən, çox nəsihət etmə.

Yığdı mənim başıma dəhrü qəmin, neyləsin,
Badieyi-eşqdə mən kimi avarə yox.

İzn verərsənmi bu dərdi-dilim söyləsəm,
Xaki-dərü payını busə qılıb iyləsəm,
Qonçə ləbindən sənin durru-sözün dinləsəm,
Dəhrdə səntək gözəl var, yeri yox söyləsəm,
Var gözəl çox, vəli sən kimi xunxarə yox.

Kəsrəti-ahim əgər eyləsə dildə dəvam,
Dudi-dilim eyləyir yer üzünü misli-şam.
Ulduza bənzətsələr əşkimi der fikri-xam,
Gözdə gəzib cizginir qətrəyi-əşkin mudam,
Qətrəyi-əşkim kimi çərxdə səyarə yox.

Yox dilimin dərdinə çarə dəvadan nəsib,
Mərhəmü[1] dərman dilim dərdinə olmuş rəqib,
Eylər onun çarəsin dərdə salan bir həbib,
Çak görüb sinəmi qılma əlacım, təbib,
Zaye olur mərhəmin, məndə bitər yarə yox.

Yarə deyə bilmədi dərdi-dilin Nobəri,
Olmadı mümkün tuta daməni-yarı əli,
Qüsseyü qəmdir soran qanını guya zəli,
Zarlıqım eşqdən var, Füzuli, vəli,
Ol məhi bədmehrdən rəhm məni-zarə yox.

---

[1] Olsun ki " məlhəm" sözü əvəzinə işlədib. Sonrakı beytdə də eyni məzmunda işlənib.



-62-

Bəhs edər arezi-meygunilə gövhər kustax,
Olmaz ol mərtəbəyə nail ola hər kustax,
Qəddin ilə çəkişir sərvi-sənubər kustax,
Nola gər qusca miyanın kəməri-zər kustax,
Gətirib ortaya çoxları zər, eylər kustax.

Naleyi-neydən olur xəlqə rümuzat əyan,
Rəqsi-mütrübdən alır zövqi-dilə mərdü zənan,
Dil tərənnüm gətirir, dildə olur boylə bəyan,
Xakı-sağər, kili-Cəmişddir, ey piri-muğan,
Xəbər et saqiyə kimi, tutmaya sağər kustax.

Yar şümşad əlinə şanə tutarkan hər gün,
Cismindən könlüm olur səmti-nigarə sürgün,
Çırpınır sinədə dil rəşk eylirkən düzgün,
Rəşk odilə yaxılır rişteyi-canım ki, neçün,
Dəyər ol arizə geysuyi-müənbər kustax.

Mehr mayildi sənin arizi-xuban şəhinə,
Baş açıq sürət edər daxil ola dərgəhinə,
Tutalım gün ki, sürər şovqini xaki-rəhinə.
Rovzənindən qoma kim gün girə xəlvətgəhinə.
Hərəmi-şahə nə lazım girə çakər kustax.

Badeyi-ləli-ləbin zovqi qılıbdır məni horr,
Talibi-ləlin olan nuş eləməz badeyi-morr,
Hakimi-şər bilir aşiqə bu badəni koor,
Həvəsim badeyi-gülgunə bu ümmid ilədir
Ki,olam məst, tutam daməni-dilbər kustax.

Nobəri, Qeys kimi qıl səgi-yarə rəğbət,
Bil qənimət bunu həm, varikən əldə fürsət,
Səgi-yar ilə dolan ol səri-kuydə rahət,
Bənzədirsən özünü itlərinə hər saət ,
Ey Füzuli, ola bilməz sənə bənzər kustax.

-63-

Meykədə icad edən ol mürşüdi-rüsvayə bax!
Ləlin ilə bəhs edir, sən bu meyi-həmrayə bax!
Zəmm edən peymanəni meyxanələrdə nayə bax!
Rəngi-ruyindən dəm vurmuş sağəri-səhbayə bax!
Afitab ilə qılır dəva, tutulmuş ayə bax!

Gözlərimdir həsrəti-ruyində yarın əşkbar,
Tirədir zülfi-siyahdan şamu ruzim bərqərar,
Laləvəş ləli-ləbindən bağrım olmuş dağdar,
Ey səlamət əhli, ol ruxsarə baxma, zinhar!
Etiraz eylə məlamətdən, məni-rüsvayə bax!

Leylidən ziba üzün, Şirindən şirin dilin,
Şanə olsun əllərim, tutsun onu şimşad əlin,
Bu dili-məcruhimin rəncin götürsün hər telin,
Şəm başından çıxarmış dud şövqi-kakilin,
Boylə kutah ömr ilə başındakı sövdaya bax!

Məskən etmiş arizi cananı xali-hinduvəş,
Daxil olmaz bəs neçin rizvanə söylərlər həbəş,
Bu sözün həqqində var könlümdə xeyli kəşməkəş,
Bildi eşqində namədpuş olduqum ayinəvəş,



Rəhm edib hərgiz mənə baxmaz, bu istiqnayə bax!

Dilbərin hicranını eşq əhli olmaz tərk edən,
Eşqə salmışdır onu bir dilbəri-nazik bədən,
Dişrə dil çıxmaq dilər, min dərdü qəmdən, sinədən,
Sinəmi çak eylə, gör dil iztirabın eşqdən,
Rovzən aç, hərdəm həvadən movc uran dəryayə bax!

Ehtiyacım surəti-zibadəki təsvirədir,
Dil rücuyi sahiri-çeşmindəki təsxirədir,
Hicr ilə viran olan dil hacəti təyirədir,
Ey gözüm, bu şami-iqbalın nə üzdən tirədir?
Sayə salmış ayə gün, gisuyi-ənbərsayə bax!

Nobəra, bu eşdən mən eyləməz fasih məni,
Aləmi-ərvahidən mən geymişəm pirahəni,
Saxlaram ol pirahən içrə nigarə bu təni,
Ey Füzuli, hər necə mən eyləsə naseh səni,
Baxma onun qovlinə, bir çohreyi-zibayə bax!

-64-

Arizin misli olan bir no güli-gülzar yox,
Nərgizi məstin kimi həm nərgizi-xummar yox,
Öylə zibasan, sənin noqsanına guftar yox,
Ləblərintək ləlü ləfzintək dürri-şəhvar yox,
Ləlu gövhər çox, ləbintək ləli-gövhərbar yox.

Mən ki, məsti-eşq olub idraku huşumdan kəməm,
Firqəti-hicraniun rəncidə dildən möhkəməm,
Mehrini tərk etmərəm, hicranidə müştaqi-qəməm,
Yox deyib lutfün sənin üşşaqə, cövrün var deməm,

Məsti-şövqi-zövqinəm, birdir yanımda var, yox.

Mümkün olmur gizləmək eldən bu rəngi-zərdimi,
Saxlamır purkaleyi-dil təndə ahi-sərdimi,
Ağlamaqdan doymayır hicrində göz mərdumi,
Kimə izhar eyləyim bilməm bu pünhan dərdimi,
Var yüz min dərdi-pünhan, qüdrəti-izhar yox.

Bəni dilimdən ün tutub, səhrayə salmış naləmi,
Bərgi-gül gözdən tutar giryan olan dəm jaləmi,
Doldurubdur qanilən hicrində qəm purkaləmi,
Dəhr sərməst-şərabi-qəflət etmiş aləmi,
Bunca sərməstin tamaşasına bir hüşyar yox.

Qüssədir sənsiz verən mülki-dilü canə xələl,
Kimsə bu dərdi-dili-bimarıma qoymaz məhəl,
Qorxuram həsrət qalam ruxsara, dərk etsün əcəl,
Xəlqi mədhuş eyləmiş xabi-şəbi-tuli-əməl,
Sübh təhqiqi əlamətinə bir bidar yox.

Dil gedib qalsın gərək bir sən kimi cananədə,
Olmasın fikri onun kaşaneyi-şahanədə,
Çoxların meyli qalıb bütlər kimi əfsanədə,
Surəti ziba sənəmlər çox demün bütxanədə,
Var çox, amma sənə bənzər büti-xunxar yox.

Qeydi-dünyadan gərək aşiq dili ari ola,
Bir qəmi ancaq onun dildaridən vari ola,
Aşiqin ey Nobəri, lazım gəlir yarı ola,
Ey Füzuli, səhlidir hər qəm ki, qəmxari ola,
Qəm budur kim, məndə min qəm var, bir qəmxar yox.



-65-

Qaliba gərdun çəkir cananıdan mən kimi dərd,
Zahir eylər sübhdən qəmnak dildən ahi-sərd,
Gəh hərarət göstərər, gəh heyrət eylər ani bərd,
Gərmdir şamü səhər mehrinlə çərxi-lacivərd,
Gəh sirişki-al edər izharü, gəh ruxsari-zərd.

Var yüz min dərdü qəm eldən nihan sinəmdə kim,
Dürrilər cövlan edər bu dideyi-purnəmdə kim,
Oxşayar dövran mənə giryan olanım dəmdə kim,
Sübhə bənzər aşiqi-sadiq dəmi aləmdə kim,
Bir nəfəs çəkməz ki, çəkməz suzi-dildən ahi-sərd.

Xilqəti-əvvəldə hər aşiq bular öz yarını,
Vəslinə bilmiş baha canü dil ilə varını,
Müşkə təbdil eyləməz zülfi-siyahın tarını,
Yaxşı sanma, ey könül, əhli-xirəd ətvarını,
Olma qafil, eşq dərdindən yaman olmaz bu dərd.

Atəşi-hicranına can yandırıb aşiq dözər,
Eşqdən Məcnun olan dəştü biyabanlar gəzər,
Kəc bilibdir gərdişi-dəhri, kəsib ondan nəzər,
Mümkün olduqca fələk mənsubəsindən qıl həzər,
Netə kim, xali degil bidad nəqşindən bu nərd.

Mehri-cananım dilü canımda olmuş müstəqim,
Mehribanımdır mənim, onunladır rahat tənim,
Hər kəsə qeyz eyləsə var söhbəti mənlə həlim,
Zülməti-qəm istirabın çəkməz ol azadə kim,
Hər təəllüqdən ola xurşidvəş aləmdə fərd.

Şövqdən, ey Nobəri, titrər dilim manəndi-bid,
Firqətə səbr eyləyib vəslindən olmam naümid,
Gərçe heyrətdir olan hicrində ağzıma kilid,
Ey Füzuli, kəsmə ol məhvəş vusalından ümid,
Səbr qıl kim, dövr dovranı degil bihudə gərd.

-66-

Olmadı könlüm kimi bir zarü müztər dərdmənd,
Gəldi naləm ol məhi-tabanə hicrində pəsənd,
Tutmaq könlümü zülfün qılıbdır bir kəmənd,
Nalədəndir ney kimi avazeyi-eşqim bulənd,
Nalə tərkim qılmazam neytək kəsilsəm bənd-bənd.

Xarə məskəndir könül gülzarıda ağuşi-gül,
Həm sənə ağyar var istərsən ağla, ya ki, gül,
Həsrəti-ruxsar olan bu gözlərə bir çarə bul,
Qıl mədəd, ey bəxt yoxsa kami-dil mümkün degil,
Oylə kim, ol dilrüba bidərddir, mən dərdmənd.

Kimsə məntək atəşi-hicranilə odlanmamış,
Şamidə nar olduğun pərvanə könlüm qanmamış,
Toxunan pərvanəvəş şəmə olarmı yanmamış,
Dağlərdir odlu köksümdə qarası qopmamış,
Ya səbati-eşq üçün od üzrə bir neçə sipənd.

Eşqiün soltaniyam başımda fovci-qəm durub,
Dildə müjganım oxu bir qələyi-möhkəm qurub,
Ziri-səqfi-sinəmə əffacilə qəmlər dolub,
Açılır könlüm gəhi kim giryəyi-təlxim görüb,
Açar ol gülrux təbəssüm birlə ləli-nuşxənd.



Eşqiün bazarına can əldədir sərmayətək,
Can əlimdə gəlmişəm bu örtülü sovdayə tək,
İzn ver qurban olum ol qaməti-minayə tək,
Xaki-rahindən məni qaldıra bilməz sayə tək,
Qılsa gərdun aftabın şuasın bir kəmənd.

Fikri-nafərcam ilə, ey dil, dayanmaq ta bəkey,
Gör səni izhar edən kimdir ona ver souti-hey,
Düş qürürindən, səril payeyi-nigarə mesli-biy,
Cam tut der, saqiyi-gülçöhrə, zəhid, tərki-mey,
Ey könül, fikr eylə, gör hansı biridir sudmənd.

Nobəri, pəndim eşit, oftadəliklə ömr sür,
Şəhdtək şərinlə şub xərdil misalı olma mürr,
Məhfəli-ürfanıda bu sözlərin manəndi-dür,
Ey Füzuli, surəti-halın qəbuli-dustdur,
Hiç dərvişi sənintək görmədim sultanpəsənd.

-67-

Arizin görcək olur tutqun dilim sinəmdə şad,
Dil tutur bu sahədə hər dəm gözə layiq irad,
Həqlidir könlüm mənim, düzgündür onda etiqad,
Göz xətindən mərdumin məhv etmədən bulmaz murad,
Zaye eylər hüsnünü xəttin savad üzrə savad.

Mən qılsan ruyidən əfzun qılar dil dərdimi,
Qaldırar göy səmtinə hər ləhzə ahi-sərdimi,
Göz deyər rəsmi-ümumi-aləmə müncər deymimi,
Ola bilməz çini-zülfündən cüda göz mərdümi,
Caridur hər yan bu adət türrəsiz olmaz mədad.

Arizin görsün gözüm hər saniyə istərdi, leyk,
Bu məramə şoq ilə rəğbət könül bəslərdi, leyk,
Rəhmilidirsə gözün, qəlbin sitampərvərdi, leyk,
Könlüm ol gözdən tərəhüm surətin göstərdi, leyk,
Mövc edən su nəqşinə çox etmək olmaz etimad.

Kəsrəti-fəryadidən el tutmayır unsiyyətim,
Nalədən həmsayələr həkk eyləmişlər hörmətim,
Rəhguzarında sənin giryandı çeşmi-həsrətim,
Əşkü ahim nifrəti qət etmiş eldən ülfətim,
Cizginən çövrəmdədir girdabdır, ya girdibad.

Heyrət almışdır tənim, sinəmdə yox asari-dəm,
Gördi hicranında dil səndən qəmü covrü sitəm,
Bir dəmi olmuş deyu, dildən mujən peykani kəm,
Kecdi təndən oxların tənha qalıb dil, dəmbədəm
Nalələr eylər, gecə həmdəmlərin etdikcə yad.

Şükr kim, könlüm çıxıb təndən, düşüb doğru yola,
Laübali yol gedir, hərdəm baxır sağü sola,
İstəyir cananına doğru olan bir yol bula,
Çaki-sinəmdə könül çıxdısa şad olsam nola,
Belə afətdən yaxasın qurtaran olmazmı şad?

Qəddin olmuş ol bağ ərə ol bağıbanə rəşki-can,
Sərv bağ içrə durar, qəddin olur hər yan rəvan,
Oldu heyran bu qəddi-mozuna lalü bizəban,
Şiveyi-şimşad qəddin görsə eylər bağban,
Etidali-sərvdən əlbəttə səlbi-etiqad.

Nobərin dərmanıdır meygun dodaq, ləlü sib,



Yarıdan olsun dilim dərmanı, ya Rəbbim, nəsib,
Ol təbib dərdi-eşqim etməsin mekru fərib,
Qoyma naqis əhli-dərd içrə Füzulini, təbib,
Eylə bir dərman ki, dərdin edə gün-gündən ziyad.

-68-

Mənzəri-qəddin dilə sərvü sənubərtək ləziz,
Şövqi-ruyin ruhinə gülbərgi-əhmərtək ləziz,
Nəşəyi meytək olmaz ol çeşmi-müxəmmərtək ləziz,
Ey məzaqi-canə cövrin şəhdü-səkkərtək ləziz,
Aşiqə zəhri-qəmin qəndi-mukərrərtək ləziz.

Oldu mehri arizin dil guşəsində müstəqim,
Aşiqə kuyi-sərin bir bağı-rizvandır nəim,
Hurivəş sən mehriban, rəftarı xoş, xülqi həlim,
Firqətin bir əxkəri-cansuzi-duzəxtək əlim,
Cüreyi-cami-vusalın abi-kovsərtək ləziz.

Ah kim, eşq əhlinə kəc dovr olur bu dovri-çərx,
Bir məta ....[1] kimi yox aşiqə şayani-nerx,
Göz bulağın eyləmiş hicranidə manədi-ərx,
Şərhi-əhvalım sənə yetsə nəsihət kimi təlx,
Təlx guftarın mənə məxmuri-sağərtək ləziz.

Damənindən möhnətü ənduh olubdur dəstgir,
Mən qulami-kəmtərin, sən bir səxavətli əmir,
Murği-dil damə düşüb zülfündədir könlüm əsir,
Dilə eşqin dərdi zövqi-səltənət tək dilpəzir,

[1] Sözü oxumaq olmadı.

Xaki-kuyin seyri fəthi-həft kişvərtək ləziz.

Çəkmərəm ta var nəfəs canımda kuyindən ayaq,
Arizindir şəmvəş üşşaqi-bəzmində çıraq,
Eşq üsulin bilməyən məndən gəlib tutsun soraq,
Nola bulsam zövq mən köpdükcə bu sinəmdə dağ,
Əhli-dərdə dağ olur, bidərdə zivərtək ləziz.

Cəm qıldım möhnəti, dərdi dili-nalanıma,
Hasili dərdü qəmin oldu kəvvarə canıma,
Şovqindədir, baxmayın bu dideyi-giryanıma,
Tazə-tazə daği-dərdindir dili-suzanıma,
Filməsəl hirs əhlinə cəmiyyəti-zərtək ləziz.

Nobəra, çox görmüşəm nazü etabın dilbərin,
Arizi-humrasını, şəhdü müsəffa ləblərin,
Toxmi-reyhan xalını, qəndabü ruxsarə tərin,
Ey Füzuli, aləmin gördüm hamu nemətlərin,
Hiç nemət görmədim didari-dilbərtək ləziz,

-69-

Ver təravət zülfinə, güzgiyə hər gün qarşı dur,
Zülf ilə ruxsarə bax, tut qəlbinə ondan sürur,
Lütf qıl ayinayə, hər gündə ver feyzi-hüzur,
Cilveyi-əksi-ruxun ayinədə, ey rəşki-hur,
Rövşən etmiş onu kim xurşiddəndir ayə nur.

Qəm qubaridir tutan sərçeşmeyi-əşkin gözün,
İstəyir dil tovlasın əşkilə bir yerdə özün,
Var olur hər noqtənin cayi müəyyən, hər sözün,
Bərgi-ahim göy üzün tutmuş, sirişkim yer üzün,



Söhbətimdən həm vühuş eylər tənəffür, həm tüyur.

Həsrətindir eyləyən rüxsarımın rəngini zərd,
Sancılıbdır bağrıma peykani-qəmzən fərd-fərd,
Dərdimin tədbirinə nayabidir əhli-xirəd,
Eşq rəsmi gər budur, müşkül yetə dərmanə dərd,
Dərdin əhli bizəban, bidərdlər məsti-qürur.

Aləmə məşhurdur- vermiş ziyanı ayə gün,
Hər kəsə məlumdur, bilmiş bunu aləm bütün,
Rövşən eylər məhfəlim, ey mehri-taban, günbəgün,
Daği-dilsuzim fəraqın qıldı gün-gundən füzun,
Nuri-mah əfzun olur, xurşididən olduqca dur.

Ol zaman kim, eylədi mehrin dili-zarə vürud,
Xaneyi-dildən çıxar əflakə sənsiz tirə dud,
Ah kim, hicranına vəqt olmadı, qəhrə hüdud,
Vədeyi-vəslin çox, əmma bəxt yar olmaz, nə sud,
Gül gətirməz abi-şirin vermək ilə xaki-şur.

Yadi-ruxsar eylədim, gəzdim sərasər gülşəni,
Gördüm oxşar naləmə gülşəndə bülbül şivəni,
Xatir etdim zulfünü görcək çəməndə susəni,
Tari-zülfündürmü ruxsarında canlar məskəni,
Ya buraxmış türrəyi-purçəmü xəm gülzarə mur.

Qüssəvü qəmdir tutan hicranıda dovrü bərim,
Bürci-naməsudidə sakinmi olmuş əxtərim,
Etməz olmuş Nobəri, vəslin muəyyən dilbərim,
Olsa kuyi itləri içrə, Füzuli, gər yerim,
Bəs mənə matəmsəra, mən qandanü bəzmi-sürur?

-70-

Şəbi-hicran yataq içrə yanan bu cism, bu təndir,
Dili-zarımda ta sənsiz fəğanü dadü şivəndir,
Həriqi-hicrə tab etsə könül manəndi-ahəndir,
Yanan eşq atəşinə atəşi-duzəxdən eymənidir,
Nə kim, bir kəz yanar, yandırmaq onu qeyri-mümkün-
dür.

Degildir kimsə bu bəhri-dilim tufanına agah,
Bu bəhri-eşqdə çoxdur olan tufanıdan ikrah,
Gəlir movcə könül bəhri çəkincə dəmbədəmlər ah,
Buraxdım zövrəqi-dil eşq bəhrinə, saqin, ey mah,
Təməvvüc verməsin təşviş ona kim onda sakindir.

Təkəllüm eylədikcə sən, dəhən əyan etmiş,
Dəhanın mari-gisuni büküncə pasban etmiş,
Əli yetməzlər ol gecə belə zənnü guman etmiş,
Dəhanın dürcini xali-ləbin gözdən nihan etmiş,
Əmanət gör ki, hindu məxzəni-lölöyə xazindir.

Səmumi-hicridən bərgi-ümidim solduğun bildim,
Könül gülzarına zağ sitəmlər tutduğun bildim,
Müjəm amacı sinəmdədir, onun həm nolduğun bildim,
Qəmin kim, tökdü qanım, dildə sakin o olduğun bildim
Ki, xəlvət çəkməyin təsiri kəşfi-sirri-batindir.

Dilə peykan yetə gözdən dəmadən, olmaram ikrah,
Ona şövq ilə dil çaki-giribanım edər işrah,
Olar şadan könül təndə, oxun yetsə ona hərgah,
Ciyər dağına mərhəm oldu peykanın-bihəmdillah,



Səadət kovkəbinə əxtəri-bəxtim müqarindir.

Yüzün şövqi ilə bəhs etsin, olur mütləq günəş aciz,
Olubdur mərhəmət səndən, işıq verməzdir ol hərgiz,
Götürmüş nurunu səndən, yüzinə mində bir faiz,
Ruxundən nur oğurlar şəm, başin kəssələr caiz,
Budur bir qul sərəncami ki, sultaninə xaindir.

Dilim əl çəkməz, ey Nobəri, ölüncə yar zikrindən,
Nigarın eşqi qutarmış onu bu dar mekrindən,
Lisanı həmddədir sorsan onu qəbr içrə nəkrindən,
Füzuli, xali olmaz surəti-dil dost fikrindən,
Bu mənada ki beytullah deyərlər qəlbi-mömindir.

-71-

Hər sədası naləmin cananıma bir namədir,
Gün keçər bir noilən, təşvişi-könlüm şamədir,
Təşnədir meyli dilim ləli-ləbü gülfamədir,
Çeşmi-atəşbarıma müjgan səfi həngamədir,
Qanə batmiş hər müjəm bir şuxi-gülguncamədir.

Hüsninə məzurisən, eşq əhlinə yetməz yədin,
Eşqi verdin aşiqə, əğyarə layiq görmədin,
Cövr qılsan lutfdir, eşq əhlinə yetməz bədin,
Göstərər hərdəm əlamətlər qiyamətdən qədin,
Qaim etmiş həşr burhanın, əcəb əllamədir.

Qoymusan üşşaqini hicrində ahü zaridə,
Bir fərəh olmuş bu həm, rəşq eyləyün əğyaridə,
Qüssəvü dərdü ələm çoxdur dili-bimaridə,
Ol kaman əbruların sərgərmiyəm ruxsaridə,

Hər sözün bir dərdi-dil imlasına bir namədir.

Heyrət ey büt, aşiqin ağzin yumar bir daş edər,
Şami-hicrin könlümü qəm qucına yoldaş edər,
Göz rəvaqin həsrətin dil qüssəsindən yaş edər,
Üzdə nəqşi-xuni-dil razü niyazım faş edər,
Şərhi-qəm təhrinə hər kiprigim bir xamədir.

Razı olmuş dilbərim səhrayi-dildən qəm keçə,
Qəm həramisi onun ömrün verə axir heçə,
Aşiqin qanın gərək ol qəmzeyi-xunxar içə,
Qorxum oldur kim, müsəman olmuş ol tərsabeçə,
Küfrə olan zülmlər təni bu gün islamədir.

Ey könül, eşq əhlinin kamıncadır itməz bu dövr,
İştibah etsən əgər Məcnun ilə Fərhadı sor,
Belədir mütləq ki, yox ol qudrəti-xəllaqə zor,
Ey səba, rəhm et ki, ol bidərd qılmış tərki-covr,
Çareyi-dərdi-dilim movquf bir elamədir.

Çəkmə, ey Nobər, cahan qeydi ilə min cövrü cəfa,
Gözləmə bimehr olan ziba sənəmlərdən vəfa,
Abidi, zahidləri, vaizləri əhli-riya,
Ey Füzuli, bulmadım rəngi-riyadan bir səfa,
Nola gər meylim bu rəng ilə meyi-gülfamədir.

-72-

Xumar nərgizi-məstin edər xumarə əsər,
Dimağı tər eyləyər nəşəyi-səbuhi-səhər,
Bu badədən yenə bir cam doldu, bari-digər,
Səbuh üçun mənə dürdi-meyi-şəbanə yetər,



Əsər ki var, xərab olmağa bəhanə yetər.

Xədəngi-qəmzeyi-canan edibdi sinəmi çak,
Bu qədri yaraliyə yarədən dubarə nə bak,
Minimcə eyni-yəqindir ki, canım ola həlak,
Cəfa odunu mənə yağdır, ancaq ey əflak,
Demin ki, yeddi kəmandarə bir nişanə yetər.

Bu suzəşi-dilimin suzi-tən nişanələri,
Təvaf edər tənimi ahin zəbanələri,
Nigar söndürəcək od tutan bir xanələri,
Bəyanə yetmək üçün dərdü qəm fəsanələri,
Dəmadəm atəşi-dildən çıxar zəbanə yetər.

Ol qədri çəkmişəm ol dilbərin cəfasını kim,
Şəbi-fəraqidə qəmü qüssələr əzabını kim,
Necə deyim gözümün hicridə bukasını kim,
Qopardı mərdumi-çeşmi könül binasını kim,
Hübabi-əşkə həva nəqdinə bəhanə yetər.

Qəmində tökdü gözüm qətrə-qətrə əşki bəsər,
Müqərrər oldu fəğanım müdam şamü səhər,
Tərəhhüm eyləgilən aşiqə sən ey dilbər,
Ləbin xəyalı ilə parə-parə oldu cigər,
Guvahi-hal mənə əşki-danə-danə yetər.

Qəmində səfheyi-sinəm dilə kitabım olub,
Şərari-şöleyi-ahim şəbi aftabım olub,
Yanarkan eşq oduna, dil-cigər kababım olub,
Hərifi-bəzm-qəməm, xunu-dil şərabım olub,
Təraneyi-tərəbim ahi-aşiqanə yetər.

Nigar vəsli olur murdə cism ruhi-cədid,
Bu halə Nobəri, mütləq gərəkdi bəxti-səid,
Ümum aşiqə sən bu sözü eylə təkid,
Füzuli, istəməzəm məsnədi-Cəmü Cəmşid,
Mənə nəşiməni-dovlət şərabxanə yetər.

-73-

Hər şəbi-hicran mənə ahimlə taban ruz olur,
Bəstərim ta sübhədək bir atəşi-cansuz olur,
Nitqimi heyrət tutur, canım beeynə buz olur,
Şöleyi-şəmi-ruxun əğyarə bəzməfruz olur,
Ah kim, yetəcək mənə bir bərqi-aləmsuz olur,

Xubru olsun gərək ünsiyyət üzrə xoş sifət,
Aşiqə üz göstərib, etsin onunla ünsiyət,
Hər gözəl simalara lazım gəlir xoş xasiyət,
Qeyri çeşmindən bulur hərdəm nigahi-mərhəmət,
Mən qıldım kim, nəsibim navəki-dilduz olur.

Hər gecə rovşən qılır fikri-camalın könlümü,
Mayili-didar edir ruxsarı alın könlümü,
Arzuyi-vəsilə tutumuş xəyalın könlümü,
Hər gün açar yenidən zovqi-vüsalın könlümü,
Gərçi güllər açmağa hər ildə bir novruz olur.

Bir bərabərdir mənə hicranın ilə sübhü şam,
Gündüzə dil rahatı yoxdur, gecə gözdə mənam,
Sən mənə zülm eylədin, rahatlığım qıldın həram,
Baləvəş çıxmaz evindən mahtələtlər müdam,
Hər kimin dövri-qəmərdə talei əfruz olur.



Aşiyani-murği-dil cananımın zülfi-xəmi,
Nə təəcübdür ki, quş sakindir adəm ba həmi,
Dəstpərvərdə quşun Nobər, nə adəmdən qəmi,
Saidin zövqilə tərk etmiş Füzuli aləmi,
Meyli-səhra eyləməz hər quş ki, dəstamuz olur.

-74-

Xofi-mujanla göz nəzəri-asman tutar,
Dil xofidən özini vicudumda yan tutar,
Pur kasına qəm dolur, ahü fəğan tutar,
Gəh gözdə, gəh könüldə xədəgin məkan tutar,
Hər yerdə olsa qanlını əlbəttə qan tutar.

Göz mərdümi nəzər yetirər mah ruyinə,
Murği-dilim həvəslidi gisudə muyinə,
Pərvaz edər təlaş ilə, gəlsundə suyinə,
Dil çəksə nola canü dili xaki-kuyinə,
Xarü xəs istər onda ki, quş aşyan tutar.

Şəhdi-ləbin məzaqinə könlümdi bir məkəs,
Qonsun dodaq şəhdinə, hər dəm edər həvəs,
Şahmar zülfi ram eyləsəm şöhrətimdi bəs,
Zikri-ləbinlə zülfünə can buldu dəstrəs,
Onun kimi ki, oxuyub əfsun ilan tutar.

Bilmək məhali-əmridi-sirri-ləbanını,
Seyr eyləmək çətindi səngi-gülüstanını,
Nadanlara yetirmə könül bu bəyanını,
Dil tutdu qonçə ilə bərabər dəhanını,
Bu əqli-naqis ilə özün nüqtədan tutar.

Bir yerdə yoxdu sərvi-çəməntək iqamətin,
Məşhurdur ümumə xuraman ələmətin,
Həqdir nə qədri aşiqə olsa nədamətin,
Can eylədikcə meyli-təmaşayi-qamətin,
Göz rovzənin şirişki-rəvanım rəvan tutar.

Nobər, gərəkdi kami-dilə bəxt yar ola,
Canan yanında aşiqə bir etibar ola,
Məftun ruyi olmaq ona aşkar ola,
İstər Füzuli xadimi-dərgahi-yar ola,
Bu sirri kimsəyə aça bilməz, nihan tutar.

-75-

Damadəm dad, fəryad dilim covrü cəfadandır,
Rəqibin yoxdu təqsiri, məlalım aşinadandır,
Özüm də talibi-covrəm, neçun kim, məhliqadandır,
Xoşam kim, dəmbədəm giryan gözüm ol xaki-padandır,
Ziyanı yoxdur ol göz yaşının kim, tutiyadandır.

Könül çox iztirab eylər kəman əbru hilalindan,
Baxırsan kəc nigahilə, olur qəmin bu halından,
Dolur purkaleyi-könlüm qəmü dərdü məlalindan,
Dəmadəm mərdumi-çeşmim içər qan zülfü xalından,
Bəli əksər məaşı əhli-dəryanın qəradəndır.

Toxunmuş sinəmə hər yan sitəmlə qəmzələr tiri,
Əcəb səyyadisan tutdun məharətlə bu nəxirçi,
Gözüm öyrətdi, ya qaşın sənə bu mekrü təzviri,
Demə Fərhad qanın tökmüş ancaq eşq şəmşiri,
Mənim gör qanlı göz yaşım, bu həm ol macəradandır.



Olur buyi sərü zülfün nəsimi-sübhidən peyda,
Dəmağıma gəlir ətrin, yanında durmuşam guya,
Bir az qalmış olam Məcnun, tuta məndə rəhi-səhra,
Müənbər sünbülündən almadan bu, olmadan rusva,
Bu rusvaliq mənə səndən degil, badi-səbadandır.

Xəyalinlə məni heyrət tutur, guya mən laləm,
Degil bu heyrətim bir gün, davamında məhü saləm,
Cununi-eşqəm, ey zahid, bunu bilmiş hamı aləm,
Hubabi-əşq içində muyi-julidəmlə xoşhaləm,
Başımda bu hümayun sayə ol alibinadandır.

Bu qədri covr haqqımda degil cananından əsla,
Dilə əğyaridən olmuş qəmü möhnət, ələm peyda,
Yetişmir daməni-vəslə əlim, qıldın məni rusva,
Vəfa rəsmin unutmuşsan deyə incimərəm zira,
Bu kim məndən cəfa kəm eyləməzsən, həm vəfadandır.

Məzacın təlx qılmaz dil rəhi-eşqində hər sözdən,
İnansa hər sözə aşiq, yəqindir kim, düşər gözdən,
Gərək isbat ola hər iş, müqərrar oldu bu sözdən,
Kəmali-hüsni-məşrəb, ali olmaqdır təərrözdən,
Riya əhlinə həm çox etiraz etmək riyadandır.

Fəğanı kəm qıl, ey Nobər, olar səndən nigar ikrəh,
Qəmə aludə çox olma, qəm eylər ömrümü kutəh,
Ümüdi-vəsli-canan ol, mürəvvət kandir ol şəh,
Füzuli, tökmə çox yaş, ehtiyat et getməsin nagəh,
Gözündən sürmə kim, gerdi-rəhi-əhli-səfadandır.

-76-

Xəzan təsiri mən əzmi-gülüstan etdigimdəndir,
Saralmış güllərə ahim nümayan etdigimdəndir,
Cünun halım mənim çaki-giriban etdigimdəndir,
Pərişan xəlqi-aləm ahü əfğan etdigimdəndir,
Pərişan olduğum xəlqi pərişan etdigimdəndir,

Çəməndə güllərə şəbnəm, tərindir gül üzə jalə,
Üzün tər kumi gül olmaz çəməndə, bağıda lalə,
Dilim sənsiz düşüb dərdə, dəmadəm eyləyir nalə,
Gözüm kim, bağrımın qanın tökər purkalə-purkalə
Dəmadəm arizuyi-vəsli-canan etdigimdəndir.

Cigər qanilə olmuş üzarıma axan yaşlar,
Demə xunabeyi-həsrət şəbi-hicran yaxam boşlar,
Gedib Fərhad ilə Məcnun, əlimdən çıxdı yoldaşlar,
Degil bihudə gər yağsa fələkdən başıma daşlar,
Binasin tişeyi-ahimlə viran etdigimdəndir.

Hərimi-kuyinə fürsət tapıb punhani gəlseydim,
Sirişki-həsrətim gözdən baxıb ruxsarə silsəydim,
Səninlə şadü həmzanu olub məsrur gülsəydim,
Qaçan rüsva olardım, səbr edib qan uda bilsəydim,
Məlamət çəkdiyim hər sövda əfğan etdigimdəndir.

Dili məhzunuma lazım gəlir bir qəmküsar olmaq,
Cigər sənsiz edib adət mükəddər qan ilə dolmaq,
Sinəm bad ilə həsrətdən saralıb gül kimi solmaq,
Xəta səndən degil, canim oxundan binəsib olmaq
Hübabi-əşki-gülgun içrə pünhan etdigimdəndir.



Libasını fəqr kərbası, fəzayi-eşqdə şahəm,
Fəqihi-mülki-üşşaqəm, ləbin sirrindən agahəm,
Buladi-eşqdə Nobər, cünun Teys ilə həmrahəm,
Füzuli-ixtilati-mərdümi aləmdən ikrahəm,
Pərivəşlər xəyalın munisi-can etdigimdəndir.

-77-

Meylim məzar içində həm ahü fəğanədir,
Dişrə sirişki-al gözümdən rəvanədir,
Dudi-dilim əziməti həm asimanədir,
Qəbrim daşına kim, qəm odundan zəbanədir,
Tən oxun atma kim, xətəri çox nişanədir.

Dil doymadı fəraq şəbində fəğanidən,
Murği-dilim pər açdı uca aşiyanidən,
Təqəl eylər ol məkanə məni bu məkanidən,
Qaldırdı əşk dun məni ol asitanidən
Kim, məqsədim mənim dəxi ol astanədir.

Ərz et şifahi yarə qəmin, yazma kağızə,
Kağızdən el tutar onu ağızdan-ağızə,
Dil tərki-yar eyləsə bu tənədir bizə,
Tutma qulaq qəflət edib vəzi-vaziə,
Qəflət yuxusunun səbəbi ol fəsanədir.

Kəm eyləmə həbibinə canan, inayəti,
Yox dildəki məhəbbətimin hədü ğayəti,
Vəslin xəyalıdır dilimin iqtifayəti,
Nəzər etmişəm fəraqına kim, yox nihayəti,
Nəqdi-sirişkimi ki, tükənməz xəzanədir.

Fikrim şərabi-ləli-nigar oldu, mərhəba,
Yoxdur kudurət onda dilə, vardır səfa,
Cami-hərami tutma, edib nəfsinə cəfa,
Eylər qədəh zəmanə qəmin dəf qaliba,
Dovri-qədəh müxalifi-dovri-zəmanədir.

Çıxsın qəmin məhalıdı, qurbətdə sinədən,
Etdim qəbul qurbəti mən tənü kinədən,
Var ehtiyat qərqə gedə bu səfinədən,
Can verməyimmi qürbətə kim bimi-tənədən,
Yadi-vətən fəğanıma sənsiz bəhanədir.

Ahim necə səmalara sənsiz dayanmasın,
Pərvaneyi-dilim ruxi-şəmə dolanmasın,
Gözdən necə sirişki-rəvanım calanmasın,
Ey dil, həzər qıl atəşi-ahinlə yanmasın,
Cismim ki, dərd quşlarına aşiyanədir.

Vəsfi-nigarı, Nobəri, sən yazma bişü kəm,
Bəzmi-ədibə şerin olar xeyli müntəzəm,
El töhmətin yazan kim ola onda yox kərəm,
Məndən, Füzuli, istəmə əşarii-mədhü zəmən,
Mən aşiqəm, həmişə sözüm aşiqanədir.

-78-

Dil nigarın arizi-gülbərgi-xəndanın sevər,
Qəmzeyi-məstindəki dilduzi-peykanın sevər,
Qonçə ləblərdən olan ləfzi-dürəfşanın sevər,
Canı kim cananı üçün sevsə cananın sevər,
Canı üçün kim ki, cananın sevər, canın sevər.



Göz tökər əşki-tərin hicranıda manəndi-seyl,
Dildə qəm xəlvarıdır, zənn etməyin bir vəzn giyl,
Bir bərabərdir dilə hicran dəmi ruz ilə leyl,
Hər kimin dünyada miqdarıncadır təbində meyl,
Mən ləbi-cananımı, Xızr abi-heyvanın sevər.

Tərki-eşq etməz olan mehrindi madam ələbəd,
Dil məhəlli-sirrdir, inkar etməz bir əhəd,
Xubilərdə xeyr olar, xasiyyəti-bədruda bəd,
Başə dəm düşdükcə təqsir eyləməz, eylər məded,
Ol səbəbdən müttəsil çeşmim cigər qanın sevər.

Yoxdu hurileyndə əndam, səndə tən kimi,
Arezin gülnardır bir nov gulü gülşən kimi,
Sünbülə bəzər saçın, ətrindədir susən kimi,
Müşki-Çin avarə düşmüşdür vətəndən mən kimi,
Hansı şuxin bilməzəm zülfi-pərişanın sevər.

Qaməti-mozununa əhsənət yarın mərhəba,
Çun ona mən etmişəm xilqət dəmində can fəda,
Suti-sudən guşimə guya gəlir boylə səda,
Su ki, sərgərdan gəzir, başında vardır bir həva,
Qaliba, bir qülruxun sərvi-xuramanın sevər.

Huşumu başdan alıb, qıldın özümdən bixəbər,
Məstü məxmur olmuşam, heyrətdəyəm şamü şəhər,
Huşa gəlməkdən dəxi məndə görünməz bir əsər,
Aqibət el ağzına rusvalanıb məntək düşər
Kim ki, sərməst saqi ləli-xəndannın sevər.

Nobərə öz mahru cananı axır rəhm edib,

Qeyr ilə əğyaridən, bimehrilərdən səhm edib,
Məndəki sadiq dili ol mahruyim fəhm edib,
Nolacaqdır, tərki-eşq etmə Füzuli, vəhm edib,
Qayəti, derlər, ola bir bəndə sultanın sevər.

-79-

Tənim ey mah, eşqində cünun daği ilə pürxundur,
Olub məxlut qanilə sirişkim rəngi-gülgundur,
Qəmim Fərhad ilə Məcnun qəmindən əfzundur,
Müjəm sərçeşmələr mənzil qılan aşüftə məcnundur,
O həm pabəstəyi-zənciri-seyli-əşki-gülgundur.

Keçərsəm canıdan mümkün, vəli cananıdan keçmim,
Mənə tənə edən olsa, ona mütləq tutar xeşmim,
Neçun mən badeyi-ləli-ləbi-meyguyindən içmim,
Səvadi-noqteyi-girdabə bənzər mərdumi-çeşmim
Ki, daim ğərqeyi-ğirdabi-əşki-çeşmim purxundur.

Könül mülkinə qəm xeyli fəraqi-yar ilə dolmuş,
Qəmindən rəngü ruxsarım necə bərgi-xəzan solmuş,
Müjə peykani şovqilə dilü canım səfa bulmuş,
Xəmidə qamətim kim, daği-dildən qanə qərq olmuş,
İçində nöqtəsi guya ki, qan üstündəki nundur.

Məni tənha qoyub, canan, rəqibin yanına getmə,
Fəğanü naleyi-zarım qulaqından kanar etmə,
Əta qıl neməti-vəsli, dili bimarı incitmə,
Eşit dərdi-dilim, əfsaneyi-Məcnuna meyl etmə
Kim, ol əfsanədən həm anlanan mütləq bu məzmundur.

Demə sənsiz şəbi-hicran keçər asan, dəmi-aşiq,



Rəvandır damənə hər yan axan gözdən nəmi-aşiq,
Cəfayi-covrə tab eylər bu qəlbi-möhkəmi-aşiq,
Fərəhbəxşi-dili-məşuq olur şərhi-qəmi-aşiq,
Süruri-bəzmi-Şirin naleyi-Fərhadi-məhzundur.

Təbibim naümüd olmuş mənim bimar könlümdən,
Xəbərsiz qaldı biçarə olan naçar könlümdən,
Bilir düşvaridir, çıxmaz yetən oxlar könlümdən,
Kəməndi-çini-zülfün vəhmi getməz zar könlümdən,
Mənə ol riştəni əjdər qılan bilməm nə əfzundur.

Kimə izhar edim Nobər, qəmü dərdim məni-miskin,
Şəriki-möhnətim olsun, mənimlə ba dili-qəmgin,
Dilimdə səbrü təmkinim rəqibin artırır rəşkin,
Füzulli, vermədi tən oxları göz yaşına təskin,
Yolun bənd etmək olmaz, xaru xəşak ilə Ceyhundur.

-80-[1]

Nigarə canımı vermək mənim eynül-yəqinimdir,
Sərvi-kuyin məramımdır, bu yer cayi-əminimdir,
Əyaqın dəydiyi yerlər mənim xuldi-bərinimdir,
Qubari-səcdeyi-rahin xəti-lövhi-cəbinimdir,
Sücudi-dərgəhin sərmayeyi-dünyavu dinimdir.

Şəbi-tarikimə rovşən ziyadır şöleyi-ahim,

---

[1] Bu təxmisə "Dər vəsfi-həzrəti-Məhəmməd Əleyüssəlam" sərlövhəsi verilmişdir. O biri təxmislərin sərlövhəsi olmadığı üçün təxmisin sərlövhəsini verməmək məsləhət görüldü.

Məqamın dəsti-hacata dua vəqtində dərgahim,
Gözəllər şəhrinə şəhsən müruvətli olan şahim,
Əğər əzmi-rah etsəm şövqi vəslin hadiyi-rahim,
Və gər aram tutsam həm, xəyalın həmnəşinimdir.

Şərabi-tahririm ləlim, müsavi abi-heyvanım,
Mərizi-eşq olan gündən müəyyəndir dərmanım,
Tərəhüm qıl əlac olsun bu dərdə səhhət imkanım,
Həvayi-rövzeyi-kuyin bahari-gülşəni-canım,
Nihali-qamətin sərvim, üzarın yasəmənimdir.

Dilər gumrah olam mən də özitək zahidi-cahil,
Əlin səndən üzən mütləq həvayi-nəfsədir mayil,
Sənə yetməz əlim, bais rəqibin eşqidir hayil,
Yəqinimdir, sənə yetcək olur məqsudi-dil hasil,
Bihəmdullah mənə sənsən olan rəhbər yəqinimdir.

Səninlə mumdür qəlbim, vəli sənsiz olur ahən,
Onu mehrinlə, ey canan, edən bir mumtək sənsən,
Tərəhhüm eylə üşşaqə, səri-kuyində ver məskən,
Diriğ etmə vüsalın kim, tələbkari-vüsaləm mən
Kim, ol müjdə fərəhbəxşi-dili-ənduh kinimdir.

Səninçün tərk qıldım mən rəvaqın dar dünyanın,
Başımda tutmadım əsla onun nasud xülyasın,
Demə kim, hasidin səyi pozar bu eşq sövdasın,
Çıxardıb zövq vəslin xatirimdən rövzə pərvasın,
Ləbin kövsər, münəvvər gülbunin xuldi-bərinimdir.

Mənə bir şanü şövkətdir qapunda eyləsəm xidmət.
Əziz ollam ümum içrə, hamu eylər mənə hörmət,
Degil məxsus bir şahə bu gəncü hüsun bu surət,



Mənə üz göstərər hər ləhzə min-min şahidi-dövlət,
Çu mirati-ruxun, mənzuri-çeşmi-pakbinimdir.

Dedim, ey dil, fəraqına təhəmmül eylə hicrə döz,
Əgərçe bəstəri-qəmdə səni bimar edib gülüz,
Ümidi-vəsli-canan ol, xiyali-dəhridən əl üz,
Səriri-səltənət zövqindən artıqdır mənə ol söz
Ki, lütf ilən demişsən bu qulami-kəmtərinimdir.

Əmin oldum vüsalına fəraq odunda dil yancaq,
Livayi-şöhrəti-mehrin dili-zarıma sancılcaq,
Müjə peykanına, Nobər, dili-məhzuni oxlancaq,
Bəri oldum, Füzuli, qeyridən, ol mahru ancaq,
Ənisim, munisim, yarım, nigarım, mehribanımdır.

-81-

Ləbin şəhdü müssəfasın mənə, canan, dava derlər,
Sərvi-kuyin bimarə verən salim hava derlər,
Hərimi-kuyini məhzun dilə darüş-şəfa derlər,
Demiş hər qönçəyə aşiqligim razın səba derlər,
El ağzın tutmaq olmaz, qorxuram, ey gül, sənə derlər.

Məni etdin fəraqında, əzizim, Qeystək rüsva,
Səni Leylisifət gördüm, dilim oldu sənə şeyda,
Həvayi-eşqdən başım çünunluq eylədi peyda,
Əsiri-dərdi-eşqü məsti-cami-şövq çox, amma
Bizik məşhur olan, Leyli sənə, Məcnun mənə derlər.

Üzün güldür, ləbin qönçə, gözün xummar söylərlər,

Qədin sərvi-xuramandır, döşunda nar söylərlər,
Mənə sərgəşteyi-səhra, gözü xunbar söylərlər,
Sənə derlər büti-Çin, zülfünə zünnar söylərlər,
Zəhi imanı yoxdur, küfr söylərlər, xəta derlər,

Qəmindən cismi-zarımda dəvasız dərd olub peyda,
Məni gülbərgi-ruxsarın edibdür bülbüli-şeyda,
Nədir barəmdəki fikrin sənin, ey nogülü həmra,
Mərizi-eşq üqdi-zülfün eylər arizu, amma
Müaliclər bu mühlik dərdə müşküldür dəva derlər.

Təsadüf etdigimlərdən sənin əhvalını sordum,
Eşitdim iftra sözlər ta heyrətdə qalıb durdum,
Ayırdım haqqı batildən, tamaminə yekun vurdum,
Sənin mehrü vəfa göstərdiyin əğyarə çox gördüm,
Qələtdir kim, səni bimehr oxurlar, bivəfa derlər.

Nihan bu dərdi sən Nobəri, gedib dildarına söylə,
Nəsihət tutma nasehdən, onu təkzib edib pillə,
Nəsimi-subhidən hər gün nigarın ətrini iylə,
Füzuli, aşiqə derlər onlar kim, eşqi tərk eylə,
Deməzlərmi xəta, təğyir qıl hökmi-qəza derlər.

-82-

Bahar əyyamı seyrandır, çəməndə şeyxüşab oynar,
Ləbi-meygun xəyalilə dolar cam, şərab oynar,
Çalar tənbur sazəndə, edər mütrib, şitab oynar,
Səbadan gül üzündə sünbüli-purpicü tab oynar,
Sanasan pər açıb, gülşəndə bir mişkin ğürab oynar.

Degil əhvalımız ey gül, pərişanlıqda, ya qəmdə,



Tapılmaz möhnətü dərdü məlal dəhri-sinəmdə,
Qalan əğyarilər olmuş mədamin hüzü matəmdə,
Xəyali-arizin cövlan edər bu çeşmi-purnəmdə,
Necə kim, mövclənmiş suda əksi-aftab oynar.

Nə xoşdur kim, ola aşiq vüsali-yarına vasil,
Ola bu dar dünyanın məlalından dəmi ğafil,
İnayətlər nigarından ola hər vəqtidə şamil,
Üzün görcək olur suzi-dərun, dərdi-dil zayil,
Bahar əyyami sıçrar bərqi-rəxşəndə, səhab oynar.

Qəmü ənduhi dünyanın degil eşq əhlinə hacət,
Kifayətdir ona bu kim, çekər ruxsaridən ləzzət,
Qədəm qoysa gözü üstə olar üşşaqiçun minnət,
İraq olsun yaman gözdən, nə xoş saatdır ol saat
Ki, məşuq ilə aşiq eyləyib nazü itab oynar.

Xəyal etmə sən ey zahid ki, aşiq əhli ola qafil,
Riyai-taətü təqva edibdir əqlini zayil,
Qədəm eşqə qoyan kəslər ola məqsuduna nail,
Riyai-zahidi-xüşkün, səmaindən nədir hasil,
Xoş ol kim, rindi meyxanə içib cami-şərab oynar.

Məhəbbət toprağındandır mənim xilqət dəmi xakim,
Bunu könlüm qəbul etmiş, nədir təqid idrakim,
Nə vaizdən, nə nasehdən yoxumdur zərrəcə bakim,
Qılır göz pərdəsin xunabi-həsrət çak hərdəm kim,
Yüzümdə ləzzəti-didar zövqindən niqab oynar.

Zəhi şadam ki, vəsl ilə ögərrəm mən cigər dağın,
Dəxi qan eyləməz könlüm rəhi-həsrətdə göz ağın,
Əcəb sərf etdim, ey Nobər, nigara canım ovraqin,

Füzuli, rəşkdən titrər dili-purxuni üşşaqın,
Binaquşində yarın hər zaman kim, dürri-nab oynar.

-83-

Sərgəştəligim nərgisi-heyranın üçündür,
Qəmin dilim ol çaki-giribanın üçündür,
Bimar dilin naləsi dərmanın üçündür,
Ah eylədiyim sərvi-xuramanın üçündür,
Qan ağladığım qonçeyi-xəndanın üçündür.

Könlüm tutulur tən edən əğyar dilindən,
Can qərqə gedir hicridə bu əşk selindən,
Dil titrəyir ol turreyi-tərrar telindən,
Sərgəşligim kakili-müşkinin üçündür,
Aşüftəliyim zülfi-pərişanın üçündür.

Rəncur oluram dərdi-firavanın əlindən,
Məxmur oluram nərgisi-məstanın əlindən,
Əfsurdə ruxum bu dili-nalanın əlindən,
Bimar tənim nərgisi-heyranın əlindən,
Xunin-cigərəm ləli-durəfşanın üçündür.

Dil hardan edib əşki-ruxi-alini peyda?
Gültək üzünü görmüş olub bülbüli-şeyda,
Ellərdə mənəm kəsrəti-fəryad ilə rüsva,
Yaxdım tənimi vəsl günü şəmtək əmma
Bil kim, bu tədarük şəbi-hicranın üçündür.

Tərk etmək üçün dildəki fəryadü fəğanı,
Gözdən tökülən şamü səhər əşki-rəvanı,



Bulmaqdan ötrü dildə nihan dərdə dəvanı,
Qurtramağa yəğmayi-qəmindən dilü-canı,
Səyi-nəzərim nərgisi-fəttanın üçündür.

Hicran şəbi çox eyləmişəm ahü fəğanlar,
Könlümdə mənim gizli qalır daği-nihanlar,
Canımda cigər qanıdır ol tirə nişanlar,
Can ver, könül, ol qəmzəyə kim, munca zamanlar,
Can içrə onu saxladığım anın üçündür.

Səndən bu həvəs Nobərə də yetdi, Füzuli,
Əfsus edirəm məndən əzəl getdi Füzuli,
Eşq atəşinə yanmağı öyrətdi Füzuli,
Vaiz bizə dun duzəxi vəsf etdi, Füzuli,
Ol vəsf sənin külbeyi-əhzanın üçündür.

-84-

Hansı bülbüldür olan könlüm misalı zarıdə,
Bərgi-güldə gözləri olsun, rəqibi xarıdə,
Bəstə olsun dil kimi ol türreyi-tərrarıdə,
Hansı bir gül açılar ruyin kimi gülzarıdə,
Hansı gül bərgi ləbi-ləli dürəfşanınca var?

Hansı bağın sərvidir qəddin kimi versin səmər,
Hansı bir dehqanıdən varid olubdur bu xəbər,
Hansı müxbirdən olub bu söz cəhanə müntəşər,
Hansı bağın var bir nəxli, qədintək barvər,
Hansı nəxlin hasili sibi-zənəxdanınca var?

Hansı aşiqdir olan canana məntək dəstgir,
Dərgəhi-cananıda kimdir olan məntək fəqir,

Sən kimi, ey mahrux, yoxdur cahanda binəzir,
Hansı xuni sən kimi cəllada olmuşdur əsir,
Hansı cəlladın qılıncı növki-müjganınca var?

Hansı bir atəşdi kim, daim ona yansın bədən,
Hansı dildir qurtara hicran şəbində qüssədən,
Eşq ilə bimar olan səhhət tapar ayə, bədən,
Hansı bəzm olmuş münəvvər bir üzüntək şəmidən,
Hansı şəmin şöləsi ruxsarı-tabanınca var?

Hansı nazim, Nobəri, nəzm eyləyibdir mən kimi?
Hansı şeirin mətnidir bu şeri-müstəhzən kimi?
Hansı dehqan bəsləyib söz bağını bu gülşən kimi?
Hansı gülşən bülbülü söylər, Füzuli, sən kimi?
Hansı bir bülbül sürudi ahü əfqanınca var?

-85-

Qaşə nisbət nə münasib, desələr göydə qəmərdir,
Mən deməm beylə deyiblər, bu da bir tazə xəbərdir,
Qönçə ol incə dodağındı, üzün no güli-tərdir,
Vəh nə qamət, nə qiyamət, bu nə şaxi-güli-tərdir,
Nə bəladır, nəzər əhlinə nə xoş məddi-nəzərdir?

Dil buldu rəhi-eşqini tousən, sorar ondan,
Şadan dil olub gahi gedər, gəh durar ondan,
Bu rahidə dil bəzi xətalar görər ondan,
Göz yoldu, könül mülkinə xublar girər ondan,
Tutma onu ey əşq, rəvan, rahi-güzərdir.

Nisandır edən qətrələrin dürrə mühəyya,



Dəryalar açar sahilə guşin qıla imla,
Min durr ola dəryada, olarmı belə ziba,
Nə gohər bulsa bəğənməz, buraxar yazıya dərya,
Qaliba kim, ona məqsud dişin kimi gövhərdir.

Qissəm sənə, ey mahliqa, oldumu agah?
Yandınmı mənim halıma dildən çəkibən ah?
Etsən nə qədər covr, məni eyləməz ikrah,
Sitəmin gərçe yamandır, onu tərk eyləmə, billah
Ki, təğafül sitəmindən dəxi əlbəttə bətərdir.

Cəryanə verir göz yaşını dildəki xülya,
Bəhri-dilimin dürri olur arizə peyda,
Bu şiddəti-giryəm məni də eylədi rüsva,
Axır olmaz necə kim, göz yaşı axarsa həm ona
Ki, dəmadəm ona imdad qilan xuni-cigərdir.

Eşq aləminin, Nobəri, var qeyri üsuli,
Qəm tozu gərək üzdə ola, qəlb mülulі,
Can nəqdi gərək əldə ola, kam hüsuli,
Sərsəri basma qədəm eşq təriqinə, Füzuli,
Ehtiyat eylə ki, qayətdə xətərnak səfərdir.

-86-

Eşqi-canan aşiqin könlündə daim var olur,
Xubrulardan gələn firqət dilə düşvar olur,
Fikri-vəslilə gözü şəb ta səhər bidar olur,
Hüsnün olduqca füzun eşq əhli artıq zar olur,
Hüsn nə miqdar olursa, eşq ol miqdar olur.

Pənd alar aşiq, deme, hər zahidi-dindaridən,

Bixəbərdir hər riyapərvər olan əxbaridən,
Daməni-yarı tutub, çəkmiş əlin bu daridən,
Cənnət içrə mən edən eşq əhlini didaridən,
Bilməmiş kim, cənnəti eşq əhlinin didaridir.

Dərdi-eşqin çarəsin yoxdur bilən əfsus kim,
Eşq ilə bimar olan məsul olmazdır həkim,
Cismidə doldurmuşam xuni-məhəbbətə rəkim,
Eşq dərdindən olur aşiq məzacı müstəqim,
Aşiqin dərdinə dərman etsələr bimar olur.

Saqiyi-gülruxların ləli meyimdir ərğvan,
Rindlilər həm bəzminin piri-muğanə mehriban,
Munca meydən zövq alar məntək kim, içsə nuşi-can,
Zövqini eşq əhlinin bilməz ki, bixud zahidan,
Bir əcəb meydir məhəbbət kim, içən hüşyar olur.

Şükr kim, bu Nobəri, eşq ilə keçmişdir günü,
Tez yetər başə əcəl, cismi onun xakə dölü,
Qəlbə ancaq aparar eşqin rümuzindən bunu,
Eşq sövdasilə sərf eylər Füzuli ömrünü,
Biməzəm bu xabi-qəflətdən haçan bidar olur.

-87-

Gültək üzünün dövrəsinə türrələrin var,
Şəbnəm yeriyə sübhdə ruxsarə tərin var,
Qonçə kimi ağzındı, həp incə kəmərin var,
Ey gül, nə əcəb silsileyi-müski-tərin var,
Vey sərv, nə xoş can alıcı işvələrin var!

Etti günümü qarə sənin zülfi-siyahin,



Rövşəntər edər qarə günüm surəti-mahin,
Hər gündə gəlib tutmalı oldum səri-rahin,
Acıtdı məni acı sözün, tünd nigahın,
Rey, nəxli-məlahət, nə bəla təlx bərin var!

Qəmzən oxunun zəxminə var dildə hesabım,
Bilmək diləsən, çoxdu suvalına cavabım,
Cəryan gözümün yaşına könlümdi sirabım,
Peykanların ilə doludur çeşmi-purabım,
Ey bəhr, sanırsan ki, sənin həm gövhərin var.

Eşqin məni də Qeys kimi dərbədər etmiş,
Səhrayi-biyabanidə xunincigər etmiş,
Badi-sitəmin nəxli-dilim bisəmər etmiş,
Ol səng-dilə naleyi-zarım əsər etmiş,
Ey dil, sənə bu zövq yetər kim, əsərin var.

Hicranına ol mahvəşin qəm yemə, ey dil!
Punhan qəmini söyləmə sən heç kimə, ey dil!
Faş eyləmə bu sirrini, qıl vahimə, ey dil!
Mən bixudəm eşq içrə, sən ancaq demə, ey dil!
Ey qafil, özündən sənin ancaq xəbərin var.

Mənsiz çəmən bağında hər gündə gəzirsən,
Min nazü nəzakət eləyib bir gül üzürsən,
Susən gülünü tərli buxaqina düzürsən,
Çox baxdiqının qəmzə ilə bağrın üzürsən,
Hər kimə ki, baxmazsan onunla nəzərin var.

Nobər, məni bir Leylisifət dərbədər etmiş,
Səhrayi-biyabanıda xunincigər etmiş,
Lütfilə səbadan mənə bir xoş xəbər etmiş,

Eşq əhlinə ol mah, Füzuli, nəzər etmiş,
Sən həm özünü göstər əgər bir hünərin var.

-88-

Xubtər surətini görsə əgər huranlar,
Onları heyrət edər surət əra bicanlar,
Bəs necə tab eyləsin firqətinə insanlar,
Ləhzə-ləhzə ləbin anıb edicək əfqanlar,
Qətrə-qətrə saçılır didələrimdən qanlar,

Mən hesab eyləmədim gözlərini xəsmimdən,
Əskik olmur mujəyün tirələri cismimdən,
Məlhəm[1] alsun cigərim yarəsinə bəs kimdən,
Qətrə-qətrə tökülən qandı demə, cismimdən,
Dəmbədəm könlüm odilə əriyən peykanlar.

Dami-zülf içrə olan könlümə yetməzdir əlim,
Bir görüş rüxsəti ver, görməsinə mən də gəlim,
Nə səbəb həbs olunub cürmünü faş eylə bilim,
Qaşların yayına meyl eyləyəli canü dilim,
Dunü gun mən bilirəm kim, nə çəkirlər onlar.

Şanə zülfün dolanıb ətr tutar sübhü məsa,
Rəşk edər, şanə tutar ətrə məgər badi-səba,
Xəm tökər gül üzünə zulfini dağun əcəba,

[1] Səhvən "məlhəm" əvəzinə mətndə "mərhəm" getmişdir.



Açma kakil girəhin, başın üçün görmə rəva
Ki, pərişan olalar bir neçə sərgərdanlar.

Düşdi sövdayi-səri-zülfi-siyahı canü dilə,
Əhli-təkəllüf degil murği-dilim dami belə,
Daneyi-xalı görüb üzdə, verib əqli yelə,
Yel dəyər zülfünə, ya qoymayıb öz halı ilə,
Gəzdirərlər onu əldən-ələ hər yan canlar.

Səngdil olma ki, sən covrü cəfalar görəsən,
Rəhmdil ol ki, həman zövqü səfalar görəsən,
Xeyrxah ol hamıya xeyr-dualar görəsən,
Eylə üşşaqə cəfalar ki, vəfalar görəsən,
Sanma kim, zaye olur eylədiyin ehsanlar.

Nobəri, səhl hesab etmə nigarın rəşkin,
Rəşkidir cari edən arizə aşiq əşkin,
Zəhri-məmlu eləyib zahidi-cahil məşkin,
Sorma zühhadə, Füzuli, rəhü rəsmin eşqin,
Nə bilirlər rəvişi-əhli-xirəd nadanlar.

-89-

Qan yaş tökən zamanda gözüm gülüstan içər,
Bağ içrə şaxi-bərgi-guli-ərğvan içər,
Qəmzə xədəngi qanımı dildən, nihan içər,
Tökdükcə qanımı oxun ol asiman içər,
Bir yerdəyəm əsir ki, toprağı qan içər.

Zal fələk edibdi həyatü dilə kəmin,
Ta mübtəlayi-eşq qılır, eyləyir qəmin,

Hicran odu ilə nərm qılır qəlbi-ahənin,
Əhli-zəmanə qanına çox təşnədir zəmin,
Qanın kimin tökərsə fələk, ol həman içər.

Zahid şərabi-xari bilir əhli-məsiyyət,
Meyxarə nuşi-meydə, nə hacətdir məşvərət,
Əhli-əzabə pənd nə lazım, nə tərbiyət,
Mey içmədən açılmaz imiş babi-məğfirət,
Sovgəndlər bu barədə piri-muğan içər.

Zahid bu haqda gərçe edər aşiqə hədə,
İstər ki, anı tuş eləsin bir rəhi-bədə,
Bilməz əcəb budur ki, özün həm o cərgədə,
Üqbadə kövsər istəməyün rindi-meykədə,
Dünyada bəs degilmi meyi-ərğüvan, içər.

Qan tökməyi şəriyət edib hər kəsə həram,
Eldir qoyan bu hökmə səmimi bir ehtiram,
Səndə bu hökmün əksinədir qeyri bir məram,
Qəmzən görünməyib gözə, qanlar tökər müdam,
Zahid kimi ki, badəni eldən nihan içər.

Nobər, təriqi-eşqi tutub gəl Füzuliyə,
Dil ver dilinə, nəzmində ver əl Füzuliyə,
Təqlid qıl bu haqda mükəmməl Füzuliyə,
Meydən əgərçi tövbə verir el Füzuliyə,
Ey sərv, sən qədəh versən, ol rəvan içər.

-90-

Şərabı-ləli-gülfamin dəmağım tər gəlv eylər,
Məşamim nukhəti-zulfün səbadan müşkbu eylər,



Könül ol taqi-əbruyə sücudun baxşu eylər,
Girib meyxanəyə muğ məşrəbilə kim ki, xu eylər,
Olub mömin, behiştə kafərəm gər arzu eylər.

Nəimi-bağı-cənnət çun salır səcadəsin zahid,
Hərimi-kuyi-canana mənəm candan keçən cahid,
Təəşüq kəsrəti dildə, gözüm yaşı ona şahid,
Məgər sövdayi-əbrudan olub divanə həm zahid,
Baxıb mehraba daim, öz-özilə guftüqu eylər.

Yetib qəm könlümə şəhla göz ilə mahvəş üzdən,
Əlin çəkməz məlalü ğəm gecə ta sübhədək bizdən,
Ümumə faş olan dərdim neçün olsun nihan sizdən,
Dəmadəm qətrə-qətrə göz yaşımdır kim, çıxar gözdən,
Və ya peykanların kim, atəşi-dil onu su eylər.

Xəyal etmə, keçər aşiq rəhi-eşqin rüsumundan,
Bu yetmişdir ona bəxtin səadətli nücumundan,
Məni agah edib mehrin hamu eşqin ülumunan,
Rəhi-eşqində olmam təngdil sövda hücumundan,
Təriqi-səltənət hər kim tutar, qovğayə xu eylər.

Olur əfsurdə halım salanda xatirə xalın,
Edər heyrət tutan dəmdə təsəvvür arizi-alın,
Təğəyyör surətim təsvir edər Məcnun timsalın,
Dedim: "Kimdir pərişan eyləyən aşiqlər əhvalın?",
Səba göstərdi tari-sünbüli-zülfün ki, "bu eylər".

Xəyali-zülfi-yar ilə dilə min fovc qəm gəldi,
O dəm heyrət məqamında dilim bir ləhzə dincəldi,
Gedib səhranəşin Məcnun, yerində Nobər əgləndi,
Füzuli zülfünə bağlandı, amma eylə incəldi

Ki, guya zəf onu həm zülfilə bir tari-mu eylər.

-91-

Ləbi-ləlində hümralıq dilimdə rəngi-xunimdur,
Keçən Məcnunin əhvali mənim hali-kununimdur,
Kəman əbru xəyalilə əgilmiş qəddi-nunimdur,
Saçın əndişəsi təhriki-zənciri-cünunimdur,
Cununim dəfinə zikri-ləbi-ləlin füsunimdur.

Fəzayi-eşqdə halim təmənna eyləyən kəslər,
Xəsü xaşaki-səhradır şəbangahə mənə bəstər,
Gəl ey qeydim çəkən canan, sərvi-kuyin mənə göstər,
Diyari-dərd sərgərdaniyəm, hər kim məni istər,
Dəlili-rahi qətr-qətrə əşki-laləgunimdur.

Götürməz mən çəkən bari-qəmi dünyada mərkəblər,
Rəqibin tənidir dildə olan çun zəhr əqrəblər,
Olardan xeyli bədtərdir dilə, tənha keçən şəblər,
Fələkdə bərgi-ahimdən sərasər yandı kovkəblər,
Qalan odlarda yanmış kovkəbi-bəxti-zəbunumdur.

Səlasil zülfi-mişkindən edibsən boynumun tovqin,
Könül həmşad olub, tutmuş tərənnümlə onun şovqin,
Dilə versən nola, dərdü məlalu möhnətin fovqin,
Gələn navöklərin bir-bir yaxub, qoymaz görəm zövqin,
Məni hirman oduna yandıran suzi-dərunimdur.

Cahan rüsvalarından bir mən oldum munca qaygudə,
Özüm bir iynətək o vərəm gözüm zülf içrə bir mudə,



Xəyal etmə tənim sənsiz ola rahat, dil asudə,
Səri-kuyində könlüm bərgi-ahın sanma bihudə,
Qaranğu gecə əzmi-kuyin etsəm rəhnimunimdur.

Sənə mənzil verib aşiq təni içrə könül qəsrin,
Bu qəsri görməmiş Xosrov və nə Fərhadilə Şirin,
Buxaqın ətrini tutsa, o xoş buya deyər nəsrin,
Ləbi-şirinlərin şövqilə Fərhadı mənəm əsrin,
Yanımda cəm olan səngi-məlamət Bisütunindur.

Mənə düşvar olar, Nobər, əl üzmək beylə mavadan,
Keçib ondan əvəz könlüm mətai-mali-dünyadan,
Degil mümkün keçəm yarın ləbində cami-minadan,
Füzuli, xali olmaq cami-eyşim saf səhbadən,
Nişani-bəxti-nafərcamü iqbali-nikunimdur.

-92-

Könlümün bir bülbüli-şeyda kimi fəryadı var,
Bir gül üzlü dilbərin şeyda dilimdə yadı var,
Eşq bağında onun sərv qəddi-azadı var,
Məndə Məcnunda füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Tökmüsən hicranıda məhzun dilə dərdü qəmi,
Həsrəti-ruxsarınam silaba dönmüş göz nəmi,
Əlbir olmuş qan tökən əbrusu müjgan bahəmi,
Nola gər qan tökməgə mahirdi çeşmin mərdumi,
Nötfeyi-qabildürür, qəmzən kimi ustadı var.

Tari-zülfə bənd olub misli-hörmüçək, aşiqin,

Tərki-huş etmiş dəxi ruxsarı görcək, aşiqin,
Meyl edər səhdi-ləbə manəndi-milçək, aşiqin,
Qıl təfəxür kim, sənin vardır mənimtək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var.

Hər qədər kim, mən səni ey mahru, tutdum dilə,
Necə bülbül dərdini gülzarıda söylər gülə,
Sən mənə vəslin diriğ etdin, salıb min müşkilə,
Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.

Qaldın ey dil, çarəsiz sən bu bəlayi-eşqdə,
Sakin olmaq xoşmudur, qəmgin bu cayi-eşqdə,
Yoxdu bir imdad edən, hədsiz ricayi-eşqdə,
Gəzmə, ey könlüm quşu, qafil fəzayi-eşqdə
Kim, bu səhranın güzargahında çox səyyadı var.

Nobəri, aşiq dili olsun gərək zarü məlul,
Qəm sipahi eyləsin canü dilə hərdəm nüzul,
Aşiqi-sadiq olan etməz təkarından üdul,
Ey Füzuli, eşq mənin etmə nasehdən qəbul,
Əqlün tədbiridir, sanma ki, bir bünyadı var.

-93-

Şəhi xubanilər hüsnün, səni görcək unudmuşlar,
Məhəbbət murğini dildən sərvi-kuyə uçurmuşlar,
Fəraqında cigər qanın hərarətdən qurutmuşlar,
Muqəvvəs qaşların kim, vəsmə ilə rəng tutmuşlar,
Qılınclardır ki, qanlar tökmək ilə jəng tutmuşlar.

Kəmingahi-sərvi-kuyin edib şahin dilim mənzil,



Gəzər hər gün bu ovlaqı necə qismət gündən sail,
Təmənnası qəbuluna açar dildarına xoş dil,
Qılıb təğyiri-surət vəsmədən yağma qılırlar dil,
Hərami qaşların rəsmü rəhi-neyrəng tutmuşlar.

Sirayət eyləyir canə damədəm eşq təsrifi
Könül əlbəttə kim, şadan qəbul eylər bu təşrifi,
Dili-zarə kifaytədir ruxi-dildar tərifi,
Könül miratını eylər mukəddər əql təklifi,
Xoş ol bibaklər kim, tərki-namü nəng tutmuşlar.

Məlalü möhnətim artıb düşəndə başıma sovda,
Gözə həsrət nəsib oldu, dilə firqətdə min xülya,
Həvasim varıdır mən həm olam Məcnun kimi rüsva,
Degillər qönçətək vaqif fəzayi-ömrdən guya,
Olar kim, özlərin dünya üçün diltəng tutmuşlar.

Tutur göz mərdumin həsrət, salır eşqin məni fikrə,
Müzəkkər olmuşam canan, vüsalınçun gözəl zikrə,
Xəyalındır mənə munis, məni vadar edir şükrə,
Mən ol kim, səngisari-möhnətəm bazari-eşq içrə,
Bəla dağın çəkən Fərhad ilə həmsəng tutmuşlar.

Sənə mayildi bu könlüm, gəzər həm dəm səri-kuyin,
Üzünü görməyib axır, nihayətdə olur düşgün,
Şərabi-ləli-meygunin ona nuşi degil mümkün,
Ləbin yadı ilə zahidlər tutub meyxanələr küncün,
Qılıb təsbih tərkin, tari-zülfi-cəng tutmuşlar.

Könül zülfündə sakindir, xəyal etmə onu məndə,
Özünə aşiyan tutmuş müəttər cayi-gülbəndə,
Qalan ey Nobəri, ancaq qəfəsdir bu quru təndə,

Səhər bülbüllər əfqanı degil bihudə gülşəndə,
Füzuli naleyi-dilsuzinə ahəng tutmuşlar.

-94-

Sunbulü-reyhan gulü nərgis gülüstanındadır,
Heyrəti nərgislərin bu çeşmi-heyranındadır,
Sərv rəşki bağıda qəddi-xuramanındadır,
Aşiyani-murği-dil zülfi-pərişanındadır,
Qanda olsam, ey pəri, könlüm sənin yanındadır.

Möhnətü qəmdir olan eşqdə üşşaqə nəsib,
Yox bu dərdin çarəsi dərman belə dərdə rəqib,
Qüvvəti-dildir şərbəti-ləli-ləbü innabi-sib,
Dərdi-eşq ilə xoşam, əl çək əlacımdan, təbib,
Qılma dərman kim, həlakim zəhri-dərmanındadır.

Az könül purkaləsin müjgan oxu ilə zəxm qıl,
Rəhmsizlik tərkin et, bu dəstgirə rəhm qıl,
Ahi-dildən qıl həzər, qəhri-xudadan səhm qıl,
Çəkmə damən naz edib uftadələrdən, vəhm qıl,
Göylərə ucalmasın əllər ki, damanındadır.

Dil sərəşki-çeşmimə imdad edər verdikcə dəm,
Göz tərazudur, ona fərq eyləməzdir bişü kəm,
Bərqərar ilə tökər ruxsarə yaşın dəmbədəm,
Şur görsən yaşımı, sən etmə nifrət kim, bu həm,
Ol nəməkdəndir ki, ləli-şəkkərəfşanındadır.

Atəşi-hicran ilə yaxma dili-biçarəmi,
Dərdə saldın sən məni eylə müəssər çarəmi,



İltifat et, mərhəmi-vəslin ögərsin yarəmi,
Məsti-xubi-naz olub, cəm et dili-sədparəmi
Kim, onun hər parəsi bir novki-müjganımdadır.

Ta xəyali-zülf ilə könlüm qaranlıqlanmasa,
Rəxti-xabi-hicrdə can ilə dil odlanmasa,
Üqdələr kim, dildə var düşvar Nobər sanmasa,
Ey Füzuli, şəmtək mütləq açılmaz yanmasa,
Tablar kim, sünbülündən rişteyi-canımdadır,

-95-

Eşq rahini tut, ey dil, bu həqiqət yoludur,
Qeydi-dunyanı burax, çəkmə ki, çox qorxuludur,
Eşq səhrası Xütən dəşti kimi ahuludur,
Saqiya, cam tut ol aşiqə kim, qayğuludur,
Qayğu çəkmək nə üçün, cam ilə aləm doludur.

Müxlis ol ta olasan eşqi-nigara layiq,
Xadimi-dərgəhinin olmaqına ol şayiq,
Səbr eylə olasan hicri-nigara fayiq,
Təlxi-guftarsiz olmaz ləbi-yar, ey aşiq,
Çox həvəs eyləmə ol şərbətə kim, ağuludur.

Badeyi-ləli-ləbi-yari mənafeli bilün,
Nuşinə səy talaşilə, həvəslə yügənün,
Can bəhasilə əgər olsa meyi-eşqi-alun,
Qoyalım başı xümi-badə ayaqinə gəlün,
Tutmamaq olmaz onun hörmətini kim, uludur.

Zəxmdar olsa gənəş kuyi-nigarə sürülür,

Tiri-müjgan tərəfi-nərgisi-məstdə görülür,
Zulfidə mekr tuzaqi dilə hər yan qurulur,
Munca kim, kuh sifət başıma daşlar urulur,
Dideyi-bəxtim oyanmazmı, əcəb uyguludur.

Bu qədər kim, çəkirəm cövrini ol cananın,
Şəbi-hicran əvəzi bilmə qəmin dünyanın,
Mən də heyrətdə varam taqətinə bu canın,
Dili-purxunimə yağdırma bəla peykanın,
Həzər et şişəyə, nagah zərər eylər, doludur.

Dilə xülyayi-sərü zülfini etdim həmdəm,
Bu xəyalat verir sübhə kimi könlümə qəm,
Müjə peykani tiri-sinəmə gözdən hər dəm,
Könlümün zəxminə peykanını etdim mərhəm,
Gənci-qəmdir, nola gər boylə dəmir qapuludur.

Misli-ahuyi-xütən gözlərini yar süzər,
Belə süzgün baxışa Nobəri canını düzər,
Tuli-hicranıda dil cismidən axır əl üzər,
Nərgisin fikri, Füzuli, gözü könlümlə gəzər,
Tutar ahu vətən ol yerdə ki, otlu, suludur.

-96-

Könül kim, sinədə bari-qəmi-canana mayildir,
Sübut eylər nigarına, onun bu eşqi kamildir,
Müti-taəti-canan hamu fərmana amildir,
Məni zikr etməz el, əfsaneyi-Məcnuna mayildir,
Nə bənzər ol mənə, dərdi onun dərmana qabildir.

Gəzən səhrada sərgərdan məni Məcnun hesab etmin,



Başımda quş yuvası var deyib də qilü qal etmin,
Sanıb divaneyi-dovran, dilə daxil məlal etmin,
Biyabanlarda Məcnundan qəmü dərdi sual etmin,
Nə bilsin bəhr halın ol ki, mənzilgahi sahildir.

Cigər pürkaləsi qandır, müjəm xunabədən purxun,
Gözüm həsrətdi ruxsarə, fəraqi-yarə dil məhzun,
Vüsalına dəmu xilqət, ona can olmuşam mədyun,
Mənimtək ola bilməz şöhreyi-şəhi-bəla Məcnun,
Qəbul eylərmi bu rüsvalığı hər kim ki, aqildir.

Fəzayi-eşqi sərgərdan dolandım oldum avarə,
Sərü zülfün xəyaliə gecəm misli günüm qarə,
Mujən peykani zəxmindən dilim canımdan səd parə,
Nə müşkül halı olsa aşiqin məşuq edər çarə,
Gər ol bidərd bilməzsə bu halı, hal müşküldür.

Dəmim yoxdur ki, hicrində könül fikrinlə qan udmaz,
Şəbi-hicranı sübh eylər, gözüm mərdumləri yatmaz,
Nəsihət versə min naseh, dilə təsir edib batmaz,
Fəraq əyyami seylabi-sirişkimdən xəbər tutmaz,
Qiyamət macarasından gör ol zalim nə qafildir.

Zəhi qomrahidir hər kim kənarə eşqdən getsə,
Olur el içrə biaqil bu rahi tərk edən kimsə,
Mühiti-eşq könlümdən düşüb Məcnuna bir hissə,
Fəqihi-mədrəsə məzurdur inkari-eşq etsə,
Yox özgə elminə inkarımız, bu elmə cahildir.

Nolur halın sənin Nobər, qalarsan qəmli halətdə,
Bu qədri tənələr içrə, belə rənç nədamətdə,
Zəhi müşkül nədamətdən ola canın səlamətdə,

Füzuli, el səni Məcnundan əfzun der məlamətdə,
Buna munkir degil, Məcnun dəxi məqulə qaildir.

-97-

Cismim içrə var olan ruhum nigarın canıdır,
Tirə qəlbin cismidə canan məhi-tabanıdır,
Can onun ruzi-əzəl sövdasının qurbanıdır,
Ol pərivəş kim, məlahət mülkünün sultanıdır,
Hökm onun hökmü mənə fərman onun fərmanıdır.

Mehri-ruyindən düşüb canü dilə sövdayi-eşq,
Buteyi-qəlbim ona məxsusdur mavayi-eşq,
Kuyi canan canınım qurbanına minayi-eşq,
Sürdü Məcnun novbətin, indi mənəm rüsvayi-eşq,
Doğru derlər hər zaman bir aşiqin dovranıdır.

Gərya hahında mənə cananım olsaydı baxan,
Halətimə rəhm edib olmuşdu mənlə mehriban,
Olmaz idi göz yaşım hicranıda munca rəvan,
Ləhzə-ləhzə könlüm odundan şərərlərdir çıxan,
Qətrə-qətrə göz tökən sanmın sirişkim qanıdır.

Yarələr gördükdə bu sinəmdə fikrə getməyin,
Belə zəxmin konhünə bais nə olmuş yetməyin,
Şaxi-güldə xartək rəşki-dil ilə bitməyin,
Çakilər köksümdə tiği-eşqdən, eyb etməyin
Kim, cünun gülzarının bunlar güli-xəndanıdır.

Nobəri, təslim qıl canü dili cananına,
Rəhm etsin ol sənəm bu dideyi-giryanına,



Qat olubdur firqətin zəhri sənin dərmanına,
Ey Füzuli, ola kim rəhm edə yar əfqanına,
Ağla zar, onca kim, zar ağlamaq imkanıdır.

-98-

Fəzayi-eşqi zən etdim ki, bir asanlığım vardır,
Və leykin bilmədim hicran odiylə yandığım vardır,
Yataq hicri-cananda, dilə odlandığım vardır,
Mənim kim, bir ləbi-xəndan üçün giryanlığım vardır,
Pərişan türrələr dövründə sərgərdanlığım vardır.

Diyari-eşqi-canandan düşüb xilqət dəmi rahim,
Nəvayi-şöhrəti-eşqim cahanda artırıb cahim,
Qəmü möhnət sipahimdir, libasi-eşq xərgahim,
Başım təxti-rəvandır, taci-zərrin şöleyi-ahim,
Görun kim, dovləti-eşq içrə həm sultanlığım vardır.

Gecə gündüz xəyalındır dili-zarımda əfkarım,
Neçun lütfün kəsib məndən, göreydim, mehriban yarım,
Həmin əfkari-xülyadan ucalır naleyi-zarım,
Yumulmaz əşk tuğyanından onsuz çeşmi-xunbarım,
Xəyali-surəti-canana xoş heyranlığım vardır.

Sən ey əbri-səma, yaşın, mənimçün ərzi-hal etmə,
Gözüm yaşıca baranın yoxudur, qilü qal etmə,
Sədayi-rədi-rəxşanın dil ahinə misal etmə,
Sirişkim gör, məni ey əbr, özündən kəm xəyal etmə,
Həvayi-eşq ilə min səncə əşkəfşanlığım vardır.

Deyirlər Nobər əl çəkmiş şərabü cami-minadan,
Üzüni döndərib əlhəqq şərabi-nabi-səhbadan,
Müridi-məclis olmuşdur, qaçır badə olan camdan,
Füzuli, cami-mey tərk eyləmiş zöhd ilə təqvadan,
Hamu danaya rövşəndir bu kim, nadanlığım vardır.

-99-

Gərçe dil hicranıdan rəncur olub riqqət çəkər,
Dəhr fikrindən dili asudadır, minnət çəkər,
Fikri-vəsli yar ilən məşğuldur ləzzət çəkər,
Zövq şövqilə cahan qeydin çəkən zəhmət çəkər,
Əhli-zövq odur ki, ondan daməni-himmət çəkər.

Pasıban olmuş sənə gün, dövr edər dərgahını,
Astanın bus edər artırmaq üçün cahını,
Vəsv edər göy əhlinə yerdə olan dərgahını,
Gün çəkər yerdən göyə hərdəm ğübari-rahini,
Tutiya üçün, vəli, yerdən göyə minnət çəkər.

Qoyma könlümdə qala, ey mahru, bu iştibah,
Noldu bais etmədin bu aşiqi-zarə nigah,
Dadu fəryadi-dilim kuyində eşqimdən guvah,
Ey içən qeyr ilə pünhan bəzm edib mey gah-gah,
Yad qıl ondan ki, bəzmin yad edib həsrət çəkər.

Sübhdəm canan, durub aç ruyini gülzarə get,
Həm gülə göstər üzün, bağ içrə seyr et, sərvə yet,
Nəğməyə sal bülbülü, əğyar olan yerlərdən öt,
Çək səbuhi, sübh nəqqaşına ərzi-ariz et,
Belə çəksun əgər fələk lohinə bir surət çəkər.



Rəhm qıl eşq əhlinə hala mürüvvət çağıdır,
Arizindən rəng alan əhmər gülün yarpağıdır,
Həsrəti-ruxsarının eşq əhlinə göz dağıdır,
Sərvqamətlər səmənruxsarilər torpağıdır.
Hər səmən kim, açılır, hər sərv kim, qamət çəkər.

Yoxdi təqsiri dilin, ruxsarını çeşmim görüb,
Cəzbəli ruxsaruun mehrin dili-zara verib,
Göz o gül ruxsarına hər dəm baxıb dovrün sürüb,
Qətreyi-əşkim qətarın çaki-sinəmdə görüb,
Tən evinə dişrədən bari-qəmü möhnət çəkər.

Yoxdu arami-dilin, ey mahruxsarım, gecə,
Dadü fəryad eyləsəm şəb ta səhər gəlmir vecə,
Nobəra! Mən nəyləyim rahat olum, bilməm necə,
Ey Füzuli, baxmayan ta qeyrə, hər xunin müjə,
Atəşin bir mildir kim, çeşmimə qeyrət çəkər.

-100-

Zinəti-ruxsarına sərf oldu gülgun ğazələr,
Mədhinə mi nov ilən nəşr oldu min ağazələr,
İşlənüb ovsafına vəssafıdan əndazələr,
Hər kitabə kim, ləbi-ləlin hədisin yazələr,
Rişteyi-canbirlə eşq əhli onu şirazələr.

Tiri-mujgan səf tutub dil çövrəsində haşiyə,
Mümkün olmur dərdini bir kimsəyə könlüm deyə,
Bu təəcübdir ki, mən heyrətdə qaldım bəs nəyə,
Bu nə sirdir, sirri-eşqin demədin bir kimsəyə,
Şəhrə düşmüş mən səni sevdim deyə avazələr.

Rindlər həmsöhbətim sərmənzilimdir meykədə,
Rəğbətimdə badeyi-gülgunə artır get-gedə,
Eşq rahından məni istər ki, zahid dur edə,
Şeyxlər meyxanədən üz döndərirlər məscidə,
Bitəriqət anı gördüm doğru yoldan azələr.

Göz ox atmaqı verib, yoxsa kaman əbruyə məşq,
Dami-dil olmağı həm xalın verib gisuyə məşq,
Daneyi-tədviri ol xali-siyah hinduyə məşq,
Çaklər köksümdə sanma kim, açıbdır tiği-eşq,
Könlümün şəhrinə mehrin girməyə dərvazələr.

Bülbüli-dildən gələn ahü fəğandan incimə,
Lalərudan sinədə daği-nihandan incimə,
Nobəra, min covr edə ol mehribandan incimə,
Ey Füzuli, yar əgər covr etsə ondan incimə,
Yar covrü aşiqə hərdəm məhəbbət tazələr.

-101-

Könlümün canan kimi bir mahru əhbabı var,
Canımın nə rahəti, nə gözlərimin xabı var,
Rəfi-qəmçün yarımın gulgun ləbi-ənabi var,
Seyr qıl, gör kim, gülüstanın nə abü tabı var,
Hər tərəf səbziləri, sərvi, güli-sirabı var.

Dəştü səhralar gəzər könlüm necə divanələr,
Şöleyi-hüsnə yanar şəmə necə pərvanələr,
Zülfüün ətrin tutar süsən, gülü reyhanilər,
Pəncəyi-bərgi-çinar etmiş mühəyya şanələr,
Anlamış guya ki, sünbül kakilinin tabı var.



Mənzəri-gülzar olur hərdəm verən heyrət mənə,
Tər buxaqın yad olur bağ içrə baxmaq susənə,
Könlüm istər mənzəri-gülzaridən rahətlənə,
Rahət üçün fərş salmış səbzəyi-tər gülşənə,
Nərgisin gördüm gözün məxmur, sandım xabı var.

Fəsli-güldür, ey könül, gülşəndən al zövqü səfa,
Safdır bir şişeyi-ayinətək salim həva,
Bu müsəlləmdir ki, bu dünyada yox ömrə vəfa,
Bulunmur hər dərdə istərsən gülüstanda dəva,
Höqqəsində qönçənin san kim, şəfa cüllabı var.

Şaxi-güldə gül görüb sakitdi bülbül nalədən,
Xalidir gülşən səhabü tirə ilə halədən,
Doldu, ver peymanəni saqi, meyi-həft salədən,
Gül gülüb, açıldı nərgiz, lalə doldu jalədən,
Ey xoş ol kim, eyşü işrət etməyə əsbabı var.

Guldə nüzhət, susənü reyhanda ətri-dilrüba,
Çeşmələr cari olub gülzar içində hər yana,
Məhrəba bu qüdrətü xəllaqə əhsən, məhrəba,
Qalib olmuş xəlqə zövqi-seyri-gülşən, qaliba,
Çəkməyə xəlqi bənövşə zülfünün qüllabi var.

Qıl təmənna, Nobəri, caminə gülgun mey dola,
Eyşilə dövran sürüb ömri-təbahi ver yola,
Arzu et yarıdən dil kamını hasil bula,
Gər Füzuli meyi-gülzar etsə gül fəsli nola,
Eyş üçün xunabəyi-dildən şərabi-nabi var.

-102-

Hər zaman kim, gözümə bir güli-xəndan görünür,
Tut hesaba ki, mənə surəti-canan görünür.
Yad olur zülfi, gözə sünbülü reyhan görünür,
Sərvi-azad qədinlə mənə yeksan görünür,
Nəyə sərgəştə olan baxsa xuraman görünür.

Ataşi-hicri dili-zarıma duzəxdən əlim,
Ah, səd ah, əgər dildə bu od olsa müqim,
Bir inayətdir edən yarıdan ol nari səlim,
Can görünməz desələr təndə inanmam necə kim,
Lütfdən hər necə baxsam təninə can görünür.

Yetməz ol mahvəşin daməninə aşiq əli,
Ona təqdirü qəzadandı bu ruz əzəli,
Deməm xəlqə nihan sinəmərə daği-dili,
İstədim halımı canano qılam ərz, vəli,
Görə bilməm özümü onda ki, canan görünür.

Xeyli qəmnak oluram güldəki xari görcək,
Məsti-halət düşürəm çeşmi-xumari görcək,
Martək piç purçəmü tari görcək,
Ey deyən: səbr elə, ah eləmə yarı göricək,
Mənə düşvaridür, amma sizə asan görünür.

Məni əğyarım uzaq eylədi kuyi-sərdən,
İslanıb pirəhənim mücridə əşki-tərdən,
Fikri-vəslindir edən tərki-həvasim sərdən,
Sordum əhvalımı hicrində münəccimlərdən,
Baxdılar tale evinə, dedilər: qan görünür.



Aşiqin sərf eləyir vəslinə hər var-yoxun,
Sən rəva görmə ona dərdü qəmin xeyli çoxun,
Canı təslim eyləmək vəqti gəlib oldu yaxın,
Nə kamandarsan, ey məh ki, atıb qəmzən oxun,
Yıxdığın seydidə nə zəxm, nə peykan görünür.

Nobərin yarı bu gün qəmli görübdür könlün,
Hicri ilə dağın olub, gördi huru bədr könlün,
Qəm tozun pak eyləyib, saf qılıbdır könlün,
Bir sənəm zülfünə guya ki, veribdir könlün
Ki, Füzuli yenə mədhuş, pərişan görünür.

-103-

Tənimi zəif edən sənsiz şəbi-hicran məlalımdır,
Kihasa olan solqun mənim bu rəngi-alımdır,
Yenə vəlsin bu halılə gecə, gündüz xəyalımdır,
Süluki-eşq ətvarım, məzaqi-eşq halımdır,
Təcərrüd aləmi seyrində aləm payimalımdır.

Əlim yetməz deyə yarə, pərişan oldu əhvalım,
Bu dəryayi-təəşşöqdən çıxar bir kimsə yox salim,
Qəzadan bu müqəddərdir, budur xilqətdən iqbalım,
Həvadan mövcələnmiş bəhri-dərdəm, yox bilən halim,
Dili-pur iztirabü naleyi-bietidalımdır.

Bu fəxrimdir mənim, canan, olub mehrin mənə qismət,
Məhəllü kuyin olmuşdur dilə bir cayi-əmniyyət.
Fəraqındır şəbi-hicran dilə sənsiz verən zəhmət,
Xəyalımda budur kim, bulmuşam aləmdə bir xilqət,
Nə aləm, hansı xilqət sandığım batil xəyalımdır.

Əcəb divanədir Məcnun, kənar olmuş xəlayiqdən,
Əlin üzmüş ona mənsub olan eldən, əlayiqdən,
Nə hasil dəştü səhrada dolanmaq binəvaliqdən,
Cünun feyzilə azad olmuşam qeydi-əlayiqdən,
Kəmalü fəzl tərki, rütbeyi-fəzlü kəmalımdır.

Münəvvər şəmidir ruyin, məhalifdə şəbi-tarın,
Səadətdir ola hasil təmənnası dili-zarın,
Görəydim bəzmərə mən də nigarın şəmi-ruxsarın,
Mənəm şəmi-vüsalə yandıran pərvanətək canın,
Fənayi-mütləqim canan ilə bəzmi-vüsalımdır.

Gətirmiş cünbüşə əbri mənim ahi-dili-sərdim,
Əlamət motimə eylər kifayət arizi-zərdim,
Əlac dərdimə dərman edən olseydi bir mərdim,
Təbiba, qılmışam təşxis, dərdi-eşqdir dərdim,
Əlamət ahi-sərdü ruyi-zərdü əşki-alimdir.

Fəzayi-eşqdə Nobər, xəyal etmə ki, bədbəxtəm,
Gədalar mülkünün şahi, ğəni dil, sahibi-təxtəm,
Səbati-səbirdə sabit, vəli təcilə həm səxtəm,
Füzuli, aləmi-mülki-qənaətü münimi-vəqtəm,
Diyari-məskənət nəqdim, qənaət mülkü malımdır.



Şəbi-hicranın asibin gözü xummar olandan sor,
Xəyali-zülfini bəxti mənimtək tar olandan sor,
Üzün həzininə bir hədsiz məzaqı var, olandan sor,
Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali-zövq şövqun təşneyi-didar olandan sor.



Gedib bimehr, əğyarın yanında şadru durma,
Xütən ahusutək süzgün baxıb, kəc boynunu burma,
Dili-məcruhuma qəmzən xədəngin müttəsil vurma,
Ləbin sirrin gəlib qoftarə məndən özgədən sorma,
Bu pünhan noqtəni bir vaqifi-əsrar olandan sor.

Könül təndən üdul etmiş, olubdur zülfünə mayil,
Edibdir süknəti-rahət özünə bir gözəl mənzil,
Nədir tənha qalan cismə fəraqi-yaridən hasil,
Gözü yaşlıların halın nə bilsin mərdümi-qafil,
Kəvakib sirrini şəb ta səhər bidar olandan sor.

Nələr çəkmişlər aşiqlər cahanda simi-tənlərdən,
Yanıblar atəşi-hicrə, fəraqə gülbədənlərdən,
Məni canan, hesab eylə vüsalə can verənlərdən,
Xəbərsiz olma fəttan gözlərin covrün çəkənlərdən,
Xəbərsiz məstlər bidadını hüşyar olandan sor.

Nə bilsin eşqi yox qafil mənim əfsurdə əhvalım,
Xərabi-badeyi-ləlin olan sərxoş bilər halım,
Mənim Məcnuna bənzərdir cünun halilə timsalım,
Düşübdür taleim nəhsə dun gün bəd gəlir falım,
Xarabat əhlinin əhvalını bir xummar olandan sor.

Nəsihət istəyir versin mənə bir zahidi-cahil,
Təəccübdür cünun qoysun cünunun başına aqil,
Mərizi-eşqə, ey Nobər, nəsihətdən nədir hasil,
Məhəbbət ləzzətindən bixəbərdir zahidi-qafil,
Füzuli, eşq zövqin zovqi-eşqə var olandan sor.

-105-

Üzün görməm, geyu canan, gözümdə həsrətim artır,
Könüldən vəsl xülyası, tükənməz zəhmətim artır,
Məlalım həddən ötmüşdür, qəmə ünsiyyətim artır,
Xəm açıldıqca zülfündən bəlavü möhnətim artır,
Bihəmdüllah ki, ömrüm uzanır, cəmiyyətim artır.

Demə aram olur çeşmim fəraqında asan yaşdan,
Ənisim qəmdir ayrilmam gecə-gündüz bu yoldaşdan,
Degil mümkün tuta sirrin dil üşşaqi-sirdaşdan,
Məni tədric ilə kəm tutmayın yaqut olan daşdan,
Boyandıqca cigər qanilə qədrü qiymətim artır.

Keçər dovranı bu dəhrin, vəli dovri-çətinlikdir,
Gəhi viranədir qəmdən, gəhi dil mülkü şənlikdir.
Gəhi təzyiqi-möhnətdən, gəhi vüsətli genlikdir,
Tutun göz yolun, ey əşq, təmkinim ki, əskikdir,
Bu surətxanənin gördükcə nəqşin heyrətim artır.

Cahanı tərk edib düşmüş rəhi-eşqə, fəvadım kim,
Özün sabitqədəm qılmış bu yolda qəlbi-şadım kim,
Tapıb şöhrət cünunluqda, mənim şöhrətli adım kim,
Mərizi-dərdi-eşqəm, tərki-aləmdir muradım kim,
Bu naxoş mülkdə çox durduqumçun möhnətim artır,

Nədir təqsirim, ey vaiz, olub bu eşq adəmdə,
Rəvan ruhi vücudinə onun daxil olan dəmdə,
Budur vəchi ki, eşq əhli çəkir həsrət, qalır qəmdə,
Büküldü qamətim həsrət yükündən, vəh ki, aləmdə
Ümmidim əskilir hər ləhzə, yüz min həsrətim artır.



Əvəz lütfü inayətdən olur əfzuntərin cəbrim,
Dili-tarımda ahimdən gəlibdir cunbuşə əbrim,
Bu halilə olarsəm mən şikaf eylər yəqin qəbrim,
Nə şərbətdir qəmin kim, içdikimcə əksilir səbrim,
Nə sehr eylər ruxun kim, baxdıqımca rəğbətim artır.

Məlalü möhnətə, dərdü qəmə mən sahibi-maləm,
Sənə canın verib Nobər, bunu bilmiş hamu aləm,
Cünun halımda mən Qeysə olan bir şəkli-timsaləm,
Cəm olduqca qəmu dərdim rəhi-eşq içrə xoşhaləm,
Füzuli, şad olub şükr etməyimmi, nemətim artır.

-106-

Könül dürrü cəvahirlə dolan dəryayi-ümmandır,
Tökülmüş dürrilər əşki-zulalımdan nümayandır,
Bu dürr çeşmuləl dil şəhi-xubanə şayandır,
Nola gər şövqi-ruxsarınla bağrı aşiqin qandır,
Daşı tədric ilə ləl eyləyən xurşidi-rəxşandır.

Nə qədri fovci-qəm gəlsə könül purkaləsi dolmaz,
Məhəbbətli olan dildən məlalü qəm qisas almaz,
Nigarə dil verən şəxsin dili rahat yəqin qalmaz,
Mujən gər səngdillər könlünü alır əcəb olmaz,
Onun tək abnus ox layiqi-fulad peykandır.

Səlasil boynuma kafi olur bir türreyi-tarın,
Gəirməz başımı huşa şərabü çeşmi-xumarın,
Səni vəsf eylədim, ey gül, bu vəsfə olsun iqrarın,
Pərivəşlər dili-səxtinə düşmüş mehri-ruxsarın,
Sənin əksin tutan fulad güzgülər firavandır.

Qədin müştaqi bağ içrə olub sərvi-sənubərlər,
Məşami-zülfünü gözlər çəməndə sünbüli-tərlər,
Üzündən həzz alar hər gün binaguşindəki zərlər,
Dəhanın dürci kim, qeydin çekərlər mahpeykərlər,
Pərilər taətiçün xatəmi-mülki-süleymandır.

Sənə heyran olan çoxdur sənintək çeşmi-heyranlar,
Gedibdir badə ruxsarın ucundan dinü imanlar,
Asıb zunnar boynundan yolunda Şeyx Sənanlar,
İtin yoluna yüz sürtsənolur əmrinlə xubanlar,
Mələk xeyli sücudi-Adəm etmək nəssi-Qurandır.

Səadətmənd dövranəm ki, oldum həmdəmi-eşqin,
Gözümdən gəldi ruxsarə məhəbbətlə nəmi-eşqin,
Məhəlli-meyruyindir cigər, dil qılzimi-eşqin,
Qatı könlünə bağrı daşların düşmüş qəmi-eşqin,
Bir oddur eşqi-cansuzın ki, daşlar içrə pünhandır.

Xəbərsiz qalma, ey məhru, sənə könlün verib Nobər,
Gözündə əksi-ruyindir, lisanında adın əzbər,
Üzünü görməyənlərdir ona töhmət verən kəslər,
Səri-kuyində hər yan çox giriban-çak gülruxlər,
Bu rəng ilə, Füzuli bulsa kuyin bir gülüstandır.

-107-

Qəmzən xədəngi sinəmi dəlmiş, səda verir,
Hər bir dilin sədasına ahim nəva verir,
Vəslin xəyalı könlümə zövqü səfa verir,
Səbrim alır fələk, mənə yüz min bəla verir,
Az olsa hər məta, ona el çox bəha verir.



Gul ruyin üzrə nuki-mujəndir olan tikən,
Cəllad gözlərindi, qaşın tiği-qan tökən,
Ölsəm məzarə dildə gedər daği-purmühən,
Düşdüm bəlayi-eşqdə xirədməndi-əsr ikən,
El şimdi məndən aldığı pəndi mənə verir.

Etdin məni fəraqidə məhzun, xuncigər,
Nəxli-ümid şaxəsinə firqət oldu bərr,
Göz yaşıdır bu nəxlə rəvan şam ta səhər,
Sanmın əcəb, rütəb yerinə versə ləli-tər,
Bir nəxl kim, yaşım ona nəşvü nəma verir.

Səbrin sözü köməkdi dilə hicrə tab üçün,
Bir əbridir hərarəti çox aftab üçün,
Aramdır ürəkdəki suzişli tab üçün,
Xaki-dərindir dün gün kim, səvab üçün,
Həm ayə sürmə, həm günəşə tutiya verir.

Tab eyləyir fəraqi-şəbinidə bu rəncə kim,
Nar fəraqi-ruyinə suzandı munca kim,
Bir xubru görərmi cahan məhdi səncə kim,
Qılmaz qəbul surəti-iqbal munca kim,
Ayineyi-vücuduma cövrün cila verir.

Qəm, qüssədir fəraq şəbində dilə şərik,
Onlar mənə süpah, mənəm onlara məlik,
Dərdim ziyadə, qussə, məlalım beqədri-rik,
Ney kimi oldu cismim oxundan dəlik-dəlik,
Dəm urduqumca hər dəliki bir səda verir.

Aşiqlərin dilindədi zövqü səfayi-dərd,
Əğyarə görməz oldu nigarım rəvayi-dərd,

Nobər dilindən oldu nümayan sədayi-dərd,
Hər dərdsizdən umma, Füzuli, dəvayi-dərd,
Səbr eylə, ol ki, dərd veribdir, dəva verir.

-108-

Cəfayi-cövri-cananı dili naçara yazmışlar,
Mujə peykani zəxmindən onu sədparə yazmışlar,
Şəbi-hicranidə yansın dili, odlarə yazmışlar,
Əzəl katibləri üşşaq bəxtin qara yazmışlar,
Bu məzmun ilə xətt ol səfhəyi-ruxsarə yazmışlar.

Rəhi-eşqində başımdan həvasi-huş olubdur gum,
Verilmiş qətl üçün, bilmiş gözün cəlladına hökm,
Tutub gisudə etmişsən onu dustaqtək məhkum,
Xəvasi-xaki-payın sərhrini təhqiq edib mərdum,
Qubarilə bəyazi-dideyi-xunbarə yazmışlar.

Dilə tərk eyləmək eşqi təriqi-eşqdə müşkül,
Gözəllikdə üzün güldür, dili-aşiq ona bülbül,
Fəğan eylər gecə-gündüz, açıbdır nəğməyə min dil,
Gülüstani-səri-kuyin sifatın bab-bab, ey gül,
Xəti-reyhan ilə cədvəl çəkib, gülzarə yazmışlar.

Ləbindən qeyri meynuşin qəbul etməz dilim hər giz,
O meydir dərdisər canə, bu meydir fahimü ramiz,
Həqiqətlə nəzər saldıq, belə mənayə gəldik biz,
Girib meyxanəyə qılsan təkəllüm, can bulur şəkşiz,
Müsəvvirlər nə surət kim, dərü divarə yazmışlar.



Dili-zarımda sən qoydun müqərrər ahi-cansuzi,
Haçan bilməm olur səndən bu mehzuna diləfruzi,
Nişanə sinəmi etmiş müjən peykan dilduzi,
Mühərrirlər yazanda hər kimə aləmdə bir ruzi,
Mənə hər gün dili-sədparəndən bir parə yazmışlar.

Tənim zəfi qəmindəndir, onun rəncilə ruyim zərd,
Hərarət yoxdu canımda, olub heyrətdə canım bərr,
Pərişanhal Nobəri, kifayətdir sənə bu fərd,
Yazanda Vamiqü Fərhadü Məcnun vəsfin əhli-dərd,
Füzuli adını, gördüm, səri-tumarə yazmışlar.

-109-

Mən ki, rüsvayi-cəhanəm bilmirəm rusva nədir,[1]
Aşiqi dərdə salan bu surəti-ziba nədir,
Dilləri cəzb eyləyən bu nərgizi-şəhla nədir,
Ey qilan şeyda məni, məndən bu istiğna nədir?
Necə sormazsan ki, əhvali-dili-şeyda nədir?

Olmusan aludeyi-vəslim bə leykin durisən,
Məktəbi-tədrisidən bu eşqimə məmurisən,
Tərki-əql etdin, mənim Məcnunum oldun urisən,
Gər mənə xəlq içrə pərva qılmadın məzurisən,
Belə tənhalıqda qılmazsan mənə pərva nədir?

Adət olmuşdur sənə hicranım ilə ağlamaq,
Ahi-peydər-pey çəkib cismilə canı dağlamaq,
Bu təəcübdür gəlib yanımda həmdərd olmamaq,

---

[1] Bu qəzəl "Leyli və Məcnun" dandır. Nobəri özü də bunu qeyd etmişdir.

Səhldir gər bilməyib halım, tərəhhüm qılmamaq ,
Halımı bilmək, tərəhhüm qılmamaq əmda nədir?

Aşiqi var mütləqa, hər surəti-zibaların,
Bu çəməndə qədri var sərvqədü rənaların,
Varmıdır qədri cahanda mən kimi rüsvaların,
Gül təmənnasında deyirlər bülbülün qovğaların,
Çun gülün gördükdə gülməz bilirəm, qovğa nədir?

Çərxi-kəcrəftarıdan yox aşiqə, Nobər, nicat,
Səbr qılmaq aşiqin mehrindəndir dildə səbat,
Aşiqə lazım degil cananəsiz eyşi-həyat,
Ol pəri mütləq məni-rüsvayə qilmaz iltifat,
Ey Füzuli, bilmərəm cürmi-məni-rüsva nədir?

-110-

Cahanda eyşü-işrət bəzminin üxrası matəmdir,
Olan bir ləhzə xürrəmdil, nəhayət çeşmi pur nəmdir,
Səfası, ləzzəti, zövqi, sərvəri qəmlə bahəmdir,
Bu aləm kim, könül qeydin çəkirsən möhnətü qəmdir,
Fəna sərmənzilin seyr eylə, gör kim, xoşca aləmdir.

Nədir ansan edər təyin mürüvətlü olan hakim,
Ənisü munis olmaqdır, belə bilmişdir idrakim,
Mənim təxmir olub xilqət dəmindən eşq ilə xakim,
Anıb tənhalığı qəbr içrə, nifrət etmə ondan kim,
Təriqi-üns tut kim, hər ovuc topraq bir insandır.

Məhəl kuçi-rəhlətdir nə qədri dəhridə qalsan,
Əbəsdir etimad ilə büsatın bu yerə salsan,
Bu dar içrə qənimət bil dəmi-rahatlığı bulsan,



Degil möhkəm cahan mülkündə hər bünyad kim, qılsan,
Bəqa mülkündə mənzil tut kim, bünyadi-möhkəmdir.

Demə ruhun qəbul etmiş müdamin təndə bu həbsi,
Hamı mirati-dünyada görər bu əksi-bər əksi,
Bu ataş yandırar bişək təmamən rütbilə yabsi,
Əcəl alayişi-xobfü xatərdən qurtarar nəfsi,
Bu covhər kimiyayi-nəfsə bir iksiri əzəmdir.

Ənis olmaqdır insanlıq, əzizim, qalma heyrətdə,
Bu timsal içtimaidir təmamən xəlqü millətdə,
Gərək şöhrət bula insan əmanətlə dəyanətdə,
Kəmali-eşqi-insan movtiləndir rahi-hikmətdə,
Bəli, mücra qılan hökmün misalın nəqşi-xatəmdir,

Nə iş görsən təsəvvür qıl onun əvvəlcə üxsarın,
Dürüst təyin qıl anın dilində fikrü xülyasın,
Nəzərdə tutkinən mütləq bu karın ziştü zibasın,
Bahar əyyamı girsən laləzarə, xak əczasın,
Mühəqqər qılma kim, hər zərrəsi bir Cam ilə Cəmdir.

Fəraqi-yar ilə rəncur olan səfa qədrin,
Yəqindir yad edər aşiq vəfalı dilrüba qədrin,
Bilər Nobər nigarından gələn covrü cəfa qədrin,
Əsiri-nəqddir əhli-cahan, bilməz fəna qədrin,
Füzuli, tərk təcridi sənə ancaq müsəlləmdir.

-111-

Məni sərxoş xəyal etmə, həvasim mənlə bahəmdir,
Başımda huşu idrakim, şuur əqlilə cəmdir,

Zəkanı məndə əfzun bil, təsəvvür etdigin kəmdir,
Bu aləm kim, könül qeydin çəkirsən möhnətü qəmdir,
Fəna sərmənzilin seyr eylə kim, bir xoşcə aləmdir.

Qaranlıq darə həm düşsəm qəvi könlümdə yoxdur bim,
Əzəl, axır bu dünyada müəyyəndir mənim qəbrim,
Olur topraq hər insan, bunu təsdiq edər hər kim,
Anıb tənhalığı qəbr içrə, nifrət etmə ondan kim,
Təriqi-üns tut kim, hər ovuc topraq bir insandır.

Sənə gülxən kifayətdir təəşöq zövqini bilsən,
Taparsan rütbeyi-ali misalı-dürd, əskilsən,
Görərsən dəhr fanidir bəsirətdən gözün silsən,
Degil möhkəm cahan mülkində hər bünyad kim, qilsan.
Bəqa mülkində mənzil tut kim, ol bünyad möhkəmdir.

Kim aqildir cəhalətdən çıxar, hər dəm vurar nəfsi,
Məzəmmətlə qürurundan salar daim yurar nəfsi,
Məzaqi-eşqi əxz eylər, onunla doydurar nəfsi,
Əcəl alayışi xofü xətərdən qurtarar nəfsi,
Bu covhər kimyayi-nəfsə bir iksiri-əzəmdir.

Keçirmə ömrünü cəhlən, əzabü rəncü zəhmətdə,
Gələr bir gün əcəl ey dil, həyatı bil qənimətdə,
Dürüst fikr eylə, bir bax, gör, nələr var bu nəsihətdə,
Kamalü-eşqi-insan möftiləndir rahi-hikmətdə,
Bəli, mücra qılan hökmün misalın nəqşi-xatəmdir.

Qənimət bil bu dünyanın libası cismə kərbasın,
Qürurundan düşüb dayim müraatın gözət nasın,
Vəfalı bilmə bu çərxin fəna darilə dünyasın,
Bahar əyyamı girsən laləzarə, xak əczasın.



Mühəqqər qılma kim, hər zərrəsi bir Cam ilə Cəmdir.

Gətir ənzarə, ey Nobər, cahanın bərr ilə bəhrin,
Müqərrərdir ki, nuş eylər ümumiyyət əcəl zəhrin,
Fəna bil dar dünyanı, dilində saxlama mehrin,
Əsiri-nəqddir əhli-cahan, bilməz fəna qədrin,
Füzuli, tərk təcridi sənə ancaq müsəlləmdir.

-112-

Bilmirəm başımdakı bu fikr, bu xülya nədir,
Heyrətim əks etdirən bu surəti-ziba nədir,
Göz tutan heyrət dəmi ol qaməti-tuba nədir,
Oylə sərməstəm ki, idrak etməzəm dunya nədir,
Mən kiməm, saqi olan kimdir, meyi-səhba nədir.

Dadü fəryad eyləyib ləhzə yarı səslərəm,
Könlümün dağın açıb ol mahruya göstərəm,
Covrünə cananımın şovqilə rəğbət bəslərəm,
Gərçe canandan dili-şeyda üçün kam istərəm,
Sorsa canan bilməzəm kami-dili-şeyda nədir.

Hər şəbi-hicran dolur məhzun dili-zarə məlal,
Qorxum oldur kim, yetə qəmdən dilü-canə zəval,
Vəsli-canandır olan çun kim, məhal əndər məhal,
Vəslidən çun aşiqi müstəğni eylər bir xəyal,
Aşiqə məşuqidən bilməm bu istiqna nədir.

Atəşi hicranına canan özü vaqif degil,
Aşiqi bu atəşin izharına kaşif degil,
Ah kim, badi-səba dildən ona hatif degil,
Hikməti-dünyayi mafiha bilən arif degil,

Arif oldur bilməsin dünyayi-mafiha nədir.

Həsrəti-ruxsariyəm, könlümdə sakindir qəmi,
Ahi-dil xoşq eyləyir giryan olan gözdən nəmi,
Etiraf et Nobəri, sən də, Füzuli bahəmi,
Ah fəryadım, Füzuli, yandırıbdır aləmi,
Gər bəlayi-eşq ilə xoşnudsan, qovğa nədir?

-113-

Eşq aləminə qoyma qədəm aləmi-qandır,
Qanlar tökülüb məərrəkeyi-eşqə rəvandır,
Fərhad biri, Qeys biri dəhrə nişandır,
Can vermə qəmi-eşqə ki, eşq atəşi-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır!

Gör kuhkənə neylədi bu çərxi-xətaxiz,
Eşq etdi onun aqibətin mərdomi-xunriz,
Naseh sözünə guş tutub anlamadıq biz,
Sud etmədi sovdayi-qəmi-eşqdə hərgiz
Kim, hasili-sovdayi-qəmi-eşq ziyandır!

Əfsürdə keçər aşiqin əlbəttə, məaşi,
Başında görər şamü səhər tənəli daşi,
Məhsulu olur xuni-cigər, sinə xəraşi
Bir xənçəri-xunriz olur qətlinə qaşi,
Hər zülfi-siyəh aşiqə bir əfi ilandır!

Canü dil olur möhnətü ənduhilə imla,
Bir çarəsi yox, dərdi qılar canına peyda,
Can rahəti yox aşiqi-biçarədə əsla,
Yaxşı görünür surəti məhvəşlərin, amma



Yaxşı nəzər etdikdə, sərəncamı yamandır!

Xoşdur mənə uftadə dilim, surəti-fəqrim,
Olsaydı əgər Qeysilə Fərhad həməsrim,
Təsir eləyirdi olara zəmməli zikrim,
Eşq içrə əzab olduqun ondan bilirəm kim,
Hər kimsə ki, aşiqdir, işi ahü fəqandır!

Tərk eylə bu sövdanı, ona söyləyib amin,
Bil zəndəligin əsl məişətdəki rəsmin,
Tut bir nəzərə xubilərin qeyzilə xeşmin,
Yad eylə qara gözlülərin mərdümi-çeşmin,
Mərdüm bilib aldanma ki, içdikləri qandır!

Qəflətdən oyan, Nobəri, ol sən də xəbərdar,
Eşqin odunu salmagilən canına, zinhar,
Dərmanilə səhhət tapa bilməz belə bimar,
Gər dersə Füzuli ki, "gözəllərdə vəfa var"
Allanma ki, şair sözü əlbəttə, yalandır!

-114-

Yad qılcaq vəslini xəndan olur ruxsarımız,
Məhv olur məhzun olan dildən fəğanü zarımız,
Gəryədən aram olur bu dideyi-xunbarımız,
Buldu kuyində dəva dərdə dili-bimarımız,
Sən ağasan, biz quluz, kuyindədir timarımız.

Mən də bir şirinliqa, məhpeykərin müştaqiyəm,
Bülbüli-şeyda dilim, bir gülruxun dustaqiyəm,
Möhnətü dərdü ələm şəhri, bəlalar dağiyəm,
Nola gər olduysa fani kuhkən, mən baqiyəm,

Eşqə bizdəndir bəqa, yoxdur yox olmaq varımız.

Gəryadır zahir edən pünhan dilimdə qəm dağın,
Xuni-dildir eyləyən hümra qəmində göz ağın,
Sanmayın eşq əhlinə asan şəbi-hicran çağın,
Zahida, gör sinəçakın, şölə rizindən sakın,
Bir ocağız biz ki, suzandır dərü divarımız.

Yar etməyir yarımız, təqsirimiz olmuş nədən
Kim, bizə biiltifat olmuş nigari-gülbədən,
Daği-hicranı onun xamuş olarmı sinədən,
Gülşəni-qəm nəxliyiz, pərvərdə abi-didədən,
Darilər bərg ahi-atəşbarımızdır barımız.

Aşiqə yoxdur olan dünyada canandan əziz,
Bülbülə gülzaridə gülbərg xəndandan əziz,
Var bir məhbus edib azad zindandan əziz,
Əhli-tərkin quluyuz, oldur bizə candan əziz,
Yusif isə xudfüruş, onunla yox bazarımız.

Verməyir eşq əhlinə xoş taleü iqbal dəst,
Vəsli-naməqduridən hər dəm olur qəlbi şikəst,
Nəşəyi-çeşmi-xumaridən olubdur başı məst,
Əşkimiz girdabi ali, ömrümiz bünyadi pəst,
Gör nə alçaq dirlikilə çizginir pərkarımız.

Çəkdim əfzuntər əziyyətlər fəraqi-yaridən,
Saxladım pünhan qəmi dil guşəsində aridən,
Nobəri canan neçün məhrum edir didaridən,
Ey Füzuli, covri-yarü təneyi-əğyaridən
Var yüz min qəm, bu həm bir qəm ki, yox qəmxarımız.



-115-

Dil olarmı hicrdə fəryağü ahü zarısız,
Hicr əyyamında göz olmaz ki, əşkbarısız,
Sübh etməkdir çətin hicran şəbin dildarısız,
Xəm qədilə ağlaram ol türreyi-tərrarısız,
Gərçi derlər çənkdən çıxmaz tərənnüm tarsız.

Noldu bais lütfünü qəmzən kəsib bizdən, nədən?
Səhv edib, ey mahru, təqsir qıldım yoxsa mən?
Mən gedayi-kuyi-eşqəm, mərhəmətli şah sən,
Qəmzən oxun əskik etmə çak olan bu sinədən,
Ey güli-rəna, bilirsən kim, gül olmaz xarsız.

Eşq nəxli bar verməz bağı-hüsnə əkməsəm,
Su əvəz ol nəxlə, mən göz yaşı hər gün səpməsəm,
Bülbüli-gülzarıtək dovri-ruxunda səkməsəm,
Saxlamazdım navəkin gözdə, bəlasın çəkməsəm,
Bəsləməzdim su verib ol nəxli olsa barsız.

Ey könül, kuyi-nigarə yetmək istə, ara yol,
Var bu rahi-eşqdə can düşməni purxar kol,
Müddəi əğyarilər hər səmti kəsmiş sağü sol,
Yol azarsan zülməti-heyrətdə, ey dil, vaqif ol,
Zinhar ol kuyə varma ahi-atəşbarsız.

Xeyli var sərgəştə bu avarə şərhi-eşqdə,
Qərq olubdur kuhkən Qeysilə bəhri-eşqdə,
Zəhərlənmiş, ey könül, çoxlar bu zəhri-eşqdə,
Giryəyi-zar ilə xoşhaləm ki, bəhri-eşqdə
Əşksiz göz bir sədəfdir lölöi-şəhvarsız.

Olmasın qəmzən oxu bir ləhzə canımdan cüda,
Aşiqin xəlvət dəmi olmuş bu tirəcan fəda,
Göndərib müjgan oxun eşq əhlinə, göstər vəfa,
Canə azari-xədəngin xoş gəlir, ey qaşı ya,
Bir sifariş qıl ki, bizdən ötməsin azarsız.

Biriyasən Nobəri, əhsənət barın, məhrəba,
Göstəribsən yarına rəsmi-təriqətdə vəfa,
Bilmisən hicranı sən canü dilə zovqü səfa,
Zöhddən keçməz Füzuli, eyləməz tərki-riya,
Pənd çox verdim eşitməz arsızdır, arsız.

-116-

Mərami-xahiş dilcə müəssər heç kam olmaz,
Qaçar səyyadidən ahu, fəribi-damə ram olmaz,
Qənilər bəzmi-şadində fəqirə bir məqam olmaz,
Təriqi-fəqr tutsam təb tabe, nəfs ram olmaz,
Ğına qılsam tələb, əsbabi-cəmiyyət tamam olmaz.

Məhəbbət naxlini dildə əkib ondan səmər görməm,
Fəzayi-eşqdə şahəm, başımda taci-zər görməm,
Eylə məstəm səlahimçun olan bir xeyrü şər görməm,
Miyanından nişan ey məh, dəhanından əsər görməm,
Məni-nakamə ömrümdə müəyəssər heç kam olmaz.

Aşıqdır süfreyi-ruyin, nədir ondan mənim ruzim
Kim, olsun könlümə onun vüsulilə diləfruzim,
Şəbi-tarə bərabərdir fəraqında olan ruzim,
Muqimi-kuyi-dərd eylər məni ahi-cigərsuzim,
Bu ahəngi-məlaləf zayə bundan yek məqam olmaz.



Meyi-meyxanə nuşindən könül bilmərrə saimdir,
Şərabi-ləli-meygunə həvəs qəlbində qaimdir,
Piyalə dolduran saqi bizə qəlbi mülayimdir,
Müridi-saqiyəm kim, əhli-dərdə lütfi daimdir,
Nə hasil əhli-zöhdün şəfqətindən kim, davam olmaz.

Demə kim, kəsrəti-qəmdən olar səndən dil ikrahı,
Qəbul etmiş dilim rənci tutanda qorxulu rahi,
Nəyə münəccirdir, axır bu sövdadan yox agahi,
Dedim: Üşşaqə cövr etmə: dedi, ol xubilər şahi,
Siyasət olmayınca eşq mülkündə nizam olmaz.

Alar idraki mey başdan, tən olmaz ondan afətsiz,
Dolar ənduhilər qəlbə, olar can mülki rahətsiz,
O meydən nuş edün olsun dililə canə afətsiz
Ləbindən qətrə-qətrə qan içər könlüm kərahətsiz,
Şəkərdən olucaq mey qətrəsi guya həram olmaz.

Məgər aşiqlərin qəlbi açılmaz, ruyi gülməzmi?
Könüldən bu qətari-qəm kanar olmaz, çəkilməzmi?
Sirişkin Nobəri, gözdən məgər bir dəm kəsilməzmi?
Füzulini məlamət eyləyən bidərd bilməzmi?
Ki, bazari-cünun rüsvalarında nəngü nam olmaz.

-117-

Olmadı sənsiz dilə rahət keçən bir dəm hənuz,
İntəha bulmaz gələn gözdən üzarə nəm hənuz,
Çıxmayır başdan xəyali-türrəyi-purçəm hənuz,
Oldu aləm şad səndən, mən əsiri-qəm hənuz,
Aləm etdi tərki-qəm, məndə qəmi-aləm hənuz.

Qəmzə peykani dili-sərməsti hüşyar eyləyib,
Ləli-meygunin məzaqından xəbərdar eyləyib,
Dərdi-bidərmanımın dərmanın izhar eyləyib,
Can bağışlardı ləbin izhari-göftar eyləyib,
Vurmadan İsa dəmi canbəxşilikdən dəm hənuz.

Müntəzir rahında bu çeşmim itirmiş xabını,
Örgənib könlüm qaşın təzminin adabını,
Toqi-gərdən qılmışam gisuların qüllabını,
Səcdəgah etmişdi eşq əhli qaşın mehrabını,
Qılmadan xeyli-məlayik səcdeyi-Adəm hənuz.

Arzu etdim sənin ləli-ləbi-xəndanını,
Cismü canımdan dəxi tutdum girami canını,
Aləmi-ərvahidən mən bilmişəm ünvanını,
Cana dərdin eyləyib, cismə rəvan peykanını,
Cism ilə can irtibatı olamadan möhkəm hənuz.

Qoydu aşıq nəqdi-can cananından kam almağa,
Gərdəni-rüsvayə ol zənciri-zülfün salmağa,
Xadimi dərgah olub kuyi-sərində qalmağa,
Əşk sərf eylər fələkdən kami hasil bulmağa,
Bu göhər qədrini bilməz dideyi-purnəm hənuz.

Ahi-sərdi aşiqin, ey məhru, getməz heçə,
Eylə bir təsiri var qorx kim, dəlüb kökdən keçə,
Bu sözümdən düşməsün əhli-səma piçü piçə,
Pərdeyi çeşmim məqam etmişdi bir tərsabeçə,
Olmadın məhdi-Məsiha daməni-Məryəm hənuz



Ruhi tərk etsin tənim,ey Nobəri, olmuş qərib,
Yarıdan vəsl istədim, göstərdi min mekrü fərib,
Mən onu əğyarıdan məhsub edim, ya kim, həbib,
Ey Füzuli, eylədi hər dərdədərman ol təbib,
Bir mənim zəxmimdir ancaq bulmayan məlhəm hənuz.

Səngdillər cövrini əhli-vəfadan saxlamaz,
Aşiqi-nalan gözün əşki-bukadan saxlamaz,
Çaki-sinəm köksümü tirü cəfadan saxlamaz,
Qəmzə peykanın gözün mən mübtəladan saxlamaz,
Sərf edər əhli-nəzər nəqdin gədadan saxlamaz.

Etginən cansuz olan hicrində ahimdən heras,
Cövrün almaz mehrilə məmlu olan dildən qisas,
Rəhm qıl üşşaqına kim, səndən eylər iltimas,
Dil nədir yanımda kim, qəmdən məni qılsın xilas,
Çəkməm ol təviz barın kim, bəladan saxlamaz.

Bəxtimin timsalıdır müjganilə əbru siyah,
Dil damadəmlər çəkər peykan tutan əbrudan ah,
Haləti-məhzunumə cansuz ahimdir kuvah,
Canə cismim ol xədəngi-qəmzədən olmaz pənah,
Heç covşən kimsəni tiri-qəzadan saxlamaz.

Olmadı çərxi-fələk kecdövr olan seyrində ləng,
Eylədi eşq əhlinə vüsətli bu dünyanı təng,
Bar edir tən mərkəbin qəm bari ilə şəng-şəng,
Qüssədən bir dəm təni-rüsvanı dur etməz fələk,

Vəh necə fanusdur, şəmi həvadan saxlamaz.

Öldürür eşq əhlini bişübhə, bizənn, guman,
Göz açar dil sirrini yaşın edən dəmdə rəvan,
Güldən ətr olmaz kənarə, həmçu bülbüldən fəğan,
Aləmi şeyda qılar, gər olsa həm gözdən nihan,
Bir pərivəş kim, sərü zülfün həvadan saxlamaz.

Aşiqi tərk eyləməz bir ləhzə kuyi dilbərin,
Dəmbədəm müşəvvəş[1] eyləyər pərvanəvəş dovrü bərin,
İtləritək istəyər hifz eyləsin damü dərin,
Eylərəm bixud fəğan, gördükcə kuyin itlərin,
Aşina razi-nihanın aşinadan saxlamaz.

Nobəra, sirrin demə ta olmasa sirdaş əgər,
Hər yetən bidərdi dərfdu-dildən etmə baxəbər,
Eşqi zahir edən Məcnun çəkib ondan nələr,
Bisəbəb sanmun Füzuli, kim məlamətlər çəkər,
Bixəbərdir, məşrəbin əhli-riyadan saxlamaz.

-119-

Şöhrəti-eşq ilə mən oldum yanında sərfəraz,
Eylədim ol kəbeyi-ruxsar ilə zaru niyaz,
Qaziül-hacatsan dərgahına dəstim dəraz,
Razi-eşqin saxlaram eldən nihan, ey sərfəraz,
Getsə başım şəmtək mümkün degil ifşayi-raz.

[1] Mətndə "müməvvət" kimi getmişdir.



Tiri-müjgandır olan əkinmədə bir ahən zireh,
Sancılıbdır bağrıma peykani-qəmzən bəkireh,
Eşq əmlakında bu məşhur olan sözdür sərih,
Xüblər mehrabi-əbrusına meyl etməz fəqih,
Ölsə kafirdir, müsəlmanlar ona qılmun nəmaz.

Anlayıblar aşiqəm cümlə cahanın mərdümi,
Görmüş olan kimsələr bu rəngi-ruyi-zərdimi,
Yoxdu canana deyən üxradəki bu fərdimi,
Kimsə ol bədxuyə izhar edə bilməz dərdimi,
Ey sürudi-nalə, tanrıçun sən olqıl çarəsiz.

Məqsədim meydanına hərdəm gəlir qəmdən guruh,
Qeyri-mümkün bağlamaq bu focilə iqdi-süluh,
Zahid istər eşqdən versin mənə tubül-nəsuh,
Qalibim görmüş tuhi, tökmək dilər bir tazə ruh,
Bərgi-ahim kim, gələn peykanına vermiş gudaz.

Dürdi-meytək olsam ər ənzarıda biehtiram,
İbtidaim rəncdir, üxramə başlardır məqam,
Ey səfər xahiş edən könlüm, qəbul et bir kəlam,
Mən ki öldüm, ey turabımdan olan sağər, müdam
Rindlər bəzmin gəzib, məndən yetir razü-niyaz.

Mehri-yar ilə dolub cismimdə naseh tar kim,
Rahi-eşqi mən tutub bildim təriqi-müstəqim,
Dərdi-eşqə nasehin pəndi ola bilməz həkim,
Xubsurətlərdən, ey naseh, məni mən etmə kim,
Pərtövi-ənvari-xurşidi-həqiqətdir məcaz.

Eşq dərdin Nobəri, hansı təbibə söyləyim,
Fikrim oldur onların tədbirini rədd eyləyim,

İstərəm cananımı dərdi-dilimçün həyju yüm,
Ey Füzuli, qalmışam heyrətdə, bilməm neyləyim,
Dəhr-zalim, bəxt-nafərcam, tələb-çox, ömr-az.

-120-

Dili-məhrunimin canan pərişan olduğun bilməz,
Məlalü möhnəti dildə fəravan olduğun bilməz,
Hamı ellərdə bu dərdim nümayan olduğun bilməz,
Fəğan ki, bağrımın ol lalərux qan olduğun bilməz,
Cigər pərkaləsində daği-pünhan olduğun biməz.

Tapılmazdır səva məndən onun bir yar dövründə,
Belə dərdə davam etməz onun diyari-dövründə,
Nədəndir eyləyir bilməm dilimi zar dövründə,
Həbibim könlümü cəm eyləməz rüxsarı dövründə,
Məgər zülfü kimi halım pərişan olduğun bilməz?

Məharət göstərir canan dilimi dərdə salmaqda,
Zəif etmiş gözüm nurin müdamin yolda qalmaqda,
Bərabər oldu fəryadım gecə, gündüz ucalmaqda,
Qılır təqsir bir dəm lütf edib könlümü almaqda,
Vəfa rəsmin sanır düşvar, asan olduğun bilməz.

Saraldı möhnətü qəmdən fəraqında solan aşiq,
Sənə könülün verib, vəslin təmənnasın qılan aşiq,
Yarıb dırnaq ilə qəmindən baş yolan aşiq,
Gözəllər dövləti-vəslin bulub, məğrur olan aşiq,
Nişati-vəsldə ənduhi-hicran olduğun bilməz.



Yetişməz daməni-vəslə nədəndir, aşiqin dəsti,
Bədəndir bir müqəvvatək, nədir bu zəndəlik həsti,
Nədən o mahru məndən tərəhhüm dəstini kəsdi,
Dili-sədparədən bidad getməz qəmzəyi-məstin,
Nə qafil padişəhdir, mülk viran olduğun bilməz.

Olubdur nasehin pəndi dili-üşşaqə bir qayqu,
Nə yerdən söyləyur bilməm, günəhdir mənzəri-xubru,
Öz eybin yetərdur, görməz, görər eybin mənim bir mu,
Sanır zahid özün xali xəyalından, qələtdir bu,
Bu heyran olduğundandır ki, heyran olduğun bilməz,

Riyadır, Nobəri söylər həmişə pəndi-vaizlər,
Nigara dil verən aşiq nəsihət söhbətin neylər,
Müssələmdir ki, zahidlər həmişə aşiqi peylər,
Füzuli, xəstəyə düşmən sözilə dost cövr eylər,
Zəhi sadə, müariz qovli-böhtan olduğun bilməz.

-121-

Cəm olmuş qəmləri, dildən pərişan eyləmək olmaz,
Könül mülkün müsəlləmdir ki, viran eyləmək olmaz,
Qəmi-sərgəştəyə kuhi biyaban eyləmək olmaz,
Könüldə min qəmim vardır ki, pünhan eyləmək olmaz,
Bu həm bir qəm ki, el tənindən əfğan eyləmək olmaz.

Düşür aşiq dili dərdə tapanda eşqi-cananı,
Dilin Yusif qılar çahi, olur yarın zənəxdanı,
Çıxar bu çahidən mütləq, bular vəsli-Züleyxanı,
Nə müşkül dərd olursa bulunur aləmdə dərmanı,
Nə müşkül dərd imiş eşqin ki, dərman eyləmək olmaz.

Şəbi-hicranda yarın xəyalın canə bil minnət,
Əgər sərraf isən anla, düri-xülyayə qoy qiymət,
Təşəkkur qıl bu xülyayə əlində var ikən fürsət,
Fəna mülkinə əzm etmə sən, ey dil, çəkmə çox zəhmət,
Bu tədbir ilə dəfi-dərdi hicran eyləmək olmaz.

Məni rahat qoy, ey naseh, dolanım yar olan kuda,
Əzəl gündən dəmi-xilqət olub könlüm bu arzuda,
Cigərdə ah olub, dildə qübaru qəm, gözüm suda,

Yıxarsan könlüm, ey naseh, çox etmə pəndi-bihuda,
Həvayi-nəfs ilə bir mülki viran eyləmək olmaz!

Nəzərgahimdədir əksin, müəkkəs qaliba, güldür,
Saçındır dəsteyi-reyhan, müsəlsel zülfi-sünbüldür,
Müqəssir tutma mən zarı ki, cürmüm xeyli yüngüldür,
Dəhanın üzrə ləlin istəmiş dil, dəfi müşküldür,
Görünməz heç cürmü, yox yerə qan eyləmək olmaz.

Tənim gər xakə həm dönsə, yenə ondan qəmin getməz,
Dilim istər sənə dərdin desin, lakin əlim yetməz,
Kənarə baği-ruyindən muradım nəxli həm bitməz,
Dualar eylərəm, məndən mənə bir dəm guzar etməz,
Nə çarə, seyrilə sərvi xuraman eyləmək olmaz.

Nə qədri covr edə Nobər, kanara durma eşqindən,
Məlalü ğüssəsi yarın füzundur, görmə eşqindən,
Vəfa rəsmində möhkəm dur, məlalı sorma eşqindən,
Füzuli, aləmi-qeyd, içrəsən, dəm urma eşqindən,
Kəmali-cəhl ilə dəvayi-irfan eyləmək olmaz.



-122-

Ey məhi-taban ki, biz səndən inayət bəkləriz,
Bir zəman asudəlik künci-fərağət bəkləriz,
Təndəki canı həman vəslə əmanət bəkləriz,
Neçə illərdir səri-kuyi-məlamət bəkləriz,
Ləşkərik sultani-irfanə, vilayət bəkləriz.

Badeyi-ləli-ləbin fikrilə olduq xuncigər,
Saqim oldun, camımı doldurmadın sərtabəsər,
Həsrəti-ruyində göz tökdü damadəm əşki-tər,
Sakıni-xaki-dəri-meyxanəyiz şamü səhər,
İrtifai-qədr üçün babi-səadət bəkləriz.

Ali qədr etmiş bizi bu tinəti-mərğubumuz,
Aklımız xuni-cigər, göz yaşidır məşrubumuz,
Rövşənayi-sübhimiz ötmiş, yetir məğrubumuz,
Cifeyi-dünya degil kərkəs kimi mətlubumuz,
Bir böyük ənqalarız, Qafi-qənaət bəkləriz.

Can qurtarmaz könlümüz ol turreyi-tərraridən,
Olmuruq asudə biz min tənəli guftaridən,
Nə fəraqə tab edib, nə əl götürdük yaridən,
Xab görməz çeşmimiz əndişeyi-əğyaridən,
Pasibanuq, gənci-əsrari-məhəbbət bəkləriz.

Barımız qəm-qüssədir, məqsud yarə göz tikib,
Naqəyiz yorğun düşən, dil təngligindən diz çöküb,
Dəmbədəm ələfu deyib eşqə, bəyirik tər töküb,
Karivani-rahi-təcridiz xətər xofin çəkib,
Gah Məcnun, gah mən dövr içrə novbət bəkləriz.

Yarımız bietina, nolmuş görən iradımız,
Yoxsa yetmir ol şahin guşına bunca dadımız,
Şad olmur tənədən əsla dili-naşadımız,
Sanmuyun kim, gecələr bihudədir fəryadımız,
Mülki-eşqə içrə həsari-istiqamət bəkləriz.

Sərsəri qəmdən sənin, ey Nobəri, nəxlin solub,
Barigahi-qəlbinə əffacilə qəmlər dolub,
Sormuyun əhvalımı, mən bilmirəm halım nolub,
Yatdılar Fərhadü Mənun məsti-cami-eşq olub,
Ey Füzuli, biz olar yatdıqca söhbət bəkləriz.

-123-

Can verər canan sevən, variyyəti-can istəməz,
Tərki-can eylər, vəli asibi-canan istəməz,
Zəndəganlıq yarisız dünyada bir an istəməz,
Təşneyi-cami-vusalın abi-heyvan istəməz,
Maili-muri-xətin mülki-Süleyman istəməz.

Maili-ruyin olan bir zövq alarmı huridən,
Fərqi çoxdur badeyi-ləlin meyi-ənquridən,
Mən ki, sərməst olmuşam ol nərgisi-məxmuridən,
Zülməti-zülfün giriftarı dəm vurmaz nuridən,
Talibi-şəmi-ruxun xurşidi taban istəməz.

Könlümün rizvanıdır, ey mahru, kuyi-sərin,
Abi-kövsərdir dilə şəhdi-ləbi-şirintərin,
Dürri-nabın rəşkidir ruxsarıda durtək tərin,
Meyli-rizvan eyləməz uftadeyi-kuyi-sərin,
Sakini-künci-qəmin seyri-gülüstan istəməz.



Sən mujən peykanını göndər dilimə təkbətək,
Sinəm üzrə bəslərəm mujgan oxun bu cantək,
Tiğiün əksirinə can içrə qəlbimdir məhək,
Cövri-canan lütfidür, ah etməsin aşiq gərək,
Dost ərbabi-kamali-hüsnə noqsan istəməz.

Səngdil olsa yenə eşq əhlinə yarı baxar,
Zənn etmə hicridə dayını qoyub canın yaxar,
Çeşmədən su kim, görüb məxluti-xakilə axar,
Eşqdən ah etməsin aşiq, deyib könlüm yıxar,
Heç soltanəm deyən mülkünü viran istəməz.

Var rüsumi-eşqdə, ey dil, bu novi bir üsul,
Əhli-eşq olsun gərək hicridə zarü məlul,
Eyləsin təzim öz cananına manəndi-qul,
Eşqdən rind olmağı, rüsvalığı etsin qəbul,
Eşq sirrin iqtizfai-dəhr pünhan istəməz.

Yari-bimehr olmağı hər ləhzə kaşifdir sənə,
Haləti-pəjmurdədən ol mah vaqifdir sənə,
Nobəra, səbr etməyə dildar vasefdir sənə,
Ey Füzuli, müttəsil dovran müxalifdir sənə,
Qaliba ərbabi-istedadı dövran istəməz.

-124-

Qoydu pünhan rəmz ilə məhzun dilə dildar söz,
Gəh kəman əbruların, gəh söylədi rüxsar söz,
Ləldir dildə sözü, rüxsaridə gülnar söz,
Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.

Hər dəhən kim, bekrdur bişubhə, onda söz durar,
Söyləyən bihudə söz əlbbəttə öz ağzın yorar,
Bu sözün miqdarını hər kimsə kim, məndən sorar,
Artıran söz qədrini sidqilə qədrin artırar
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

Bu nəsihətdir sənə, ey dil, eşit, eylə əməl,
Bəzmidə bica olan söz mətninə qoyma məhəl,
Eylə bir söz söyləmə kim, rütbənə versin xələl,
Ver sözə əhya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol xabidən bidar söz.

Söz yaranmışdır nihan, dil guşəsində qalmağa,
Lazım olduqca məhəlli-guftuguya salmağa,
Söz deməkvəqtin bilib, sərf etməyə, yol bulmağa
Bir nigari-ənbərinxətdir könüllər almağa,
Göstərər hərdəm niqabı-qeybdən ruxsar söz.

Söz sürüri-qəlb olar, ya kim, dil ondan qəm çəkər,
Ağladar söz sahibin, qəmnak edər, göz nəm çəkər,
Gəh görərsən əksinə dil şad olub xoş dəm çəkər,
Xazini-gəncineyi-əsrarədir hərdəm çəkər,
Rişeyi-izharə min-min gövhəri-şəhvar söz.

Söz deyib hər nakəsə, eymən olubda vemə dil,
Yaxşı diqqət ver sözə, yaxşı, yamandır anı bil,
Hərfi-bicadan könül, qıl vahimə, ondan çəkil,
Olmayan qəvvasi-bəhri-mərifət arif degil
Kim, sədəf tərkibi-təndir, löloi-şəhvar söz.

Nobəri görmüş həman hər sözdə əgrilə düzü,



Tərkibində hər sözün qədrincə var olmuş düzü,
Söz deyəndə xabidan bidar qıl ey dil, gözü,
Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox ərizi xar söz.

-125-

Fəğan kim, naleyü zarım şəbi-hicran səmər verməz,
Məni diltəng edər, lakin ol mehruyə əsər verməz,
Dili-məhzunə rahatlıq nə şam, nə səhər verməz,
Mənə badi-səba ol sərvi-gülruxdan xəbər verməz,
Açılmaz qünçəyi-bəxtim, muradım nəxli bər verməz.

Məni sən eylədin, canan, bəlayi-eşq ilə rüsva,
Qəmü ənduhinə verdim könül purkaləsin məva,
Dəmadəm fikrü xülyadan cünun halım olur peyda,
Töküb göz yaşını sənsiz, həlakim istərəm, amma
Əcəl peykinə seyli-əşk girdabı güzər verməz.

Könül səndən rica eylər cəfayi, cövri az etmə,
Fəraqın vəqtin, ey canan, dili-zarə diraz etmə,
Qədəm qoy bu gözüm üstə, bu qədri işvə, naz etmə,
Gözümdə məskən et, xari-müjəmdən etiraz etmə,
Güli-xəndan sevənçün xarə yar olmaq zərər verməz.

Qaşın tiğindəki qandır və ya kim, tireyi-vəsmə,
Qəzəblənmiş nigah ilə onu göstərmisən xəsmə,
Səni kim öyrədib söylə, belə nirəng olan rəsmə,
Əgər can olmaq istərsən, tənimdən tiğini kəsmə.
Ki, pəjmürdə nihalə verməyincə su səmər verməz.

Hesab et şöleyi-ahim səma bərqi səhabindən,
Məni mən etmə, ey canan, üzarın aftabindən,
Tərəhhüm qıl, qutar canım şəbi-hicran əzabından,
Qiyas et şəmdən, vəhm eylə çərxin inqilabindən
Ki, başın almağa qəsd etməyincə taci-zər verməz.

Gəhi- rahatlığı, gəhi əzabı bar edər xəlqə,
Gəhi dünyanı vüsətli və gəhi dar edər xəlqə,
Necə ayinə bu dövran işin rüxsar edər xəlqə,
Bəla zəminində rahat olduğun izhar edər xəlqə,
Fələk, bihudə xari-xoşkidən gülbərgi-tər verməz.

Gərək baran tökə xakə bahar əyyamında nisan,
Gülüstan səbzədar olsun, gül olsun qonçələr xəndan,
Sənə ey Nobəri, şadlıq fəğanından suradır imkan,
Füzuli, dəhridən kam almaq olmaz olmadan giryan,
Sədəf su almayınca əbri-nisandan göhər verməz.

-126-

Mənimçün bəzmi-tariki münəvvər ruyi şəm qılmaz,
Ucaldıb rütbeyi-cahım əzizü möhtərəm qılmaz,
Dilim dərdin sual etməz, onu bir-bir rəqəm qılmaz,
Nəmi-əşkim mükəddər xatirimdən rəfi-qəm qılmaz,
Bu rovşəndir ki, nəm ayinədən jənkarı kəm qılmaz.

Sücudi taqi-mehrabın olubdur zahidə ayin,
Buraxmış doğru bu rahi, tutub yüz əgriyə bidin,
Ona mən mötəqid olmam, təriqim qeyridir leykin,
Xəmi-əbruyi-mişkinin görərsə zahidi-xudbin,



Dəxi qamət sücudi-guşeyi-mehraba xəm qılmaz.

Əgər büt səcdəsin vacib bilibdir biguman adəm,
Onun da fəli batildir, bu vazehdir, degil mübhəm,
Sənə büt söyləyib bəzi, deyir ziba sənəm hərdəm,
Sənə, ey şuxi-səngdil, deməm büt, nişə kim, but həm
Əgərçi səngdildir, boylə bidadü sitəm qılmaz.

Görüb xəm qaşını üzdə, dedim ruxsarına məhru,
Günə qarşu tülu etmiş, dedim aya, nə aydır bu,
Dedi canan, kamanımdır müjəm peykanına əbru,
Cəfavü cövr ilə qan oldu könlüm, ya rəb, ol bədxu
Neçün tərk eyləməz cövrü cəfasın, bir kərəm qılmaz.

Dəmadəm mərdümi-çeşmin nəzzari-gulüzarindır,
Mükəddər xatir olmaqın xəyali-zülfi-tarındır,
Olub purbəstəyi-zülfün, könül murği şikarındır,
Muradım giryədən kəsbi-kəmali-rəhgüzarındır,
Gözüm yaşı dəmadəm çöhrəmi bihudə nəm qılmaz.

Sənə Ceyhun əyan eylər axan gözdən nəmim şərhin,
Rəvaqi-bürci-əqrəbdən soruş bəxti-kəməm şərhin,
Cəfavü covridən sor, bil bu qəlbi-möhkəmim şərhin,
Xətin dovründə əşki-al ilə dərdü qəmim şərhin,
Dəm ötməz kim, ruxi-zərd üzrə müjganım rəqəm qılmaz.

Ol babə üz tut, ey Nobər, ki bir himmətli şahindir.
Tamamən baxçası gülçin, müəttər bir riyahindir,
Sənə bu fəqr tinətlə desin əhli-məsakindir,
Füzuli, xəstədil ta rovzeyi-kuyində sakindir,
Təmənnayi-behiştü meyli-gülzari-İrəm qılmaz.

-127-

İnandırır canü dilim ahi-şərərbar hənuz,
Mümkünüm olmadı ol mənzəri-ruxsar hənuz,
Qalmışam hicridə mən şamü səhər zar hənuz,
Kuh-kəndən görünür kuhidə asar hənuz,
Ol nə bənzər mənə, anın əsəri var hənuz.

Şöhrəti-eşqilə mən eldə dilü dişdə idim,
Müşkbu zülfinə mərbut olan rişdə idim,
Şami-firqətdə ona fikrlə ağuştə idim,
Vadiyi-eşqdə sövda ilə sərgəştə idim,
Gəlmədən gərdişə bu günbədi-dəvvar hənuz.

Eşq rəncin eşidir aşiq olan, ya ki, görür,
Görməyənlər də görən şəxsdən ol haqda sorur,
Mütləqa talib olan hadiseyi-eşqi bulur,
Çəkdi Məcnun ayağın badiyədən, leyk verür
Qanlı güllər əyağından çəkilən xar hənuz.

Munca kim, dadə gəlüb eyləyər əfğan könül,
Etmədi faş qəmin, saxladı pünhan könül,
Can fəda yarə qılıb, eşqə düşən an könül,
Nöqteyi-xalinə bağlanmış idi canü könül,
Gəzmədən daireyi-dövrdə pərkar hənuz.

Məni cananım edib məmləkəti-hüsnünə şah,
Fovci-qəm oldu mənə möhnətü dərdilə supah,
Bəxt kəm şəfqət olub, məqsədə dil bulmadı rah,
Mahə çəkdim şəbi-hicran ələmi-şöleyi-ah,
Ah kim, olmadı ol mah xəbərdar hənuz.



Firqətindir eyləyən sübh kimi ruzumu şam,
Var hərasim ki, ola hicrin ilə ömr tamam,
Dadi-dil vermədi göz mərduminə şamə mənam,
Naleyi-zarım ilə oldu yuxu xəlqə həram,
Qarə bəxtim yuxudan olmadı bidar hənuz.

Nobəri çəkdi həman hicridə min cövrü cəfa,
Qeyrilər buldu dilə vəsli-nigar ilə səfa,
Bunu əğyar və ya dövri-fələk gördü rəva
Mərhəmi-vəsli ilə buldu hamu dərdə dəva,
Bu Füzuli ələmi-hicrdə bimar hənuz.

-128-

Nə sud ol hüsni-zibadan ki, meyli-əhli-hal etməz,
Nə gülşəndir ki, qumrisin çəkib ziri-nihal etməz,
Tərəhhüm qılsa gər canan vusalını məhal etməz,
Nə dilbərdir, dəmadəm aşiqə ərzi-cəmal etməz,
Qalar naqis, bulub feyzi-nəzər kəsbi-kamal etməz.

Görünməz hüsni-zibadan nədir hüsn əhlinə hasil,
Məhəbbət ibtida gözdən dili-üşəqadır vasil,
Görəndə hüsni-zibanı olur aşiq ona mayil,
Degil cəzb etməyən üşşaqi məşuq olmağa qabil,
Nə hasil hüsni surətdən ki, cəzbi-əhli-hal etməz.

Gəlir hər dəm səda guşə dəmadəm qeyb hatifdən,
Bilin siz rəmzi-pünhani rümuzi-agahi-vaqifdən,
Məhəbbət tutmaz əsla dil olan ruxsari-kaşifdən,
Gərək ruxsareyi-məşuq məxfi qeyri-arifdən
Ki, arif olmayan idraki-süni-zülcəlal etməz.

Nigarə can fəda olmaq məzaq əhlinə vacibdir,
Məhəbbət deyrinə daxil olan kəs onda rahibdir,
Nigarın fikri tənhalıq şəbində bir müsahibdir,
Həvayi-nəfsdir kim, xubilər vəslinə talibdir
Və gər nə eşqi-kamil fərqi-hicranü vüsal etməz.

Həmişə aşiqə işvə edəndir nazənin canlar,
Nə bak etməz fəğanından, nə ah sinədən anlar,
Əsiri-dami-zülf eylər tökər nahəq yerə qanlar,
Edər min naz ilə cilvə məcaz əhlinə xubanlar,
Özün əhli-məhəbbət, mubtəlayi-xəttü xal etməz.

Nigarındır şəbi-hicran səni, Nobər, qoyan vahid,
Tului-sübhədək ahü fəğanındır sənə şahid,
Bu rənci-firqətü hicran həlak eylər səni labid,
Füzuli, aləmi-heyrətdə sərgərdən gəzər zahid,
Zəhi zahid bu sevdanın sərəncamın xəyal etməz.

-129-

Dili-üşşaqi hicranın qəmi fərxündə hal etməz,
Xəyali-möhnəti-firqət fuadın biməlal etməz,
Mürüvətli olan dilbər həbibin hal-mal etməz,
Nə dilbərdir dəmadəm aşiqə ərzi-cəmal etməz,
Qalar naqis bulub feyzi nəzər kəsbi-kəmal etməz.

Cəmali-hüsni-zibadan gərəkdir bir səmər hasil,
Həbibi aruzuməndin vüsalına edə nail,
Edə öz aşiqin feyzi-ruxü didarına vasil,
Degil cəzb etməyən üşşaqi məşuq olmağa qabil,
Nə hasil hüsni-surətdən ki, cəzbi-əhli-mal etməz.



Soruşdum zöqi-didaru ruxi-alin məarifdən,
Rumuzati-ləbin şəhdin suvalın sirri-kaşifdən,
Olar dəm vurdu bu haqda vüsalə can məzarifdən,
Gərək ruxsareyi-məşuqə məxfi qeyri-arifdən
Ki, arif olmayan idrak ...[1] zulcəlal etməz.

Tutulmuş murği-dil zülfə, tənim bir xali qalibdir,
Xəyaləti-ruxi-alin dili-zaridə müsahibdir,
Zəmiri-sinə deyrimdir, könül bu deyrə rahibdir,

Həvayi-nəfsidir kim, xubilər vəslinə talibdir,
Və gər nə üşşaqi-kamil fərqi-hicranü vüsal etməz.

Olubdur aşiqə afət cahanda nazənin canlar,
Müjə peykanına gözdən yetər hər gündə peykanlar,
Edər aşiqlərin canın ləbü ruxsarə qurbanlar,
Edər min nazilə qəmzə məcaz əhlinə xubanlar,
Özün əhli-həqiqət mubtəlayi xəttü xal etməz.

Gözəllikdə nigarımdır səfi-xubanidə vahid,
Hamu aləm güvahimdir, nə hacətdir buna şahid,
Vüsalə həm yetər Nobər, olar ellərdə said,
Füzuli, aləmi-heyrətdə sərgərdən gəzər zahid,
Zəhi zahid bu sevdanın sərəncamın xəyal etməz.

-130-

Çəkər hicranı eşq əhli, onu canə məlal etməz,
Məlali-yaridən qeyri cəhan qeydin xəyal etməz,

[1] Bir söz oxunmadı.

Onunçun yar üşşaqə cəfanı mahü sal etməz,
Xəyalilə təsəllidir, könül meyli-vüsal etməz,
Könüldə qeyr bir yar olduğun aşiq xəyal etməz.

Bilir el şöhrəti eşqim başımda ahidir bidəqq,
Çıxıb başımdan əflakə, səhabata olur mülhəq,
Özüm çaki-giribanım, sinəm peykandən münəşşəq,
Həqiqi aşiqə ...[1] noqsan degil əlhəq,
Özün əhli-həqiqət, valehi-hüsni-cəmal etməz.

Cünuni-eşq olan məntək olur məşhur seyrətdən,
Baxar hər yerdə cananın görər çeşmi-bəsirətdən,
Rəqibi tən edər hərdəm ona rəşki-küdurətdən,
Kəmali-eşq talibi-möhtərizdir hüsni-surətdən
Ki, qeydi-surət aşiqi əhli-kamal etməz.

Qəmi dildən kənar etməz, içib peymanə məst olmaq,
Düşüb xakə sınıq şişə misalı, bir şikəst olmaq,
Gözəl simadır xəlq içrə həmişə xülqi pəst olmaq,
Dəlili-cəhldir eşq əhlinə surətpərəst olmaq
Ki, qafil iftraqi mümkün ilə ettisal etməz.

Məhəbbət buteyi-dildə olan bir xunidir baqi,
Vusali-yarə sərmayə odur cismində ovraqi,
Onu sərxoş edib ləli-ləbi-meygun olan saqi,
Könüldə dost təmkin bulsa göz olmaz cüvəllaqı,
Məhəbbət sabit olsa öz yerindən intiqal etməz.

Məhəbbətdir edən çeşmi nəzari-qeyridən sayim,

---
[1] Söz oxunaqlı deyil



Könül dərvişi-mönəmdir olur hər nemətə naim,
Məhəbbət qələyi-dildə müdam olsun gərək qayim,
Səvadi-masəvadan lövhi-dil xali gərək dayim,
Müvəhid səfheyi-idrakı, nəqşi-xəttü xal etməz.

Sevən simayi-Leylini edər Məcnun kimi pərhiz,
Özün səhranəşin eylər, deyərlər ona məskənsiz,
Cünuni-eşq olan oltək bəhayimlə olar həmdiz,
İradət zay etməz əhli-məni surətə hərgiz,
Həqiqət covhərin cəhl məcazə pamal etməz.

Demə işrət sevər, Nobər, məhalifdə məlal əhli,
Ona rəğbət edər lakin məsərrəti-dil cahan əhli,
Nigarə can fəda eylər sənin mislin kəmal əhli,
Müqəyyəq olmaz əhli-surətin rənginə hal əhli,
Füzuli, kim muqəyyəddir məgər idrak, hal etməz.

-131-

İbtida xilqətdə bu insanı giryan bilmişüz,
Onları bir neçə gün dünyayə mehman bilmişüz,
Mehri-cananı onun cisminə biz can bilmişüz,
Biz cahan məmurəsin dünyada viran bilmişüz,
Aqibət küncin bu viran içrə pünhan bilmişüz.

Əql tasın cəhlilə cahil qılar axır şikəst,
Əqlə malik vermədi bimehr olan dünyaya dəst,
Eylədi zövqü vusali-yar ilə başını məst,
Gər özün dana bilir təqlid ilə surətpərəst,
Aləmi-təhqiqidə biz onu nadan bilmişüz

Müstəqim et örtülü sinəndə qəlbi-sadəni,

Huşmənd et, xəmr ilə məst etmə ol uftadəni,
Göstər ol nadanə sən, ey dil, həqiqi cadəni,
Bixəbərlər şərbəti-rahət bilirlər badəni,
Biz həkimi dəftər onu tökmüşüz, qan bilmişüz.

Bəzmi-işrətdə əgər var olsa da zövqü səfa,
Gəryədir üxrası hər xəndan şəxsin, mütləqa,
Görmə bu fəqr əhlinə cövrü cəfa, zülmü rəva,
Bilmişüz kim, mülki-aləm kimsəyə etməz vəfa,
Ol zamandan kim, onu mülki-Süleyman bilmişüz.

Cövri-canan xoş dilə, nə mərhəmət biganədən,
Zövqi-dildir hicr odu şövqi-ruxi-cananədən,
Nobəri əxz eylədi bu haləti pərvanədən,
Ayrı bilmişsən, Füzuli, məscidi meyxanədən,
Səhv imiş ol kim, səni biz əhli-ürfan bilmüşüz.

-132-

Xəyali-vəsli-cananı gözüm dildən kənar etməz,
Ədayi-firqəti-yarə dilim səbrü qərar etməz,
Alıb bir namə yaridən olub şad iftixar etməz,
Neçün ol şəm kafur üzrə kilkin müşkbar etməz?
Yazıb bir rüqə min lütfə bizi ümidvar etməz?

Nişatından əvəz yarın dilin məhsuludur şivən,
Tutulmuş könlümü qəmdən xəyal etmə açar gülşən,
Yeldayə tuş edən oldun məni eşq içrə, ey dil, sən,
Mənimlə dost lütfün az edər, çox tən edər düşmən,
Neçün lütf eyləyib düşmənləri bir şərmsar etməz?

Könül bir naməni dildarıdan məqsudə bəs bilmə,



Bu məktubu ol məhrudan dilinə dadrəs bilmə,
Sənə hicran şəbi namə olarmı, həmnəfəs bilmə,
Gəl, ey göz, yar xəttin namədə görmək həvəs qılma
Ki, xətti-namə dəfi-dərdi-hicr, xətti-xal etməz.

Olan əğyardır lakin vusali-yarə mane kim,
Bu üzdən göz olur kindən nəzzari-yarə qane kim,
Olur onunçun dilim dərdi miyani-eldə şaye kim,
Kəbutərdən umardım naməsin, gör zəf-tale kim,
Görüb ahim odun məndən mənə ol həm guzar etməz.

Təmənnayi-dil, ey Nobər, olubdur yaridən toğra,
Nə hasil olmayır mətləb o mehrdən ola icra,
Dilimdə var min dərdim, bu həm bir dərd olur peyda,
Füzuli, nameyi-dildar bir təvizdir guya
Kim, onda xəstədillər xatiri bir dəm qərar etməz.

-133-

Bəndi-zülfündür dilim bir tarə bənd olmuş məkəs,
Naləsi cansuz olan ündur, misali-neydə səs,
Dadü fəryad eyləyir, guya dilər bir dadrəs,
Ey könül, ol xənçəri-müjganə eylərsən həvəs,
Qəsdi-can etdin, bəqayi-ömrdən peyvəndi kəs.

Sən fəramuş eyləmə tuli-səfər müşkil çağın,
Ba xətər bu rahidə qaldırma eşqin bayrağın,
Faş qılma, gizli tut biganədən eşq övraqın,
Çəkmə qürbət əzminə, ey sarıban, məhmil sakın
Kim, bu yolda bimlər qürbətdir əfqani-cərəs.

Xəlqi məndən naleü fəryadım ikrah eylədi,

Müttəsil gündüz fəğan dadın şəbəngah eylədi,
Vajgun tale məni ləng etdi, gumrah eylədi,
Halı zarımdan səni fəryadım agah eylədi,
Şükrlillah, oldu fəryadım sənə fəryadrəs.

Göz verər müjgan oxun hər dəm kaman əbrularə,
Dil verər onda özün cismimdə pünhan bir yerə,
Neyyüm mən sən kimi birəhm olan bir dilbərə,
Oxların hər yan tənimdə sancılıbdır bir-birə,
Murği-ruhum qeydinə olmuş mürəttəb bir qəfəs.

Mehri-ruyindir verən hər saniyə can aşiqə,
Şərbəti-ləli-ləbin mənsub dərman aşiqə,
Eyb qılmaz həsrət evində hicran aşiqə,
Təneyi-əhli-məlamətdən nə noqsan aşiqə,
Bərqi-lame dəfin eylərmi hücumi-xarü xəc?

Göz qalıb həsrət üzə, olmuş belə giryan deyu,
Hər şəbi-hicran çəkər fəryad, həm əfğan deyu,
Canım olmuş canına xilqət dəmi qurban deyu,
Suzi-eşqin təndə nagah bulmadı noqsan deyu,
Can çıxınca istərəm çıxmaya candan bir nəfəs.

Mülki-eşqin Nobəri, mən sərvəri-xaqaniyəm,
Şahilər şəhinşəhi, təxt əvan şayaniyəm,
Leylivəş bir surətin məftuni, həm qurbaniyəm,
Ey Füzuli, mən qənaət mülkünün sultaniyəm,
Səltənət əsbabı əynimdə libasi-fəqr bəs.



Səhrayi qəmdə naləmədir dadrəs cərəs,



Göz yaşımın misalıdır rudxaneyi-Ərəs,
Hər dəm gəlir qulağıma bir hövlnak səs,
Xaki-rəh etdi aşiqi-miskini ol həvəs
Kim, payi-busi-yarə haçan olu dəstrəs.

Möhnət sərüb vucudumu xak uzrə bey kimi,
Dil butəsində yandı oxun əlfü tey kimi,
Əbruların cigərdə necə əgri rey kimi,
Sinəm həvayi-eşqin ilə doldu ney kimi,
Dəm vurduqumca ahü fəğandır çıxan nəfəs.

Dildarıdan səvayi dilə aşına degil,
Bixod inanma hər yetən əhli-vəfa degil,
Xoşdil təəşüq əhlinə bir iktifa degil,
Razi-dəruni dışraya salmaq rəva degil,
Budur gunahi kim, asılır müttəsil cərəs.

Bir tişədir həyatına qəmlər nəticəsi,
Qəm eyləməz gər aşiqin olsa düşüncəsi,
Qəmdir olan həyatın əra zal pəncəsi,
Didari-dustdur iki aləm nəticəsi,
Yox ondan özgə aşiq aləmdə mültəməs.

Gülruyədir fəğan dilim, bülbülün gülə,
Əğyari-xardır gətirən onları dilə,
Zülfi-siyah pürçəmidir dam olan delə,
Hər qeyd olursa məhz bəladır ki, bülbülə,
Gər şaxi-güldən olsa, kudurət verər qəfəs.

Bulmaq çətindi qəmzədə peykanıdən nicat,
Xoşk oldu dildə vahimədən xun qat-qat,
Tuli-fəraqə ahi-vəfa etməsə həyat,

Ol qəmzədən, könül, əgər istərsən iltifat,
Tiği-təcərrüd ilə cahandan əlaqə kəs.

Munca ki, dil fəraq şəbi eylər ahu zar,
Fəryadü dadilən eyləyər şamını nəhar,
Aşüftə hal Nobəridir, didə əşkbar
Olmaz vücudi-aşiqə eşq içrə etibar,
Dözməz, Füzuli, atəşi-hicrana xarü xəs.

Vəhm tiri-qəmzədən can mülkünə düşmüş heras,
Hər şəbi-hicran qurar xülyayi-dildə yas,
Yadi-ruxsarü ləbi mətruk edər sərdən həvas,
Göz yaşımdan suzi-pünhanım qılır arif qiyas,
Bixəbər təsiri-əncümdən degil əxtərşünas.

Parə-parə eyləyib qəmzən oxu pirahənim,
Mumtək nərm eyləyib hicrin bu qəlbi-ahənim,
Atəşi-ruyin yaxub pərvanətək, yox şivənim,
Qan yetər kim, dəmbədəm gözdən enüb örtər tənim,
Dəşti-qəm Məcnuniyəm, mən qandanü qandan libas?

Yadi-ruxsar eylərəm görcək çəmənlər laləsin,
Yaş tökər giryan gözüm qəmdən, görüb dil haləsin,
Naləm əfzuntər edir gülşəndə bülbül naləsin
Xiştlərtək bir-biri üstə cigər purkaləsin,
Göz salıb yığmış hübabi-xun binasiçun əsas.

Aşikar etmə gözüm, pünhan olan könlüm dağın,
Başa vur bir nov ilən, səhra dolan hicran çağın,
Rahi-eşqə sərf qıl Məcnun kimi can ovraqın,
Ey sanan julidə mu başında Məcnunun, saqın,
Bitəkəllüf getmə kim, Leyli evidir ol pəlas.



Ay dəxi ruxsarına xurşididən bir nur alır,
Üzünü görcək günəş yazılara nurun salır,
Mehri-ruyin nurunu mən tutduğum ellər qanır,
Ləhzə-ləhzə xəm qədim peykanın istər, ya qılır,
Zərrə-zərrə mahi-nov xurşiddən nur iqtibas.

Öldürürsən aşiqi bitiğü biçəngü cədəl,
Qətlçün aşiq bilir kim, səndə var şimşad əl,
Baxmağa ruxsarına olseydi fürsət laəqəl,
Tiği-qəmzən oylə bürrandır ki, cəlladi-əcəl
Töksə qan təcil üçün tiğindən eylər iltimas.

Belədir, ey Nobəri, bu dovr çərxi mən bilən,
Bar-bəndin bağlasın ondan, müsafirdir gələn,
Dəhrə soltan olma, get cananı tap bir novilən,
Ey Füzuli, doludur bu çərx tası zəhr ilən,
Çəkməz onun qeydini hər kim çəkər bir dolu tas.

-136-

Ah, ey bülbül, əbəs gülzar içində solma səs,
Olmadı məntək sənin fəryadına bir dadrəs,
Bil əbəsdir səndəki bu şovqü zovq, bu həvəs,
Məskən, ey bülbül, sənə gəh şaxi-güldür, gəh qəfəs,
Necə aşiqsən ki, ahindən tutuşmuş xarü xəs.

Bir əlamət mərgidən cismimdə zahirdir tərim,
Uçmaq istər qaliba, ol ruh, bu canpərvərim,
Canı versəm bilmirəm razı qalarmı dilbərim,
Yar kuyində müsəlmanlar gər olsaydı yerim,
Kafirəm gər rovzeyi-rizvanə eylərsəm həvəs.

Dağə düşsə kimi fəryadü zarı hər kimin,
Əksi-avazın tutar hər kuhidən sovt həmin,
Kuhkən dağə demiş könlündəki şirin qəmin,
Kuh fəryadi-sədasın verdi Fərhadın demin,
Nəqşi-şirindir verir avazeyi-fəryadrəs.

Dəhr dövrin döndərib bir ləhzə Məcnun xeyrinə,
Rahibasa Leylini çəkdi məhəbbət deyrinə,
Xali bir səhrada kim, əğyar olsun qeyrinə,
Naqə Leyli məhmilin çəkmiş biyaban seyrinə,
Eylə Məcnunu bu halətdən xəbərdar, ey cərəs!

Açmadı bir gül kimi bu qonçeyi-bəxtim fələk,
Eylədi daim səadət kokəbim seyrində ləng,
Az qalıbdır kim, çəkəm ümmidi-vəslindən ətək,
Bir nəfəs qalmış həyatımdan, həbibim, sübhtək
Nola gər bir mehr göstərsən mənə axır nəfəs.

Sudi yoxdur könlümə dar cahanda seyridən,
Guşeyi-qəmxanəni bildim məhəl xeyrindən,
Əl götürdüm məscidü mehrab ilə həm deyridən,
Xali etdim dil həvayi-ixtilati-qeyridən,
Bəzmi-qəmdə ney qalır həmdəm mənə fəryadrəs.

Nobəra, sən gecələr etmə belə fəryadü dad,
Möhnətə səbr etgilən, mütləq olur hasil murad,
Müstəcab olsun dua, lazım gəlir pak etiqad,
Ey Füzuli, gər sənə cəmiyyəti-dildir murad,
Bağla bir dildarə könlün, qeyridən peyvəndi kəs.



-137-

Ah, bilməm bu qədər dildə olan qəm nə imiş,
Qəm üçün cismidə bu qələyi-möhkəm nə imiş,
Hicridə gözdən axan, arifə, bu nəm nə imiş,
Ey xoş ol məst ki, bilməz qəmi-aləm nə imiş,
Nə çəkər aləm üçün qəm, nə bilir qəm nə imiş.

İstədim bulmağa ol mahvəşin vəslinə rəh,
Baxtəri-rahə düçar etdi məni bəxti-siyəh,
Bir belə dərdi çəkən canıdan oldum ikrəh,
Bir pəri silsilənin eşqinə düşdüm nagəh,
Şimdi bildim səbəbi-xilqəti-Adəm nə imiş,

Əhli-şər dəvət edər gördiyini rahi-şərə,
Artırar əhli təmə zövqini durri-gövhərə,
Çox da bel bağlamayın zahidi-pəşmin kəmərə,
Vaiz ovsafi-cəhənnəm qılur, ey əhli-vərə,
Var onun məclisinə, gör ki, cəhənnəm nə imiş.

Dil vərəm gətdi, onun kimsədə yox dərmanı,
Çarəsi yoxdur onun, gəzdisələr hər yanı,
Dərdi möhləkdir onun verməsələr cananı,
Oxu sinəmdə ötüb, qalmış idi peykanı,
İndi bildim səbəbi ahi-dəmadəm nə imiş.

Nobəri, fovci-qəmə canını mava bildin,
Mehri cananı dilü canıda peyda bildin,
Şərbəti-ləli-ləbin badeyi-hümra bildin,
Ey Füzuli, məzeyi-sağərü səhba bildin,
Töbə qıl, ta biləsən zərqü riya həm nə imiş.

-138-

Tutub mujgan oxun, qaşə gəlür ol mehriban sərxoş,
Onun xofilə canımda olur ruhi-rəvan sərxoş,
Özü sərxoşdı, həm əldə olan tirü kəman sərxoş
Bu gün tiğin çəkib, çıxmışdır ol namehriban sərxoş,
Saqın, ey rəhm edən canına kim, bilməz aman sərxoş.

Müsəlsəl zülfi-canandır cünunlar boynun bağı,
Tənimdə pənbədir hər yan ki, qoymuşlar cunun dağı,
Budur fikrin deyim dərdim ona hüşyar olan çağı,
Ona hüşyar ikən dərdi-dil istərdim deyəm, saqi,
Peyapey verme camı, qılma ol sərvi rəvan sərxoş.

Deyirlər badəni rəfi-qəmü ənduhə dərmandır,
Bu söz doğru deyil əsla, deyən kimdirsə pünhandır,
Necə bilsin ki, qəm yoxdur, kiimin halı pərişandır,
Degil təqvadan etsəm tərki-badə, vəhmim ondandır,
Ki, izhar eyləyim xəlq içrə eşqin nagahan sərxoş.

Fəraqınla həyatımdan ümmidim rişəsin kəsdin,
Nəsimi-sübh olub qeyrə, mənə bir şamtək əsdin,
Açıq söylə mənə canan, nədir barəmdəki qəsdin,
Məgər qan içmək üçün əsrümüşdir nərgisi-məstin,
Bəsi mey nuşilər gördüm ki, etməz belə qan sərxoş.

Fəraqın vaxtı tul olsa, yəqin aşiqdə can qalmaz,
Başında huş, cismində nə tab, nə təvan qalmaz,
Məni sərxoş görə zahid, nəhayət bədguman olmaz,
Meyi-eşq ilə sərməst olduğum eldən nihan qalmaz,
Mühali-əmridir kim, saxlaya razın nihan sərxoş.



Edib tasi-sərim xali ləbi-meygunun əqlimdən,
Yıxıb xak üzrə bihuşəm, gedib tabu təvan əldən,
Tənəffür etmişəm mən həm cünuntək rəxti-mənzildən,
Könül ta oldu bixud, aldı qəmzən canımı əldən,
Verər yağmayə gənci-nəqin olcaq pasiban sərxoş.

Deyirlər Nobərə, canan edir əğyarilə ülfət,
Bu sözlər canımı yaxdı, əritdi şəmtək qeyrət,
Dilə asibi-hicrandan bu söz artıq verir riqqət,
Məgər bəzm etmiş ol gülrux, Füzuli qeyrilə xəlvət,
Rəqibi-kəcrəvi gördüm bu gün yarı yaman sərxoş.

-139-

Ol nigarə zahidasa dilim imdi rahib olmuş,
Tutub əllərin səmayə həqq ilə müsahib olmuş,
Eyləyib səlim qəlbin, həsənatə sahib olmuş,
Büti-novrəsim nəmazə şəbü ruz rağib olmuş,
Bu nə dindir, Allah-Allah, bütə səcdə vacib olmuş.

Şəbü ruzlər o məhru idi xaliqə ibadət,
Üzünün lətif nuri ona artırır lətafət,
O məlihi-binəzirə bu sözüm edər kifayət,
Əsəri-qəbuli-taət ona vermiş oylə halət
Ki, qülubi-əhli-halə hərəkatı cazib olmuş.

Məni həm təriqi-eşqə ol fərişte vasil eylər,
Yetirər məram qəlbə diləgimi hasil eylər,
Götürüb niqab üzündən məni ruyə mayil eylər,
Fərəhim görüb, cəfasın həsənatə daxil eylər,
Nə mələk kim, ol pərinin əməlinə katib olmuş.

Ol pərivəşin vəssafı dilimə olubdur əzbər,
Qədi sərvdir, üzari çəmən içrə nogüli-tər,
Saçı yasəməndir, ətri qələt etməsəm, süsənbər,
Nə əcəb qəmindən etsəm dünümü günüm bərabər,
Nəzərimdən ol üzü gül neçə gündü qaib olmuş.

Dəxi xatir oldu Nobər, mənə həm cünün to qi,
Səbəbi budur başımda yaranıb nigar şovqi,
Ona vermişəm əlimlə tənim ilə var-yoxumi,
Qəmi-hicridir ki, artar ələmilə eşq zövqi,
Qələt eyləmiş Füzuli ki, vüsalə talib olmuş.

-140-

Qönçəyi-gül bağrı dolu bir mənbəi-əsrar imiş,
Sirri pünhan tutmağa anın dili naçar imiş,
Xəndəyi-güllərdən budur bais ki, qiymətdar imiş,
Bilməz idim bilmək ağzın sirrini düşvar imiş,
Ağzını derlərdi yox, dediklərincə var imiş.

Kuhkəndir eyləyən Şirin üçün tərki-vətən,
Bisitunun dağına sövq ilə oldu tişəzən,
Həqliyəm tutsam ona bu sahədə irad mən,
Aciz olmuş yıxmağa ahilə dağı kuhikən,
Neyləsin miskin, onu həm eşqi ol miqdar imiş.

Surəti-Şirin çəkib, tutdu məani sənətin,
Oldu bədnami-cəhan, həm puçə verdi zəhmətim,



Bilmədi dildə olan zövqi-fəraqın ləzzətin,
Daşə çəkmiş xəlq üçün Fərhad Şirin surətin,
Göstəribdir xəlqə məhbabın, əcəb biar imiş.

Kəbəi-kuyi nigarə dildə şübhə qalmadı,
Rəsimani-hiyləni boynuma zahid salmadı,
Çox nəsihət etdisə bir sud məndən almadı,
Kəbə ehramına zahid, dedilər, bel bağladı,
Eylədim təhqiq, onun bağladığı zunnar imiş.

Yarına məxsus olub xilqət dəmi aşiqdə can,
Canını qurban verər ol mahruyə hər zaman,
Kəsrəti-cövrü cəfadən eyləməz aşiq fəğan,
Ömrlərdir eylərəm əhvali-dünya imtəhan,
Nəqdi-ömrün hasili axır həman bir yar imiş.

Aləmi-ərvahidən saf etmişəm iqrarımı,
Sahibi-can bulmuşam qalü bəladan yarımı,
Arzuməndəm görəm ol mahi-gülruxsarımı,
Zövqi-didarilə dildarın yox etdim varımı,
Dövləti-baqi ki, derlər, dövləti-didar imiş.

İbtida, canan məni eşqində qıldı imtəhan,
Vurdu peykan bu dili-məcruhuma qaşi kəman,
Eylədi təslim ona Nobər dəxi ruhi-rəvan,
Dun Fuzuli, arizin görgəc, rəvan tapşırdı can,
Laf edib derdi ki, canım var, əmanətdar imiş.

-141-

Dürrtək ey mahru, ağzın sənin də dar imiş,
Bu səbəbdən dürrilər suq içrə qiymətdar imiş,
Dəhridə şöhrət tapıb bir töhfeyi-bazar imiş,
Bilməz idim bilmək ağzın sirrini düşvar imiş,
Ağzını derlərdi yox, dediklərincə var imiş.

Tab etməz Bisitun, salsam ona bir ah mən,
Şübhə yoxdur eylərəm ol dağı səhra ilə tən,
Aciz ol Fərhadidir kim, olmuş ona tişəzən,
Aciz olmuş kuhikən yıxmağa dağı ah ilən,
Neyləsin miskin, onun həm eşqi ol miqdar imiş.

Rəsmi-Şirini çəkib bildirdi xəlqə niyyətin,
Artıq etmiş Bisitun yıxmağa meylü rəğbətin,
Hər tərəfdən başına yağdırdı ellər töhmətin,
Daşə çəkmiş xəlq üçün Fərhad Şirin surətin,
Ərz qılmış xəlqə məhbubin, əcəb biar imiş.

Zahida, əhli-vərə bilməz nədir eşqin dadı,
Zöhd yəqvadan tutur eldə riyadan bir adı,
Kəbədir ruxsarı-canan, taətni sanmadı,
Kəbə ehraminə zahid, dedilər, bel bağladı,
Eylədin təhqiq, onun bağlandığı zunnar imiş.

Aşiq istər muttəsil cananə olsun mehriban,



Gülxəni-kuyi-səri cananəni bulsun məkan,
Vəslinə üşşaqidən etsin təmənna nəqdi-can,
Ömrlərdir eylərəm əhvali-dünya imtəhan,
Nəqdi ömrün hasili dünyada ancaq yar imiş.

Mən bəiri-eşqəm verdim ona əfsarımı,
Dərdü-qəmlə qüssədən məmlu qılsın barımı,
Səhl edər sərmənzili-məqsudə yetsəm karımı,
Zövqi-didar ilə dildarım yox etdim varımı,
Dövləti-baqi deyirlər, dövləti-didar imiş.

Rəhguzari-yaridə olsa məzarım çun məkan,
Şad olar dil, göz olar ol mahruyə pasban,
Həm təvafi-yar edər, ey Nobəri, ruh rəvan,
Dün Füzuli arizin görgəc, rəvan tapşırdı can,
Laf edib derdi ki, canım var, əmanətdar imiş.

- 142-

Fəsli-güldür, bülbülan əzmi-gülüstan eyləmiş,
Hər tərəfdən gül-çiçək gülzarı eyvan eyləmiş,
Bulbulaşa dil dəxi fəryadü əfğan eyləmiş,
Qönçəsin gül, bülbülün qətlinə peykan eyləmiş,
Bülbül açılğan gülü başına gülxan eyləmiş.

Nərgizin dövrün tutub reyhan, bənövşə, lalələr,
Laləni rəşki-ruxi-cananım etmiş xuncigər,
Sübh-tezdən güllərə badi-səba vermiş xəbər,

Gül ərusun sulh üçün bülbül nikah etmiş məgər,
Özini yaşıl budaq içində pünhan eyləmiş.

Zülfi-cananım kimi sünbül götürmüş tabi-mül,
Nəğməqu olmuş gülə həm bülbüli-şuridə dil,
Yox rizası bülbülə vəslin verə gül eylə bil,
Qonçələr peykanını tiz etmək üçün şaxi-gül
Özini başdan-ayağa misli suhan eyləmiş.

Xarı güldə çun görüb, bülbül olub xeyli xəcil,
Nəğməsindən əl çəkib, oldu mükəddər xar dil,
Qəlbi sındı şovqdən, düşdü açıbdır belə dil,
Dəhr ara gər bir sınıq divar görsən elə bil,
Ol Süleyman mülküdür kim, dəhr viran eyləmiş.

Rüzgarın belədir əsl binadan hər işi,
Gedişi sürətlədir, təmkiniləndir gəlişi,
Sən də gör, ey Nobəri, bülbüldə güldə bu işi,
Ey Füzuli, mehrinə allanma, çərxin gərdişi,
Gögə yetirmiş bəli xakilə eksan eyləmiş.

\- 143-

Murği-dil damə düşüb, zülfüdə pünhan olmuş,
Şad olubdur bu məhəl kim, ona imkan olmuş,
Daği-pünhanı dilin yarə nümayan olmuş,
Dil ki, sərmənzili ol zülfi-pərişan olmuş.
Nola cürmi ki, asılmağına fərman olmuş.



Açılır dərgəhinə hacət üçün əllər çox,
Həsrəti-ruyin olan gülşən ərə güllər çox,
Xadimi-kuyi-sərin olmaq üçün minlər çox,
Şahisən mülki-məlahətdə, sənə qullar çox,
Biri oldur ki, varıb Misirdə sultan olmuş.

Gəlməsən dərdi qəmin daimi könlümdə qalar,
O zaman ahi-dilim səthi-səmayə ucalar,
Aqibət canı, qəmin çarəsi yox, dərdə salar,
Rəhm edib aşiqini həsr günü yaqmayalar
Ki, bu dünyada əsiri-qəmi-hicran olmuş.

Möhnətü dərdü qəmü qüssəyə düşdüm sənsiz,
Atəşi-hicr ilə mən hər gecə pişdim sənsiz,
Şamıdan sübhə kimi qəmlə görüşdüm sənsiz,
Dedilər, qəm gedirər badə, çox içdim sənsiz
Qəmi-hicranə müfid olmadı ol qan olmuş.

Gülşəni-hüsnündə var susən ilə yasəmənin,
Bəzənib gül-çiçəyə dövreyi-səhni-çəmənin,
Sərvə bənzərdi qədin, qünçə gülə incə belin,
Gülüstani-ruxi-gülnaridə xali dəhənin
Səbəbi-tərbiyəti-qönçəyi-xəndan olmuş.

Rəhi-eşqində yetə aşiqə gər min zəhmət,
Xilqəti-ruzi-əzəldən onadır bu qismət,
Dilə dildar gərək etmək üçün ünsiyyət,

Əvvəl Adəm səri-kuyin verib almış cənnət,
Eşidib təni-mələk, sonra peşiman olmuş.

Yarə hali-dilimi Nobəri, bir kaşif yox,
Ona bu dərdi-dilim söyləməyə vasif yox,
Həm səba lütf eləmir, məndən ona hatif yox,
Ey Füzuli, mənim əhvalımə bir vaqif yox,
Oylə kim, aləm onun hüsnünə heyran olmuş.

-144-

Məni həsrət qoyub ruxsarına, bağrımı qan etmiş,
Cigər purkaləsin dərdü qəmü möhnət məkan etmiş,
Səri-kuyində cananın zibəs könlüm fəğan etmiş,
Hübabi-əski-xunin cismimi eldən nihan etmiş,
Qəmü-qüssən məni rüsvayi binamü nişan etmiş.

Fəğanü naləyü zarım sərasər tutmuş əflaki,
Olubdur mərdümi-cismim şəbi-hicranilər baki,
Gətirməz xatir şadə, xəyal etməz bu qəmnaki,
Götürmüş xanidən tuğyani-əskim xarü xaşaki,
Basım üzrə məlamət quşlarçun aşiyan etmiş.

Nə qədri təng ola sənsiz məni-zarə şəbi-hicran,
Xəyali-vəsl ruyinlə onu sübh eylərəm asan,
Tənimdə olsa min canım, təmamin eylərəm qurban.
Büküb möhnət yükündən qədimi, çıxmış tənimdən can,
Təvafi-kuyin etmək qəsdilə nəqli-məkan etmimiş.



Düşüb məhrulərin bəhsi araya hüsnün üstündə,
Xəcalətdən qalıb onlar bəladü qəryə küncündə,
Deyirlər eşqi-Leyli müntəqildir Qeys könlündə
Səninlə bəhsə durmuşdur məgər kim, hüsnün önündə,
Fələk təqir edib Leylini rüsvayi-cahan etmiş.

Qubarı-xatirim canan, sənin gerdi-rəhmindəndir,
Bu həm bir lütfidir canə ki, əltafi-şəhindəndir,
Tərəhüm eyləmək hali-dilimdə agəhindədir,
Məgər tərkibi-İsa gerdi-rahi dərgəhindəndir
Ki, durmuş xakidən qədrilə əzmi-asıman etmiş.

Yetirmiş surəti-halım cünunluq çağına eşqin,
Salıbdır kuhkən mesli məhəbbət dağına eşqin,
Həris olmuş əzəl[1] gündən həyat övraqına eşqın,
Gəzər peykanların dildə və ya can bağına eşqin
Bəla sərçeşməsindən hər tərəf sular rəvan etmiş[2].

Məgər ərz eyləmiş halın səba ol yarə Nobarın,
Olub qəmgin, edib üzarə türreyi-tarın,
Salıbdır xatirə hicran şəbində çeşmi-xunbarın,
Füzulidən mizacın münhərif gördüm bu gün yarın,
Məgər fürsət bulub, bir şəmə halindən bəyan etmiş.

---

[1] Mətndə "əz" yazılıb.

[2] Mətndə səhvən "olmuş" yazılıb.

-145-

Ol pərivəş sübhüdən seyri-gülüstan eyləmiş,
Gülşən içrə baş açıb, çaki-giriban eyləmiş,
Bülbülü rüxsarının zövqilə nalan eyləmiş,
Ta ki, taqi zərnigarın çərx viran eyləmiş
Xişti-zərrinin səba fərş-gülüstan eyləmiş.

Dilbəri-məhru deyərlər gül fəsli təxir etməyə,
Mənzəri-güldən gözün gülşən gəzib seyr etməyə,
Anlayıb qabil degil bu halə tədbir etməyə,
Katibi-təqdir xətti-səbzi təhrir etməyə,
Bərgi gülzarı xəzan lövhi zərəfşan eyləmiş.

Bildi kim, badi-xəzan hazırlayıb əndazəsin,
İstəyir soldurmağa gülbərliklər tazəsin,
Zərd qılsın onun ruyində gülgun ğazəsin,
Qət edib fəsli-xəzan abi-rəvan şirazəsin,
Nüsxeyi-gülzarın övraqın pərişan eyləmiş.

Bərgidən xali olub gül şaxəsi qalmış tikən,
Sübhdəm bağı tutur səmm həvadan tirə çən,
Mənzəri-gülzar olur əfsür dəlikdən dilşikən,
Dövr cövrin gör ki, nüzhətkahi-əhli-zövq ikən,
Cuybari-gülşəni zənciri-zindan eyləmiş.

Səmmlər vermiş xəzan gülşəndə gül ağacına,
Zinəti bağın hamu yəğma olub el bacına,



Bərf qonsun az qalıb gülşəndə susən tacına,
Eyləmiş tədbiri-təşvişi xəzan taracına,
Lalə, rəngin rəxtini dağ içrə pünhan eyləmiş.

Badi-səmm gül bərgini gülzarıda pamal edib,
Gülüstanın rovnəqin əfsurdələnmiş hal edib,
Bülbüli heyrət tutub, bu hadisə bihal edib,
Rüzgarın tirə, bəxtin qarə, nitqin lal edib,
Matəmi-gül bülbülü zağ ilə eksan eyləmiş.

İbtida dövran verir gül şaxinə səbzi libas,
Bağ əra bərgi-gülü əlvan eylər rəngi-xas,
Nobəra, axır olur gül bərgi gülzarə pəlas,
Ey Füzuli, dəhr halın şaxi-güldən qıl qiyas
Kim, verib əvvəl təcəmmül, sonra üryan eyləmiş.

-146-

Aşiqi-yar olmuşam kami-dilə qıllam təlaş,
Çəkmişəm cövrü cəfa, his etmişəm çox ixtişaş,
İltiması könlümün səndən bu olmuş ey quyaş,
Cismimi yandırma, rəhm et yaşimə, ey bağrı daş!
Ehtiyat et, yanmasın nagah quru yanında yaş.

Lərzə tutmuş canımı, titrər misali-bərgi-bid,
Ağzımı heyrət yumub, urmuş ona möhkəm kilid,
Guşeyi-qəmxanədə qoydun məni nalan, vəhid,
Xoş keçər nəzzareyi-hüsnünlə ömrüm, var ümid

Kim, qılar məqbuli-dərgahın məni hüsnül-məaş.

Kəbəyi-ruxsarına yetməkdə lazımdır bələd,
Aşiqin olsun gərək eşqə əlində bir sənəd,
Xadimi-dərgah ola canana mədam ələbəd,
Tovfi-kuyində əyağdan başə irmiş bir mədəd,
Nola gər qəddim büküb hərdəm, əyaqım olsa baş.

Şöleyi-hüsnün yaxub xakistər etmiş canımı,
Qəmzeyi-peykan töküb meydani-eşqə qanımı,
Ah kim, sən bilmədin rənci-şəbi-hicranımı,
Ey hübabi-əşq, nayab et təni-üryanımı
Kim, bu rusva pərdəmi çak etdi, sirrim qıldı faş.

Şöhrəti-hüsnün tapıb bazari-eşq içrə rəvac,
Xubrulardır olan rəftaridə nazik məzac,
Şahi-xubanlar gərək bulsunla vardır naəlac,
Fitnə yayın qurmağa atəşmi olmuş ehtiyac
Kim, urubsan aləmə ataş, çatub hər ləhzə qaş.

Ey sənəm, sənsiz dili-məhzunimin əhbabı yox,
Çıxmağa dildən qəmin dısqarıya bir babı yox,
Mərdümi-çeşmim qalıb, hicrində ağlar, xabi yox,
Parə-parə könlümün suzi-dərunə tabı yox,
Göz yolundan qətrə-qətrə su olub, çıxseydı kaş.

Nobəri, qəmdir tutan mülki-dilin dövrü bərin,
Aqibət açdı dilin hər şami-hicran dəftərin,



Sakit ol ta siləsən qəmgin gözün əşki-tərin,
Ey Füzuli, qərqi-xunab eylədi göz mərdumin,
Görəyim qullabi-müjganə verilsin qanlı yaş.

-147-

Şəfaətinlə olur naridən mühüb xilas,
Biladi-kufrdən aldın təriqi-həqqə qisas,
Fərəh gətirdi mulklər, fələk olub rəqqas,
Ləhi, cəvahiri-ehsani-amə mədəni-xas,
Düri-şəfaət üçün bəhri-rəhmətə qəvvas.

Rəhimü qadirü rəzzaq vədən almışdır,
Bu dəvətə yanına Cəbrail gəlmişdir,
Qullami-dərgah olub, sən tərəf yünəlmişdir,
Yetib hüzuruna merac vəqti qılmışdır,
Qəmər hüsuli-müəssir, Süheyl kəsbi-xəvas.

Üruc etməginə ərşi-həqqə yoxdur şəkk.
Səlamə gəldi mülklər hüzuruna tək-tək,
Yüzün münəvvər edib mehrü mahi qıldı qəşəng,
Fələk həm ol gecə bulmuş səfa ki, sufitək
Qərar tutmayıb, olmuş o bəzmdə rəqqas.

Gözündən aldı işıq noh fələkdə nəşi-bənat,
Vücudun oldu cahan xilqətinə fəxriyyat,
Veribdir ismi-şərifin səmalara sukunat,
Rəhi-mütabiətində təriqi-fövzü nicat,

Həvayi-mərhəmətindir ümidi-xeyrü xilas.

Üzündə qətreyi-tərdən yetişdi gülşənə gül,
Ol güldən ötrü edib Nobəri dilin bülbül,
Dilində tərki-məhəbbət, zəhi rəhi müşkül,
Təfəxxür eylə, Füzuli kim, ondan özgə degil
Sənə zəmanədə nəqşi-səhifeyi-ixlas.

-148-

Bağbanə sərvdən bir qəddi rənadır qərəz,
Bərgi-güldə arizin rəngilə həmradır qərəz,
Aşiqə hicranidən bir fikri-xülyadır qərəz,
Xübrilərdən xəlqə vəsli-rahətəfzadır qərəz,
Aşiqə ancaq təsərrüfsiz tamaşadır qərəz.

Əhli-dil tərk eyləməz meyxanənin xoş saətin,
Ey xoş ol kəs kim, tutar piri-muğanın hörmətin,
Rind ilə həmbəzm olub, icra edər həm xidmətin,
Zahida, tərk etmə şahidlər vusali-rahətin,
Gər ibadətdən həmin qılmanü huradır qərəz.

Doğru sözdir mahru dildarilər hər yanda var,
Dilbərim misli olan nə insidə, nə canda var,
Nə pərirularda, nə hurilə, nə qılmanda var,
Hövzi-kövsərdən ki, derlər rovzeyi-rizvanda var,
Saqiyi-gülçövrəvü cami-müsəffadır qərəz.



Eşqi-yarım doldurub cismimdə qan ilə rökim,
Can fəda cananıma qılmaq olubdur məsləkim.
Cismü can onunkidir var isə əldə hər nə kim,
Arif ol, sevdayi-eşq inkarın etmə, ey həkim
Kim, vücudi-xəlqdən ancaq bu sövdadır qərəz.

Nobəra, bir gün yetər başə əcəl, ömrün bitər,
Müttəsil baqi olar ismin, vəli cismin itər,
Bu müxəmməs bəzmidə ürfan guşindən ötər,
Qıl Füzuli tərki ibrami-təkəllüm kim, yetər
Surəti-halın ki, izhari-təmənnadır qərəz.

-149-

Yox dilim dərdim edən ol surəti-xunabə ərz,
Naleyi-mürği-dilim ol no güli-xəndanə ərz,
Haləti-məhzunimi hali-dili şadanə ərz,
Qıl, səba, halim pərişan olduğun cananə ərz,
Surəti-halın bu viran mülkünün sultanə ərz.

Sor səbadan halımı, izhari-qəm qılsın sənə,
Purçəni-gisuların bir əjdahalardır mənə,
Ətri-zülfündən tutar hər sübhdən badi-səba,
Dərhəm olmuş sünbülün guya ki, qılmışdır ona
Mu bəmu hali-dilim, dillər uzadıb şanə ərz.

Səndən ötrü canımı dilşadü rahət saxlaram,
Fərqinə tab eylərəm, hicranə taqət saxlaram,

Afəti-dövranıdan canı səlamət saxlaram,
Təndə canım ol pərinindir, əmanət saxlaram,
Ol zamandan kim, əmanət qıldılar insanə ərz.

Vəslinə zövq artırır ruhi-rəvanım, ey sənəm,
Məskən olmuş mehrinə dil, canıma qoycaq qədəm,
Tərki-eşq etməz dilim gər bulsa bu canım ədəm,
Xəlq kufr əhlinə iman ərz edər, mən dəmbədəm
Kufri-zülfün eylərəm könlümdəki imanə ərz.

Dil təvaf eylər üzün şəmə dönən pərvanətək,
Bir qədəm də qoymaram sən olmasan rizvanətək,
Vəslini könlüm dilər badi-səbadan nanətək,
Surəti-bican ilən cənnət dolar bütxanətək,
Qılsalar cənnətdə təsvirin çəkib qılmanə ərz.

Yetdi səndən könlümə mehrü məhəbbət nagahan,
Məskən etdi könlümün pürkaləsin, doldurdu qan,
Dərdini mümkün deyil tutsun dilim eldən nihan,
Əhli-fəqrə münəmin ərzi-təcəmmüldür həman,
Nola gər dil qılsa hərdəm dərdi-eşqin canə ərz.

Nobəra, izhar qıl ol mahruyə halını,
Göstər anə dil, ciyər pürkaləsində xalını,
Qıl rəqəm tumarilə, bildir ona əfalını,
Ey Füzuli, böylə punhan tutma əşki-alını,
Eylə hər rəngilə kim, var ol güli-xəndanə ərz.



-150-

Aqil oldur eyləsin çərxi-fələkdən ehtiyat,
Çunki çox möhkəm degil çərx üzrə bu nazin xəyyat,
Bu əcuzə dəhr ilən sən etmə şirin ixtilat,
Qılma möhkəm, ey könül, dünyayə əqdi-irtibat,
Sən bir avarə müsafirsən, bu viran bir ribat.

Bu sıradan köç edir hər gün müsafir, həm gəlir
Xeyli kəslər asibü rənci-səfərdən incəlir,
Bəzilər sərmənzili-məqsudə yetmiş dincəlir,
Bu çəməndə qöncələr, güllər görən arif bilir
Kim, səbat üstündə yoxdur heç feyzı-inbisat.

Aqibət bir mənzilə daxil olar hər yol gedən,
Xak olar mütləq, yənə topraqidən çunmuş bədən,
Bəs bunu məğrurilər inzarə tutmazlar nədən,
Əhli-irfandır cahan keyfiyyətin təhqiq edən
Kim, nişatından bulur yüz qəm, qəmindən yüz nəşat.

Aşıq ancaq artırar dari-cahanda qiymətin,
Eşqi yoxlardır bilən eşqin rusumatın çətin,
Can verən aşiq bilər canana eşqin ləzzətin,
Eşq dərdinin mənə tapşırdı Məcnun nobətin,
Xalı qalmaz nəqşi-ərbabi-vəfadan bu büsat.

Nobəri, dil vermisən ol nərgisi-cadulərə,

Mayil etdin könlünü sərvqədü diculərə,
Düşdü axir murği-dil dami-siyəh gisulərə,
Ey Füzuli, ömrünü sərf etmə hər məhrulərə,
Bivəfalardan həzər qıl, tut təriqi-ehtiyat.

-151-

Təng ağzın yox kimi, onda təəcüb var ləfz,
İncə sovt ilə çıxar, olsa məhəlli dar ləfz,
Arizin gülbərgi-tər, gülgun ləbin, gulzar ləfz,
Dürcdür ləli-rəvanbəxşin, dürü şəhvar ləfz,
Dürcdən dürlər tökərsən eyləsən izhar ləfz.

Gərçi-güftarın verir söhbət dəmi ləzzət sənə,
Həzzi-söhbət məndədir, sözdür verən zəhmət sənə,
Manei-guftar olur ləblərdə şəhdiyyət sənə,
Oylə ağzın təngdir kim, söyləşən saət sənə,
Gərçi nazikdir, verir əlbəttə bir azar ləfz.

Qalmışam heyrətdə mən şirin sözün təsirinə,
Xeyli-şirindir ləbin, bais olur təxirinə,
Hər sözün bir xiştzər viran dilin təyirinə,
Yetmək olmaz ləfzi-canbəxşinlə ağzın sirrinə,
Vəhydir guya ki, bu mütləq ağız yox, var ləfz.

Bir-birə mülhəq olub şəhdən ləbi-sirintər,
Onunçun olmur söhbətin vəqtindəki sözdən əsər,
Xəlqərə məşhurdur ondan belə vazeh xəbər,



Nişə ləlin gec gəlir güftarə, guya kim, görər
Mən kimi, ol ləlidən ayrılmağı düşvar ləfz.

Qönçə gul mislində həm ləlin yumulmuş, bilməzəm,
Ya ləbin söhbət dəmi sözdən yorulmuş, bilməzəm,
Bir-birə mülhəqqidir, rahatca durmuş, bilməzəm,
Qönçə ləlin lətafətdən dəm urmuş, bilməzəm
Neylər izhar eyləcək ol ləli-gövhərbar ləfz.

Nobər istər dilbəri bir an rəncur olmaya,
Püstə ağzından dilin sözlər deyincə yormaya,
Söhbəti-cansuz ilə canıma atəş urmaya,
Ey Füzuli, istərəm ol yar halım sormaya,
Rəşkdən kim, bulmasın vəsli-ləbi-dildar ləfz.

-152-

Eşq bazarındadır hüsnün mətainə niza,
Sudmənd eylər səni əlbətdə, bu nadir məta,
Ellər içrə bu sözün şöhrətlə olmuş istima,
Aftabi-tələtin tutduqca ovci-irtifa,
Qətli-əhli-eşqə tiği-qəmzəndir ondan şüa.

Qeys durmuş Leylisiz səhrada məhzun eşqdə,
Vəsli-yarə yetməyib, olmuş cigərxun eşqdə,
Məskən etmiş aqibət dəşt ilə Hamun eşqdə,
Dəşt tutmaq adətin qoymuşdu Məcnun eşqdə,
Şöhreyi-şəhr olmağın rəsmin mən etdim ixtira.

Dil o mujganı kəmanəbrudə görcək diksinir,
Qorxulu bu halidən can titrəyir, dil səksənir,
Hər müjən xunxar olan əbruda peykan görsənir,
Zərq dəryasında bir xaşakdır kim, cizginir
Sufiyi-şəyyad kim, dovran tutub eylər səma.

Sirrimi faş eylədin eşqində sən, ey bağrı daş,
Razi-pünhanım sənə mən verməyəydim heç kaş,
Fayidə verməz edəm dırnaqilə sinəm xəraş,
Keçdigim dünyabü üqbadən səninçun oldu faş,
Doğru derlər: "küllü sirrin cavəz əl-isneynə şa".

Mənzəri-rüxsarına dildə təvan yox, canda tab,
Göz görür ruxsarını, canə düşür bir inqilab,
Arizin tutsa niqabə eyləyər bihədd səvab,
Ol büti-sərgəş gəlir, salmış camalından niqab[1],
Ey sələmət əl-fəraq, ey əqli iman əlvida.

Səndən eylər canü dil, ey mahru, belə sual,
Firqətinlə bu qədər insaf qıl, keçinmi hal,
Tiği-müjganı dərig etmə dilimdən laməhal,
Canü dil bir ömrdür, tiginçün eylərlər cədal,
Girmədən ortayə tiğin, qət olmaz niza.

---

[1] Əlyazmada "niqab"sözü buraxılmışdır



Vəsli-yarə Nobəri, yetmək dilərsənsə əgər,
Tərki-nəng et Qeystək cananı axtar dərbədər,
Dari-dünya qeydini çəksən görərsən çox zərər,
Ey Füzuli, axirət mülkinə lazımdır səfər,
Böylə fariğ gəzmə, təqvadan mühəyya qıl məta.

-153-

Qıl tələb canım, kəs mülki-Süleymandan təmə,
Göz götür əmlakidən, həm dəhri-virandan təmə,
Meyli-gül qıl, bülbül ol, kəsmə gülüstandan təmə,
Yar vəslin istəyən kəsmək gərək candan təmə,
Hər kəsi kim, vəsli-yar istər, kəsər ondan təmə.

Eşqi-canan aşiqə xülyayi-riqqətdir könül,
Rənci-dil fikri onun əyyami-firqətdir könül,
Müntəzirdir, gözdür qalan, didarə həsrətdir könül,
Arzuyi-vəsli-canan, cana afətdir könül,
Ya təəllüq candan üz, ya vəsli-canandan təmə.

Şəbpərə xurşid özün gözyari görməz mahü sal,
Dil təmənna etdiyi təbdili-firqətdir vüsal,
Yar mehrin tut dilə, sakit dayan manəndi lal,
Çun mənə bir zərrə yox tabi-təmaşayi-cəmal,
Mən kiməm, vəsl etmək ol xurşidi-rəxşandan təmə.

Eşq rahindən demə hər aşiqi-naqis gedə,
Purxətər bu yolda var üşşaqə təhqirü hədə,

Aşiqi-sadiq durar Məcnunilən bir cərgədə,
Aşiq olur kim, təmənnayi-bəlayi-hicr edə,
Yoxsa yoxdur mehr edən ol mahi-tabandan təmə.

Yaridan hər dəm gələn covrü cəfadır, neyləyim,
Covri-canan aşiqə mehrü vəfadır, neyləyim,
Vəsl üçün səbr eyləmək zövqü səfadır, neyləyim,
Rişteyi-tuli-əməl dami-bəladır, neyləyim,
Kəsmək olmaz ol səri-zülfi-pərişandan təmə.

Yar məndən üz çəkib, ruxsari-alin etdi qeyb,
Ana qarşı məndə yox təzvirü mekrü hiyləvü reyb,
Səbridə Əyyub mən, şükrü sənada çun Süeyb,
Arezin görmək həyatım tazə eylər, vəh nə eyb,
Gər geda vəchi-məaşın qılsa sultandan təmə.

Sudmənd olmaz əgər tuğyan edərsə cəhli-hirs,
Bisəmərdir əksə də məhrus olan dil nəxli-hirs,
Səhb edibdir bilməsə kim səxtidir, nə səhli-hirs
Müttəsil hirman qılır hasil təmədən əhli-hirs,
Türfə kim, artur mənə gəldikcə hirmandan təmə.

Xahisindir canına ənduh ilə qəm düşməmək,
Şad olan gözdən üzə, ey Nobəri, nəm düşməmək,
Leyliyə aşiq olan Məcnunidən kəm düşməmək,
İstərisən heyrətü hirmanə bir dəm düşməmək
Kəs, Füzuli, dəhrdən ümmüdü dövrandan təmə.



-154-

Qətrə-qətrə yaş tökər səb ta səhər şəmdanə şəm,
Çox baxar ruxsarına yanında yana-yana şəm,
Mən kimi meyl artırar ləli-ləbi-xəndanə şəm,
Dil uzadır bəhs ilə ol arizi-xəndanə şəm,
Od çıxır ağzından, etməzmi həzər kim yanə şəm.

Yandırar canın, çəkər məntək həyatından ətək,
Yox sədası ta ola dad etməkdən sinə təng,
Ərz edər həqqində bir söz bəzi nadan, cəfəng,
Nola qeyrət atəşi canım əritsə mumtək,
Bu nə sözdür kim, demişlər arizi-cananə şəm?

Varid olmuş qaliba, boylə müəssər bir xəbər,
Gərçe yoxdur zakirin isbatına düzgün əsər,
Boylə derlər, şəm həm məğrur olub bir müxtəsər,
Arizi-cananın bəhsi-kəmali-hüsn edər,
Dil ucundandır ki, hər saət düşər nöqsanə şəm.

Yar ilə həmbəzm olur hər şamilər ta sübhdəm,
Yaş tökər damanına zovqü fərəhdən dəmbədəm,
Neyləyim mən kim, hələ hicrindəyəm, könlümdə qəm,
Gəh əyağı bağlı, gəh boynu, nədəndir bilməzəm,
Bir pəri eşqində olmuşdur məgər divanə şəm.

Oylə rənasan tutub cümlə cəhanı şöhrətin,
Həm mənim canımda var mehr ilə bahəm möhnətin,
Ahilər kim, bilmədim barəmdə nolmuş niyyətin,
Nola könlüm arezin istərsə, canım qamətin,
Rəsmdir aləmdə: bülbül gül sevər, pərvanə şəm.

Şəm xahiş eyləyir yanında suzan olmağa,
Rişteyi-canın yaxıb, gültək saralıb solmağa,
Gülə tutmaq istəyir, ta payi-busin bulmağa,
Qıl şəbustanın müşərrəf kim, nisarın qılmağa,
Riştədən dürlər çəkib cəm eyləmiş damanə şəm.

Nobəri, səbr eylə, ta səndə nədir munca məlal,
Rəngu ruyin zərd olur, təğyiri-surət halu hal,
Şam tirə ruz olar, Vazehdi xəlq içrə bu qal,
Ey Füzuli, zövqdən yaxdın tənin ruzi-vusal,
Netdin, ey qafil, gərəkməzmi şəbi-hicranə şəm?

-155-

Zərü simində dünyanın, könül, vardır peşimanlıq,
Verər dövlət dili-şadə nəhayət bir hər insanlıq,
Onun tərkilədir rahat həyatü ömrə asanlıq,
Gəl, ey rahət sanan əsbab cəmin, qılma nadanlıq,
Təriqi-fərq tut kim, fəqr imiş dünyada sultanlıq.

Səriri-səltənət təxtim səri-kuyində bir gülxən,
Cünunlar mülkünün şahi, qulami-kəmtərinəm mən,



Libasi-şahidən artıq təni-fəqrimdə pirahən,
Murad ər səltənətdən kami-dildir, nəfsə tabesən,
Nə hasil səltənət adılə qılmaq bəndəfərmanlıq.

Keçənlər halını fikr et, hər iş olsun sənə zahir,
Müti olmaqdı soltanlıq, düşər rəncə dili-amir,
Pərişandil olar şadan, qürurindən düşər faxir,
Pərişanlıqdan, ey əhli-cahan, siz cəm edin xatir
Ki, mən cəm eylədim hər qanda vardır bir pərişanlıq.

Tamaşa qıl, gör ey qafil, necə dovr eyləyir gərdiş,
Sənin rəyincədir, etməz gər ondan eyləsin xahiş,
Belə dünyaya dil verməz, ğənidil mən kimi dərviş,
Nə taledir kim, aləmdə mən ağaz etmədim bir iş
Kim, ol işdən sərəncam etmədim axır peşimanlıq.

Nədəndir dadın, ey Nobər, sənin cananına yetməz,
Təbib dərdi-eşqindən dilin zəxmi neçün, bitməz,
Sənə rəhm eyləsə, yarın vəslin munca ləngitməz,
Mənə zülmi-sərih ol kafər eylər, kimsə rəhm etməz,
Füzuli, kufr olurmu gər desəm yoxdur müsəlmanlıq?

-156-

Əcri-aşiq bumudur, təndən yox olsun varlıq,
Ad etmişlər nədən ol dilbərə dildarlıq,
Bəs haçan dildən gedər fəryadi-ahu zarlıq,
Saqiya, mey sun ki, dami-qəmdir hüsyarlıq,

Məstlik olmuş qılan ğəm əhlinə qəmkarlıq.

Daxiləm bəzmi-meyi-cananıma ikram ilən,
Saqiyə rəğbətliyəm bu qəlbi-safi-tammilən,
Cami-mey versün mənə ləli-ləbi-gülfamilən,
Var fikrin, yox qəmin çəkmək nədir, bir cam ilən?
Bixəbər qıl kim, mənə bir ola yoxluq, varlıq.

Qüssəvü qəm könlümə hər ləhzə tutqun qan verir,
Qeydsizlərçün cəhan əsbalını asan verir,
Xarə gül qismət edir, bülbülə əfğan verir,
Can mətainin bəhasıdır nə kim, dovran verir,
Türfə kim, mən sanıram şəfqətdir ol qəddarlıq.

Gül yaranmışdır məgər gülsəndə həzzi-xar üçün,
Xilqəti-bülbül həmin fəryadi-ahüzar üçün,
Göz yaranmış baxmağa ya həsrəti-rüxsar üçün,
Təneyi-əğyari çəkməkdir işim bir yar üçün
Kim, olur əğyarə yar, eylər mənə əğyarlıq.

Sən yanırsan, Nobəri, bu ahi-ataşbaridən,
Çıx qətari-eşqdən, əl çək belə əfsaridən
Kim, degil xali bu yol birəhm olan əğyaridən,
Ey Füzuli, eylərəm qəti-təəlüq yaridən,
Bu təriq içrə mənə tovfik edərsə yarlıq.



-157-

Fəsli-nodır, gül açıb gülzaridə, güllər fərağ,
Əndəlibü qumrilər gülzarə qoymuşlar əyaq,
Lalə rəngin baş açıb gülzaridə bağrında dağ,
Eyş üçün bir türfə mənzildir bahar əyyami bağ,
Onda tiksin eyş üçün hər kim ki, istər bir otağ.

Getdi qəm dövrü, könül, gəlmiş baharü tazə il,
Nəhrlər abın qılır gülşənlərə, hər yan səbil,
Zövqi-güldür artıran bülbüllərə min novi dil,
Qönçələr açıldı, seyri-bağ edün, ey əhli-dil
Kim, görüb güllər könüllər açılan, çağdır bu çağ.

Şad ol ey dil kim, dəmi-işrətdi, dövri-qəm degül,
Olma razı qəlbinə əndhü qəm qılsun nüzul,
Dil qala bilməz belə gülzaridə zarü məlul,
Səndən, ey bülbül, füzundur məndə möhnət fəsli gül,
Sənsənü min tazə gül, hala mənü min tazə dağ.

Qəm dəxi canü dilə mundan sonra hacət degül,
Eyləyiblər süknəti-dildən qəmü möhnət üdul,
Fəsli-gül gülzaridə zövqü fərəh qəlbə hüsul,
Bağə sərvim gəldigin bilmiş səhərdəm şaxi-gül,
Rovşən etmiş rəhguzarı üzrə hər yan bir çırağ.

Ey pərivəş, mən dəxi məbhutü heyranam sənə,

Qeystək səhranızın çaki-gəribaniyəm sənə,
Hər müjən peykanına bir dəfə qurbanəm sənə,
Çəksələr zəncir ilən gülzarə getməm kim, mənə
Sünbüli-zülfün fəraqından müşəvvəşdir dimağ.

Səndən üz döndərmərəm olsa yolunda möhləkim,
Çak qıllam sinəmi hicranıda ey gültəkim,
Mən mərizi-eşqinəm, dərman nə hacət, ya həkim,
Mövsimi-güldür, vəli getməm çəmən sehrinə kim,
Rövzeyi-kuyin mənə ol seyrdən vermiş fərağ.

Anlamaz mey nəşəsin meyxanə doğru getməyən,
Tərki-məscid eyləyib, vəzi-ziyadan ötməyən,
Nobəra, meyxanədən vəsli-nigarə yetməyən,
Məhrəm olmaz rindilə bəzmndə mey nuş etməyən,
Ey Füzuli, çək ayaq ol bəzmdən, ya çək ayaq.

-158-

Qəmzən oxlarını vur sinəmə, sən etmə tələf,
Etmərəm hər nə qədər yarəm ola cismimdə xəf,
Xahiş etsən verərəm canımı oxlarə sələf,
Ey xədəngi-qəminə sineyi-əhbab hədəf,
Müntəzir xəncəri-müjganına canlar səf-səf.

Bilmə gün sübh çıxır, göstərə xəlqə üzünü,
Bilmişəm onda olan niyyətin əsl düzünü,
Sürtmək istər üzünə rahi-güzarın tozunu,



Xaki-dərgahına hər sübh sürər gün üzünü,
Qaliba ondan ona hasil olubdur bu şərəf.

Göz səni gördü, könül mayıl olub surətinə,
Onu heyrət götürüb gözdə olan heyrətinə,
Tabı yoxdur dilimin bir bu qədər firqətinə,
Haşə lillah ki, bu divaneyi-şövqi-xətinə
Səbəbi-qeyd ola, zənciri-süturi-müshəf.

Bəzilər tutduğu kəc rahilə yollanma, könül,
Günəşin şövqi kimi hər yerə sallanma, könül,
Mütməin sözlərimin doğruluğun danma, könül,
Rəngdir, sən dəxi bu aləmə aldanma, könül,
Xakdır kim, onu ki gəh ləl qılır, gahi xəzəf.

Rəhmi yoxdur qıla kin, zənn eləmə anı səlim,
Əksi-dövrində onun çoxdı cəfa, covrü əlim,
Cigərim dağıdır, ondan yaralı canü dilim,
Bəzmi-Cəmşid fəna bulmaq ilə bildim kim,
Dövr covründən imiş naleyi-ney, noheyi-dəf.

Nobəri, əhli-dilə canını qurban eylə,
Səy qıl ta özünü arifi-dövran eylə,
Bəzmi-irfanıda sən söhbəti-canan eylə,
Ey Füzuli, tələbi-rütbeyi-irfan eylə,
Cəhl ilə hasili-ovqati-şərif etmə tələf.

-159-

Eşqdən laf elə, dəm urmaq degil, ey dil, kəfaf,
Aşiqin olsun gərək can riştəsi qəmdən kəlaf,
Atəşi-hicranidən həm etməsin bilmərrə xaf,
Möhnəti-eşq, ey dil, asandır deyib, çox urma laf,
Eşq bir yükdür ki, xəm bulmuş onun altında Qaf.

Eyləməz hicran çəkən aşiq nigarından udul,
Atəşi-hicrindəki asibindən olmaz məlul,
Rəncə dözmək aşiqə məcnunidən olmuş vüsul,
Qafil olma dərdkeşlər şöhbətindən, ey könül,
Gər dilərsən edəsən ayineyi-idrakı saf.

Şami-hicri sübh edən üşşaqinə imdada yet,
Vəslin üçün dad edən nalaninə fəryada yet,
Samit olma gül kimi, şeyda dilinçün dadə yet,
Sübhdəm zülfün dağıt, ya şamə ərzi-ariz et,
Qoyma sübhü şam arasında təriqi-ixtilaf.

Arizin görmək dilər ovci-səmada aftab,
Fikri kəcdir görsə də, etmək münəvvər hüsnə tab,
Mayili-didarına göstər gözün, eylə səvab,
Rəşki-ruxsarın dili xurşidə salmış inqilab,
Qeyrəti-qəddin mizaci-şəmə vermiş inhiraf.

Kəbəyi-ruxsarına, ey mahru, yoxdur şəkim,



Zayiri-ruxsarınəm, cünbüşdə can içrə rəkim,
Uyğun etməz səhhətə bu dərdi-eşqi bir həkim,
Xaki-kuyin Kəbəyə nisbət qılan bilməzmi kim,
Bunda hərdəm, onda bir novbət olur vacib təvaf.

Vəsliün mötadiyəm etsən əgərçe iltilaf,
Ta yetəm kami-dilə baqi əgər olsa həyat,
Qoy aman versin bizə faş olmayan vəqt məmat,
Vəhmim ondandır ki, mümkün olmaya qəmdən nicat,
Fərricil lahümmə həmmi, nəccini mimma nəxaf.

Tərki-eşq et, Nobəri, zahid sənə söylər, nə sud,
Tiği-pənd ilə səni hər ləhzə o piplər, nə sud,
Etiqad səhvinə dəvət qılar, heylər, nə sud,
Ey Füzuli, zahid ər dəvayi-əql eylər, nə sud,
Nəfi-zövqi-eşqdir cəhlinə eyni-etiraf.

-160-

Edir vəslin xəyalatın gecə ta kim səhər, aşiq,
Tökür sənsiz üzarına dəmadəm əşki-tər aşiq,
Kəman əbruyi-canana olub göydə qəmər aşiq,
Olur ruxsarına gün, ləlinə gulbərgitər, aşiq,
Sənə əskik deyil, göydən ənər, yerdən bitər, aşiq.

Gözəllər padişahisən, məlahətdən ğəni hüsnün,
Qulami-kəmtərin etmiş sənə, canan, məni hüsnün,
Edib xuban dünyayə gözəl sultan səni hüsnün,

Mənə məqsud tərki-eşqidir vəh kim, məni hüsnün
Edib gün-gündən əfzuntər, qılıb gün-gün betər aşiq.

Əlimdən damənin çəkmə, təərüz eyləyib getmə,
Məni-zarə tərəhhüm qıl, rəqibin dəstinə yetmə,
Nəzərgahımdadur daim, gözümdən bir dəmi itmə,
Tamaşayi-cəmalindən nəzər əhlini mən etmə,
Nə sud, ol xub üzdən kim, ona etməz nəzər aşiq.

Səninçün sübhdən tutmuş nəbatati-çəmən şəbnəm,
Ayağına səpib dürrlər, təşəkkür eyləyir hərdəm,
Olaydım kaş yanında nəbatat ilə mən bahəm,
Çəməndə payi-busindən olubdur səbzələr xürrəm,
Həman bir səbzəcə olsa bu aləmdə yetər aşiq.

Degil məlumun, ey canan, necə sənsiz keçir halim,
Nədir şoğlim fəraqında, şəbi-hicrində əfalim,
Əgər görsən məni-zari, olursan halimə alim,
Qılırsan min cigər qan, hər yanə baxdıqca, ey zalim,
Nə baxmaqdır bu, hərdəm hardan alsın bir cigər aşiq?

Vəfadan dəm vuran dilbər kənara aşiqin atmaz,
Vəfalı görsə cananın dili-üşşaq qan tutmaz,
Verib müjgan oxun qaşə, cəbinin yar qorxutmaz,
Qırırsan əhli-eşqi, tutalım kimsə əlin tutmaz,
Nə işdir bu, gərəkməzmi sənə, ey simibər, aşiq?

Qəmin izhar qıl, Nobər, o surətdən qəni şahə,



Odur cəlb edən[1] axir səni bu qorxulu rahə,
Yetir bir novilən daği-dili-pünhanın ol mahə,
Nə pərvanə dözər bir şöləyə, nə şəm bir ahə,
Füzuli, sanma kim, bənzər sənə aləmdə bir aşiq.

-161-

Oldu tahir bədənin ayineyi-vəhdəti-həqq[2],
Möcuzatından olan gündə qəmərdir münşəqq,
Verdi ənvari-ruyin kürreyi-xurşidə şəfəq,
Tabi-xurşid məhi-ruyinə vermiş rövnəq,
Ta ki, ziba xət üçün ola bu təznibi-vərəq.

Aşiqin çoxlar olub sabiqən imdi yenə də,
Mehrini tutdu olar xilqəti-əvvəl bənə də,
Həkk olub dildə məhəbbət sənə tahir sinədə,
Əksi-ruyini görən daireyi-ayinədə
Der məhi-bədrdir ənguşti-nübuvətdən şəq.

İsmi-pakindən alır zinətini hər məclis,
Dil sənin mehrin ilə fəxrə gəlib olmuş ənis,
Əhli-din həqqi bilən bildi səni xətmi-rəis,
Sənə gülşəndə nisar etmək üçün hər nərgis
Götürüb başinə altun dolu bir sim təbəq.

---

[1] "Edən" sözü mətndən buraxılmışdır.

[2] Bu təxmisə "dər vəsfi-həzrəti-Məhəmməd Əleyhüssəlam" sözləri ilə sərlövhə verilmiş və həmin sərlövhə iki dəfə, təkrar yazılmışdır.

Məni məbhut eyləyən fikrinlə heyrətdir,
Əhsən ol xaliqə xəlq etdi səni, qüdrətdir,
Xilqətin dini-Xuda əhlinə bir minnətdir,
Hər xəttin müshəfi-hüsnü-həqqə bir ayətdir,
Məktəbi-eşqdə hər dil ona bir tifli-səbəq.

Əhli-islamə vücudundur olan rəhnəmun,
Səndədir cümlə cahan içrə olan elmü fünun,
Oldu mehrin dili-üşşaqidə qayətdə füzun,
Aşiq olmaq sənə, bəsdir, bizə bürhani-cünun,
Hüsnə əql əhli müqəyyəd ola bilməz mütləq.

Eşqinə kim ki, düşər bilmiş olubdur mərhum,
Duku bu zinəti-dünya belə əşxasə lüzum,
Fikri-vəslindir edən aşiqə hər ləhzə hücum,
Qaşı yayların oxu aşiqə gəlməkdi rüsum,
Eşq peyda olalı boylə qoyulmuş bu nəsəq.

Müşrikin dinim dinin eyləyibdir mənsux,
Qeyr ədyanidən olmuş bu gözəl dinin şux,
Üz tutub Nobərə bir murği-hümayun frux,
Şahidi-hüsni-busatında bu gün ol gulrux,
Ey Füzuli, dili-avarə sürülmuş beydəq.



-162-

Eşq aşiqədir bəzmi-təəşöqdə yaraşiq,
Rəncü təəbi-dilbər olur eşqə sənaşiq,
Biqeydlərin qəlbi olur dəhrdə bulaşiq,
Olmaz oldu görüb halımı el xublara aşiq,
Eşq nəhyində bu rusvalığı gör şərə müvafiq.

Ey mələkmənzər olan, eyləmə çox aşiqə xeşm,
Pərdeyi-könlünü qıl aşiqı nalanına pəşm,
Can tələb eyləsən, ol söyləyər, əlbəttə, beçeşm,
Gələr olsan, qılaram fərşi-rəhin pərdeyi-çeşm,
Dəxi nəm var, əzizim, gözə qarşı sənə layiq?

Bir xəndə edib bərgi-güli şaxədə soldur,
Qoy, bülbülümün dadilə fəryadidə öldür,
Aşiq olanın Qeys kimi məskəni çöldür,
Gülüb açılmaq olmaz dəhənindən, məgər oldur
Cüz kim, layətəczza der ona əhli dəqayiq.

Göstərib gül üzünü canımı saldın dərdə,
Bu dərdə səbəb oldu üzarındakı pərdə,
Bənzər saçın ol üzdə necə pəlmə qəmərdə,
Bağrımın parələrin gözlərim asmış müjələrdə,
Mərdümi-guşənəşin qandanü qandan bu əlayiq?

Tutdum tərəfi-eşq rəhin hüsnü görüncə,
Səndən əlini çəkməyəcək canım ölüncə,

Ləlin meyinə ləblərini cam bilincə,
Şəm gecələr yanar, əşk tökər şübh gəlincə,
Can verər sübh gələn dəmdə, zəhi aşiqi-sadiq.

Hər şam baxar qaldı, nedim, dideyi-purnəm,
Hicr ataşinə yandı dilim can ilə bahəm,
Rahət nəfəsim yoxdu mənim hicridə bir dəm,
Səbqət etmişdi cigər qanı, gözüm yaşına hərdəm,
Eşq hökm etdi, yenə cari ola adəti-sabiq.

Fəryadına bülbüldi tutan, Nobəri, ahəng,
Nalən onu da eylədi gülzaridə diltəng,
Hər yan atılır başına min tənə ilən səng,
Ey Füzuli, özünü guşənəşin et xumi-meytək,
Ola ta kim, olasan kaşifi-əsrari-həqayiq.

-163-

Neçün ey eşq, mənim könlümü məhzun etdin,
Huşü idrakım alıb, fikrimi dağun etdin,
Mənim Məcnun yerimi dəşt ilə hamun etdin,
Ey fəraqi-ləbi-canan, cigərim xun etdin,
Çöhreyi-zərdimi xunab ilə gulgun etdin.

Ey könül, eşq işini səhl demə, müşkül bil,
Vəsli-canana sənin səbrin olar, təndə kəfil,
Bir həras eylə, səni gəryə edər axır əlil,
Cigərim qanım qat əşkilə ilə etdin, ey dil,



Varə-varə onu bir Qulzumu Ceyhun etdin.

Sübhdəm zib verib hüsnə, kamal artırdın,
Aşiqi şövqə salıb meyli-vusal artırdın,
Nəxli-ümmidi-dilə tazə nihal artırdın,
Cürə-cürə mey içib, zibi-cəmal artırdın,
Zərrə-zərrə gözümün nurunu əfruz etdin.

Hansı rah ilə sənin vəslilə bir yol bulayım,
Nə qədər kuh gəzib, dəştində heyran qalayım,
Kimə bu dərdi deyib, çarəni kimdən sorayım,
Necə hüsn ilə səni Leyliyə nisbət qılayım,
Bilməyib qədrimi, tərki-məni-Məcnun etdin.

Əhli-dil bilmişəm axır səni mən, əhli vəfa,
Mənzəri-hüsnün olur qəmli dilə zövqü şəfa,
Sənə bimehr deyən olsa, deməm mən əbəda,
Əhd qıldın edəsən aşiqinə covrü cəfa,
Aşiqi vədeyi-ehsan ilə məmnun etdin.

Nobəri, ahın ilə butəi-dil dağlıyalı,
Qəfləi-eşqə bəirü dəligi bağlıyalı,
Cismü canü dilini dilbərinə saxlayalı,
Ey Füzuli, axıdıb seyli-sirişk, ağlıyalı,
Eşqin əhlinə fəğan etməyi qanun etdin.

-164-

Oldu canan, çareyi-dərdimdə əhmalın sənin,
Tənələr daşı olub əğyarıdan qalın sənin,
Yaxşı ətvar olmadı barəmdə əmalın sənin,
Qıldı zülfüntək pərişan halımı halın sənin,
Bir gün, ey bidərd, sormazsan nədir halın sənin?

Sən kim, oldun ey könül, bir mahvəş oftadəsi,
Bəndi-gərdəndir olan gisulərin qəlladəsi,
Başını məst eyləmiş meygun dodağın badəsi,
Getdi başından, könül, ol sərvqəddin sayəsi,
Ağla kim, idbarə təbdil oldu iqbalın sənin.

Tökdü canan üstümə hicranıda qəm ləşkərin,
Fəth qıldı fovci-qəm bu mülki-canın kişvərin,
Sancılıbdır başıma bayrağı ol taci-sərin,
Zinət üçün cism divarında etməzdim yerin,
Çəkməsəydi eşq lovhi-canə timsalın sənin.

Adət olmuş qəsdi-can məhrulərə, tərki-vəfa,
Ey məlahət şahi, ver covrü cəfana intəha,
Qətl vəhmi eyləməz eşq əhlinə səndən cüda,
Aşiqi öldürməyə tiz etmədin tiği-cəfa,
Öldürər hər gün məni axır bu ehmalın sənin.

Mərdumi çeşmim tökər hicranidə əski-tərin,
Şöləvər ahim edib canımda ataş məcmərin,



Söndürməzdir göz yaşı canımda hicran əxgərin,
Qərqi-xunabi-cigər qılmış gözüm mərdümlərin,
Arzuyi-xali-mişkinnü ruxi-alım sənin.

Bu xəta səhrasıdır, ey dil, bu səhradan çəkil,
Qəmzeyi-peykanı edər axır səni bir gün qətil,
Sən məni bu pənd ilə bir mərdi-xeyrxah bil,
Damigahi-eşqdən çıx bir kənar, ey mürğidil,
Sınmadan səngi-məlamətdən pərü balın sənin.

Kəsrəti-xunabidən hicrində damən islanır,
Nobəri kami-dili hicranidə müşkül sanır,
Fikri-vəsli-yar ilə hicran şəbi aşiq qalır,
Sayəvəş çoxdan, Füzuli, xaki-payın yastanır,
Bu ümmid ilə ki, bir gün ola pamalın sənin.

-165-

Ahuvəş gözlər ilə sən məni məftun etdin,
Mahi-ruxsarə dilim zövqini əfzun etdin,
Eşq zövqilə məni axiri Məcnun etdin,
Çeşmimi əşk ilə gənci-düri-məknun etdin,
Mədümi-çeşmimi ehsan ilə Qarun etdin.

Aşiqə vaiz edən pənd degildir aid,
O bilibdir özünə rahi-həqiqət vahid,
Can bahasilə olur vəsli-nigarə cahid,
Meyi-gülguni, dedin, əqlə ziyandır, zahid,

Bumudur əql ki, tərki-meyi-gülgun etdin?

Vədə verdi meyi-nab içmək üçün piri-Muğan,
Bisəmərdir o deyir, qılsa könül qeydi-cahan,
Badəni rind ilə iç, şeyx kimi içmə nihan,
Canım aldın mey üçün, saqi, içirdin mənə qan,
Dad əlindən ki, məni al ilə məğbun etdin.

Zahid ol zülfdəki rayihəni inləməyib,
Hatifi-qeyb ona eşq nədir söyləməyib,
Heyrəti-hüsn onu mən kimi həm keyləməyib,
Dil tutar mari-səri-zülfünü, vəhm eyləməyib,
Bilməzəm kim, ona təlim nə əfzun etdin.

Aşiqin əşki-tərin damənınə endirdin,
Qəmtəriranə baxıb, qeyz ilə həm dindirdim,
Tusəni-hicrü qəmə cövr elədin, mindirdin,
Xəttinin afəti-can olduğunu bildirdin,
Lütf qıldın kim, onu vaqifi-məzmun etdin.

Yandırsan canımı, hicranə degil rəsmi-vəfa,
Çünki mən istəyirəm kami-dilü zövqü səfa,
Tutmuşam barigəhi-izzətinə dəsti-rica,
Tanımaz oldu mənə tənə edən əhli-riya,
Şükr kim, halımı, ey eşq, digərgun etdin.

Hansı fikr ilə qalır, Nobəri, dilbər nə bilim,
Baş əgərmi görəsən sərvi-sənubər, nə bilim



Munca qəm axır olur, bəs nəyə müncər, nə bilim,
Ey Füzuli, nə murad oldu müyəssər, nə bilim,
Munca kim, həsrəti-ləlilə cigərxun etdin.

-166-[1]

Xaliqi-külli-cahan xəlq eyləyibdir səni pak,
Tutsa hər qəlb sənin mehrini olmaz qəmnak,
Əzəmm Əllahü cəlaləku cəələ ər-ruh fədak,
Can verər rayiheyi-türbəti-pakın, ey pak,
Nəvvər-əllahü ləkəl-ərzə səq-əllahü sərak.

Qalacaq axıradək hikməti-şərin baqi,
Səndən olmuş bizə bu doğru yolün ilhaqi,
Olmuşuq ləli-ləbin badəsinin müştaqi,
Hörmət etdin meyə, təzim ilə tutdun saqi,
Əzzəm-əllahü ləkəl-əcrə ələllahi cəzak.

Göz ilə nisbət olan gülşənərə nərgis yox,
Huru qılmanı diməm sənlə olar həmcins yox,
Məclisin misli şərafətli olan məclis yox,
Səri-kuyində qəribiz, bizə bir munis yox,
Talə ma ənəsən-əlqəbü cəəlnahü fədak.

[1] Bu qəzəl "Dər vəsfi-həzrəti-Məhəmməd Əleyhüssəlam" sərlövhəsi ilə verilmişdir. Təzmin edilmiş ərəbcə beytlərin tərcüməsi də Füzuli "Divan"ının 1958-ci il nəşrində verilmişdir (bax. s. 203)

Ey xoş ol dil kim, edib məzrəi-şərini seyr,
Damənindən yapışan mütləq alar icrinə xeyr,
Qələmim rəqsə gəlir yazdıqıçun vəslinə şer,
Səfheyi-dildə bulunmaz əsəri-surəti-qeyr,
Hinə-ma həllə, nəfyəl-qeyrə ənil-qəlbü həvak.

Ol vücudundı səbəb dinə ki, tapdı rüfət,
Dinimiz sənlə acıb dəhrə ləvayi-şöhrət,
Fəxr edər əhli-dilə sənlə tuta ünsiyyət,
Rəhi-eşqində götür qeyridən, ey dil, rəğbət
Fəira sitə rəfiqən ələmül-eşqi-kəfak.

Nobəri yaxşı bilir badeyi-vəhdətdir əyi,
Doğru bilmiş bu yolu hər kəsə, fəxrilə deyi,
Tutmadı hər dənidən gözünə qarşu şeyi,
Ey Füzuli, nə bilir əhli-vərə zövqi meyi
Ənkər-əl-hikmətə mən laməkə cəhlən və nəhak.

-167-[1]

Badeyi-ləli-ləbin şəhdi-müsəffadır sənin,
Hər təkəllümdə sözün dildən müəmmadır sənin,
Qüdrəti-Allah nur pakından hüveydadır sənin,
Şəmi-ruyin aftabi-aləmaradır sənin,
Nuri-həqq xurşidi-ruxsarında peydadır sənin.

[1] Bu təxmisdə ondan əvvəlki təxmisə verilən sərlövhə verilmişdir.



Cani-aləmsən özün xəlqə həyat içrə bu gün,
Qaibi zahir edən möhkəm, səbat içrə bu gün,
Həqqi isbat eylədin əhli-mənat içrə bu gün,
Sənsən ol gövhər ki, bəhri-kainat içrə bu gün,
Mümkün olan eybdən zatın mübərradır sənin.

Xilqətindir baisi-icadı-külli kainat,
Xaliqin isbatına zahir vücudundur sübat,
Beyti-həqdən sərnigun oldu hamu Zatü Mənat,
Can verər ləlin təmənnasında min abi-həyat,
Feyzinə ləbtəsnə min Xızrü Məsihadır sənin.

Can itirməz kəlmeyi-tohidinə qurban olan,
Xassə əldünyavü axirdir sənə üdvan olan ,
Tazədən bir can tapar kafir olub bican olan,
Sərvü gül nəzzarəsin neylər sənə heyran olan
Kim, qədin sərv, ruxun gülbərgi-rənadır sənin.

Dövr sənsiz eyləsin dövrü zaman, mümkün degil,
Nuru səndən tutmasa mehri-cahan mümkün degil,
Olma asimin dura noh asiman mümkün deyil,
Razi-eşqin xəlqidən tutmaq nihan mümkün degil,
Aşiqin ol vəchdən aləmdə rüsvadır sənin.

Göz gərək sənsiz tökə şamü səhər əşki-tərin,
Yad edərkən sən kimi bir mahi-peykər dilbərin,
Könlümə hicrin tökər şamü səhər qəm ləşkərin,

Qıldı şövqün, əşk qəvvası gözüm mərdumlərin,
Ey duri-tər, mənzilin guya ki, dəryadır sənin.

Nobəra, mən ol şəhin taətinə qıldım yəmin,
Könlümə ondan yetən mehrü məhəbbətdir həmin,
Hər kimin cananı var olmaz cahanda dilqəmin,
Cümleyi-afaqıdən çəkmiş təəlüq damənin,
Ta Füzuli xəstəyə vəslin təmənnadır sənin.

-168-

Qıldı nuranı dilim ol mahi-tabanın sənin,
Neşa başımdırır məxmuri-çeşmanin sənin,
Rəşkidir bərgi-gülə ol ləli-xəndanın sənin,
Oylə rənadır, gülüm, sərvi-xuramanın sənin
Kim, görə bir kəz olur, əlbəttə, heyranın sənin.

Zülf xülyası salır zülməti-əfkarə sərim,
Bu xəyalım doldurur şəhmar ilən dövrü bərim,
Başına dönsün könül, pərvanin olmuş dilbərim,
Kakilintək başına cizginmək istər xatirim,
Ey mənü yüz mən kimi sərgəştə qurbanın sənin.

Zülməti-zülfə düşən olsun gərək dildən rəşid,
Əsməsin canı onun ənduhü qəmdən misli-bid,
Nəqdi-canilə edə cananının vəslin xərid,
Arizin dövründə cəmiyyətdən olsun naümid,
Olmayan aşüftəyi-zülfi-pərişanın sənin.



Heyrət üzrə eşqdə, ey dil, dayanma lam-cim,
Yarına izhari-qəm qılmaqda ol, dərdə kəlim,
Dilbərin hər kəlməsin bir lələ bənzətsən nə bim,
Nə əcəbdir lələ guyalıq, nə möcizdir bu kim,
Eylər izhari-suxən ləli-dürəfşanın sənin.

Ahilər kim, qoymadın üşşaqına bir dəm məhəl,
Bir deyən yoxdur sənə, yaxşı degildir bu əməl,
Nə olar gər başıma axır nəfəsdə qoysan əl,
Çərx yayından atıldı başıma tiri-əcəl,
Leyk ondan tizrək tərpəndi peykanın sənin.

Hansı bir tabilə dil sorsan, çəkir hicranını,
Yad edəndə şad olur hər dəm ləbi-xəndanını,
Can tapır xülya ilən ağuş edincə canını,
Duzəxə kim bənzədir cansuz olan hicranını,
Olmasın kafir əsiri-dağı-hicranın sənin.

Mübtəlayəm Nobəri, müddətdi-dərdi-eşqə mən,
Yox ətibbadan mənim bu dərdimə dərman bilən,
Vəsli-canan olmasa lazımdır etmək tərki-tən,
Ey Füzuli, oylə kim, bimari-dərdi-eşqsən,
Yoxdur ölməkdən özgə heç dərmanın sənin.

-169-

Aşiqə bir dilbəri-məhru nümayan olsa yey,
Arizi-gülnarıdan dil şadü xəndan olsa yey,
Həsrəti-ruxsar olan xak içrə pünhan olsa yey,
Daği-hicranilə yanmaqdan cigər qan olsa yey,
Mülki-dil qəm məskəni olunca, viran olsa yey.

Əksi-dövri-çərxidir kim, gül duşində xar olur,
Bülbüli-biçarənin könlündə ahü.zar olur,
Aşiqü məşuqə mabeynində bir əğyar olur,
Yarı əğyar ilə görmək aşiqə düşvar olur,
Boylə görməkdən əsiri-daği-hicran olsa yey.

Qüssəli bir qanilən canımda olmuşdur rəkim,
Zərd olan ruxsarıdır asari-təndə möhləkim,
Düşkün hicranına dərman nədir, neylər həkim,
Sinəmə peykanını göndər könül dəfinə kim,
Sinəndə suzan könül olunca, peykan olsa yey.

Ta fəzayi-eşqdə tuş oldu könlüm qəmlərə,
Naləvü dadi-dilim zəhmət verir mərdümlərə,
Anlayıb onlar dəxi mən aşiqəm bir dilbərə,
Sirrimi rüsvalığım faş etmədən aləmlərə,
Zar cismim əşk girdabında pünhan olsa yey.

Hər tərəfdən gərdəni-minadadır zülfi-duta,
Əbrə daxil mahıdır ruyin məgər, ey məhliqa,



Şanə urmaq zülfünə hər sübh zəhmətdir sənə,
Dağıdırsa, nola, iqdi-zülfünü badi-səba,
Fitnə əhli olanın cəmi pərişan olsa yey.

Bəzilər məhsub edir, Nobər, meyi azuqədən,
Bixəbərdirlər olar ol fasidi-məhruqədən,
Raziqə şükr eyləmək lazım gəlir mərzuqədən,
Dün Füzuli, səhv edib keçmiş meyü məşuqədən,
Tövbə edib, bu yaman işdən peşiman olsa yey.

-170-

Yandırır canımı, ey mahilqa, hicranın,
Olmuşam eşqin ilə şamü səhər giryanın,
Kaş min canım ola, bir-bir ola qurbanın,
Qılmadın sakini-kuyin olana peykanın,
Bir içim su ilə ağırlamadın mehmanın.

Rəhi-eşqində sənin keçməli oldum sərdən,
Mümkünüm yoxdur əlim çəkməgə məhpeykərdən,
Mehri mən tutmuşam ol mahliqa dilbərdən,
Navəki-qəmzə diriğ eyləmə aşiqlərdən,
Kəsmə ərbabi-vəfadan nəzəri-ehsanın.

Düşəli eşqinə huşi-sərimi şaşırdım,
Gözümün yaşını başdan daşırub aşırdım,
Eşqimi gizli tutub el-obadan yaşırdım,
Diləgin can idi, xakı-rəhinə tapşırdım,

Yetdi ol xud yerinə, indi nədir fərmanın?

Bildilər kim, necədir hicridəki əhvalım,
Oldu məşhuri-cahan əhlinə gizlin halım,
Sənə mən bəzl elədim canu dil ilə malım,
Cana yetdim ələmi-hicrin ilə, ey zalım,
Rəhm qıl canın üçün var isə bir dərmanın.

Ta olunca demə kim, əl çəkərəm mən səndən,
Olsa möhkəm diliün pərdəsi gər ahəndən,
Kəsmərəm naləmi, ey gül, sən olan gülşəndən,
Dad-xahəm sənə, damən nə çəkirsən məndən,
Yoxmu vəhmin ki, tutam həşr günü damanın?

Görmədim səndə dili-aşiq üçün bir rəhmi,
Fikrə salmış məni bu möhnəti-hicran səhmi,
Mən rəiyyət sənə, sən hökm verən bir şəhmi?
Zalım olsan nə əcəb, yox sənə duzəx vəhmi,
Sənə xud yetməyəcəkdir sənin öz hicranın.

Dildən ey Nobəri, sən eşqi cüda eyləmədin,
Yar kuyində neçün vəslə dua eyləmədin,
Səri-rahində durub ani səda eyləmədin,
Vəsl əyyamı rəvan ruhi fəda eyləmədin,
Ey Füzuli, ələmi-hicrilə çıxsın canın.





Müjgan oxu ilə sinəmi bir suzan eylədin,
Peykan tutub kəmanə nişani-tən eylədin,
Hicrana yandırıb tənimi, gülxən eylədin,
Ey məh, mənimlə dostları düşmən eylədin,
Düşmən həm eyləməz bu işi kim, sən eylədin.

Bağrımda məskən etdi oxun yetdikcə mənə,
Dil fəxr edər bu zəxmə, təşəkkür edər sənə,
Yetməz rəqibidən dəxi, covrü xətər onə,
Peykanlarınla doldu tənim, afərin sənə,
Bidad çəkmə ki, tənimi ahən eylədin.

Şadam ki, sən məramını təxirə qoymadın,
Bir məclisi-müsalehə tədbirə qoymadın,
Tez hasil oldu xahiş, dil dirə qoymadın,
Təhsin sənə ki, könlüm evin tirə qoymadın,
Hər zəxmi-navəkin ona bir rovzən eylədin.

Tutdum xəyalə surətin ol yari-məhvəsin,
Gətdim məqami-heyrətə halın bu qəmkeşin,
Etdim həvalə ahi-dilə rovşəna işin,
Olsun ziyadə rifətin, ey ahi-atəşin,
Möhnətsəramızı bu gecə rovşən eylədin.

Gözdə sirişk qalmadı hicrində, dildə xun,
Azdı fəraqi-şamidə Ceyhunidən füzun,

Bari-digəran qüssə məni etdi sərnigun,
Əskilməsin təravətin, ey əşki-laləgun,
Gül-gül damıb məqamımızı gülşən eylədin.

Can qüvvəsin itirdi, bədən düşdü tabıdan,
Göz mərdumi kənara düşüb həzzi-xabıdan,
Eylər həras səndəki nazü-etabıdan,
Can çıxsa, mənzil etməyə gər ev hübabıdan,
Ey göz yaşı ki, qəsdi-binayi-tən eylədin.

Xəmi-qəd edibdi Nobəri, ol fikri-qamətin,
Məsdud olubdu mültəmisə babi-hacətin,
Hüsn əhlisən çe faudə, yoxdur kəramətin,
Mümkün deyil, Füzuli, cahanda iqamətin,
Bihudə sən bu mərhələdə məskən eylədin.

-172-[1]

Nəsimi-sübh ilə canə məhəbbətdən əsər verdin,
Dirəxti-baği-üşşaqə nəsiminlə səmər verdin,
Gedayi-eşqi şah etdin, ona bir taci-zər verdin,
Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin,
Təni-məcruhə candan, canə canandan xəbər verdin.

[1] Bu təxmisdə "Dər vəsvi Həzrəti Məhəmməd Əleyhisəlam" sərlövhəsi verilmişdir.



Rəqibi xarü zar etdin, dağıtdın can ilə varın,
Götürdün yer üzündən sən şərarın əhli-əşrarın,
Edib mənsux ədyanın, təmamən qovmi-kəffarın,
Xəzani-qəmdə gördün iztirabın bülbüli-zarın,
Bahar əyyamıtək gülbərgi-xəndandan xəbər verdin.

Bahari-dinin ey dilbər, xəzanı kufr ilə solmaz,
Rəqibin kuzəsi bir də həman çirkab ilə dolmaz,
Gözəldir dinin, iradın, dəxi küffarilər qılmaz,
Sözünü vəhyi-nazil gər desəm mən kufr olmaz,
Cahanı tutmuş ikən kufr, imandan xəbər verdin.

Sərabın pozmusan canan, şərarətlə axan selin,
Əcəb döndərmisən həqqə cahanda həqq suun meylin
Nəharə döndərib ruyin zülam, zülmətin leylin,
Dedilər, yar, üşşaqın gəlir cəm etməyə könlün,
Məgər kim, yarə üşşaqi-pərişandan xəbər verdin.

Cahanda gülşəni-həqqə nəsimi-sübhtək əsdin,
Olubdur bir gül açdırmaq gülüstani-həqqə qəsdin,
Edib məxmur eşq əhlin müxəmmər nərgis-məstin,
Süleyman məsnədindən divi-gumrəh rəğbətin kəsdin,
Dənizdə xatəmi-hökmi-Süleymandan xəbər verdin.

Dilə ey Nobəri, yetmiş möhnət nazlu canandan,
Qutardım hicri-yarımda olan fəryadü əfqandan,
Bu gülşən bülbülü oldum, ayaq çəkməm gülüstandan,
Füzuli, ruzigarım tirə oldu şami-hicrandan,

Nəsimi-sübhtək xurşidi-rəxşandan xəbər verdin.

-173-

Fəzayi-eşqdə ey dil, dolan bir çeşmi-binatək,
Keçirmə ömrü bihudə zəmirü dildə xülyatək,
Müdamin durma bir yerdə çuxur yerdə duran matək,
Bəqa mülkün dilərsən, varın yox eylə dünyatək,
Ətək çək gördüyündən aftabi-aləmaratək.

Rəhi-eşqə qədəm qoydun, əməl eylə bu təkidə,
Əlaqə kəs bu dünyadan, mübəddəl eylə təcdidə,
Səmimi qəlb ilə iqrar qıl dində təhidə,
Təəllüq zülmətin mütəlle eylə xurşid təcdidə,
Əgər aləmdə bir gün görmək istərsən Məsihatək.

Təəşüq Qeysdə bilmə, həvayi nəfsdir, yəni,
Onu rusva edən olmuş rəqibi-zəştlər təni,
Məqamı-qorbidə anın füzundur həddidən şəni,
Könül hər surəti-Şirinə vermə, iç meyi-məni,
Həzər qıl, daşə çalma tişəni Fərhadi-şeydatək.

Demə əğyarə əsrarın, gərəkdir ehtraz ondan,
Nigarə ərzi-hal eylə, edib razü niyaz ondan,
Fəraqi-yarə tab etsən olarsan sərfəraz ondan,
Rəqibin olsa dilsiz cənavər, həm saxla raz ondan,
Sakın, sirrin düşürmə dillərə Məcnuni-rüsvatək.



Sənə ey dil, kifayətdir xəyali-yarıdan heyrət,
Həqiqi aşiqə birdir vüsal ilə dəmi-firqət,
Məcaz əhli degilsən kim, sənə hicran verə zəhmət,
Yetər tavustək üçbilə qıl arayişi-surət,
Vücudundan keçib, bir ad eylə aləmdə ünqatək.

Necə kim, aşiqə dildən yetər bu eşq təsiri,
Dələr müjgan oxu bağrın, tapılmaz çarə, tədbiri,
Özündən bəhs edən olsam, üzündur vəch təfsiri,
Gühərtək dəlsələr bağrın dəgişmə hüsn təğyiri,
Qərar et, hər həvadan olma şurəngiz dəryatək.

Fəzayi-eşqi-cananın dolandım dəştü səhrasın,
Fəraqın rəncini gördüm, şəbi-hicran xülyasin,
Dolandım sərbəsər Nobər, nigarım eşq dünyasin,
Füzuli, kainat əsbabının qıldım təmaşasın,
Nədamətsiz təənnüm yox, təsərrüfsir təmaşatək.

-174-

Müjə, peykanı gəlün bağrıma hər yan saçılın,
İstirahətlə gəlün bu dili-zarımda qalın,
Hicridə gözlərimə xuni-cigər qanı salın,
Gəlir ol sərvi-səhi, ey gülü lalə, açılın,
Ey mehü mehr gəlin, qüdrətə nəzzarə qılın!

Səfi-nizamilə durun təzimə, ey sünbüllər!
Dil açın nəğməyə, ey şaxədəki bülbüllər!

Dilə asan olacaq, yar gəlir, müşküllər,
Əzmi-bağ eyləmiş ol sərvi-rəvan, ey güllər,
Zər nisar edə görün, cümlə yığılın, dərilin.

Can gəlir təngə dəxi hicr oduna yanmaqdan,
Degü mümkün dilimin asibini danmaqdan,
Nə deyim könlümə bu eşq işini qanmaqdan,
Götürün oxların, ey didəlirim, torpaqdan,
Bu yavuz nəsnələrin qədrini yaxşıca bilin.

Hər zaman kim, dolanır qarşıda ol çeşmi-süheyl,
Həsrəti, fikri mənim əşki-tərim eyləyür sel,
Dərdimi artıq edər xəstə dilə bir neçə keyl,
Eyləmin, ey dilü can, xəncəri-müjganına meyl,
Bilirəm nolduqun axir, gəlin ondan çəkilin.

Həqqi yox hüsnün ilə bəhsə dura xubanlar,
Ona müştaq olur cənnətərə qılmanlar,
Axtarın, mən kimi var harda gözü giryanlar,
Göz yaşı tiğiniz üçün tökülür, xubanlar
Sizi ta etməyə rusva, görünən dəmdə silin.

Niyə şövq artıq edir eşqi-nigarə canlar,
Şami-hicrində çəkir nalə, qılır əfqanlar,
Tiri-müjganlar ilə hərdəm axıbdır qanlar,
Düşdü od canıma, ey təndə olan peykanlar!
Qızmadan mərəkə bir yanə irilin, çəkilin.



Bəsdir ey dil, bu qədər gördügümüz el təni,
Rəmzi-pünhanına biz anlamışıq bir məni,
Nobəri, istəmirik dəhridə cahü şəni,
Ey Füzuli, qədimiz qıldı fələk xəm, yəni
Vəqtdir çıxmağa dünya qapısından, əyilin.

-175-

Eşqi nəsəb etdin dilə, ey mahru, mismartək,
Salmısan hicranını can mülkünə bir nartək,
Tərki-can etməz könül bimehr olan dildartək,
Seyr qılma, ey könül, bu günbədi-dəvvartək,
Sakin olmaq seyrdən ey, noqteyi-pərgartək.

Hər şəbi-hicran olur dərdü-qəmə dil bəzmgah,
Şurilə göz ağlayır, avazi-könlümdür segah,
Ah kim, etməz mənim fəryadıma canan nigah,
Ün verir can riştəsi, xəm qamətimdən çəksəm ah,
El dolub, çəng üzrə, bir avazə gəlmiş tartək.

Gahügəh rahat edir heyrət, yorulduqca könül,
Ahilər dildən çəkir hərdəm, var olduqca könül,
Canımı təngə salır qəmdən, var olduqca könül,
Sinəmi neytək oxun dəldi dəm urduqca könül,
Hər dəlikdən ün verir bir naleyi-musqartək.

Firqətin eylər məni şamü-səhər xunincigər,
Od tutur ta sübhədək cismü yənaqım sərbəsər,

Vəsli-yadilə yenə sübh eyləyir dil birtəhər,
Arizin üzrə xəmi-zülfün anıb dün ta səhər,
Dolanırdım hər tərəf odlarə düşmüş martək.

Ey pərivəş, rəhm qıl, hicrin məni eylər həlak,
Fikr qıllam ta səhər qəmgin dil ilə, dərdnak,
Vəsl fikrilə əgər canım, çıxa təndən, nə bak,
Cismi-zarım tiği-bidadınla oldu çak-çak,
Təndə sudən rəxnələr peyda qılan divartək.

Ver ləbin peymanəsin bu aşiqə, eylə savab,
Qoyma təşnə cureyi-meygunə olsun dil kabab,
Verməsən ləlin meyin dil təndə eylər iztirab,
Bilməyib bihudə mən, covründən etsəm ictinab,
Təlx şərbətlərdən ikrah eyləyən bimartək.

Dəştü-səhralarda mən hər yan sərasimə gəzib,
Firqətin asibinə, hicranə hər ləhzə dözüb,
Dəhrdə sənsiz olan işrət dəmindən əl üzüb,
Xatirin şad eylədin, əhli-vəfa könlün pozub,
Bir imarət tikməyə min ev yıxan memartək.

Rindi-meyxanə mənə, hörmətli saqi mehriban,
Məsti-mey zən eyləyib, şorbi məni etmə guman,
Sənsiz olsun badələr peymanəsi məmbovqan,
Bibəqadır nəşeyi-mey zövqin etdim imtahan,
Heç zövq baqi olmaz nəşeyi-didartək.



Göz görər, heyrət tutar ol türreyi-purçinədür,
Ləzzəti-zövqi-ruxun bu çeşmü ariz binədur,
Nobəra, zahid dili purfitnədir, purkinədur,
Ey Füzuli, xatiri-əhli-səfa ayinədür,
Çərx covründən əsər, ayinədə jəngartək.

-176-

Konlüm olmuş ey sənəm, hicran əlindən dərdnak,
Az qalıb Məcnun kimi səhra dolansın sinəçak,
Yar üzün görsə gözüm çanə fələkətdən nə bak,
Var ümidim kim, görüb cövlanını olsam həlak,
Gərdi-nəli-xakpayın örtu cismim üzrə xak.

Purçəmi-gisudadır murği-dilim, bir muyə bənd,
Yox lüzumi şahidin, təsdiq edər əhli-xirəd,
Can sənindir ibtida xilqət dəmindən ta əbəd,
Öldüyüm mənzildə dəfnim qılmağa sanmın ləhəd,
Bir görüb qürbətdə əhvalım, giriban etdi çak.

Saqiyi-gülru mənə bir cam təqdim eyləyib,
Bu gözəl peymanənin nuşinə təhkim eyləyib,
Dil onun təklifinə canımı təslim eyləyib,
Məst can verdim, məzarım üzrə təzim eyləyib,
Qübbə yapıb daneyi-əngur, eyban tutdu tak.

Mən vəfalı sandıqım canan olub əhli-cəfa,
Canımı dərdə salıb, eylər diriğ ondan dəva,

Təneyi-əğyarı o görmüş məni-zarə rəva,
Mən cəfa mötadiyəm, bilməm nədir mehri vəfa,
Bilməsə mehrü vəfa rəsmin cəfakarım nə bak.

Hicrinə səbr eylədim, dözdüm fəraqə müttəsil,
Kəsrəti ənduhilə göz yaşını etdim səbil,
Oldu səbrim hicridən qurtarmağa, vəslə kəfil,
Hər kudurətdən məni pak etdi seyli xuni-dil,
Şükr-lillah, atəşi-eşqin məni yandırdı pak.

Mən kimi bir aşiqə qəmxanə bəstər salmadı,
Qeys məntək eşqdə şöhrətlənib ad almadı,
Sənsiz əsla bir dəmim, bir saniyəm şad olmadı,
Ah, bilməm neyləyim, canımda rahət qalmadı,
Gözlərim nəmnak, sinəm çak, könlüm dərdnak.

Nobəri yarın görər könlündəki ayinədən,
Asımani-safıdan göz görməsin ayı nədən,
Olmasın ərbabi-istiğnaların tayı nədən,
Qeyri-nəqşin məhv qılmışdır Füzuli sinədən,
Maləhü fi-dari-mətlubün və məqsudün sivak.

-177-

Açıb, ruxsarına tökdün siyah zülfi-pərişanın,
Edib bərbad, evin yıxdın təmamən əhli-dünyanın,
Sənə insan deməz, olsa başında əqli insanın,
Nə xoşdur arizin dövründə zülfi-ənbər əfşanın,



Bu dövranda nə xoş cəmiyyəti var ol pərişanın.

Tökər ruxsarına sənsiz sirişkin çeşmi-nəmnakım,
Tutulmuş qəm torabından məgər xilqət dəmi xakim?
Sənə mən dil verən gündən nə huşum var, nə idrakim,
Ruxun dövründə bir divanədir sövdayi-zülfün kim,
Pərişanlıqdan olmuş, mən kimi, məşhuri-dünyanın.

Nəsimi-sübh ilə zülfün cahanə ənbərəfşandır,
Xütən dəstində ahular müxəmmər çeşmə heyrandır,
Mənim könlüm kimi zülfün dağılmışdır, pərişandır,
Həvadan titrəyən zülfündü və ya kim, rişteyi-candır,
Ki, hərdəm cizginib başına istər ola qurbanın.

Gözəllər şahısan, mülki-məlahətdə urub beydəq,
Qaşındır mahı-no misli, üzarın eyləyən münəşşəq,
Fəda eylər sənə canın üzünü kim görə, mütləq,
Müsəlsəl zülfi-mişkinindən artırmış üzün rövnəq,
Zəhi sünbül kim, olmuş zivəri gülbərgi-xəndanın.

Nədir bundan sora təndə olan əğyarilərdən bim,
Əl üzməm eşq rahindən müəyyən olsa həm mərgim,
Ki, munca rənci-firqətdən güvaradur bu can tərkim,
Qaralıbdır tütüntək ruzigarım ol zamandan kim,
Tənim xaşakinə odlar urubdur bərgi-hicranın.

Xəyalati-məhal etmə ki, mən qafil olam səndən,
Degildir surətin qayib zəmirimdən, üzün məndən,

Yetibdir bağrıma qəmzən xədəngi çak sinəmdən,
İşimdir sayətək yerdən-yerə üz urmaq ol gündən
Ki, başımdan gedibdir sayei-sərvi-xuramanın.

Dili-zarə kifayətdir məlalü möhnəti-eşqin,
Təhəmmüldən olar hasil səfayi-ləzzəti-eşqin,
Təşəkkürlər edər Nobər ki, görməz töhməti-eşqin,
Füzulini ayaqdan saldı bari-möhnəti-eşqin,
Neçün tutmazsan, ey kafir, əlini bir müsəlmanın?

-178-

Surəti-canənə ey əkkas, heyrət vermədin,
Arizi dövründə ol zülfə təravət vermədin,
Həm xütənvəş nərgisi-xummarə diqqət vermədin,
Ey müsəvvir, yar timsalına surət vermədin,
Zülfü rux çəkdin, vəli tabü təravət vermədin.

Pəndi ey naseh, əbəs eşq əhlinə çox eylədin,
Eşqi-yar ilə dolan başə nəsihət söylədin,
Yaxşı fikr et, görgilən bu aşiqə sən neylədin,
Eşq sevdasından, ey naseh, məni mən eylədin,
Yox imiş əqlin, mənə yaxşı nəsihət vermədin.

Qalmışam heyrətdə mən sərxoş misali, məstü lam,
Vəsli-canan bilmişəm müşkül, bir işdir fikri-xam,
Rəhgüzarında durub, fəryad qıllam sübhü şam,
Dun ki, fürsət düşdü-xaki-dərgəhindən kam alam,



Canım aldın, göz yumub-açınca möhlət vermədin.

Xubrulərdən görən kimdir desin əhli-vəfa,
Hansı güldür olmasın gülşəndə xarə mübtəla,
Dərdi-eşqə çarə yox elmi-təbabətdə dəva,
Vermə hüsn əhlinə, yarəbb, qüdrəti-rəsmi-cəfa,
Çun cəfa çəkməkdə eşq əhlinə taqət vermədin.

Nobəra, əğyar edər hərçənd kim, töhmət sənə,
Qəm yemə, vəslin verər, canan edər hörmət sənə,
Yarə can ver kim, yetə dünyada fəxriyyət sənə,
Ey Füzuli, öldün əfğan etmədin, rəhmət sənə,
Rəhm qıldın xəlqə, əfğanınla zəhmət vermədin.

-179-

Cəfavü-cövrə məni, ey fələk, düçar etdin[1]
Həbibi-qəlbdən axır məni kanar etdin!
Nihan olan qəmimi xəlqə aşikar etdin!
Xılafi-rəyim ilə, ey fələk, mədar etdin!
Məni gül istərikən mübiəlayi-xar etdin!

Ədavətin nə idi, ey fələk, fuadın ilə
Ki, qoymadın dolanam dəhri qəlbi-şadım ilə,

[1] Təxmisin əvvəlində"Leyli və Məcnunun görüşməsindən olan qəzəllərdən təxmis olundu" sözləri, altından isə, "Leyli dilindən" sözləri yazılmışdır.

Şəhiri-xəlq elədin namurad adım ilə,
Müruri-ömrdə bir tutmadın muradım ilə,
Dönə-dönə mənə zülm etməyi şüar etdin!

Hərimi-kuyi-nigarə hərasidən gələməm,
Sirişki-alimi gözdən fərəhlənib siləməm,
Nişati-işrəti-bəzmi-həbibidə güləməm,
İhanətimdə muradın nə olduqun biləməm,
Əzizi-aləm ikən xarü xakisar etdin!

Düşəndə eşqə, dedim, şad olub nişat görrəm,
Vəfalı yarıma mülhəq olub həyat görrəm,
Açıb da söhbəti-eşqi bir ixtilat görrəm,
Ümmid varım idi mən də bir nişat görrəm,
Binayi-möhnətimi şimdi üssüvar etdin!

Fəraqü hicr ilə oldum mükəddarü qəmnak,
Bu ayrılıq edəcək aqibət bu zarı həlak,
Bu qanlu yaşım edər laləvəş üzüm nəmnak,
Qülubda pərdeyi-səbrim xəta əli ilə çak,
Nihan olan qəmimi xəlqə aşikar etdin!

Vüsal əvəz mənə olmuş, məlalü qəm qismət,
Könül vusalədi, mayil gözüm ona həsrət,
Demə qəmdi verən ayrılıqda min zəhmət,
Vəfadə verməyə can vermədin mənə möhlət,
Məni bu vədə vəfasında şərmsar etdin!



Cahanda şöhrət açıb imdi Nobər əhvalı,
Olubdur eşqi onun əhli-dərdilər qalı,
Düşübdü dəştə, gəzir imdi Qeys timsalı,
Məgər bilindi, Füzuli, sənə fələk halı
Ki, varını bu cahanın yox etibar etdin!

-180-

Xəm qaşın hər ay verər əflakə rəşkindən məlal,
İstəyir onda ola təkmili-surət bərcəmal,
İbtidasın eyləyər əgri kamanəbru misal,
Çərx hər ay başına salmış qaşından bir xəyal,
Bu cəhətdəndir olar hər ay başında bir hilal.

Mehrü mah olmuş sənin ruxsarının sərgəştəsi,
Gün qurub eylər, üzün görməz olur dil xəstəsi,
Əlləri olmaz sənin damanunun ta rəstəsi,
Mahi-no olmuş qaşın sövdasının sərgəştəsi,
Şəhrdən şəhrə gəzər avarələrtək mahü sal.

Heyf kim, mən bilmədim, etməz neçün bəs ar gün,
Çün görür ondan gözəl həm yerdə səntək var gün,
Xəclətdən qoymayır ta sübhədək asar gün,
Etdigiçün hüsnünə qarşı kamal izharü gün.
Bir gün olmaz kim, ona gərdun yetirməz bir zəval.

Gün görüb ruxsarını, düşdü mahal əndişəyə,
Qaldı sərgərdan, düşüb səhrayə, gahi meşəyə,

Rəşkdən göndərdi hər bir zərrəsin bir tişəyə,
Sübh qıldın cilvə, gün çəkdi özün bir guşəyə,
Şamə ərz etdin üzün, şəmi əritdi infial.

Rəhm qıl, qan yaş ilə giryan olan göz dolmasın,
Rəng-ruyim hicridə bərgi-xəzantək solmasın,
İntizar ilə gözüm hər gün yolunda qalmasın,
Qılma gözdən çöhreyi-alın nihan kim, qılmasın,
Dudi-ahım aftabi çöhreyi-gərdunə xal.

Rütbədə ruyinlə ay istərdi tutsun bir məqam,
Fikri puç oldu onun, tutdu üzün əbri-zülam,
Aldı ol məğruridən ey mahi-taban, intiqam,
Olmayıb məqbuli-xaki-dərgəhin mahi-təmam,
Zəfi-tale verdi gün-gündən ona təğyuri-hal.

Yar önündə Nobəri, bir gülxəni sən tut məqam,
Gündə rahət yox dilə, hicranidən şamə mənam,
Zəndəganlıq sənə canan, fəraqilə həram,
Ey Füzuli, mah nisbət məhv qıl varın tamam,
Gər dilərsən bulmaq ol xurşid birlə ittisal.

-181-

Aşiqi-biçarənin sən qəti-rahi olmağıl,
Baisi-rənci-dili, cansuzi-ahi olmağıl,
Talein məsud qıl, bəxti-siyahi olmağıl,
Mülki-hüsnün böylə zalım padişahi-olmağıl,



Kim sənə zalim desə, adil güvahi olmağıl.

Saldı eşqin aşiqi bir dərdü qəm dəryasına,
Sən dəxi tədbir qıl biçarənin ixlasına,
Urma peydərpey müjən peykanını əzasına,
Qəmzə tiğin çəkmə hər saət könül yağmasına,
Hökmə tabe, mülkə qarətkar sipahi olmağıl.

İltimas et ey könül, bir novilən ol dilbərə,
Rəhm qılsın dərdkeş hicranıdən bu müztərə,
Aşiqi yandırmasın hicrində suzan əxkərə,
Ahını, ey mah, üşşaqin yetirmə göylərə,
Dərd əhlinin nişani-tirə-ahi olmağıl.

İstəyirsən təneyi-əğyar iləoxlanmayım,
Qəm nədir, qüssə nədir, ənduhü möhnət qanmayım,
Üz qoyub səhralara, Məcnun olub yollanmayım,
Gər dilərsən şəmtək qeyrət oduna yanmayım,
Şamlər əğyar şəmi-bəzmgahi olmağıl.

Çəkdigim şamü səhər bidadə rəhm et tanrıçün,
Sən mənim Şirinim ol, Fərhadə rəhm et tanrıçün,
Tənə daşilə evi bərbadə rəhm et tanrıçün,
Adət etmək xoş degil, bidadə rəhm et tanrıçün,
Gahi olsan maili-bidad, gahi olmağıl.

Zahid, əğva eyləyir vəsvasilə şeytan səni,
Qəlbin olmuş bixəbər sən kim, o xain miskini,

Pənd verməkçün ərə, zahid, sən axtar özgəni,
Aşiqi rusva görüb, mən etmə, ey naseh, məni,
Münkiri-təqdirü asari-ilahi olmağıl.

Nobəra, səy etgilən ta mənzili-məqsuda yet,
Eşq rahi doğrudur, bu rah ilə əlbəttə get,
Eşq bir yükdür, tənin ol bar üçün bir kumeyt,
Ey Füzuli, eyləmə taət riyayi, tərkin et,
Tovbə qıl minbəd, məşquli-mənahi olmağıl.

-182-

Xəlq içində müntəşir olmuş bu novi qilu-qal,
Axiri şəbandır, zahir olubdur no hilal,
Bu hilal, isharına könlümdə artıbdır məlal,
Bəs ki, zəfi-ruzədən hər gün bulur təğyiri hal,
Olacaqdır iyd üçün mahi-tamamım bir hilal.

Ol məhi-taban olar bu ruzədən düşgün, zəif,
Rəngi-ruyi zərd olar, rövzə edər əfzun zəif,
Gün-gün olar arizi-gülnarı üzrə xun, zəif,
Qıldı mahi-ruzə xurşidi gün-gündən zəif,
Zərrə-zərrə ayə, san gün nuri eylər intiqal.

Ol qədər əfsurdəyəm, cismimdə halı bilmirəm,
Şiddəti-əfkarıdan rəncü məlalı bilmirəm,
Varmı canım ya ki, yox, yox ilə varı bilmirəm,
Bir xəyal etmişdi ruzə, ol nigari bilmirəm,



Yoxsa yarı görməyib, mən gördüyümdür bir xəyal.

Ruzəni məhv eylərəm təhkim edərlərsə məni,
Yandırardım şəmtək, çıxmazdı əsla şivəni,
Kim neçün zəf eyləyir ol yarı-gülruxdan məni,
Tuta bilseydim, su içməzdim, qılardım dəfini,
Ruzənin kim, göz görə xurşidim istər zəval.

Ruzədən hər dəm yetər min ahü əfğan göylərə,
İztirabi-dildir ol, riqqət verəndir dilbərə,
Kaşə ki, mahi-siyam mənsux oleydi bir kərə,
Ay tutulsun ruzə əyyamında gün düşsün yerə
Kim, bu ay, gündən olubdur mehriban mahim hilal.

Nazü nemətlə dolub, hazırlanıbdır xanımız,
Ta ki, iftar eləsin ol mahru cananımız,
Söz verib iftar üçün olsun bizim mehmanımız,
Bu gecə içmək dilər ol ləli-meygun qanımız,
Ruzə tutmuş qaliba, iftar üçün istər həlal.

Qorxum oldur ruzədən ol mah edə axırda ğəşş,
Əl çəkər ondan haçan, bilməm, bu hali-zəfbəxş,
Günbəgün barik olur əndamıdan no mahvəş,
Yemək-içmək fikrin əhli-ruzədən kəş, ey günəş,
Bir səvab et, sübhlər ta şam qıl ərzi-cəmal.

Eydi-fitri bəkləriz, Nobər, kim, olsun ənqərib,
Ruzə əyyamı bizə ta olmasın bir də qərib,

Yar ilə eyd eyləmək bahəm bizə olsun nəsib,
Ruzə təklifin Füzulidən götür, ey möhtəsib,
Natavandır, onda bu təklifə yoxdur ehtimal.

-183-

Guş tut canan, mənadi sovtinə sən laəql,
Ta eşit avazeyi-həyül-üla xeyrül-əməl,
İstema eylər bunu bağü çəmən, səhra, cəbəl,
Eylə müstəsna gözəlsən kim, sənə yoxdur bədəl,
Səndən, ey canan, məni qət eyləməz illa əcəl.

Səcdeyi-canan mənə təklifdir sər məşqidən,
Bir mələk olmuş rəcim bu taət üzrə rəşkidən,
Mehridir peyvəst olan cana turabi-xoşkidən,
Necə surət bağlasın könlüm xilasi-eşqiqən,
Eşqdir bir hal kim, ol halə könlümdür məhəl.

Şam görsənməz gözə, bu rəsmdir mehrin üzi,
Müddəiyə söylərəm, bihudə, bicadır sözi,
Lövhi-dildə səbt edib təsvirini aşiq gözi,
Eşqimə noqsan yetirməz görməmək ol arizi,
Cövhərə asari-təğyiri-ərz verməz xələl.

Atəşi-eşqin şəbi-hicran yetirmiş canə təb,
Həsrətində od tutub, canım yanır hər ruzü şəb,
Bilmirəm munca nədir səndən mənə qəhrü qəzəb,
Eylədi rüsva könül çaki-giribani-ədəb,



Göz nə əhli-elmdir adab ilə eylər cədəl.

Pənd edər zahid mənə bir xoş zəbanilə fəsih,
İstəyir etsin məni bu eşq rahindən gəreh,
Zənn edir aqil özün məşhur olan eldə səfeh,
Zalimi gördükcə məni-əhli-eşq eylər fəqih,
Höccəti məqtni yox eylər qiyas ilə əməl.

Qoymaq olmaz dişrə pa meyxaneyi-dilbəndidən,
Əl götürmək istəməm ol surəti xoş rindidən,
Zəhri cananım mənə xoşdur gilabü qəndidən,
Mədrəsə içrə müdərris verdiyi min pəndidən,
Yeydürür meyxanədə bir cam versün bir gözəl.

Çəkmə, ey Nobər, əyaq birdəm fəzayi eşqidən,
Dişra çıxmaq istəmə əsla bu cayi eşqidən,
Gər həlak olsan da bu rəncü bəlayı-eşqidən,
Ey Füzuli, mən dəm urmuşdum səfayi-eşqidən,
Mətləi-xurşid icad olmadan sübhi-əzəl.

-184-

Vəsf-yar etmək üçün açdı zəban tutiyi-dil,
Kəbeyi-kuyi-səri aşiqədir sərmənzil,
Eşqimin şahidi bu şerim özü əldə dəlil,
Ey ruxun qibleyi-can, xaki-dərin kəbeyi-dil,
Rəhi-eşqində fəna sərhəddidir ol mənzil.

Kəc dolandırma, gözəl, nərgisi-cadularını,
Tökmə hər yan üzünə pürçəmi-gisularını,
Salgilan gərdənimə silsiləvəş mularını,
Lalərəng etdi gözüm qan ilə xaki-dərini,
Kimyagərdir edər gördüyü toprağı qızıl.

Nə qədər olsa sitəm tiri gözündən dilə ver,
Oxuna çoxdu hələ bu dili-məcruhidə yer,
Şərr yox səndə gözəl, var isə der aşiqə xeyr,
Ol ki, yarın şəbi-hicrinə qiyamət günü der,
Xəlq arasında qiyamət günü olmazmı xəcil?

Doymadı can ilə dil qəmzədəki tirindən,
Həm rəha eyləmədim boynumu zəncirindən,
Olma qafil gözəlim, damənі dəstgirindən,
Qatı müşküldür işim zülfi-girehgirindən,
Səbr bu müşkülü derlər açar, amma müşkül.

Göz götürdüm dəxi bu dar cahan malından,
Dəgmişəm bir dəfəlik dəhri-dəni dalından,
Qoymuşam bağrıma min dağ siyəh xalından,
Etmək olmaz səni agah könül halından,
Vay ona kim, verə könlün sənə, səndən qafil.

Eldə şöhrətlidi bu tərzidə mənzum xəbər,
Ğabidə ğar olu xoş vaizə payi-minbər,
Şükrillah ki, qalır aşiqə kuyi-dilbər,
Sevirəm zahidi kim, guşeyi-mehrabı sevər,



Xəmi-əbruyə rəqibim olub-olmaz mail.

Eşq nəxlin bitirən dərdi çünunluq səmərin,
Tutdu qəm-qüssə onun şamü-səhər dovri-bərin,
Xabə həsrət eləyib sübhə kimi didələrin,
Dili dersəm nola gər eşqinə gülçöhrələrin,
Özünü göz görə odlarə salarmı aqil?

Eşq bağınə əgər aşiq urarsa bir mıx,
Gül əvəzdən bitəcək xari-məlamət sıx-sıx,
Nobəri, səy elə bu qüssevü qəmdən tez çıx,
Ey Füzuli, yanıram kim, nə üçün ol gülrux,
Mənə yanar od olub, qeyriyə şəmi məhfil.

-185-

Arizin mislində güli-şəffaf həmrəngin degil,
Pustə nisbət ağzına derlər, vəli düzgün degil,
Nərgisi-məstin kimi nərgis dəxi süzgün degil,
Hiç sünbül sünbüli-zülfün kimi miskin degil,
Nafeyi-Çini saçıntək derlər, amma çin degil.

Mənzəri-ruyin gözə gülzaridə güldən qəşəng,
Badeyi-ləli-ləbin şirindir qəndabtək,
Daneyi-xali-siyahın nişanəsi manəndi-bəng,
Bərgi-güldə vardır əlhəq təravət birlə rəng,
Leyk canpərvər ləbi-həlin kimi şirin degil.

Mehrini tutdum dilə, həm mehriban oldum sana,
Sən də rəhmindən əvəz cövrü rəva gördün mana,
Qəhr edib, mən getmərəm kuyi-şərindən bir yana,
Mehriban derlər səni əğyarə, leyk mən mana,
Bavər etməm kim, cəna mehr eyləmək ayin degil.

Bəsdir ey naseh, dəxi qoy pəndinə sərhəd, hüdud,
Çox qaranlıqdır sözün eşq əhlinə manəndi-dud,
Mehri-cananım olub xilqət dəmi canə virud,
Xubilar mehrabi-əbrusinə qılmazsan sücud,
Dinini döndər, sən ey zahid ki, yaxşı din degil.

Nobəri ol nərgisi-xummarinə vermiş könül,
Damə düşmüş türreyi-tərrarına vermiş könül,
Purçəmi-gisudakı bir tarına vermiş könül,
Bu Füzuli qamətü ruxsarına vermiş könül,
Maili-sərvü həvaxahi-gülü nəsrin degil.

-186-

Üzünü güzgüyə nisbət ver, dedi bir cahil,
Qələt deyib bunu çun kim, degildir ol aqil,
Bu rəşkidir ki, onu bu sözə edib hamil,
Üzünü güzgüyə qeybətdə oxşadan qafil,
Toxunsa üz-üzə olmazmı ara yerdə xəcil.

Rəcim edib mələki tərk, səcdə xakə salub,
O bilmibdi ki, Adəm gözəllərə əb olub,



Üzünü göstər ona gərdəninə səhvin anıb,
Burax niqabını, bilsin kamalü hüsnü görüb,
Firiştə xilqəti-Adəmdə səcdəsin batil.

Rizası yox dilimin vəsli-gül yetə xarə,
Qala fəğan ilə bülbül çəməndə avarə,
Qəsəm o ləli-ləbi çeşmi-xumarə,
Hədisi-vəhyvəşin zahir etmə əğyarə,
Rəvamıdır edəsən qədrin ayətin zayil.

Səbur olmaq olub aşiqə rəhi-adab,
Təriqi-eşqi tutan eyləməz bu rahi xarab
Ki, tərkidir ədəbin bais husuli-əzab,
Hərimi-kuyini göstər nümunə, eylə savab
Kim, ola cənnət üçün xəlq taətə mail.

Biri deyir günə xaliq, biri ovladi-azər,
Biri müqəyyəd olub, dəhrə der sənə sahər,
Səni xuda yaradıb surəti-məlih axər,
Səni qoyub, bütə eylər ibadətin kafər,
Əzabi-duzəxə ol vəchdən olur qabil.

Qəmində xəstə kim olsa davasını bildir,
Ləbindi çarə mərizə, şəfasını bildir,
Müəyyən eylə şurubin, ğəzasını bildir,
Həkimə nəfyi-qiyamət xətasını bildir,
Qiyam göstər ona, etiqadın et batil.

Fəraq şamını sübh eyləmək dirilməkdir,
Təəşüq əhlinə vacib bu halı bilməkdir,
Məramı Nobəri canan üzünü görməkdir,
Qərəz Füzuliyə ancaq əlində ölməkdir,
Vəli mahaldır ol həm, sən olcaqın qail.

-187-

Tab qılmaq navəki-müjganına mümkün deyil,
Rənci-peykandır edən canımı zəxmilə əlil,
Çarəsi oldur düşəm dərgahə əcz ilə dəxil,
Canə basdım qonçavəş peykanını, ey tazə gül,
Dözmək üçün hicrinə yapdım dəmirdən bir könül.

Qeyriyə düşvar olar, ancaq sənə asandı bu,
Hüsnünə tab artırar hər yan düşə ruxsarə mu,
Tərləmiş ruxsarıda dürr ilə dolmuş mahru,
Sudan od ixrac edərsən sehrilə, oddan da su,
Ta bilinmiş hüsnüdə gül-gül qılanda tabi-mül.

Hər qədər cövr eyləsən tab eyləyib gəlməm dilə,
Eymən ol bu cövridən bir kimsəyə etməm gile,
Olma razı, şad olub əğyar, bu halım bilə,
Yandırıb əczayi-tərkibim, külüm versən yelə,
Yox yolundan dönməyim, varım sənindir cüzvü küll.

Bir bəlayi-nagahan olmuş dilə xülyaların,
Tuqi-zənciri-cünun üşşaqədir zülfi-sərin,



Hər müjən tiri gözün cəlladına bir xəncərin,
Mümkün olmaz mərdümi-çeşmim yığar navəklərin,
Ol ağaclar birlə yapmaq əşk dəryasına pül.

Yox qüruru aşiqin, cananına üftadədir,
Can fəda etməkliyə hər saniyə amadədir,
Nim sərxoşdur gözü, cami-meyi-minadədir,
Ey könül, lövhi-əməl nəqşi-bəqadən sadədir,
Fani etmə ömrün ol sevdadə kim, baqi degil.

Rahat olmaq istəsən, ey dil, rəhi-eşq ilə get,
Ta ki, bu məsud olan rah ilə sən məqsuda yet,
Sən fəzayi-eşqidə Məcnun kimi seyriyəti-komyet
Surətəra olma, təhsili-kəmali-məni et
Kim, bəhayim novün etməz adəmi zərbəft çül.

Qədridə əfzun tutar aşiqlər, İsadan səni,
Xubitər bilmiş könül cənnətdə huradan səni,
Bilmişəm ecazıda qüdrətli, Musadan səni,
Nola dersəm qədr ilə əfzun Məsihadən səni,
Yerü göy mizan olub fərq olmuş ağırdan yünül.

Kəsrəti-fəryadıdan yanımda durmaz heç kim,
Mən kimi ellərdə yox halı sordulmaz heç kim,
Tab edən məntək müjə tirinə olmaz heç kim,
Atəşi-dil oylə suzandır ki, basmaz heç kim,
Rəhm edib navəklərindən özgə zəxmim üzrə gül.

Nobəra, səndə nədir aramısız munca fəğan,
Mərdümi-çeşmin tökər hicranidə ruxsarə qan,
Rudi-Ceyhundur məgər tuğyan edib olmuş rəvan,
Hasilin əvvəl qəmi-canan, axır tərki-can,
Bu imiş qismət, Füzuli, xah ağla, xah gül.

-188-

Badeyi-ləli-ləbi-cananı, ey dil, pak bil,
Getgilən meyxanədə piri-muğanə düş dəxil,
Talibi-meygun ləbi-ləli-nigar ol müttəsil,
Rəhrəvi-irfanə bəsdir sağərü saqi dəlil
Kim, məhü xurşididən qılmış təmənnasın Xəlil.

Səhldir bilmək dili-üşşaqə yarından xəbər,
Qasidi-hatif olur əhval üçün badi-səhər,
Batini dərk eyləyər olsa əgər əhli-bəsər,
Vəhilər irsalına müştaq ola idrak əgər,
Əmri-həqq irsalına hər zərrədir bir Cəbrail.

Qəlbi-aşiq əbrişim manəndi, nazik, incədir,
Çün zəmirü sinəsi məhbubunun fikrincədir,
Bu təriqi-həqq özü hər şəxsə bir ayincədir,
Hər kəsin təqdiridən məqsudı öz qədrincədir,
Əhli eşq istər zülali-vəsl, zahid Səlsəbil.

Tahir olmuş aşiqin xilqət zəmanından dili,
Zikri-əvvəl kəlmeyi-tohidə baz olmuş dili,



İlticayə dərgəhi-üzmayə açmış əli,
Cənnətə zahid bilir can vermədən yetməz, vəli,
Canə qıymaz, öz təmannasındadır miskin bəxil.

Mayil etdin sən məni eşqə, könül, minnət sənə,
Şami-hicran rəncidir şəb ta sübhədək, zəhmət sənə,
Kuyi-cananın olar bir cayi-əmniyyət sənə,
Ey qılan izhari-zillət, müjdeyi-izzət sənə
Kim, bu dərgəhdə müqərrərdir əziz olmaq zəlil.

Mənzil olmuş canü dil həmmü məlal zülfünə,
Bal açıbdır murgi-dil yetsin nihal zülfünə,
Daneyi-xali-siyah təzvir al zülfünə,
Vədeyi-vəslin məni salmış xəyali-zülfünə
Kim, dilər tuli-əməl sərmayeyi-ömri-təvil.

Naziri-ruxsar ollam gər, məhü sal ilə xoşam,
Rənci-firqət çəkmişəm, zövqi-vüsalilə xoşam,
Nobəra, mən işvəli ruxsari-alilə xoşam,
Ey Füzuli, xubilər zikri-cəmalilə xoşam,
Şükr kim, kəsb etmişəm aləmdə bir zikri-cəmil.

-189-

Məni mey bəzminə təklif edibdir rindi-onbaşım,
Meyi-gülgun töküb camə ləbaləb, qıldı sirdaşım,
Üzü taban xurşidim, qəmər ruyindəki qaşım,
Degilsən çoxdan, ey gərdun, cahan seyrində yoldaşım,

Nola xəmdirsə qəddim, səndən artıqdır mənim yaşım.

Xitab etmiş mənə aşiq ol gülruxsar eşq içrə,
Fəzayi-eşqdə şahəm, nüfuzum var eşq içrə,
Görüb mizanımı düzgün, gözü əyyari-eşq içrə,
Tərazuyi-əyyari-möhnətim bazari-eşq içrə,
Gözüm hərdəm dolar, hər ləhzə min daşə dəyər başım.

Səriri-səltənət təxti olan şahə gedayəm mən,
Qədəmgahında cananın həmişə can fədayəm mən,
Səri-kuyində bir məskən sevən gülxənsərayəm mən,
Sirişkim al, bağrım parə, bir kuhi-bəlayəm mən,
Həmişə laləvü ləl ilə rəngindir içim, daşım.

Nigarım hüsni-Leylidən nəzərgahimdədir ziba,
Məni Məcnun kimi eşqi edib şeydadilü rüsva,
Xəyali-vəsli yar ilə dolannam dəşt ilə səhra,
Mənə manənd bir divanə surət bağlamaz, əsla,
Qələm sındırdı təsvirim çəkəndən sonra nəqqaşım.

Cəfayi-cövri-canana səbur olmaq ədəbdəndir,
Təhəmmül eyləmək hicri bil ey Nobər, nəsibdəndir,
Xəyali-vəsli-cananın dilə zövqi-tərəbdəndir,
Füzuli, xazini-gənci-vəfayəm, ol səbəbdəndir,
Govhərlər tökdü israf ilə bu çeşmi-göhərpaşım.



-190-

Üzari-alini bir nogüli-xəndanə bənzətdim,
Könül fəryadü zarin bülbüli-nalanə bənzətdim,
Ləbi-hümraların rəngin dilimdə qanə bənzətdim,
Tənimdə zəxmi-tiğin çeşmi-xunəfşanə bənzətdim,
Oxun kim, səf-səf ətrafındadır, müjganə bənzətdim.

Məni məst eylədin canan, ləbi-ləlin şərabindan,
Dilü-arım münəvvərdir uzarın abtabından,
Müəttəşdir dilim, ey gül, yüzündə tər gülabından,
Bəqayi-ruhimi bildim xəyali-ləli-nabından,
Həyatımdır dedim, bağrıma basdım, qanə bənzətdim.

Ənis olmuş dili-zarım qəmü dərdü məlal ilə,
Sərim məşğuldur fikri-vüsali-laməhal ilə,
Alıb can nəqdini əldən gözün təzviri-al ilə,
Sökülmüş köksümü, kim, doludur qəmzən xəyalilə,
Həramilər yatağı mənzili-viranə bənzətdim.

Nə təbdir etmisən söylə, nədir bimarə dərmanın,
Dilindən məhv olub getsin fəraqü daği-hicranın,
Bilirsən kim, onu heyran qoyubdur çeşmi-heyranın,
Tənimdən inciyib çıxmış rəvan can kimi peykanın,
Neçün inciməsin, yetdikdə zövqün, canə bənzətdim.

Dəmadəm giryədən gözdə olan tufanını gördüm,
Könül fəryad edən dəmdə qəmü əfğanını gördüm,

Dilərdim vəslini, lekin şəbi-hicranını gördüm,
Gözümdə bəslənib, qiymət bulan peykanını gördüm,
Sədəfdə gövhərə qətrə olan barana bənzətdim.

Ləfayi-şöhrəti-eşqim olub cananımın şəni,
Nişandır eşq mülkündə olan Nobəri, şəh yəni,
Əzabi-qəlbi-üşşaqi suval etmək, budur məni,
Füzuli, öldürür hər dəm məni əhli-nəzər təni
Ki, neçün yar ləlin çeşmeyi-heyvanə bənzətdim.

-191-

Olmadın dərdi-nihanımdan xəbərdar, ey həkim!
Eşq dərdindən üzə çıxmaz bir asar, ey həkim!
Ver qulaq ta söyləyim bu sirri-naçar, ey həkim!
Eşqdən canımda bir pünhan mərəz var, ey həkim!
Xəlqə pünhan dərdimi sən qılma izhar, ey həkim!

Zəhmət bica verib bu xəlq, dərdimçün sana,
Dərdimə sən qeyd edən dərman verə bilməz şəfa,
Canıma cananımın əfkarı eylər iktifa,
Var bir dərdim ki, hər dərmandan artıqdır mana,
Qoy məni dərdimlə, dərman eyləmə, var, ey həkim!

Saxlamır dil sineyi-zarımda ahi-sərdimi,
Afəti-dövranıdan bilmə bu rəngi-zərdimi,
Aşiqanə qıl nəzər, gör aləmim digərdimi,
Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,



Al əmanət, qılma hər bidərdə izhar, ey həkim!

Yandırır canan məni hicran odiylə müttəsil,
Lazım olmuşdur düşəm ol mahru yarə dəxil,
Qoy dilim dərdin sənə izhar edim, ta səndə bil,
Gəl mənim tədbiri-bihudəmdə sən bir səy qıl
Kim, olam bu dərdə artıqraq giriftar, ey həkim!

Gözlərindən salmışam mehrin dilə, görcək onu,
Qeystək çak eylədim tuğyani-eşqimdən donu,
Haliya halım budur, bilməm nolur onun sonu,
Gör təni-üryanını, əhvalımı hicran günü,
Var imiş ruzi-qiyamət, etmə inkar, ey həkim!

Hikməti əxz eyləyib, çeşmi-bəsirət silmədim,
Atəşi-hicranə sən səbr eyləyib yüksəlmədin,
Ahilər olsun ki, sən məqsudi-rahə gəlmədin,
Çəkməyincə çareyi-dərdimdə zəhmət bilmədim
Kim, olur dərmani-dərdi-eşq düşvar, ey həkim!

Səhhətimə ol ləbi-cananıdan dərman yetir,
Ondan özgə çarə yox dərdimə, məndən əl götür,
Dəfngahə Nobəri, canan guzarından ötür,
Rənc çəkmə, səhhət ümmidin Füzulidən götür
Kim, qəbuli-səhhət-etməz belə bimar, ey həkim!

-192-

Səni bu hüsn ilə bimehr guman etməz idim,
Canımı qəmzeyi-xunxarə nişan etməz idim,
Möhnəti bari-qəmi rağibi-canan etməz idim,
Dəhənin şövqim cansuz guman etməz idim,
Yoxsa birdəm onu mən munisi-can etməz idim.

Səbəbi-fəxrim olub vəsli-dilim, getdi qürur,
Xanədən, eldən uzaq olmağa oldum məcbur,
Dəştü səhrayə könül fikrin ilə saldı sürur,
Vəsli-xali-ləbini bilsə idim naməqdur,
Arzusunda qara bağrımı qan etməz idim.

Müddəti-ömr səri kuyinə mən gəlsə idim,
Hüznü qəmdən dilimi şad qılıb gülsə idim,
Göz yaşın vəsl dəmi rahat olub silsə idim,
Xubilar aşiqə meyl etmədiyin bilsə idim,
Özümü eşq ilə rusvayi-cahan etməz idim.

Qılmaseydi günümü qarə əgər zülfi-sərin,
Bilsə idim ki, sənin sərv kimi yoxdu bərin,
Doğmasaydı dilimə hər gecə rovşən qəmərin,
Düşməsəydi gözümün yaşına feyzi-nəzərin,
Onu hər sərvin ayağına rəvan etməz idim.

Munca düşvar hesab eyləmədim eşq rəhin,
Sandım ondan tutaram mehrü məhəbbət qədəhin,



Açmadı bəxti-zəbun, neyləyim, eşqin girehin,
Salmasaydım dili-viranə imarət tərhin,
Onda gənci-gühəri-eşqi nihan etməz idim.

Şami-hicrində olan narə degildim vaqif,
Naleü ahi-dili-zarə degildim vaqif,
Bəstəri-qəmdəki bimarə degildim vaqif,
Sitəmi-təneyi-əğyarə degildim vaqif,
Yoxsa yarın səri-kuyində məkan etməz idim.

Atmasaydı başıma səngi-məlamət əgyar,
Bilməsəydim saçını leyl, üzun ömrə nəhar,
Nəxli-ümmid belə verməz idi Nobəri, bar,
Etməsəydi sitəmi-yar, Füzuli, məni zar,
Munca fəryad çəkib, ahü fəğan etməz idim.

-193-

Murdə bu cismə rəvan ruh tapıb can etdim,
Könlümü eşqi-ruxi-alinə şayan etdim,
Çarəsi yox dilimin dərdinə dərman etdim,
Bir qul oğlunu könül mülkünə soltan etdim,
Misr idi, padişahin Yusifi-Kənan etdim.

Yetərəm kuyi-səri-yarıma bu rahim ilə
Diz çöküb, baş qoyaram taətə dilxahim ilə,
Seyri-əflak edərəm təntənəli cahim ilə,
Dil ki, bir dilbərə sərmənzil idi, ahım ilə

Yelə verdim, adını təxti-Süleyman etdim.

Dilə tədbiri-vusalın olunurdu müşkül,
Asibü-nari-fəraqın bulunurdu müşkül,
Tişeyi-ah ilə könlüm yonulurdu müşkül,
Eşq tərki, dilü candan görünürdü müşkül,
Tərki-eşq eylə dedim, tərki-dilü can etdim.

Dili-tarikimə çun düşdü üzarın şəfəqi,
Verdi mürdə dilimə şövqi-ruxun can rəməqi,
Qoyma ortaya sala təfriqə əğyar vəsəqi,
Can qəmin çəkmiş idi, var idi boynunda həqi,
Bu onun əcri idi kim, sənə qurban etdim.

Bir inayətlə olar səhl hər əmali-çətin,
Ürəyim mərhəmətü lütfün ilə olmuşdur əmin,
Vəslin ancaq edəcək dildə kudurət rəfin,
Rəhi eşqin tutub etdim qəmü dərdim rəfin,
Gör nə cəmi bu təriq ilə pərişan etdim.

Yenə müjgan oxunu sinəmə taxdın, ey dil,
Rənci-hicranını həm başıma qaxdın, ey dil,
Şeyx Sənan kimi sən dini buraxdın, ey dil,
Sənə tapşırdı qəm oxlarını yaxdın, ey dil,
Zaye etdin nə qədər kim, sənə ehsan etdim.

Səri-kuyində edib, Nobəri, hər ləhzə fəğan,
Bildilər halım, ta qəmli görüb əhli-cahan,



Həsrəti-ruyin edib arizinə əşki rəvan,
Səbzətək qıldı Füzuli, çıxarıb əşk əyan,
Dili-qubar ilə oxun hər necə punhan etdim.

-194-

Mumtək nərm elədin hicridə fulad tənim,
Fikri-vəslindir olan həmdəmim, ey yar, mənim,
Firqətindəndir olan dildə bu ənduhü qəmim,
Pəndeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim.

Bəstəri-qəmdə qalıb, canım olub zarü əlil,
Hicrin ilə keçinir ömrümə hər gün bir il,
Vəslin ümmidi olub bu dili-bimarə kəfil,
Canı canan diləmiş, verməmək olmaz, ey dil,
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim.

Şad olur qəmli dilim zövqi-ruxun şövqindən,
Xovfi yoxdur sitəmin canıma mafövqindən,
Açmaram gərdənimi tari-telin toqindən,
Daş dələr ahim oxu şəhdi-ləbin zövqindən,
Nola zənbur evinə bənzəsə beytül-həzənim.

Xeyli müddətdi gözüm gül üzünə həsrətdir,
Huşi-idrak mənim başıma birəğbətdir,
Məni Məcnun eləsən canıma çox minnətdir,
Tövqi-zənciri-cünun daireyi-dövlətdir,

Nə rəva kim, məni ondan çıxara zəfi-tənim.

Taqi-əbruyi-xəmin səcdeyi-mehrabi-sərim,
Əgilib bəs ki, sucud eyləməgimdən kəmərim,
Daima taətinə birdi gecəmlə səhərim,
Eşq sərgəştəsiyəm, seyli-sirişk içrə yerim,
Bir hübabəm ki, həvadən doludur pirahənim.

Bilməzəm qüssə nədir, çünki nigarım sənsən,
Cigərim dağına mərhəm[1] dilə yarım sənsən,
Məni sərməst eyləyən çeşmi-xumarım sənsən,
Bülbüli-qəmzədəyəm, bağü baharım sənsən,
Dəhənü gəddü ruxun qönçəvü sərvü çəmənim.

Seyri xoşdur sən ilə Nobərə bu gülzarın,
Şərti oldur kim, ola əldə əli dildarın,
Çəkib ağuşına, həm busə qıla ruxsarın,
Edəmən tərk, Füzuli, səri-kuyin yarır
Arzuməndəm ola kuyi-nigarım vətənim.

-195-

Baisi-gəriyəm, olub arizi-gülnar mənim,
Sübhədək nalə edən canü dili-zar mənim,
Dildən əflakə yetən ahi-şərərbar mənim

[1] Olsun ki,"məlhəm" demək istəmişdir.



Faş qıldın qəmim, ey dideyi-xunbar, mənim!
Eylədin mərdümə nəm olduğun izhar mənim.

Yetir, ey əhli-vərə; eşq ilə bu xarlığım,
Bəsdi həmsayələrə hər gecə bu zarlıgım,
Degil uyğun dəxi bir səhhətə bimarlığım,
Dəhənin istərəm, ey eşq, yox et varlığım
Ki, yox olmaqda bu gün bir qərəzim var mənim.

Açmadı söhbətimə yarım o qönçə dəhəni,
Qoydi həsrət üzünə mütəsil ağlatdı məni,
İstəmir sakit ola hicridə bu naləzəni,
Mərdümi-çeşmim edib qeyr ilə seyri-çəməni,
Bu əcəbdürmi ki, çıxmış gözüm ağlar mənim.

Yar kuyində dedim, bir gecə mən rahat olam,
Yetişib vəslinə ta tərki-şəbi-firqət olam,
Çeşmi-əğyaridən ol kuyidə mən xəlvət olam,
Bu təmənnada ki, ol şəmilə həmsöhbət olam,
Dudi-ah etdi dünümtək, günümü tar mənim.

Varıdır fikri yəqin eşqə düşəndə hərənin,
Dili cismində degil yarına dil göndərənin,
Dara layiqdi başı yarıdan üz döndərənin,
Çıxmış ol yar bu gün qanını töksün hərənin,
Girmə ey göz, kərəm et qanıma zinhar mənim.

Nobəri, fikri-dilim yarə qəmim yazmaqdır,

Baxsun ol qəm dolu tumarə, qəmim yazmaqdır,
Axır ol nərgisi-xummarə qəmim yazmaqdır,
Ey Füzuli, dərü divarə qəmim yazmaqdır,
Şahidi-hali-dil olsun dərü divar mənim.

-196-

Başımdan aşıb, oldu füzun dildə məlalım,
Bu qəm olacaq canıma axırda zavalım,
Dil eşqə düşə can olumu hicridə salım,
Ey mah, vüsalınla xoş et bir gecə halım,
Vey əxtəri-tale, qoyma boynunda vəbalim!

Yox canə fərəh dildəki fəryadıdan özgə,
Bülbül nə bilər bağdakı dadıdan özgə,
Eşq əhlinə yox tənəli bir adidən özgə,
Fəryad ki, bər vermədi bidadidən özgə,
Göz yaşı ilə bəslədiyim tazə nihalım.

Qəm-qussə olub hicridə bu könlümə yoldaş,
Hər yan atılır tənə ilən başıma min daş,
Yox xahən, edəm dərdi-dili-zarim ona faş,
Sınmış müjətək xəlq gözündən axıdır yaş,
Nəzzareyi-zəfi-bədəni-nuymisalım.

Nən zən elədim ol şəhi-xubani-mülayim,
Məqbul olu ol qürbidə icz ilə rəxaim,
Gər ahi-dili-suzidən olsaydı rəhaim.



Ol şəm xəyalilə xoşam, ola ki, daim,
Bu surət ilə cizginə fanusi-xəyalim.

Müjganın oxu bəstəri-qəmdə məni yoxlar,
Ölsəm fərəh əğyarə olur, qəmləni çoxlar,
Qeyd əhli mənə ağləyü şadan qəmi-yoxlar,
Suzandı odumdan tənimə sancılan oxlar,
Pərvanəyəm, ey şəm, tutuşmuş pərü balım.

Mən padişahi-eşqimə bir müxlis quləm,
Tərk eyləmişəm dəhri mənalından ədulәm,
Eşqin yükünə hamil olan naqə zəluləm,
Saqi, qəmi-dövran ilə qayətdə məluləm,
Bir cami-fərəhbəxş ilə dəf eylə məlalim.

Nobər, bu rəhi-eşq ilə dildarə tərəf get,
Vəhm etmə gələ guşinə min vahiməli seyt,
Səy eylə gedib kuyi-səri-yarinə tez yet,
Lütf eylə, Füzuli, mənim əhvalımı ərz et
Ol şahə ki, söylənməsinə yoxdı məcalım.

-197-

Ta ki, sövdayi-ruxi-canan ilə doldu sərim,
Qaldı həsrət arizi-gülnarə giryan gözlərim,
Qətrə-qətrə tökdi göz ruxsarıma əşki-tərim,
Hər hübabi-əşkimə bir əks salmış peykərim,
Şahi-mülki-möhnətəm, tutmuş cahanı ləşkərim.

Çaki-damən qılmışam, sərgəştəyəm divanətək,
Məsti-halət qalmuşam bir sərxoşi-meyxanətək,
Möhnəti-hicranıtək tutdum qəmi mərdanətək,
Oldu qədrim yanalı hicr oduna pərvanətək,
Sürmeyi-çeşm eyləmişlər şəmilər xakistərim.

Gülüzün yadilə mən gəzdim çəmənlər, bağlar,
Çox keçirdim gərdişi-səhradə qəmgin çağlar,
Əhli-dərd olmağıma nəşr oldu min övraqlar,
Eşq sərgərdəniyəm, köksümdə min-min dağlar,
Bir sipehri-sairəm, sabit cəmii-əxtərim.

Tutdu müjganın oxu məhzun dilin dövrü bərin.
Göz tökər ruxsarıma hicranıda əşki-tərin,
Fəth qılsın kişvəri canım, töküb qəm ləşkərin,
Çeşmi tari-cismimə düzmişdi əşkim göhərin,
Ah kim, çərx üzdi ol tari, dağıldı gövhərim.

Qoydı canan bu dili-məcruhimə hicran dağın,
Atəşi-hicran ilə getdi qəvamə dil yağın,
Qanə qərq etdi könül qanilə hər yan göz ağın,
Cismimi yıxdıqca, pamal etmə könlümdən, saqın,
Gülxənəm, əskik degil xakistərimdə əxkərim.

Göz yaşım hər yan axar ruxsarıma bir rudtək,
Verdi eşqim rayihə bəzmi-nigarə udtək,
Yandırıb canan mənim bu canımı nəmrudtək,



Nola hər saət dansam atəş üzrə dudtək,
Udi-bəzmi-eşqəm, atəşdir büsatü bəstərim.

Taqətim hicran kəsib, firqət zəif etmiş tənim,
Qalmadın hali-dili-məcruhimə əsla mənim,
Ah kim, ey Nobəri, soldu sitəmlə gülşənim,
Ey Füzuli, çox məlamətlə məni mən etmə kim,
Mən nihali-gülşəni-dərdəm, məlamətdir yerim.

-198-

Oldu cari üzümə hicridə xunicigərim,
Ah çəkdim o qədər ta kim, açıldı səhərim,
Sorx rəng oldu cigər qanı ilə didələrim,
Eşigin daşını qan ilə yudu əşki-tərim,
Pakilikdən daşı ləl elədi feyzi-nəzərim.

Yetdi əflakə mənim ahü fəğanim təndən,
Oldu rəncidə hamu əhli-ğərdənim məndən,
Mərhəmət bulmamışam səndə dili-ahəndən,
Cigərim dağına mərhəm bulamadım səndən,
Necə ah eyləməyim, ah, yanıbdır cigərim.

Üz qoyarmı görəsən, qəmli dilə bəxti-səud,
Dovr aşarmı bu siyəh taleimə babi-vurud,
Rəhmə gəlməzmi görən, qəlbi qəsavətli vucud,
Dedi ol sərv: səhər vəqti gəlim, leyk nə sud,
Vəqt məlum degil, şam ilə birdir səhərim.

Eşq rahində degil Qeys məni-zarə hərif,
Şərəf artırdı mənə yar, məni etdi şərif,
Covrinə baxmayaraq, mən onu qıllam tərif,
Yetməzəm kuyinə zira olubəm oylə zəif,
Dərdi-eşqilə ki, güzgüdə görünməz əsərim.

Xəm qılıb qamətimi hicridə xülyayi-qədin,
Dərdkeş aşiqə həm olmadı əsla, mədədin,
İntəha bulmayacaq yoxsa bu covri-əbədin,
Neçə min aşiqə ancaq bir ox atdın, demədin
Ki, düşər bir-bir üzər bir neçə üftadələrim.

Munca kim, eyləmisən aşiqə sən cövrü cəfa,
Görmüsən atəşi-hicranı ol məhzuna rəva,
Nobərin incimədi munca cəfadan əbəda,
Ey Füzuli, dura məndən ala təlimi-vəfa,
Nagah ər mərqədi-Məcnuna düşərsə güzərim.

-199-

Əflakə yetdi dildən hicrində ahü zarım,
Rahat tənimdə yoxdur, bir yerdə yox qərarım,
Başdan alıbdır huşum ol nərgisi-xumarım,
Zülfi kimi ayağın qoymaz öpəm nigarım,
Yoxdur onun yanında bir qılca etibarım.

Ya rəbb, mənə bu yolda bir hadiyi-rəhnəmun et,



Eşki-nigarım ilə artıq məni cünun et,
Zövqi-cahanı məndən ta var həyat, dun et,
İnsaf xoşdur, ey eşq, ancaq məni zəbun et,
Ha boylə möhlət ilə keçsinmi ruzigarım?

Agah ol ey mualic, bimari-dərdi-eşqəm,
Müştaqi-zülfi-yarəm, bəndi-kəməndi-eşqəm,
Məcnunəyəm müqəllid, bir sərbuləndi-eşqəm,
Bildi tamami-aləm kim, dərdi məndi-eşqəm,
Yarəb, hənuz halım bilməzmi ola yarım?

Fəryad edəndə könlüm, heyrətdə qaldı bülbül,
Cəh-cəh vurub sədama, ahəng tutdu yüngül,
Əsdi çəməndə hər yan ahim yelilə sünbül,
Vəslindən ayrı nola qanım tökülsə gül-gül,
Mən gülbüni-xəzanəm, bu fəsldir baharım.

Kim tutdu ləlin ilə gülgun meyi bərabər,
Ol təlxi-təm meydir, ləlin meyi şirintər,
Xilqət zəmani əksim sərxoş çəkib musəvvər,
Təsvir edən vücudum yazmış əlimdə sağər,
Rəf olmağa bu surət yox əldə ixtiyarım.

Meyxanə cayi-işrət, meynuşilər məkanı,
Rəfeyləyəndi badə dildə qəmi-cahanı,
Ləli-ləbindi meygun, rəngilə ərğəvani,
Mey nəşəsin başımdan dur istəmən zəmani,
Torpaq olanda, yarəb dürdi-mey et qubarım.

Xilqət zamanı olmuş eşqin belə üsuli,
Qəm xeyli məskən etsin daim dili-məluli,
Ey Nobəri, çətindir ol məhvəşin vüsuli,
Rüsvalərindən ol məh sanmaz məni, Füzuli,
Divanə olmayımmı, dünyadə yoxmu arım?

-200-

Bir bülbüləm ki, səhni-gülüstanə yetmişəm,
Gül şaxəsində bir güli-xəndanə yetmişəm,
Bimari-eşqi-yarəmi dərmanə yetmişəm,
Canlar verib, sənin kimi canənə yetmişəm,
Rəhm eylə kim, yetincə sənə canə yetmişəm.

Şadan dilim fərəhlə dolub, titrəyir rəkim,
Çarəmdən əl götürdü, davasız bilib həkim,
Ağuş edibdi yar məni cüft olub təkim,
Şükraneyi-vusalilə can verdiyim bu kim,
Çox dərd çəkmişəm ki, bu dərmanə yetmişəm.

Üşşaqə fəxr rütbeyi-əsl-nəsəb degil,
Covr nigari-aşiqə rəncü təəb degil,
Əğyar fitnəsi ilə olur, bisəbəb degil,
Halım deyib, muradıma yetsəm əcəb degil,
Bir bəndəyəm ki, dərgahi-sultanə yetmişəm.

Çəkdim cəfabu cövr, fəraqına can dözüb,



Dil damənі-nigarı tutub, candan əl üzüb,
Hicran şəbində nalə edib, göz yaşın süzüb,
Muri-mühəqqərəm ki, sərasimə çox gəzib,
Nagah barigahi-Süleymanə yetmişəm.

Hər ləhzə tutdu kuyi-sərin dadü şivənim,
Bir kimsə olmadı edən imdadxahənim,
Eşqim səni inandırdı tahirdi damənim,
Bir bülbüləm ki, gülşən olubdur neşi mənim,
Ya tutiyəm ki, mən şəkəristanə yetmişəm.

Tutdun qulaqə axiri fəryadü dadımı,
Vəslin qutardı qəm bürüyən qəlbi-şadımı,
Gördün vəfa, vəfalı özün qöydun adımı,
Dövri-fələk müyəssər edibdür muradımı,
Guya ki, talibi- gövhərəm, kanə yetmişəm.

Hüsnün mətaın axiri mən eylədim xərid,
Nobər qoyubsan adımı, etdin məni səid,
Tikdim həyati-ömrümə bir xaneyi-cədid,
Miskin Füzuliyəm ki, sənə tutmuşam ümmid,
Ya bir kəminə qətrə ki, ümmanə yetmişəm.

-201-

Dilimin dərdini ol yar bilibdir, bilirəm,
Onu kisuya giriftar bilibdir, bilirəm,
Gözümü hicridə ağlar bilibdir, bilirəm,

Yar hali-dilimi zar bilibdir, bilirəm,
Dili-zarımda nə kim var, bilibdir, biliram.

Dilimin dərdinə dərman desələr var olmaz,
Mən kimi kimsə belə dərdə giriftar olmaz,
Nə belə səhhəti-tən, nə belə bimar olmaz,
Yari əğyar bilibdir ki, mənə yar olmaz,
Mən dəxi onu ki, əğyar bilibdir, biliram.

Həsrəti-ruyi mənim ruzumu şam eyləyəli,
Yar barımda olan cövru tamam eyləyəli,
Dil quşun xali-siyəh famına ram eyləyəli,
Zülfünü əhli-vəfa seydinə dam eyləyəli,
Məni ol damə giriftar bilibdir, biliram.

Daməni-vəslinə kütah qılıbdur əlimi,
Can verən vəqtə görən başımın üstə gəlimi?
Ötürərmi görəsən dəfngəhə məhmilimi?
Mən nə hacət ki, qılam şərh ona dərdi-dilimi?
Hamu dərdi-dilimi yar bilibdir, biliram.

Çəkdin ey Nobəri, sən bir bu qədər zəncü təəb,
Onların hasilinə oldu bir əğyar səbəb,
Səbr qıl, eylə təvəkkül ki, budur rəsmi-ədəb,
Yar həmsöhbətim olmazsa, Füzuli, nə əcəb,
Özünə söhbətimi ar bilibdir, biliram.



- 202-

Nə xoş keçirdi o dəmlər ki, sənlə həmdəm idim,
Vüqarilən oturub söhbətində bahəm idim,
Rəvaqi-gizdə bəşaşət, üzarı binəm idim,
Xoş ol zaman ki, hərimi-vüsalə məhrəm idim,
Nə mübtəlayi-bəla, nə müqəyyədi-qəm idim.

Gözüm olurdu nigarın həmişə ruyində,
Ləbim ləbində, əlim gərdənində, muyində,
Məşamə ətr müəttər üzarı buyində,
Gəzərdim itləri içrə fəzayi-kuyində,
Yerim behişti-bərin idi, mən bir Adəm idim.

Timari-zülfi-siyahə əlim ki, şanən idi,
Gözümdə hər yanə baxsam sənin nişanən idi,
Məhəlli-süknətim axır hərimi-xanən idi,
Həmişə səcdəgəhim xaki-astanən idi,
Bu etibar ilə bir sərbüləndi-aləm idim.

Baxardım arizi-gülnarına, gözüm tox idi,
Nə qədri baxsam ol qədri məhəbbətim çox idi,
Kaman kimi qaşıyla kipriyin dilə ox idi,
Gədayi-kuyin idim, boylə züllətim yox idi,
Səriri-səltənəti-qürbidə müəzzəm idim.

Muradi-mətləb alırdı dilim vüsalından,
Doyurdu könlüm üzün badeyi-hilalından,

Yəqin ki, çıxmamışam indi də xəyalından,
Zaman-zaman əsəri-pərtövi-cəmalından,
Müalici-dili purdərdü çeşmi-purnəm idim.

Tutardı çövrəmizi nəğməxan bülbüllər,
Əsərdi zülfi-səmənsa misali sünbüllər,
Üzünə bəhsə durub şaxədə açan güllər,
Ziyadə qəmzədəyəm hicr ilə, xoş ol günlər
Ki, mən bu qəmzədəlikdən ziyadə xürrəm idim.

Qalıbdı Nobəri sənsiz yətaqi-qəmdə fərid,
Vüsalı yada salır, mümkün eləmir təcdid,
Hezar heyf ki, yoxdur səninlə guftü şənid,
Füzuli, olmaz imiş möhnəti-fəraqə müfid,
Bu zövqi-zikr ki, bir vaxt yarə həmdəm idim.

-203-

Sənsiz ey gül, bu dili-məhzun ilə dad eylərəm,
Qeys ilə Fərhadı bu fəryadə mötad eylərəm,
Ah çəksəm sinədən min dağı bərbad eylərəm.
Ney kimi, hərdəm ki, bəzmi-vəslini eylərəm,
Ta nəfəs vardır quru cismimdə, fəryad eylərəm.

Olmadı kuyi-səri-canan mənə cayi-sukun.
Arzuyi-könlümü hicran edibdir yaygun,
Doldurub canü dilə dərdü qəmi həddən füzun,
Ruzi-hicrandır, sevin, ey murği-ruhum kim, bu gün



Bu qəfəsdən mən səni əlbəttə azad eylərəm.

Dərdi-eşqin çarəsi mütləq bilə bilməz həkim,
Hicr odun söndürməyə hikmət degildir müstəqim,
Bu səbəb biçarədir, ey mahru, dərdim mənim,
Vəhm edib ta salmasın mahə mehrin heç kim,
Kimə yetsəm covrü zülmündən ona dad eylərəm.

Xəm qəddim nisbətdi bu eşqin xəm olmuş qafına,
Durru timsal eylə bu əşkim zülalü safına,
Ey bəsa minnət, onu gər versələr sərrafına,
Qan yaşım qılmaz vəfa, giryan gözüm israfına,
Munca kim, hərdəm cigər qanilə imdad eylərəm.

Yar eşitməz aşiqi kuyində fəryad eyləsə.
Nə olardı eşidib qəmgin dilin şad eyləsə,
Möhnətü qəmdən onu bir ləhzə azad eyləsə,
İncimən hər necə kim, əğyar bidad eyləsə,
Yar cövriçün, könül, bidadə möhdad eylərəm.

Başımı saldım əcəb qovqalı əmri-müşkülə,
Bülbüli-şeyda kimi mən də dil açdım bir gülə,
Qəm qubarı döndərib göz yaşını gözdə külə,
Bilmişəm bullam vüsalın, leyk bir ümmid ilə,
Gahi-gah öz xatiri-naşadımı şad eylərəm.

Əhli-dərdin görmədim bidərdidən imdadını,
Aşiq oldum, etmədim Fərhadü Məcnun yadını,

Kim məzəmmət eyləyir, ey Nobəri, ustadını,
Lövhi-aləmdən yudum əsk ilə Məcnun adını,
Ey Füzuli, mən dəxi dünyada bir ad eylərəm.

-204-

Mən cününi-eşqinəm, əqlü kəmalı neylərəm?
Bir xəyalım vəsldir, özgə xəyalı neylərəm?
Səhl olan karım budur, əmri-məhalı neylərəm?
Şəmi şami-firqətəm, sübhi-vüsalı neylərəm?
Bulmuşam yanmaqda bir hal, özgə halı neylərəm?

Yox qərarın bir dəmi, ey gənçi-rəvaqi-bisikun,
Gənci-rəvaqındır edən hicran ilə bəxtim zəbun,
Simu zərdən aziyəm, dərviş dili-halim kunun,
Qeyrə ərz et varını, əsbabını ey dəhri-dun,
Mən ki, əhli-zövqəm, əsbabi-məlalı neylərəm?

Dərdi-eşqi-aşiqə dərman verə bilməz nicat,
Bu xəyalın sayədir dağlar döşündə bisəbat,
Şübhə yoxdur kim, tapar bu dərdidən aşiq məmat,
Yox əcəb gər malə rəğbət, mülkə qılmaq iltifat,
Mən gedayi-kuyi-eşqəm, mülkü malı neylərəm?

Xilqətimdən eşqdir başımdakı şövdayi-əsl,
Bu səmərdir ömrümün bağındakı nosal, fəsl,
Bu məhəbbət irsidir Məcnunidən nəslən benəsl,
Ehtimalı-zövq təşvişinə dəyməz zövqi-vəsl,



Vəsl kim, var onda hicran etimalı, neylərəm?

Qəm qübarı könlümə hicranidə qılmış nəşəst,
Olmuşam ləli-ləbi-cananım ilə başı məst,
Aşiq olcaq qoymuşam bir mahru dəstinə dəst,
Əhli-haləm, demə büt vəslin mənə, ey bütpərəst,
Hal bilməz dilbəri-sahibcəmalı neylərəm?

Etdi mayil Nobəri ruxsarına bir gülbədən,
Bülbüli-gülzartək şax üzrə olmuş naləzən,
Yar eşitməz naləvü fəryadımı bilməm nədən,
Ey Füzuli, qıl kəmali-əql kəsbin yoxsa mən,
Kamili-eşqəm, dəxi özgə kəmalı neylərəm?

-205-

Dun xəyalınla gedib seyri-gülüstan etdim,
Dil ğəmnakımı ol bağıda şadan etdim,
Nərgisi-məstə baxıb gözləri[1] giryan etdim,
Bağa girdim, səri-kuyin anıb əfğan etdim,
Gül görüb, yadın ilə çaki-giriban etdim.

Çəkdim əlqissə xəyali-ruxi-gülnarilə dad,
Bülbüli-bağ kimi gülşənə saldım fəryad,
Dadü fəryadıma gül qılmadı əsla imdad,

[1] Həmin misranın yanında, haşiyədə "didəmi giryan" yazılmışdır.

Baxıban nərgisi-xummarə, gözün qıldım yad,
Nərgisi naləvü əfğanıma heyran etdim.

Nitqidən düşdüm o dəm, qaldı nihan dildə sözüm,
Bilmədim mən necə bu qüssəli bir halə dözüm,
Heyrət aldı məni, həm halıma heyranəm özüm,
Bərgi-gül sanma ki, xunabə tökən dəmdə gözüm,
Necə torpağə çəkər qanı şaçıb, qan etdim.

Yüzüyün fikri məni bir gülə doğru aparıb,
Qamətin sərvi salıb xatirə, bağrımı yarıb,
Bağı hər yan dolanıb, bir gül ağacına varıb,
Qönçəvü lalə deme, dağ qarasın qoparıb,
Alü alayə salıb səbzədə nihan etdim.

Laləni gördü gözüm, qan ilə doldu cigərim,
Yad qıldım üzünü, axdı üzarıma tərim,
Süsənü güldü, çiçəkdir həməcə, dövrü bərim,
Güli-tər üzrə düşən şəbnəmə düşdü nəzərim,
Gözümü şövqi-cəmalınla zərəfşan etdim.

Yad qıldım sənin ol şəhdü şəkərtək ləbini,
Sərtək qamətini, mu kimi nazik belini,
Arzu etdim alam dəstimə şimşad əlini,
Görücək sünbülü, andım şikəni-kakülini,
Sünbülü şiddətü ahimlə pərişan etdim.

Şükr qüllamə ki, qəmi-yar qəbul etdi məni,



Qəleyi-eşqə həmin zövq dixul etdi məni,
Şah ikən Nobəri, qəm yarıma qul etdi məni,
Ey Füzuli, rəvişi-əql məlul etdi məni,
Səhv qıldım ki, cünun dərdinə dərman etdim.

-206-

Dayandı fikridə irşad gördüyün könlüm,
Əsiri-zülfidi səyyad gördüyün könlüm,
Fəğanə gəldi bu bidad gördüyün könlüm,
Tutuşdu qəm oduna şad gördüyün könlüm,
Müqəyyəd oldu ol azad gördüyün könlüm.

Zibəs ki, arizimə axdı həsrəti-xunab,
Binayi-cismə toxundu xətərli bərqi-səhab,
Qəmin uçurmuş idi rüknini, götürmədi tab,
Diyari-hicridə seyli-sitəmdən oldu xərab,
Fəzayi-eşqdə abad gördüyün könlüm.

Edib könlümə sənsiz qəmin qubari nəşəst,
Gözün xəyalı alıb huşumu, özüm sərməst,
Olubdu guşənişinin cəfada dili-dərbəst,
Nə gördü badədə bilməm ki, oldu badəpərəst,
Mürid məşrəbü zöhhad gördüyün könlüm.

Fəzayi-eşqdə hüsnün dilə münəvvər idi,
Xəyali-zövqi-vüsalın başımda əfsər idi,
Səninlə fikrü-xəyalım həmişə həmsər idi,

Fəraqın odunu gördükdə mumtək əridi
Səbatü səbrdə fulad gördüyüm könlüm.

Təsəvvür eyləmədim ömrü-baqi solduğunu,
Məqami-eşqə hezaran bəla qoyulduğunu,
Vücuda möhnətü qəmlər sepahi dolduğunu,
Gətirdi əcz, görüb eşq müşkül olduğunu,
Hamu hünərlərə ustad gördüyun könlüm.

Xəyali-vəslin ilə təndə dil müsərrət idi,
Məqami-eşqidə könlüm səzayi-şöhrət idi,
Mətai-vəslinə canım cahanda sərvət idi,
Degildi boylə, dəmində bir əhli-işrət idi,
Bu qanlar içməyə mötad gördüyün könlüm.

Rəqib eşqi məni vəsldən qılıb məhrum,
Gərəkdi girya qılam hicridə zülumi-zülum,
Nədir bu, Nobəri, bilməm biladi-eşqə rüsum,
Füzuli, eylədi ahəngi-eyşxaneyi-Rum,
Əsiri-möhnəti-Bağdad gördüyün könlüm.

-207-

Rüxi-alın xəyalilə gecə-gündüz fəğan etdim,
Sirişkim selini sənsiz, fəraqında rəvan etdim,
Nə bir ləhzə üzüm güldü, nə könlüm şadman etdim,
Haçan kim, qamətindən ayrı seyri-gülüstan etdim,
Qoparıb əşk-seylabilə min sərvi rəvan etdim.



Sirişki-alımi görüb, töküb, başımdan aşırdım,
Onu bəhri-dilim ilə təlatüm bərrə daşırdım,
Qəmindən huşumu başdan çıxardub əqli çaşırdım,
Qoparıb girdybadi-ah ilə xurşidə tapşırdım,
Qubari-rəhguzarım cövhərin gözdən nihan etdim.

Gecə ta sübhədək çəkdim müəttər zülfüün fikrin,
Sənə izhar edim canan, nihan bu sirri-dil bəkrin,
Rəva görmə mənə axir, rəqibin hiyləvü mekrin,
Olub sərməst, qıldım nəşəyi-zövqi-ləbin zikrin,
Meyə raqib olanlar kufrini xəlqə əyan etdim.

Vicudi-aşiqi qabil yaratmış yarçun xaliq,
Özün xəlqə nişan vermiş ki, qudrətdir bu ustaliq,
Bu bari-eşqə Məcnundur bəir, məst olan layiq,
Görüb divarlərdə Kuhkən nəqşin demün aşiq,
Mənəm aşiq ki, sirri-eşqimi eldən nihan etdim.

Səri-kuyindən ol yarım nihani ötdüyüm bilmiş,
Üzari-alinə gizlin tamaşa etdüyüm bilmiş,
Bu əhvalə olub şadan, məramə yetdüyüm bilmiş,
Rəhi-eşqində cananın cigərqan etdüyüm bilmiş,
Çəkər hərdəm mənə tiği-siyasət, sanki qan etdim.

Yorulmam taəti-yarın qiyam ilə qəudindən,
Məni bu taətim ikrah edir zahid şövqindən,
Özün tərif edər zahid işin əvvəl vürudindən,

Nişani-surəti-xubin verir bütlər sücudindən,
Fəsadi-etiqadi-kafirin xatirnişan etdim.

Qoy olsun bir kəfən, Nobər, mənə əgnimdə pirahən,
Səri kuyində cananın olunsun nəşimə mədfən,
Dəxi diltəngdir könlüm, neçün bu dəhrə gəldim mən,
Füzuli, şahbazi-ovçi istiğna ikən, bilmən,
Nə sud etdim, bu viran mülkdə mən aşiyan etdim?

-208-

Pak qılmaq bədən, ol mah vəşə oldu məram,
Xahiş etdi ki, məramı verə ol dilbərə kam,
Rənc vermişdir ona tuli-şəbü səxti-mənam,
Qıldı ol sərv səhər nazilə həmmamə xuram,
Şəmi-ruxsarı ilə oldu münəvvər həmmam.

Məst olmuşdu səba nərgisi-məstanından,
Çünki ötmüşdü onu sübh dəmi yanından,
Ətr həmmamı tutub sünbüli reyhanından,
Görünürdü bədəni çaki-giribanından,
Camədən çıxdı, yeni ayını göstərdi tamam.

Ta ki, ol mahliqda etdi özün əqrəbi-hovz,
Bürci-meymunə o gun daxil olub kobkabi-hovz,
Bir bərabərdə olub bəxtinə ruzü şəb hovz,
Oldu pabus şərifilə müşərrəb ləbi-hovz,
Buldu didari-lətifilə ziya dideyi-cam.



Düşdü həmmamə onun mehr üzündən şəfəqi,
Arzu etdi ola onda bu əndam bəqi,
İstidən tər tutub ol no güli-xəndan təbəqi,
Sandılar kim, satılır daneyi-dürri-ərəqi,
Çoxlar əl kisəyə vurdu, edib əndişeyi-xam.

Tabidən aldı onun arizi bir gül rəngin,
Paybusi o məhin həzzi olub hər səngin,
Darayıb zülfi daraqilə, düzəldib təngin,
Kakilin şanə açıb, qıldı həvayı mişkin,
Tiğ muyin dağıdıb, etdi yeri ənbərfam.

Tas əlində yönlənib suya tərəf ol məhru,
Hovzi-ab içrə ona naz ilə nur eylədi su,
İsladıb tellərini, tökdi gül əndamına mu,
Tas əlin öpdi, həsəd qıldı qara bağrımı su,
Etdi su cisminə, rəşk aldı tənimdən aram.

Çox nəzakətlə o məh su ilə hər yan arınıb,
Xahişi, qədri, mərami-dilü candan barınıb,
Xadıman cümlə ona canü dil ilə yarınıb,
Çıxdı həmmamidən ol, pərdeyi-çeşmim sarınıb,
Tutdu asayiş ilə guşeyi-çeşmimdə məqam.

Gəldi bir xanəyə, aram tutub ol məhru,
Tər tutub gül üzünü, etmiş idi ənbərbu,
Tabdan bəniz idi bərgi-gülə ol ləbü ru

Mərdumi-çeşmim onun tökdü ayağına su
Ki, gərək su tökülə sərvin əyağına müdam.

Nobəri görməsin o bəd nəzərin çeşmi-bədin,
İstərəm kim, tuta ol gül üzünə rubəndin,
Olmasın görmək onu mümkünü ta bir əhədin
Muzdi-həmmamə, Füzuli, verərəm can nəqdin,
Olmasın sərf zər ol sərvqədu sim əndam.

-209-

Kuyi-dilbərdir dilə dayım riyahinim mənim,
Arizi-gülnarıdır gülzaru gülçinim mənim,
Ondan ayrılmaz yəqin bu qəlbi-miskinim mənim,
Səcdədir hər qanda bir büt görsəm ayinim mənim,
Xah mömin, xah kafir tut, budur dinim mənim.

Gərdişi-gülzari-zövqün sən mənə fərz eyləmə,
Bu riyayi mətləbi gül boynuma qərz eyləmə,
Dəstə tutma gülləri, sünbülləri, dərz eyləmə,
Bağıban şimşadü nəsrinin mənə ərz eyləmə,
Ol qədi-şimşaddır, ruxsarı nəsrinim mənim.

Mənlə qoy qalsın mənim başda olan idrakımı,
Eşq ilə təxmir ediblər ibtidadan xakımı,
Carı olsun hicridə qoy dideyi-nəmnakımı,
Əşk movci gəzdirər hər yan tənim xaşakını,
Mümkün olmaz əşk təhrikilə təskinim mənim.



Mən səri-kuyindəyəm, əğyarım eylər anə rəşk,
Çeşmeyi-ləli-ləbindən qılmışam məmlov məşk,
Mən ki, müştaqi-ləbi-meyguni yarəm, ta nə şək,
Xaki-dərgahın nəzərdən sürmə, ey seylabi-əşk,
Qılma zaye surmeyi-çeşmi-cahanbinim mənim.

Əl götürməz qüssə, qəm səndən könül, bilməm nədən,
Yoxsa bədqu olmusan dünyada əhli-eşqə sən,
Mən didim bir çarə qıl eşq əhlinə ey gülbədən,
Çarə umdum əşki-təlximə ləbi-şirinidən,
Təlx guftar ilə aldın cani-şirinim mənim.

Yetmədim sərmənzili-məqsudə hamundan keçib,
Tutmadım yelmari-zülfün zikri-əfsundan keçib,
Tirə bəxtəm, taleim ta bürci-meymundan keçib,
Məndə sakın oldu dərdi-eşq Məcnundan keçib,
Ondan artıqdır məgər eşq içrə təmkinim mənim?

Kimsə qalmaz Nobəri, qəmnak olan əhvalimə,
Katibi-qüdrət belə yazmış mənim əmalimə,
Nazir olsun el gərək başımda qilü qalimə,
Ey Füzuli, hər yetən tən eylər oldu halimə,
Bu yetər əhli-məlamət içrə təhsinim mənim.

-210-

Şahi-mülki-möhnətəm, çoxdur əlimdə sərvətim,
Hər səlatindən mənim əfzuntər olmuş rüfətim,
Dərdü qəm ənduhdur, cahü cəlal, şovkətim,
Zairi-meyxanəyəm, muğ səcdəsidir taətim,
Eşq pirim, nəqdi-can nəzrim, təvəkkül niyyətim.

Kuyi-canandır mənim şamü səhərdə gərdişim,
Gülşənü gülzar ilə cananısız yox sazişim,
Mülkü mali-dəhridən birəğbətəm, nə xahişim,
Hər yana baxsam, sürahitək sücud etmək işim,
Qanda olsam, badətək düşmək əyaqə adətim.

Pənd edər zahid mənə bihudə olmuş dil diraz,
Bilməyir kim, eşqidir könlümdəki pünhan raz,
Gül kimi, məbhut mən, bülbül kimi ol nəğməsaz,
Durmayıb zahid əgər surətdə eylər etiraz,
İxtilat etsəm, onu şərməndə eylər sirətim.

Görmüşəm dildarıdan həddən füzun cövrü ələm,
Ah kim, yoxdur bizə hökm eyləyən adil həkəm,
Xoşdu halım, eşq ilə hər bir yerə qoysam qədəm,
Bəs ki, cami-mey kimi xoş məşrəbü safi-diləm,
Hörmətim vacib bilir hər kim bilir keyfiyyətim.

Tabei-fərmanınam ta var həyatım bişükəm,
İbtidadan bilmişəm üftadə olmaq möhtərəm,



Yox qürurum dildə, həm məzurluğa qoymam qədəm,
Mötəbərlikdir qürur əhli, mən ondan fariğəm,
Etibarə çun degil qabil mühəqqər tinətim.

Bərgi-gül ruxsarına ta mayil etmiş könlümü,
Dərdimin dərmanıdır kim, sayil etmiş könlümü,
Yar dərdü möhnətə hamil etmiş könlümü,
Eşq ərbabi-vəfadan zail etmiş könlümü,
Fəqr əsbabi-əlayiqdən götürmüş könlümü.

Çarə bulmaz eşqidən bimarə, ey Nobər, həkim,
Bir belə bimarə dərman eyləməz, yoxdur şəkim,
Dərdi-dil xoşdur mənə, cananidəndir müstəqim,
Ey Füzuli, fəqr əsbabında dövlət istə kim,
Sayə ol torpağa salmışdır hümayi-himmətim.

-211-

Ey güli-hümra, sənin mən bülbüli-naləninəm,
Arizi gülnarına həsrət qalan giryaninəm,
Bir qulami-müxlisəm, həm tabei-fərmaninəm,
Ey kamanəbru, şəhidi-navəki-müjganinəm,
Bulmuşam feyzi-nəzər səndən, sənin qurbaninəm.

Zülfi-müşkinin tutub gültək üzarın çövrəsin,
Bağlamışlar kuyiya reyhanilə gül dəstəsin,
Dil dəxi şeydalənib güldən sarı kəsmir səsin,
Kakilin tarına peyvənd etmişəm can riştəsin,

Başın üçün bir tərəhhüm qıl ki, sərgərdaninəm.

Qibləm olsun arizin, qoy Kəbəni zahidlərə,
Qoy həsəd versin sözüm xoşlanmayan hasidlərə,
Rəğbətim yox badəni pünhan içən sacidlərə,
Nola qılsam tərki-mey, minnət qoyub zahidlərə,
Neylərəm mey nəşəsin mən kim, sənin heyraninəm.

Fikri-firqətdir salan bu canımı dərdü qəmə,
Bu xəyalatım verir canü dilə bərhəm həmə,
Dil əsirindir düşüb gisuda dami-purçimə,
Şanəvəş min navəki-qəmzən düzülmüş sinəmə,
Mən əsiri-həlqeyi-gisuyi-müşkəfşaninəm.

Qoy səri-kuyində mən təzimü təkrim eyləyim,
Sanma kim, canım sənə verməkliyə bim eyləyim,
İzn ver ta canımı hər ləhzə təslim eyləyim,
Cana meylin var isə hökm eylə təqdim eyləyim,
Padişahim, mən sənin bir bəndeyi-fərmaninəm.

Qeystək qıldın məni dəştü biyaban içrə ləng,
Bu cahanı eylədin hicranın ilə başə təng,
Nola gər bu dəhridən üz döndərib çəksəm ətək,
Qan edib bağrım, işim ah etmə hər dəm, ey fələk,
Hörmətim tut bir-iki gün, mən sənin mehmaninəm.

Nobər etdin arizi-gülnarə, yandırdın məni,
Covr ilə hər ləhzə bu candan uzandırdın məni,



Qeystək səhralərə saldın, dolandırdın məni,
Ey Füzuli, atəşi ah ilə yandırdın məni,
Ğaliba sandın ki, şəmi-külbeyi-ehzaninəm.

-212-

Təxəyyür aləmin tutdum, sükuti-nitq ilə durdum,
Xəyali-vəsli-naməqdır, ilə əfkarımı yurdum,
Büsati-işrəti yığdım, dilimdə hüzn evin qurdum,
Qəmindən başə dun həsrət əlilə ol qədr vurdum
Ki, sübh olunca mürdə cismimi torpağə tapşırdım.

Nədim ki, olmadın munca fəğanü nalədən agəh,
Fəqirü saliki eşqəm, tərəhhömlə olan sən şəh,
Fəraqın rənci etmişdir həyatımdan məni ikrəh,
Büküldü qəddim, ahim yetdi xurşidə, saqın ey məh
Ki, möhnət oxunu peykanladım, qəm yayını qurdum.

Könül nomid vəslindən olub, rahi-fəna tutmuş,
Fəraqü hicrü rənc ilə dilü canım bəla tutmuş,
Qəm ilə qüssəni canım özünə aşina tutmuş.
Demin Məcnuna aşiq kim, başında quş yuva tutmuş,
Mənəm aşiq ki, seyli-əşkimi başımdan aşurdum.

Könül xahiş edir bilsin ləbi-ləlin rümuzatin,
Yetə künehinə bu dürci-dəhanında mühümmatin,
Ola zahir ona ta kim, gözə faş olmayan batin,
Kamanından mürəttəb eylədi burhan isbatin,

Nə sahib kəşfə kim, durci-dəhanın sirrini sordum.

Fəraq əyyamı doldurdum dili-məhzunə foci-qəm,
Qəmindən mərdumi-çeşmim edir ruxsarə cari nəm,
Otağım beytül-əhzandır, fəğanü dad ilə bahəm,
Təcərrud seyrinə sayəmdən, özgə bulmadım həmdəm,
Sovurdum göylərə torpaqını hər yerdə kim, durdum.

Nə qədər səy edirdimsə muradım şəmi yanmazdı,
Fəğanü ahü naləmdən dili-zarım usanmazdı,
Düşəndə eşqinə Nobər, fəraq hicri qanmazdı,
Füzuli, eşqi-möhlək deyirdim ol məhvəş inanmazdı,
Behəmdüllah ki, can vermək təriqilə inandırdım.

-213-

Anlasaydım hicr odun, meyli-nigar etməzmidim?
Tərki-fəryad eyləyib, ahilə zar etməzmidim?
Suknətim şərh eyləyib, əzmi-diyar etməzmidim?
Əql yar olseydi tərki-eşqi-yar etməzmidim?
İxtiyar olsaydi, rahət ixtiyar etməzmidim?

Göstərərdisə üzün eşq əhlinə ol məhçəbin,
Bildiseydi aşiqə hicranının rənci-şəbin,
Söyləseydi əqrəbin bürcilə bəxtim kokəbin,
Ləhzə-ləhzə surətin görsəydim ol şirin ləbin,
Sən kimi, ey bisutun, mən həm qərar etməzmidim?



Arizində yarımın zülfi-siyahın bilsəm əbr,
Olmaz idim mərdümi-çeşmə belə həsrətlə cəbr,
Bilsə idim mehrini almaz dilimdəm xaki-qəbr,
Yar ilə əğyarı həmdəm görməyə olsaydı səbr,
Tərki-qürbət eyləyib əzmi-diyar etməzmidim?

Zöhd rahidir riya, vardır buna əldə əsas,
Əhli-təqva söyləsin ta kim, ona nafəhm nas,
Bir-birə istinad versünlər onu bir həqşünas,
Vaizin kufrun mənim rusvalıqımdan qıl qiyas,
Onda sidq olsaydı, mən təqva şüar etməzmidim?

Ey könül, mən söylədim eşqə düşən dəmdə sənə
Kim, gözəldə mehr yox, məhrü olanlarda vəfa,
Etmədin bavər mənə, imdi çəkirsənmi cəfa,
Ol güli-xəndanı görmək mümkün olsaydı mənə,
Səntək ey bülbül, gülüstanə güzar etməzmidim?

Verdi-zikrim dəmbədəm gülru olan dildardır,
Həsrətində gözlərim şamü-səhər ağlardır,
Gerçe derlər hər necə dərd olsa dərman vardır,
Dərdimi aləmdə pünhan tutduğum naçardır,
Uğrasaydım bir təbibə aşkar etməzmidim?

Kimsə abad etməz viranə qalmış könlümü,
Söndürməz dərya mənim odlar qalanmış könlümü,
Nobəra, kim saf edər qanı bulanmış könlümü?
Ey Füzuli, daği-hicran ilə yanmış könlümü,

Lalələr açsaydı seyri-laləzar etməzmidim?

-214-

Oylə sərməstəm bilmirəm kim, hansı bir mavadəyəm,
Hansı yerdə sakinəm, ya hansı bir dünyadayəm,
Fikrimi cəm etmirəm çun müttəsir xülyadəyəm,
Dürdüvəş sərgəşteyi-camü, xərabi-badəyəm,
Etibarım yox, qubari-kuyinəm, oftadəyəm.

Mən kimi kimsə fəraqi-yaridə düşkün deyil,
Qeysin eşqi eşqimə miqyas ola, üstün deyil,
Müddəmi-hicran dili-məhzunuma bir gün deyil
Her vəch ilə mənə abadlıq mümkün deyil,
Mən xərabi-badeyi-safü üzarı sadəyəm.

Asimanın sən kimi gülruyi taban, bədri yox,
Sən kimi mina qəddü əndamı, simin sədri yox,
Leylivəş rüsvalanıb, xəlq içrə hərfi-həddi yox,
Abi-çeşmim çizginür kuyində, amma qədri yox,
Deməsin bu dovridə kimsə ki, mərdümzadəyəm.

Mehri-ruyindən olur məhzun dilə təsiri-zövq,
Rəhnəmunim yox qıla bu aşiqə tədbiri-zövq,
İncidir sənsiz dili-purxunimi təhriri-zövq,
Çərx dövrindən nə hasil kim, verir təğyiri-zövq,
Vermədən zövq artırır miskini-dövri-badəyəm.



Məndədir zahid, həmişə zövqi-meyü meykədə,
Şövqim artır getməyə meyxanə səmtə get gedə,
Dil əmindir kim, ona piri-muğan tədbir edə,
Zahida, məndən nə hasil kim, okursan məscidə,
Məndə taət yox, həman alayişi-səccadəyəm.

Məsləhətdir, Nobəri, tərk et cəhanı imdi sən,
Xələt dünyadan al, əndamına bir ağ kəfən,
Dəhr fanidir, onu zənn eyləmə dayim vətən,
Zövq istərsən, Füzuli, tərki-dünya qıl ki, mən
Bulmadım bir zövq bundan qeyri ta dunyadəyəm.

-215-

Əflakə yetər hicr şəbi ahü fəğanım,
Ta sübh nəfəs tutmaq üçün yoxdur gumanım,
Sənsən yenə axir nəfəsə virdi-zəbanım,
Hicranla yanar hər gecələr rişteyi-canım,
Rövşən ola, ey şux, sənə zari-nihanım.

Məmluv dilim qəmlədi, göz mərdumi pur nəm,
Eşqə düşəli olmamuşam bir dəmi xürrəm,
Yad eyləyirəm vəslini hər saniyə, hər dəm,
Bir şəmi-şəbüstani-bəlayəm ki, degil kəm,
Təmin eyləyir suzi-dilim, əşki-rəvanım.

Fəryadü fəğan etmədə qıldın məni məşhur,
Bihudə olan naləmə vəsl olmadı məqdur,

İnsaf yoxundur edəsən halımı mənzur,
Ey xəlvətimə şəmi-ruxundan buraxan nur!
Didarına müştaq idi çeşmi-nigəranım.

Ahim gecələr noh fələgin taqinə yetdi,
Dudi dilimin çərxi-səmavatinə getdi,
Hicranın odu mum kimi canım əritdi,
Sənsiz gecələr ahü fəğanım məh eşitdi,
Ey məh, sənə yetməzmi əcəb ahü fəğanım.

Qəmzən oxı hərhər yan toxunur bağrıma hərdən,
Əflakə yetər sübhə kimi gəryəli naləm,
Qəmdidə mənimtək ola bilməz ki, bir adəm
Canan nə rəvadır ki, çəkib tiğ dəmadəm
Qəmzən sökə cismim, dələ bağrım, tökə qanım.

Əfsus əlim daməni-cananimə yetməz,
Ənduhü qəmi tərk qılıb sinəmi, getməz,
Fəryadü fəğani-dilimi yarım eşitməz,
Həmrəngi-ləbindir deyə, qəti-nəzər etməz,
Xuni-cigərimdən müjeyi-əşkfəşanım.

Qəm, qüssə olub canimə bu eşq hüsuli,
Yox şad eyləyən Nobəridən qəlb müluli,
İxracı məgər yoxdu qəmin səhl düxuli,
Pünhanım odum aləmə faş oldu, Füzuli,
Yarəb ki, mənim şəm kimi yandı zəbanım.



-216-

Hər şəbi-hicran yanar atəşdə əndamım mənim,
Sərnigundur eşqidə meylə dolu canım mənim,
Qeystək məşhur olub aləmdə bu namım mənim,
Gəl bəri, lütf eylə, ey sərvi-dilaramım mənim,
Ol ləbi-canpərvərindən vergilən kamım mənim.

Xoşladım səhraları eşqə düşən gündən bəri,
Mümkün olmur görməyə ol mahpeykar dilbəri,
Razıyam röyada həm görsə gözüm gülpeykəri,
Səndən ayrı haqq bilir, ey nazəninlər sərvəri,
Möhnətü qəmlə keçir hər sübh ilə şamım mənim

Qəm günündə olmadım ol dilbəri-qəmxarilə,
Tireyi-şam olmadı rovşən ruxi-dildarilə,
Hər gecəm ta sübhədək keçdi fəğanü zar ilə,
Karım olmuş ruzü şəb şivən fəraqı-yar ilə,
Böylə yazılmış əzəl gündən sərəncamım mənim.

Pəndin almaz sinədən zahid, belə hicran dağın,
Qətrə-qətrə göz tökər ruxsarimə bağrım yağın,
Çox da tərif etmə sən eşq əhlinə cənnət bağın,
Vermə gəl, zahid, mənə qorxu cəhənnəmdən sakın,
Cənnətimdir arizi, zülfi-dürər damım mənim.

Nobəri, Məcnun kimi tikdir məhəbbətdən donu
Yadigari –yar edib, saxlat tənin üzdə onu,
Atəşi-hicrani-dil bir gun vusalilə sonu,
Keçməsin heç kimsənin yarəbb, Füzulitək günu,
Həp keçər qəmlə fəna dünyada əyyanım mənim.

-217-

Fəğani bülbülün dadın dili nalana dəgşirdim,
Məzaqım qonçədən götdüm, ləbi canana dəgşirdim,
Cahanın gövhərü dürrün düri-dəndanə dəgşirdim,
Müxalif dövrdən gulgun şərabı ganə dəgşirdim,
Sürudin çəngü udun naləvü əfğanə dəgşirdim.

Saçın qılmaz əvəz yarın nə reyhan, yasəmən hərgiz,
Sərvi-kuyin əvəz qılmaz nə gülşən, nə çəmən hərgiz,
Nə Fərhad mən kimi olmaz, nə Məcnun mesli-mən hərgiz
Dəxi zövqi-vusalı-dust şövqin istəmən hərgiz
Ki, mən zövqi-vusalı möhnəti-hicranə dəgşirdim.

Nə mümkündür dili dişra çıxarmaq eşq dəyrindən,
Könül Yusif ola çıxmaz zindandan üzrə beyrindən,
Olar nafəhm olanlardır çəkər əl eşq xeyrindən,
Məni, ey bağiban, məzur tut gülzar seyrindən
Ki, mən gülzar seyrin külbeyi-əhzanə dəgşirdim.

Necə mən əl çəkim hicran şəbi bu çeşmi-purnəmdən,



Hesab ollam mən aşiqlər içində hümməti-kəmdən,
Qalıbdır aşiqə zövqü məhəbbəti-eşq Adəmdən,
Könüldən zövq bulmazdım çıxardım çaki-sinəmdən,
Qaşı yaylar xədəngilə gələn peykanə dəgşirdim.

Nə qədri cövr edər canan ona dil çox salar meylin,
Məqami-hicridə bilməz mürurin ruz ilə leylin,
Tutar xoşnud gəldikcə dili-məhzunə qəm xeylin,
Nigabi surəti-hal eylədim xuni-cigər seylin,
Əyan rusvalığı dərdü qəmi-pünhanə dəgşirdim.

Dilimə dadü fəryadı gecə-gündüz şüar etdim,
Büsatü eyşimi yıgdım, onu dildən kanar etdim,
Cahanda eşqi-yar ilə özümü aşikar etdim,
Könül verdim fənavü fəqrə, tərki-etibar etdim,
Bihəmdillah ki, axir kufrimi imanə dəgsirdim.

Kənarə Nobər olmuşdur cahanda varilə yoxdan,
Bir ev təmir edib tənə daşilə qəmzədən, oxdan,
Nə hasil dar dünyada belə rəncilə qılmaqdan,
Füzuli, mən də zövqi-afiyət az istədim çoxdan,
Mən onu aruzuyi-tələti-cananə dəgşirdim.

-218-

Cövri-yarı canımü kim, var istərəm,
Canımı çovrü qəmi-yarə səzavar istərəm,
Arizi-gülnarı üzrə xalını xar istərəm,

Yandı canım hicridə vəsli-ruxi-yar istərəm,
Dərdiməndi-firqətəm dərmani-didar istərəm.

Bəsdir, ey könlüm, səni hicrindən nalan etdigim,
Bağrımı şəb ta səhər xülya ilən qan etdigim,
Dəştü səhralar gəzib çaki-giriban etdigim,
Bülbüli-zarəm, degil bihudə əfğan etdigim,
Qalmışam nalan qəfəs küncündə, gülzar istərəm.

Nəqdi-candır vəsl üçün əldə olan variyyətım,
Can fəda qılmaqdır ol mehri-nigarə niyyətim,
Bu mətaın sərficün artır dəmadəm surətim,
Dəhr bazarında kasiddır mətai-Hümmətim,
Bu mətai satmağa bir özgə bazar istərəm.

Döndəribdir məndən üz ol mahru, qoymaz məhəl,
Damənınə dilbərin kutah olubdur məndə əl,
Rəhmsizdir eyləyir hicranına vəslin bədəl,
Nola gər qılsam şəbi-hicran təmənnayi-əcəl,
Qayğulum çoxdur qəmim, dəfinə dərman istərəm.

Haqlıyam Məcnun kimi səhrayə getsəm şəhridən,
Zəiflənmişdir tənim hicrində zəhri-səbridən,
Bənzərəm divanəyə simayi-şəkli-təhridən,
Fani olmaq istərəm yəni bəlayi-dəhridən,
Rahəti-cismi-zəifi-can, əfkar istərəm.

Qeystək biar mən dəştü biyaban gəzmərəm,



Dərgəhindən dur olub damanidən əl üzmərəm,
Canimə bihədd olan cövrü-cəfadən bezmərəm,
Çun bəqa mülkündədir canan, mən həm dözmərəm,
Bu fəna deyrində bəzmi-vəsli dildar istərəm.

Aşiqə yetsin gərək canandən cövrü cəfa,
Aşiq olcaq Nobəri olmuş bu dərdə mübtəla,
Dil əzəldən razıdır canana can qılsın fəda,
Ey Füzuli, istərəm kimsə rizasilə fəna,
Mən ki, bundan qeyri bilməm çarə, naçar istərəm.

-219-

Deyən kimdir bu dünyadə ki, mən zövqü səfa gördüm?
Həqiqi aşina buldum, vəfalı məhliqa gördüm.
Eyki axır ki, müsərradə dayanmaqı rəva gördüm,
Vəfa hər kimsədən kim, istədim ondan cəfa gördüm,
Kimi kim, bu fəna dünyadə gördüm, bivəfa gördüm.

Dolandım şəhrü bazarı, biladü qəryəni hər yan
Ki, bəlkə eyləyim dildə olan bu müşkülü asan,
İtirdi rahi-məqsudum, dayandım valehü heyran,
Kimə kim, dərdimi izhar qıldım, istədim dərman,
Özümdən bədtərin dərdə onu həm mübtəla gördüm.

Dilə isbat mən qıldım riyayi-zahidin səhvin
Ki, zahiddir edən xahiş müsəddiq aşiqin məhvin,
Gərəkdir eyləmək başdan belə əhli-riya rəfin,

Mükəddər xatirimdən eyləməz bir kimsə qəm dəfin,
Səfadən dəm vuran həmdəmləri əhli-riya gördüm.

Nə sərvin sayəsin gördüm, nə xarı dövri-gülşəndən,
Nə gül əhli-vəfa oldu, nə bülbül qaldı şivəndən,
Pozulmuş rövrəqi-gülşən nəhibi-sovti zağından,
Əgər su damənin tutdum rəvan döndərdi üz məndən,
Və gər güzgüdən umdum sidqi-əks, müddəa gördüm.

Mən bir dil verib canan, rəqibə əksi-dil vermiş,
Gözüm yaşın qılıb cari, könül ruxsarə keyl vermiş,
Qəmi-hicraninə müddət nə bir ay, nə il vermiş,
Ayaq basdım rəhi-ümmidə, sərgərdanlıq əl vermiş,
Əməl sərriştəsin tutdum, əlimdə əjdaha gördüm.

Nə hacət fəqrə səbhabi libasi tirmə ya kim, xəz,
Xəyali-vəsli-canandır olan dildə önunçun həzz,
Təənnimdən qəni dildir, degil xəssas soltanvəz,
Mənə göstərdi gərdun tirə bəxtim kokəbin yuz kəz,
Məni-bədbəxt ona hər vəqt kim baxdım, qara gördüm.

Gəlir həmsayələr təngə fəğanü ahü naləmdən,
Çəməndə gül çiçək başın edər məmlu jaləmdən,
Məni kim dur edib, Nobər, dodağı meyi-piyaləmdən,
Füzuli, eyb qılma üz çevirsəm əhli-aləmdən,
Nədən kim, hər kimə üz tutdum, ondan yüz bəla gördüm.





Təmamən xubilər dursa nəzərgahimdə mən kuyəm,
Neçün kim, ibtida sənlə cahan xəlqinə məşhurəm,
Nə çarə kim, fəraqında şikəstəqəlb, məqhurəm,
Fəzayi-eşqi ta gördüm səlahi-əqlidən durəm,
Məni rusva görüb mən etmə ey naseh, ki, məzurəm.

Həvayi-eşqidən zülfi-siyahə bağladım gərdən,
Düşüb səhralarə, etdim fəraqi-yar ilə şivən,
Olubdur pənbəyi-daği-cünun əgnimdə pirahən,
Əgər çaki-giriban eyləsəm, mən etməyin kim, mən
Mətai-nəngidən ari, libasi-aridən urəm.

Fəraqində dilim səndən görür daim cəfa rəncin,
Degil məxfi mənim eşqim, şüaidir hamu xəlqin,
Necə məstəm ki, mən bilməm şərabi-məhrumin rəngin,
Yerim səhrayi-vəhşət, mənzil etməm afiyət küncin,
Əsiri-dami-zülmət olaram, mən talibi-nuram.

Hərimi-astanında qulam, etmiş məni ol şəh,
Edib sirri-nihanına təkəllümlə məni agəh,
Nəzər qılsam ol məhruyə, təşəkkurlə desəm bəh, bəh,
Təmərrüdi əql fərmanından etsəm, dustlər, billah,
Məni rayimlə sanmun, eşq sultanilə məmurəm.

Qoyub xilqət zəmanında qədəm eşqə mənəm cahid,
Müqabildir qəmü möhnət mənə o ucilə, mən vahid,

Verib mən canım əl çəkməm bu sövdadən, olun şahid.
Bəlayi eşqi-dərdi-dust tərkin qılmaram zahid,
Nə müştaqi-behiştəm sən kimi, nə talibi-hurəm.

Cəfayi-cövrə sən tabım, ümmidi-vəslə şövqim gör,
Olan boynumda zəncirim, müsəlsəl zülfi-toqim gör,
Cahanda bəzli-canandır olan, bu varü yoxum gör,
Xəyali-çini-zülfü taqi-əbrusilə zövqim gör,
Sanasan həşmətilə kəsriyəm, qədr ilə məxfurəm.

Fəzayi-eşqə ol Qeysə əzəl gündən mənəm irşad,
Xəyali-dəhr qeydindən onu mən eylədim azad,
Vəfalı yarıdan Nobər olar eşq əhlinə imdad,
Qərəz bir ad imiş aləmdə, mən həm eylədim bir ad,
Bihəmdüllah, Füzuli, rindü rüsvalıqda məşhurəm.

-221-

Nəqdi-can əldə dönüb vəslə xiridar olubam,
Səri-kuyində onun didəsi xunbar olubam,
Sərfərazəm, kinə mən eldə əgər xar olubam,
Eşq daminə giriftar olalı zar olubam,
Nə bəladır kim, ona boylə giriftar olubam.

Deyə bilməm sözümü qəmlə dolubdur ürəyim,
Hicr əlindən ol məhə xeyli varımdır kələyim,
Yoxdu qəmxar mənə, hasil edən yox diləyim,
Dil diməkdən kəsilib, tən hərəkətdən vəh kim,



Künci-qəmxanəyə bir surəti-divar olubam.

Firqətin müddətinə qoymadı bir ay ilə il,
Qəm dolub xəstə dilə, canım olub zarü əlil,
Ah kim, olmadı ol guyə məni-zarə dəlil
Qüdrətim yox ki, qılam kimsəyə şərhi-qəmi-dil,
Oylə kim, arizəyi-hicr ilə bimar olubam.

Təng olub başıma bu vüsəti vasih dünya,
Möhnətü qəmlə dili-zarım olubdur imla,
Üzünü görgəc, olub eşq başımda peyda,
Deməzəm gaxi sənə aşiqəm ey gül, zira
Sənə aşiqlığim izhar edəli, zar olubam.

Olmadın hali-dili-zarıma sən agəh kim,
Düşdüm ol çahi-zənəxdan təhinə nagəh kim,
Mənə rəhm eyləmədin eşqidə sən ey şəh, kim,
Əqlü səbrü dilü tən getdi, behəmdullah, kim,
Sərəfi-sahili-dəryayə səbükbar bar olubam.

Nobərin eşqi hamu aləmə olmuş zahir,
Onu təsxirə salıb mahir olan bir sair,
Dil olub qəm yükünü bar eləməkdə mahir,
Yox, Füzuli, xəbərim mütləq özümdən axir,
Valehi-nəqşi-xəyali-ruxi-dildar olubəm.

-222-

Dilbəra, bu naleyi-cansuzi-zarımdan saqın!
Bu dili-qəmnaki-bisəbrü qərarımdan saqın!
Müşkbu zülfün kimi bu bəxti-tarımdan saqın!
Yaxma canım, naleyi-biixtiyarımdan saqın!
Tökmə qanım, abi-çeşmi-əşkbarımdan saqın!

Ahi-cansuzim salır əflakə hərdəm vahimə,
Yeyər sərasər külbeyi-ehzandı matəmgahimə,
Heyf kim, yetməz fəryadı ruyi-mahimə,
Su verər hər sübhdəm göz yaşı tiği-ahimə,
Çox məni incitmə, tiği-abidarımdan saqın!

Rəxnə canə tişeyi-ahilə vurma, ey könül!
Rükni-canı əşk ilə, rəhm et, uçurma, ey könül!
Həmdəmi-xülya olub, qəmlə oturma, ey könül!
Cövr odu yaxdı məni, cövrəmdə durma, ey könül!
Bir tutuşmuş atəşəm, qürbu civarımdan saqın!

Bivəfa cananidən, fani cahandan çək ətək,
Heç birindən dərdi-bidərmanına olmaz kömək,
Möhnəti-hicranə həm ərzim gəlir dil verməmək,
Tən evindən rəxtini cəhd eylə, ey dilcan, dışra çək,
Afəti-seyli-sirişki-biqərarımdan saqın!

Aşiq oldur səbr ilə yarın cəfasına dözə,
Düşməyə rüsva olub, ellər dilində bəd sözə,



Arzuyi-vəsl edən candan gərəkdir əl üzə,
Gərçi bir xaki-rəhəm, kimsə məni dutmaz gözə,
Çox həqarətlə nəzər salma, qubarımdan saqın!

Ey cəfayi-yarından məntək saralıb solmayan,
Ovci-istiğna ilən meracı-yarı bulmayan,
Mehri-canan könlünə misalı dolmayan,
Durma qəbrim üzrə, ey eşq içrə məntək olmayan!
Tənə daşidir sənə, səngi-məzarımdan saqın!

Şöleyi-ahi-dilim başım üzərində bir ələm,
İndi də mülki-qəmə sultan ba izzət mənəm,
Tutmayın munca məni çox da nəzərdə qədri kəm,
Şahi-mülki-möhnətəm bihədd sipahim fovci-qəm,
Xeyli-bihəddü bu sipahi-bişumarimdən saqın!

Könlümün ol qəmzəyi-xunxaridən min zəxmi var,
Munca zəxmin şübhəsiz, bu mülki-canə vəhmi var,
Nobərə çeşmi-nigarın qəmzəsindən səhmi var.
Ey Füzuli, hansı məhbubi ki, sevsən rəhmi var,
Qıl həzər, ancaq mənim birəhm yarımdan saqın!

-223-

Ol pərişan zülf olub halım pərişan eyləyən,
Həsrəti olmuş cigər purkaləsin qan eyləyən,
Yar olub şadandil, seyri-gülüstan eyləyən,
Ey geyib gülgun dəmadəm əzmi-cövlan eyləyən,

Hər tərəf cövlan edib, döndükcə min qan eyləyən.

Badeyi-ləli-ləbin nuşinə könlüm təşnə kam,
Rəhm qıl bu aşiqə, ləlin meyilə doldu cam,
Sənsiz olsun qan meyü meyxanə bir viran məqam,
Ey məni məhrum edən bəzmi-vüsalından müdam,
Qeyri xani-iltifati üzrə mehman eyləyən.

Olmadı Fərhad həm məntək bəla dağın çəkən,
Puça verdi zəhmətin canilə bahəm kuhkən,
Dövri Fərhadın keçib, bu dövranin Fərhadı mən,
Ey dəmadəm rəşk tiğilə mənim qanım tökən,
Mey içib, əğyar ilən seyri-gülüstan eyləyən.

Eylədin pünhan qəmim əhli-cahan içrə pədid,
Atəşi-hicran edir hər şam dil dərdin şədid,
Rəxti-xab hicrdə şəb ta səhər fərdü vəhid,
Ah əgər cəmiyyəti-xatirdən olsam naümid,
Cəm olurmu xubilar zülfi pərişan eyləyən?

Axdı sənsiz daməni-rusvayə gözdən əşki-tər,
Giryə olmuşdur işim, ey mahru, şəb ta səhər,
Qat olur göz yaşıma məmzuc edən xuni-ciyər,
Munca kim, əfğanimi, ey mah, eşitdin gecələr,
Demədin bir gecə kimdir beylə əfğan eyləyən?

Eşqidə mən bilmədim kim, başə var rənc, əza,
Belə zənn etdim ki, var bu sahədə zövqü səfa,



Etməyir canan nedim, covrü cəfayə iktifa,
Yar dun çəkmişdi qətlim qəsdinə tiği-cəfa,
Yetməsin məqsudinə yari pəşiman eyləyən.

Eşqilə bimar olan canə nə hacətdir həkim,
Çarəsi yox dərddir, tədbir qılmaz heç kim,
Bu mərizin sahibi dərman ilə olmaz səlim,
Eşq dərdilə olur aşiq mizacı müstəqim,
Düşmənimdir dustlar bu dərdə dərman eyləyən.

Mən ki, üz döndərmərəm ol arizi məhtabıdən,
Qiblə bildim dərgəhin, əl çəkmərəm bu babidən,
Zəmm qıldım vaizi, axır oyatdım xabidən,
Zahidin tən ilə döndərdim üzün mehrabidən,
Munca olmaz əcri min kafir müsəlman eyləyən.

Olmadı mümkün dərəm, Nobər, guli norəstəni,
Qonçə ləb, gülru olan, incə dəhani pustəni,
Qoydu ağlar daimən hicrində bu pabəstəni,
Dərdi-hicran natəvan etmiş Füzuli xəstəni,
Yoxmudur, yarəb, dəvayi-dərdi-hicran eyləyən?

-224-

Yoruldum gərdişi-rahi-kuyin şitabindən,
Rəhi-eşq içrə ləng oldum gözüm yaşı gilabindən,
Məni heyrət edər rahət şəbi-hicran əzabindən,
Sipehrin fariqəm vəslində mahü afitabindən,

Qərəz eydi-vüsalındır bu ayü gün hesabindən.

Səhər dəm seyri-gülzar et, əzizim, biniqab, əmma,
Tamaşayi-gülüstan et, gülə etmə etab, əmma,
Tutubdur nərgisi heyrət, gözündən tutdu xab, əmma,
Tamaşayi-ruxun əzminə çıxmış afitab, əmma,
Gəlirkən surətilə düşdü yüz yerdə şitabindən.

Üzün mislində gül olsun, fələk fırlandırıb çərxi,
Nişan versin üzün şövqin, günə odlandırıb çərxi,
Məzəmmət eyləsin ayə, bununla qandırıb çərxi,
Fələk məhçubdür, şərmi-rüxündən yandırıb çərxi,
Çıxarmaq istər onu şöleyi-ahim hicabidən.

Dolanmaq çərxi sərgəştəgunə, ayə nəsib olmuş,
Üzün aydan münəvvərdir, şüayi-dil fərib olmuş,
Belə sərgəştəlik çərxə əcayibdən əcib olmuş,
Fələk qayətdə eşqində nəhayət müstərib olmuş
Ki, hər nə eyləsə bilməz nə eylər iztirabindən.

Nə müstəsna gözəlsən kim, bilən yoxdur sənə diqqət,
Bərabər olsa xurşidə üzarından çəkər ləzzət,
Üzün önündə gər dönə, günəş nuri nədir hacət,
Günəş lövhi degil göydə şüa üstündə zərrinxətt,
Fələk almış əlinə bir vərəq hüsnün kitabindən.

Fələk kəcdovr edir, ey dil, onunla kimsə yol getməz,
Onun bağında məqsudə müvafiq şaxi-gül bitməz,



Budur bais, təbibi-dil mərizün dadına yetməz,
Dəgirman danə üçün cizginir, bihudə dövr etməz,
Mücərrədsən, könül, vəhm eylə çərxin inqilabindən.

Mənəm sərməst olan eşqin meyi ilə, anla ey saqi,
Demə şorbi olub Nobər, bu böhtan ta bekey, saqi?
Səni vadar edir söylə, bu böhtanə nə şey, saqi?
Kimi hüşyar gördün sən, ona son cami-mey, saqi,
Bihəmdillah, Füzuli məstdir vəhdət şərabindən.

-225-

Heyrət, etmişdir məni fikr aləmində sərnigun,
Mehr göstərməz neçün üşşaqə xübani-qurun,
Aşiqin dərdə salıb, eylər onu axir cünun,
Dust bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.

Ağlaram, şadan olar əğyarım, etməz heç şərm,
Hicr odu fuladvəş könlüm qılıbdır mumü nərm,
Canımı xoşk eyləyir atəşli dildən ahi-gərm,
Sayeyi-ümmid zayil, aftabi-şövq gərm,
Rütbeyi-idbar ali, payeyi-tədbir dun.

Dil ki, mehrinlə dolub canım olubdur dərdmənd,
Dadü fəryad-dilim əflakə olmuşdur buland,
Dərdsizlərdir edən bu dərdməndə rişxənd,
Əql dun-himmət, sədayi-tənə yer-yerdən buland,

Bəxt kəmşəfqət, bəlayi-eşq gün-gündən fizun.

Fitnə yayi-qaşları, süzgün baxış, əndişü məkr,
Qəmzəsindən bəllidir çeşmində var dərdişü məkr,
Həm qəfadan çulquyur aşiqləri, həm pişü məkr,
Mən qəribi-mülkü rahi-vəsl pur təşvişü məkr,
Mən hərifi-sadəlövhü dəhr pur nəqşü füsun.

Eylədi canan məni çövrü cəfayə mübtəla,
Möhnəti-hicranını gördü dili-zarə rəva,
Qanə dönmüş könlümü etdi qəm ilə aşina,
Hər səhiqəd çilvəsi, bir seyli-tüfani-bəla,
Hər hilaləbruları bir sərxəti-məşqi-cunun.

Olmadı bir dəm mənə ol mahrudən iltifat,
Qarə bəxtim tapmadı zülmati-zülfündən nicat,
Az qalıbdır qüssədən saqet ola təndən həyat,
Yeldə bərgi-laləţək, təmkini-daniş bisəbat,
Sudə əksi-sərvtək, təsiri-dövlət vajigun.

Məndən əqdəm çox gedib eşqin yolu ilə karvan,
Qeyslər, Fərhadilər bu rahidə vermişlə can,
Onlar olmuş mən kimi eşq aləmində dastan,
Sərhədi-mətlub pur möhnət təriqi-imtəhan,
Mənzili-məqsud pur asib, rah-azimun.

Ney kimi nalan olan dildən çıxar cansuzanin,
Guş tutmaz naleyi-cansuzumə ol nazənin,



Yar eşitməz şəmtək yanmış səməndər şivənin,
Şahidi-məqsud, nəvayi-çəngtək pərdənişin,
Sağəri-işrət hübabi-safi-səhbətək nigun.

Abi-heyvan ləbləri, zülf siyah, zülmət məxuf,
Geri dönmək aşiqə bu rahidən töhmət məxuf,
Yetməyə sərmənzili məqsudə min zəhmət məxuf,
Təfriqə hasil, təriqi-mülki-cəmiyyət məxuf,
Ah, bilmən neyləyim, yox bir müvafiq rəhnəmun.

Müncər etməz bir yerə əfkarımı tuli-xəyal,
Çarəsiz bir dərddir fikr eyləsəm də mahü sal,
Qorxum oldur, Nobəri, mən həm olam Məcnun misal,
Çöhreyi-zərdin Füzulinin tutubdur əşki-al,
Gör ona nə rənglər çəkmiş süpehri-niligun.

-226-

Qutarmaz aşiqi-miskin fəraq üzrə nədamətdən,
Əcəl bəlkə xilas eylər məni bir belə halətdən,
Verib canana bu canım, qutarram mən əmanətdən,
Ucaldın qəbrim, ey bidərdlər, səngi-məlamətdən,
Ki, məlum ola qəbrim əhli-dərdə ol əlamətdən.

Təəcüb etməyin dildən gözüm yaşına qan versəm,
Dili-məcruhimi yarın xədənginə nişan versəm,
Könüldə mehri-canana müqəddəs bir məkan versəm,
Məzarım üzrə qoymun mil, əgər kuyində can versəm,

Qoyun bir sayə düşsun qəbrimə ol sərv qamətdən.

Mərizi-eşqiyəm, gəldim dəri-canana dərmanə,
Dili-bimarımın dərdin deyim bir nazlı canane,
Hamı dərdi-dilim bir yan, nədamət dərdi bir yanə,
Görən saatdə ol qamət qiyamın, qıymadım canə,
Qiyamət həm gələ qurtarmaram mən bu nədamətdən.

Cahanı tərk edib Məcnun demə, divanədir aqil,
Bilib dövri-fələk kecdir, işi əfsanədir, nağil,
Vüsali-yar şövqilə edib eşqə dilin mayil,
Qiyamətdə hesabı olmayanlardır ol qafil
Ki, fərq etməz fəraqın şamini ruzi-qiyamətdən.

Tədrisi-fikri-barəmdə nigarın niyyətin bilməm,
Qəbul eylərmi ol məhru, geda ünsiyyətin bilməm,
Əgər tərki-qürur etsə, bu asandır, çətin bilməm,
Təriqi-səbrü tədbiri-səlamət ləzzətin bilməm,
Mənə eşqü məlamət ey dəlir səbrü səlamətdən.

Əgər olsaydı, ey məhru, vəfalı rəhmdil səndə,
Bilərdim ruyi-zərdimdən füzundur dərdü qəm məndə,
Olardı daməni-vəslin əlimdə, ləblərim xəndə,
Təbiət inhirafın gör həvayi-eşqidən təndə,
Əlac et, düşməsin saqi, məzacım istiqamətdən.

Düşüb dəştü biyabanə, gəzdi Qeys holindən,
Edib tərki-vəfa rəsmin çıxarmı sidqi-qovlindən,



Məlamət daşları, Nobər, yağarsa saqü solindən,
Füzuli, keç məlamət guşəsindən, fəqr yolindən,
Fərağət olmayan yerdə səfər eydir iqamətdən.

-227-

Cəfa gəlsə vəfalardır dili-üşşaqə canandan,
Əgər bimari-eşq olsa usanmaz beylə dərmandan,
Çəkib mən rənci-hicranı, bunu öyrənmişəm ondan,
Budur fərqi, könül, məhşər gününün ruzi-hicrandan
Kim, ol can göndərər cismə, bu cismi ayırır candan.

Zəhi müşküldi dərk etmək rəhi-eşqin sərəncamın,
Onun fərq eyləmək olmaz nəharu sübhilə şamın,
Əzabi-firqəti-canan alır təndən dil aramın,
Tutub rəhi-ədəm, bulmuş dəhanından könül kamın,
Mənə cəzmidir ol əzm ki, mən həm qılmazam ondan.

Degil canım şəbi-hicran fəraqi-yaridən rahət,
Mənim naləm sənə xoşdur, mənə səndən gələn möhnət,
Əvəz fəryadü əfğanə dilə vəslin olur hacət,
Qəmim şərh etmək üçün istərəm hər gördüyüm saət,
Tutam damanını, dəgməz əlim çaki-giribandan.

Olubdur sinədə könlüm məqami-matəmi-eşqin,
Gəlir cövlanə hər ləhzə başımda sərsəmi-eşqin,
Xəyalın munisi-dildir, müsahib həmdəmi-eşqin,
Təvafi-kuyin istərdim, qılam bari-qəmi-eşqin,

Xəm etdi qamətim, yollar tutuldu xari-müjgandan.

Dili-məhzunimə dolmuş qəmu ənduhidən xülya,
Hərasim var bu xülyadan olam Məcnun məni-rusva,
Könlüm murği uçub təndən, saçın qüllabidir mava,
Nə xoş ülfət tutubdur natəvan cismilə can, guya
Sanır bir tari-mudur ol səri-zülfi-pərişandan.

Müjən peykani zəxmindən axan bağrımdakı qandır,
Onu cari qılan dildən çirağı-zəxmi-müjgandır,
Bu səhvimdir, dedim, müjgan olar xunriz peykandır,
Oxun gəldikcə çeşmim töksə bağrım qanın ondandır
Ki, bağrım qanına yer qalmadı sinəmdə peykandan.

Kamandır çeşminə qaşın, müşkdir onların tiri,
Bu səyyadın şikargəhdə mənimtək çoxdur nəxciri,
Şikarınbənd edir Nobər, nigarın zülfi-zənciri,
Sitəm daşı, məlamət xənçəri, bidad şəmşiri,
Füzuli, hər cəfa kim, gəlsə canə xoşdu canandan.

-228-

Firqətindir eyləyən ənduhimi həddən füzun,
Qorxuram kim, eyləsin eşqin məni axir cünun,
Neyləyim yox əhli-dil olsun bu zarə rəhnəmun,
Bəzmi-qəm içrə sereşkimdir şərabi-laləgun,
Qıldı xəm qəddim büküb, cami-şərabım sərni-gun.



Əbri-hicrindir edən hər qətrəni gözdən sədəf,
Qəm qubarıdır olan bəhri-dilim ruyində kəf,
Tiri-müjgan qəmzədən bağrımda durmuş səfbəsəf,
Köksümə purxun əliflərdir çəkilmiş hər tərəf,
Ya havadan mövc urar bağrımdakı dəryayi-xun.

Səndən ayrı dil tutub ənduhü qəm ünsiyyətin,
Dərdü qəmdən qurtaram canü dili xeyli çətin,
Bilməyir dil qəm çəkə, yoxsa xəlayiq töhmətin
Artırar əyyami-hicranın sirişkim hiddətin,
Müddəti-əyyamimin mey keyfiyyətin eylər füzun.

Əjdaha vəhm eyləməz guşə tuta əfsun səsin,
Qorxuya salmaz onun möhkəm olan dil pərdəsin,
Etina etməz ona təviz olan sovti-pəsin,
Məskən etmiş yar mari-zülfi çeşmim rəxnəsin,
Pənd vermün kim, onu, ondan çıxarmaz min füsun.

Razi-eşqin kuhkən bihudə dağə söyləmiş,
Eşqidən sərgəştədir kim, özü bilmir neyləmiş,
Həm təriqi-eşqdə adabi-rəsmi bilməmiş,
Qəti-ülfət ğaliba düşvaridır kim, eyləmiş
Nəqşi-Şirin ilə Fərhadı müqəyyəd Bisütun.

Dil gedib təslim olub gisuda mari-zülfünə,
Bağlanıb ol məhvəşin biixtiyar zülfünə,
Mayili-ruxsarıdır heyran tumari-zülfünə,
Rişteyi-can eylədim peyvənd tari-zülfünə,

Ah kim, çəkməkdə imdad eyləməz bəxti-zəbun.

Tabi-hicran eyləsəm, Nobər, rəqibin rənciyəm,
Vəsfi-ruyində onun mən dürrü gövhər sənciyəm,
Etimad etməz ki, mən ol məhrudən inciyəm,
Ey Füzuli, mən məlamət gövhərinin gənciyəm,
Əjdahadır kim, yatar cövrəmdə zənciri-cünun.

-229-

Nəbzim tutdu həkim, bildi həriqin canın,
Xeyli təzyiq ilə dövr eyləməyin dil qanın,
Faş təhriki edir atəşini hicranın,
Dəhənin dərdimə dərman dedilər cananın,
Bildilər dərdimi, yoxdur, dedilər dərmanın.

Görsəniz söyləyin ol zahidi alinəsəbi,
Nə üçün mən eyləyir mənzəri-ruxsarü ləbi,
Çatmayır yoxsa onun sözdə kəmalü ədəbi,
Olsa məhbubilər eşqi cəhənnəm səbəbi,
Hurü qılmanı qalar kəndisinə rizvanın.

Yar ruxsari ilə dil butəsi qanilə dolub,
Qönçə, gül misli ləbi-əhməri peymanə bilüb,
Cüreyi-cami-ləbin nuşinə surətlə gəlüb,
Keçdi meyxanədən el, məsti-meyi-eşqin olub,
Nə mulk, sən ki, xərab etdin evin şeytanın.



Bumudur çarə ki, etdin gözün avarəsinə,
Can fəda etdin onu çeşmi-siyah qarəsinə,
Tiri müjganı verib qaşə, o məhparəsinə,
Qoymaram səhhət üçün məlhəm oxun yarəsinə,
İstərəm çıxmaya zövqi-ələmi-peykanın.

Zövqi yoxlar nə bilir gövhəri-ləlin şərəfin,
Tohi dəryadəki yox dürridən agahi kəfin,
Üqdə eylər işini tapmayan ucun kələfin,
Nə bilər oxumayan məshəfi-ruyin şərhim,
Yerə göydən nə üçün əndigini Quranın.

Dudi ahi-dilimin tirə qılıbdır fələyi,
Çünki yetməzdir ələ dilbəri-məhru ətəyi,
Hasil olmaz, nə qılım sinədə könlüm diləyi,
Yerdən ey dil, göyə qovmuşdu serəşkim mələyi,
Onda həm qoymayacaqdır oları, əfğanın.

Dost bişofqət olub, talei bəxt oldu zəbun,
Dərdi-dil həddən aşıb, möhnəti-yar oldu füzun,
Nobəri, mən nə edim bəxt belə, hali-künun,
Ey Füzuli, olubam qərqeyi-girdabi-cünun,
Gör nə qəhrin çekirəm dönə-dönə dünyanın.

-230-

Üzün rəşki dolandırmış ziyasın qərbə məhtabın,
Gedər surət şitabilə, götürməz hüsnüyün tabın,

Ləbin rəngilə bir gördüm nəhayət rəngin innabın,
Ləbin rəşkiməzacın təlx qıldı badeyi-nabın,
Qaşın meyli üzünü qibılədən döndərdi mehrabın.

Açılmış qönçədən ruyin güli fəsli-baharıtək,
Ləbindir bağü rizvandan axan kovsər kanarıtək,
Saçın pur piçtabıdır çəmənlər şahmarıtək,
Kürelər oldu canım riştəsi təsbih tarıtək,
Mənə gör neylədi bu arzusu zülfi-purtabın.

Təəccübdən gözün fikri veribdir nərgisə heyrət,
Üzün zövqində var mütləq dili-üşşaqə cəzbiyyət,
Nəsimi-sübh bağ içrə qoyar hər dəm sənə minnət,
Ayağın tozuna üz sürtməyə verməz səba rüxsət,
Üzün yüz mərrə şəbnəm yumadın gülbərgi-xəndanın.

Ləbi-ləlində şəhdiyət dili-üşşaqı şad eylər,
Üzün şövqi könül zövqin günü gündən ziyad eylər,
Pərişan zülfi-cananı əsəndə tünd bad eylər,
Səba ol zülfi tərpəndikcə təşvişim ziyad eylər,
Sakın, tərpətmə kim, bağrımdadır başı bu qullabın.

Günəş ruxsarına mayil, qəmərdir qaşına məftun,
Çıxar xurşid, üzün görməz, qürubində olur məhzun,
Çəkər məyus dil ahin, qoyar əflakə rəndi-xun,
Dərü divarına qostax, üz sürmüş diyib gərdun,
Üzünü gecələr ta sübh sürtər yerə məhtabın.



Səadətməndi-dövranım, sənə qurban olarsam mən,
Qulami-dərgəhin olsam, taparsam ali cahü şən,
Nedim kim, xahişim əksin müqərrər eyləyirsən sən,
Məhəbbət zahir etmək zəminine qan tökmək istərsən,
Həbibim, munca kim, rəğbət nədir, qətlinə əhbabın?

Şərari-nari-ahimdən yanar səhradakı xəslər,
Təni-bimarıma tənha şəbi-hicran salır bəstlər,
Üzün tutmuş bu hal ilə, yenə Nobər səni səslər,
Füzuli, qəmzeyi-mərdum guşindən iltifat istər,
Sanır kim, iltifatı var ola qurbanə qəssabın.

-231-

Übur etdim xəyalilə qəmü möhnət diyarından,
Əl üzdüm eyşü işrətdən, cahanın bağı zarından,
Olub biehtina dəhrə, onun getdim kanarından,
Əgərçe iynətək keçdim cahanın cümlə varından,
Hənuz ardımcadır qeydi-təəlüq zülfi-tarından.

Şəbi-hicran xəyalıma ruxi-alın həmağuşdur,
Yataq hicridə tənha, mükəddər dil, əli boşdur,
Bu həm bir lütf kim, fikrin dilə həmsöhbət olmuşdur,
Şəhidi-eşq olub, feyzi-bəqa kəsb eyləmək xoşdur,
Nə hasil bivəfa dəhrin həyati-müstəarından.

Nigarım mehrini vermiş dilə, bilmiş məni baliğ,
Əcəbdir onda bu kar, cahanə dövri-binalığ,

Olub məlumi əğyarın, xulusunda var ədnalığ,
Hübabi-əşkü ahi-purşərər qılmış məni farig,
Cahanın qəsri siməndudü kaxi-zərnigarından.

Salıbdır həsrəti-ruyin məni tabü təvanımdan,
Olub diltəng həmsayəm gecə-gündüz fəganımdan,
Xəbərsiz olmusan canan, bu çeşmi-xunfəşanımdan,
Görünməz surəti-ümmidi-vəslin lövhi-canımdan,
Mükəddərdir məgər ol ayinə cismim qubarından.

Zəhi xoşdur ki, dil dolmuş vüsali-yar zövqilə,
Dolu peymanələr tutmuş ruxi-gulnar zövqilə,
Dəmadəm şad olur könlüm ləbü ruxsar zövqilə,
Uzanır rişteyi-tuli-əməl didar zövqilə,
Xəm açıldıqca ol gülçöhrə zülfi-tabından.

Məhəbbət naqəni Məcnun diyarına yeritmişdir,
Təmamən dəştü səhranı cərəs sovti kiritmişdir,
Çununun ahı-cansuzi fələk çərxinə yetmişdir,
Sənədir iqtidası tovfi-kuyi- Leyli etmişdir,
Xəsü xarı qopar ey naqe, Məcnun rəhguzarından.

Əgər Nobər qəmin töksə, dolar başdan-başa dünya,
Dilin təmkini var, etməz özün Məcnun kimi rüsva,
Olan yox halına vaqif, dolub qəmlə dili, dərya,
Füzulidən məlamət ehtirazın istəyən guya
Degil vaqif dili-suzanü çeşmi-əşkbarından.





Könül, tərk eyləməz canan qəmində ahü əfqanın,
Olar fəryadı dəhşətli, sədası dəştü səhranın,
Sitəmli tənədən axir olar Məcnuni dünyanın,
Görüb mühlik mənim çevrəmdə bəhri-eşq tuğyanın,
Qaçıb bir dağə çıxmış kuhkən, qurtarmağa canın.

Edibdir qəmzə peykanı dili-məcruhimi yarə
Ki, bu zəxmə nə məlhəm yox müalicdən nə bir çarə,
Gərək izhar edək, ey dil, nihan bu dərdi dildarə,
Veribdir itlərinə könlümü ol şux min parə,
Buluşdurmuş kəsib ərbabi-istehqaqə qurbanın.

Tutubdur dəştü səhranı sərasər dadü əfğanim,
Üzün görcək təəşüqdən düşüb dərdə dilü canim,
Müalicdən degil mümkün dili-bimarə dərmanim,
Görüb eyb eyləməz ol kim, mənim çaki-giribanim
Görüb sərməst çıxdıqda onun çaki-giribanın.

Könül, bimehr cananın guzarından ötüb keçmə,
Gözüm, sən həsrət ahilə cigər pürkaləsin deşmə,
Güzəşt eylə gözə ey dil, qisasın fikrinə düşmə,
Könül, qəm həmdəmidir qanın, ey göz mərdumi, içmə,
Bilirsən qanə qandır, qəm sənə qoymaz onun qanın.

Sücudin taqi-mehrabə edər zahid, vəli biça,
Gedən əyri təriq ilə, dilə zəhmət qılar peyda,

Mənəm bir sərvqamətlə gülüzlüdən olan şeyda,
Gözün kim guşeyi-mehraba dönmüş can qılır yəğma,
Bu şəhrin etmək olmaz fərq kafirdən müsəlmanın.

Səni xəlq eyləyib gözəl bir hüsnilə yoxdan,
Üzün huri-mələkmənzər, şəmayil surətin insan,
Mənimtək min-min aşiqlər edər canın sənə qurban,
Qılırlar dəvil-eşqin gözüm mərdumləri çoxdan,
Nə hacət yaşların sormaq, bilirlər Nuh tufanın.

Tutmuş Nobəri, dəştü biyabanlar fəğanından,
Gətirdin movcə dəryanı bu ahi-cansitanından,
Yetib min qəmzə peykanı dilə ol mehribanından,
Füzuli, çəkmə yaxın oxların, bir ləhzə canından,
Sənəmi qaldı çəkmək hər zaman bir yar hicranın?

-233-

Könül, tərk eyləmə eşqi, kəsilsən bənd bəndindən,
Məhəbbət bəslə canənə bu ömri-sali-çəndindən,
Muradi-mətləbin istə ləbi-kərari-qəndindən,
Şəfa lütf et dili-bimarə ləli-nuşxəndindən,
Oyan, həm olma, ey bidərd, qafil dərdməndindən.

Qədəm qoymaqı mən bildim, fəzayi-eşqinə qandır,
Süfufi-ləşkəri qəmdir, bu meydan qanlı meydandır,
Müqabil dursa hər aşiq, kəman əbruyə qurbandır,
Səməndin qəstimə səkritdin, amma qorxum ondandır



Ki, səbqət edə nagəh tövsəni-ömrüm səməndindən.

Şəbi-hicranidə həsrət gözüm qan-yaşilə dolsun,
Qəmindən rəngi-ruxsarım giyahi-xoşktək solsun,
Xəraşi-sinə dırnaqım edib, muyi-sərim yolsun,
Muradi-xatirin gər müşkül olmaqdır işim, olsun
Nə çarə, keçmək olmaz xatiri-müşkülpəsəndindən.

Ləbi-cananidən düşdün mənim mislim, kanar, ey ney,
Edərsənmi görüm dilsiz fəğanü nalə, zar, ey ney,
Uzaq olmuş könül ondan, yenə fəryadı var, ey ney,
Deyirdim, var səndə ol həva kim, məndə var, ey ney,
Dəm urduqca əgər çıxsaydı atəş bənd-dəndindən.

Düşüb canan üçün könlüm soraqi-eşqə, ey zahid!
Qoyubdur canı sərmayə suqaqi-eşqə, ey zahid!
Olub xilqət dəmi daxil rəvaqi-eşqə, ey zahid!
Məriz eylər məni pəndin məzaqi-eşqə, ey zahid!
Diriğ eylə ki, məhzuzəm sənin peyvəstə pəndindən.

Xəyali-zülfi-müşkindir müqərrər, qəlbi-məhzunda,
Təsəvvür qıl, mülənbəsdir fuadım bir qara donda,
Gəlibdir cünbəşə, Nobər, buxarım dudi-gərdunda
Kəməndi-dudi-ahındır, Füzuli, çərx boynunda,
Əcəb səyyadsən kim, çərx qurtulmaz kəməndindən.

-234-

Yar qoymaz ki, tuta mən kimi rüsva ətəgin,
İzn verməz ki, tutam qamətli-tuba ətəyin,
Yox rizası, öpəm ol nərgisi-şəhla ətəgin,
Ələ alır yürücək ol güli-rəna ətəgin,
Vəhm edir kim, tuta bu aşiqi-şeyda ətəgin.

Qətrə-qətrə gözümün yaşı axar şamü-səhər,
Qarışıb göz yaşına, oldu rəvan xuni-cigər,
Bəhri-dil vərtəsidir, göz axıdır ruyə məgər?
Dadilər qılmağa ol kafir əlindən, gecələr
Çıxar ahim ki, tuta göydə Məsiha ətəgin.

Xadim olmaqdı mənim, yarə xəyalım dunü gün,
Taleim qılsa mədəd, xahişim eylər mümkün,
Fikri-yarımdır edən cismi-zəifim düşkün,
Bildi kim, çakəri oldum ətəgin tutmaq üçün,
Götürür, düşməyə qoymur yerə əmda ətəgin.

Bəhri-dil movcə gəlib, eyləsə tuğyan əgər,
Göz tökərsə yaşını arizimə şamü səhər,
Ahi-dildən qurumaz mərdümi-çeşmimdəki tər,
Şamilər qanlı yaşım movcinə əlbəttə dəyər,
Hər necə kim, götürə çərxi-müəlla ətəgin.

Husini baş itirir, fəhm olu idrakilə dun,
Eşqi-bimarinə gər olmasa bir rahnəmun,



Kəsrəti-qəmdən olar qaməti xəm, hərfidə nun,
Ola üryan gərək avareyi-səhrayi-cünun
Ki, təəlüq tikəni tutmaya qəta ətəgin.

Aşiqi-sadiq olan yarinə üftadə olur,
Qəmli gözdən baxışı xoş, ürəyi sadə olur,
Can fəda etmək üçün yarinə amadə olur,
Rind xak olsa dəxi dürdi-xümi-badə olur,
Nə isə, qoymaz əlindən yerə səhba ətəgin.

Yıxma rükni-bədəni, Nobəri, qəmnak edibən,
Daməni-yarını tut eşqidə dil pak edibən,
Etmə göz nurini kəm, gəryədə nəmnak edibən,
Güllər açıldı, Füzuli, yaxalar çak edibən,
Gəl tutalım meyü məhbub ilə səhra ətəgin.

-235-

Doldurubdur mehr ilə xilqət dəmi aşiq tənin,
İbtida ərvahidən görmüş məhəbbət gülşənin,
Bülbüli-şeyda olub gülşənlərə salmış ənin,
Süni-memarı yasar saətdə gərdun məxzənin,
Dudi-ahim çıxmağa yapmış kəvakib rovzənin.

Göz tökər yaşın, sənin hicranının fərmanıdır,
Qan ilə məxlut ola, giryan gözün imkanıdır,
Əşk kim, gözdən gələr, tutqun dilin tufanıdır,
Gün batır, ulduz çıxar sanmın ki, göy dehqanın,

Gecə ahim dağıdır, gündüz yığılmış xirmənin.

Qüssəvü qəmdir olan canü dil ilə müddəa,
Qəm şəriki-dil olub xilqət dəmindən ğaliba,
Kim edir hicranidə göz mərdümin əhli-bəka,
Göz tökər israf ilə xunabi-ləlin guiya
Kim, cigər tağında ol ləlin bulubdur mədənin.

Hansı covrin söyləyim, bilməm, ol məhru dilbərin,
Həsrətində hər gecə könlüm edər neytək ənin,
Bu əcəbdir dil yanır, ahim çıxır dildən sərin,
Dözmək olmaz tigi-bidadinə şirin ləblərin,
Gər fələk Fərhad-vəş daş etsə üşşaqin tənin.

Nobəri, sən gəzmədin Məcnun kimi səhra nədən?
Yoxsa vəhm etdin olan ol binəvayə tənədən?
Sən səri-kuyi nigarı eylədin daim vətən,
Ey Füzuli, sübhtək çak eylə sən də pirəhən,
Bilməyə kimsə giribanından anın damənin.

-236-

Döndəribdir gülşənə bu bülbüli-şeyda üzün,
Şaxi-güldə istəyir görsün güli-hümra üzün,
Sərvə baxsın, yad edib, ol qaməti-tuba üzün,
Görməsəm hər göz açanda ol güli-rəna üzün,
Göz yumunca əşki-gülgunum tutar dünya üzün.



Eşqi cananım olub xilqət dəmində məsləkim,
Mən mərizi-eşqiyəm dərdi-dilə oldur həkim,
Çarə bulmaz bu nihan dağı-dirunə heç kim,
Gərçi kafirsən sənə, ey büt, yetər bu əcr kim,
Rəğbətin bütxanədən döndərdi yüz tərsa üzün.

Nərm olunmur atəşi-ahilə qəlbi-ahənin,
Qələyi-fuladidən möhkəmtərin simin tənin,
Kargər düşməz sənə olsa nə qədri düşmənin,
Pərdeyi-çeşmimdə nəqşi-cövhəri-tiğin sənin,
Mövcə bənzər kim, tutar təhriklə dərya üzün.

Guşimə hər dəm yetər dəhşətli sovtilə xitab,
Asımanı əbr alar ol vəqt, görünməz afıtab,
Gərdişi-dövran üçün hər saniyə var inqilab,
Olma, ey səhranişin, qafil, degil hər su sərab,
Mövci-əşki-gərmi-Məcnundur tutan səhra üzün.

Qat olur göz yaşimə hicranidə xuni-cigər
Kim, axar damanimə xunabəsi şamü səhər,
Guş tutmazmı mənim bu naləmə canan məgər,
Yadi-ruxsarilə ol mahın gözüm qan-yaş tökər,
Hər görən saətdə xurşidi-cahanara üzün.

Könlümü etdim sənə təslim xilqət çağından,
Keçdim əmlaki-cəhan canilə cümlə varindən,
Payibəndi-zülfünəm, tut bir xəbər dustaqindən,
Ar edib döndərmə üz, ey bixəbər, üşşaqidən,

Munca həm göstərmə fəqr əhlinə istiğna üzün.

Nobəra, gözdür tökən ruxsarimə hər yan nəmi,
Ayrılıqdır eyləyən sakin dili-zarə qəmi,
Tar olur könlüm, gözüm görməzsə yari, bir dəmi,
Ey Füzuli, dudi-ahim tirə eylər aləmi,
Görməsəm hər ləhzə ol mahi-mələksima üzün.

-237-

Əgər Fərhad töksəydi ol dağə qəmli göz yaşın,
Edərdi qərqi-silab sirişki-çeşminə başın,
Neçün rahət dayandırmış o gün çeşmi-göhərpaşın,
Qurutmuş qaliba şövq odu Fərhadın gözü yaşın,
Əgər axsaydı ləl eylərdi bişək Bisütun daşın.

Fəraqi-yaridə nalan olan ancaq mənəm dilxun,
Fəğanım bülbülasadır səri-kuyində gunagun,
Gözüm nalan olub yarın fəraqində dilim məhzun,
Bəla yolunda ğovğayə haçan məntək dözər Məcnun,
Haçan məntək dözər ol yey bilir hər kimsə yoldaşın.

Kəsilsəm bənd-bəndimdən yenə əl çəkmərəm səndən,
Fəğani-bülbüli-şeyda kanar olmaz ki gülşəndən,
Eşitməzsən mənim naləm, sənin qəlbindir ahəndən,
Demin göz yaşı ilə dəf olur eşq atəşi təndən,
Bu od hər yerə düşsə fərq etməz qurudan yaşın.



Ləbin sirrindən agahəm, hesab etmə məni cahil,
Yaratmış sün memarı vucudi-aşiqi kamil,
Belə idrakilə olmam vüsali-yaridən qafil,
Bəyani-eşqə bəsdir lovhi-ruxsarində xuni-dil,
Bəsirət əhlinə zahir qılar hər nəqş nəqqaşın.

Fəraqi-yaridə Nobər, mükəddər, dil pərişanəm,
Deyirsən aqilü dana nəhayət sirf nadanəm,
El ağzından eşitdim söz, cavabım var şadanəm,
Füzuli, badəxari duzəxi der xəlq, heyranəm
Ki, neçün həqq salıbdır cənnətə meyxanə ovbaşın.

-238-

Ah, bilməm neyləyüm mən bu dili-purdağılən,
Ziri-səqfi-sinədə məhbus olan dustaqilən,
Arzuyi-vəsl edən kamə dili-müştaqilən
Kuhikən künd eyləmiş min tişəni bir dağılən,
Mən qoparıb salmışam min dağı bir dırnağilən.

Dadü fəryadü fəğan aşiqə vardır səbəb,
Rəhm qılmaz aşiqi-qəmdidəyə ol qonçələb,
Guşeyi-meyxanədən tədris edin rəsmi-ədəb,
Qəm yolunda mən qalıb, getdisə Məcnun, nə əcəb,
Xəstəyə düşvar olur həmrəhlik etmək sağilən.

Fikri-əbrudur edən aşiqlərin qəddini xəm,
Kəsrəti-qəmdir edən göz mərdumin hicrində nəm,

Məhliqalərdir edən eşq əhlinə cövrü sitəm,
Ömrümün nəqdin oğurlar eşq bazarində qəm,
Görmək olmaz sud sövdadə yaman ortaqilən.

Qeyri-mümkündür dili eşq əhlinin rahət ola,
Göz gərəkdir həsrəti-ruxsaridən qanə dola,
Leyliveşlər aşiqin Məcnun edib salsın yola,
Gərdi-rahin verməsə göz yaşinə təskin, nola,
Tutmaq olmaz boylə seylabın yolun toprağilən.

Mərdümi-çeşmim şəbi-hicranilər bilməz mənam,
Arzusu könlümün vəsli-nigarımdır təmam,
İzn ver ta Nobəri olsun qapunda bir ğulam,
Rovzeyi-kuyində bulmuşdur Füzuli bir məqam
Kim, ona cənnət quşu yetməz minil uçmağilən.

-239-

Müddətdi ki, mən bixəbərəm taci-sərimdən,
Hicrində keçir möhnətü qəm dövrü bərimdən,
Qəmdir axıdan əşkimilə qan cigərimdən,
Gərdi-rəhin, ey əşk, yudun çeşmi-tərimdən,
Tərki-ədəb etdin, nola düşsən nəzərimdən.

Dərdim də tükənməz ki, deyim ani dil ilə,
Qəm tozu tutub çeşmeyi-çeşmimi gil ilə,
Kipriklərim al oldu axan xuni-dil ilə,
Xunin müjələrdirmi və ya mərdüm əlilə,



Oxlar çəkilib, dişrə atılmış cigərimdən?

Yox mən kimi eşqilə olan zarü fitadə,
Bülbül ola bilməz bu qədər dadü nəvadə,
Qoydun məni-əfsurdədili covrü cəfadə,
Hər badə ki, sənsiz içirəm bəzmi-bəladə,
Xunab olub, əlbəttə, çıxar didələrimdən.

Fəxr eyləyirəm gözdə olan abi-sirişkə,
Bağrım odu hicrində verir tab sirişkə,
Qəmnak olaram didədə nayab sirişkə,
Xoşhal oluram eşqidə xunab sirişkə,
Xaşaki-təəlluq qoparar rəhgüzarimdən.

Məcnun kimi səreşktə səhrayi-bər oldum,
Rüsvalığa ondan da mən əfsürdətər oldum,
Dünyayi-dindən necə gör bixəbər oldum,
Daşlara dögüb başımı rüsva gəzər oldum,
Ey əql, qaçıb qurtar özün dərdi-sərimdən.

Ətrini verir sübh nəsimi mənə hər sübh,
İrsal eylə zülf ətrini, qoyma sona, hər sübh,
Ondan ötrü mən baxıram hər yanə, hər sübh,
Kəs mehrini, ey çərx, günəşdən, sənə hər sübh
Bir şölə yetər atəşi-ahi-səhərimdən.

Nobər, belədir ruzi-əzəl eşqin üsuli,
Kim aşiq ola, olmalıdır qəlb məlüli,

Min rənc çəkəndən soradır yarə vüsuli,
Simabi-sirişk etdi məni qərqə, Füzuli,
Ta dövr cüda qıldı buti-simbərimdən.

-240-

Mülki-dinin dəhridə bilmərrə viran olmasın,
Küfrə rəğbət bəsləmək dildə nümayan olmasın,
Şəriün əhkaminə könlümdə noqsan olmasın,
Cəm könlün çərx dövründən pərişan olmasın,
Çərx fərmanınla gəzməkdən peşiman olmasın.

İntizami-dövr əgər sənlə münəzzim olmasa,
Hər miləldən millətin şanı mükərrəm olmasa,
Tabei-fərmanbərin cin ilə adəm olmasa,
Yer işi, gög cünbişi rəyinlə bir dəm olmasa,
Yeddi iqlimü doqquz gərdunə gərdan olmasın.

Vacib olmuşdur bizə daim səninçün ehtiram,
Tərki-əhkam eyləyən hər nəfsə can olsun həram,
Kovkəbi-bəxtin səadət burcini qılsın məqam,
Bir binadır dövlətin, olmuş pənahi-xasü am,
Ol bina ya rəbb, cahan olduqca viran olmasın.

Nuri-pakından sənin oldu münəvvər afitab,
Kakili-mişkininin şövqilədir seyri-səhab,
Xaliqi-külli-cəhan etsin duamı müstəcab,
Qılmasa aləm muradınca mədar, olsun xərab,



Olmasa dövran sənin rəyincə, dövran olmasın.

Səndən almış nurini xurşidi-tabanü qəmər,
İsmi peykanla durur beylə muəlləq kürələr,
Xəlq edib xaliq səni dünya üçün xeyrülbəşər,
Dustilər kamınca fərmanində dövran cizginər,
Hakimi-təqdiridən təğyiri-fərman olmasın.

Ayə-ayə qailəm gögdən gələn Quranına,
Etmişəm iqrar həm ol Qadiri-Sübhanına,
Cəbrim bimarı olub göz tikmişəm dərmanına,
Tabe olsun cümleyi-aləm sənin fərmanına,
Cümleyi-aləmdə səndən qeyri sultan olmasın.

Göz nədir, ey Nobəri, gər höqqeyi bina olmasa,
Dil nə lazım, xaliqin zikrində şeyda olmasa,
Surəti-insan nədir nurani sima olmasa,
Ləhzə-ləhzə gülşəni-mədhində guya olmasa,
Bülbüli-nitqi Füzulinin xoşəlhan olmasın.

-241-

Ram olmadı məramıma bir ləhzə bəxti-dun,
Qaldı məni fəraqi-ruxi-yar ilə zəbun,
Bir rəhm edən tapılmadı olsun da rəhnəmun,
Topraqdən götür məni, ey əşki-laləgun!
Başımdən etmə sayəni kəm, ey hübabi-xun!

İstər rəqib mənzili-məqsudə yetməyim,
Rüxsari-yarə bir dəfə nəzzarə etməyim,
Göz mərdumin fəğanlı bükadən giritməyim,
El tənəsindən istərəm ol kuyə getməyim,
Öz ixtiyarım ilə məni qoyma, ey cünun!

Olma razı bu halımı əgyarilər bilə,
Onlar salar nihan dilimin dərdini dilə,
Ey göz yaşım, qurutma məni, salma müşkülə,
Təskin bulur cigərdə hərarət sirişk ilə,
Suzi dil ilə sinədə rahət olur füzun.

Hicran şəbində əşkimi gözdən füzun tut,
Qani-cigərlə qətrələrin laləgun tut,
Aram olma bir dəmi, nə bir sükun tut,
Kəsmə cigər təəllüqin, ey didə, xun tut,
Mehrin sovutma sinədən, ey atəşi-dərun!

Ey bəxt, etmədin məni məhbubunə həbib,
Səy təlaşın etmədi ol mahimə qərib,
Can çıxmağa tədarik edir təndən ənqərib,
Bir gün bizə səadəti-vəsl etmədin nəsib,
Bizdən götür nühusətin, ey tale zəbun!

Rəncidədir bu taledən canü-dil düzü,
Bu bəxti-nəhsi görməyə yox qəlbimin gözü,
Könlüm suvalinə nə olar bəxtimin sözü,
Ol qəmzə xəncərinə bir uğratmadı bizi,



Kəs bizdən aşınalığın, ey bəxti-vayigun!

Yar eyləyibdi Nobərə əğyarı dildəraz,
Eylər həmişə aşiqinə işvə, ərkü naz,
Ahi-dili səmalərə mən eylərəm diraz,
Ey-çərx, qıl Füzulinin ahindən ehtiraz
Kim, bir gün etməyəydi taqini sərnigun.

-242-

Dil necə hicranidə eyləyib qəm bulmasın[1],
Tabi-hicran eyləyib, göz mərdümi nəm bulmasın,
Yandırsın canın şəmə pərvanətək, şəm bulmasın,
Barı-möhnətdən nihali-qamətin xəm bulmasın,
Başımızdan sayeyi-sərvi-qədin kəm bulmasın.

Rəngi-ruyim həsrəti-ruxsarin ilə solmasa,
Gözlərim xunabeyi-həsrətlə sənsiz dolmasa,
Çak edib sinəm, əlim hicrində muyim yolmasa,
Hasilim ruxsaru ləlü çeşmü qəmzən olmasa,
Ömr bir dəm, bir zəman, bir ləhzə, bir an bulmasın.

Ey xoş ol üşşaqə kim, mehri-ruxun tutmuş dilə,
Şübhə yox kim, tez yetər bu doğru yoldan mənzilə,

[1] Bu təxmisin əvvəlində, sərlövhə şəklində yazılmışdır: Dər vəsfi-həzrəti rəsul (ə) – Dərtosifi-həzrəti Məhəmməd Əleyhüssəlam.

Oldu ərzi-asıman mizan, sənin vəznin belə,
Gərdi-rahin əzmi-gərdun eylədi bu qədr ilə,
Şöhreyi-aləm həmin İsaye-Məryam bulmasın.

Mərdümi-çeşmim zəif olmuş binadən var həras,
Qarədir mərdumləri, qəm geydirib qarə libas,
Həsrəti-ruxsaridən qəmgin olub tutmuşlə yaş,
Tutiya çəkdirməgə etdim səbadən iltimas,
Ağlama ey göz, qübari-dərgəhi nəm bulmasın.

Qüdrəti-həqdir sənin bu xilqətin bişübhə, şək,
Əl mənimdir, vəslinə doğru olan, səndə ətək,
Olmaz ey gül, cənnətin huriləri səndən qəşəng,
Səntək adəm gəldiyin bilmişdi kim, həqdən mələk
İltimas eylərdi kim, aləmdə Adəm bulmasın.

Ta ki, düşdi başimə xilqət dəmi sovdayi-eşq,
Saqiyi-xoşru mənə təqdim edib səhbayi-eşq,
İltifatım Qeysə, həm Fərhadədir bir payi-eşq,
Der imiş zahid ki, olmaq eybdir rüsvayi-eşq,
Bu sözü faş eyləyib rüsvayi-aləm bulmasın.

Bil qənimət Nobəri, çun kim, bu dövran heyfdir,
Zülftək zülmatidə qalmaq pərişan, heyfdir,
Damənindən tutgilən çun kim, bu canan heyfdir,
Ey Füzuli, zövqi-dərdi-eşqə nöqsan heyfdir,
Ehtiyat et, pənbeyi-dağında mərhəm bulmasın.



-243-

Bilmədim hicranidə dərdə düşsən can olduğun,
Dərdi-eşqi-aşiqə düşvar dərman olduğun,
Aşiqə biqeyd olan dilşadü xəndan olduğun,
Nola zahid bilsə kufri-zülfün iman olduğun,
Şimdi görmüşlər məgər kafir-müsəlman olduğun.

Mənligimdən dişrəyə çəkdim dili-xudbinimi,
Eşqə mayildir dilim, tərk istəmişdir kinimi,
Qoy mənim bilsim hamı əhli-cəhan ayinimi,
Verməsəydim qarətə, aşiq olub mən dinimi,
Kim bilirdi eşq mülkü kafiristan olduğun.

Daxil etdim könlümə eşq düşəndə, qəmləri,
Oldu onlar könlümün hicran şəbi həmdəmləri,
Dürrü gövhər gəncinə malik gözüm mərdümləri,
Qıl səvab, ey göz, töküb qan, vaqif et qafilləri,
Meyl edənlər eşqə, bilsinlər cigər qan olduğun.

Səhv bildim, ibtida eşqə düşən vəqtimdə mən,
Belə bildim, ram olur məqsudimə ol güldəhən,
Ah kim, gül şaxinə çəspidədir hər yan tikən,
Eşqini asan bilib oldum əsiri tif ikən,
Bilmədim getdikcə bir aşubi-dövran olduğun.

Zövqi-vəsli-yar ilən, ey Nobəri, çəkdin nəfəs,
Sadiayi-eşq ilə saldın hamı dünyayə səs,

Sən neçün yad etmədin Məcnun ilə Fərhadı bəs,
Ey Füzuli, xublər vəslinə eylərsən həvəs,
Guya sən bilmədin vəsl içrə hicran olduğun.

-244-

Ol məhi-tabanımı çoxeylədim mən imtəhan,
Aşiqi gəh öldürür, gahi verir bir tazə can,
Bəhsini tərk eyləsin onunla xurşidi-cahan,
Yerə düşməz hər nə kim, ox atsa ol qaşı kəman,
Gün şüailə onun çox fərqi var, ey asiman!

Düşmədim Fərhadtək dağlarə, oldum möhtərəm,
Ol ləbi-şirin deyir, şirindən şirintərəm,
Mehrimi tut, söyləyir, eşq üzrə başə əfsərəm,
Eşq namusu mənü Məcnunə düşmüş lacərəm,
Qəm yükün çəkməkdəyiz mən bir zaman, o bir zaman.

Mən təəcüb eylədim hicran çəkən dil tabinə,
Çunki can məxsus olub qurban ola əhbabinə,
Fövci-qəmlər könlümün purkaləsin qılmış bənə,
Yox rəhi-eşqində bir mənzil yaşım girdabinə,
Yol itirmişlər işi sərgəştə gəzməkdir həman.

Firqəti-hicraninə ahənmidir aşiq dili?
Tab edər hər möhnətə, damaninə yetməz əli,
İntihayi-ömrünə məxsus olan bir gün gəli,
Kam mümkündür uzun ömr ilə zülfündən, vəli



Bulmaq olmaz dövri-ruxsarında xəttindən aman.

Vaqifi-hali-dili-zar olmadın ey məhçəbin,
Qeyrə izhar eyləmək mümkün degil dil mətləbin,
Nari-hicran artırır hər ləhzə bu canın təbin,
Heç kim sirri-dəhanın bilməz ol İsaləbin,
Aləmi qovğayə salmışdır mücərrəd biguman.

Bəd nəzərdən qıl həzər, səd əlamanü əlaman,
Gul kimi ruxsarını hər nakəsə qılma əyan,
Xeyrxahin bil məni, məndən sənə gəlməz ziyan,
Çeşmeyi-xurşididən tut, şəmvəş, ruyin nihan,
Nuri-çeşmim axtar, az olmaz yaman gözdən yaman.

Nobəri, əfzuntər et yarə məhəbbət dəmbədəm,
Bilmə qəmdir sinədə dildaridənsə bu qəm,
Səbr edən dərdə olur canan yanında möhtərəm,
Ey Füzuli, çəkmə sən, rahi-təvəkküldən qədəm,
Mənzili-məqsudə yetməkdir müqərrər bir zəman.

-245-

Ol pərivəşdən qəmim Məcnun qəmindəndir füzun,
Şükr ki, mən olmadım xilqətdə anə həmqurun,
O düşüb səhralərə adını qoymuşlar Cünun.
Ta sirişki-dideyi-Fərhadi gördü laləgun,
Çeşmələr suyini gözdən saldı kuyi-Bisütun.

Huşi-idrakım mənim bilmərrə başımdan gedib,
Şöleyi-ahi-dilim səthi-səmani gərm edib,
Məst layəql mənim ruhum, vücudumdan gedib,
Ta ələm qaldırdı ahi-ataşinim şərm edib,
Qıldı xurşidin fələk zərrin libasın sərnigun.

Ellərə Məcnun özün məşhur edub bir ad üçün,
Düşmədim səhralərə eldən gələn irad üçün,
Kuhkən bir dağ çapıb öz namınə ustad üçün,
Daş bağırlı olsaydı Bisütun, Fərhad üçün,
Su yerinə axıdardı gözlərindən seyli-xun.

Məndən əl çək, ey həkim, səyi-nicatım eyləmə,
Bir mərizəm çarəsiz fikri-həyatım eyləmə,
Qeydsiz adəmlərə bu ixtilatım eyləmə,
Ey görən min dağilən səbrü səbatım, eyləmə,
Nisbətim Fərhadə kim, bir dağilən oldu zəbun.

Rəsmdir aşiq deyər pünhan qəmin yoldaşinə,
Sirri-dil vermək gərək dilbəst olan sirdaşinə,
Eşqə imkan yoxdu bu dil guşəsindən qaşinə,
Quş yuvasi sanma kim, biçarə Məcnun başinə,
Xarü xəs cəm eyləmiş girdabi-dəryayi-cünun.

Mehri-canan dildədir, əl çəkmək olmaz eşqidən,
Su tökülməz mütləqa sər möhr olan bir müşkidən,
Tuli-şəb hicran çəkən aşiq doyarmı əşkidən,
Ta göründü səfheyi-ruyində xəttin rəşkidən,



Daşə çaldı aftabın sadəlöh çərxi-dun.

Zülfi bildim Nobəri, zülmat, getdim, hanı Xızr,
Abi-heyvandır ləbi mən nusin etdim, hanı Xızr,
Canımı canan olan səmtə yeritdim, hanı Xızr,
Ey Füzuli, xaki-kuyi-yarə yetdim, hanı Xızr
Kim, verib kamın, olam abi-həyatə rəhnümun.

-246-

Nəfəs verincə alovlar çıxar dəhanımdən,
Fəraqın atəşi kəm bulmadı bu canımdən,
Alışdı canü dilim ahi-canstanımdən,
Çirağ göndəricək atəşi-nihanımdən,
Fitiləsin edirəm məğzi-üstüxanımdən.

Hərami gözlərinə rəşk edirlə rəhzənlər,
Yanında şərm eyləyər mahru olan tənlər,
Kəman qaşında səf çəkibdi peykənlər,
Açıldı girməyə qəm, can evinə rövzənlər,
Çəkəndə oxlarını cismi-natəvanımdən.

Həlakimə müjən ox qaşını kəman etdin,
Bu qəmzə zəxmilən cismimi natəvan etdin,
Sitəm xədənginə sən aşiqi nişan etdin,
Oxun təsərrüf edib cismi, qəsdi-can etdin,
Noleydi rəhm qılıb çıxmasaydı canımdən.

Quru nəfəsdi qalan cismimdə, demə candır,
Duruni-dil, cigərim zəxmdar peykandır,
Bilindi ellərə dərdim ki, eşqi-canandır,
Bir iynə etdi məni zəf riştəm, ol qandır
Ki, müttəsil tökülür çeşmi-xunfəşanımdən.

Məni bu zəxmi-xədəngi-sitəm yəqin ki, yıxar,
Dilimə ox vurur ol kəcnigahü çeşmi-xumar,
Bu qədri yarədən, ey dil, qurtarmağın düşvar,
Ədayi-şükri-xədəngindir ol sədа ki, çıxar,
Zaman-zaman tökülən qətrə-qətrə qanımdən.

Düxuli-bürçi-səadət edibdir iqbalım,
Neçün ki, zəxmi-müjəndən tənim degil salim,
Mübəddəl eyləməsin lütfə covri, ey zalim,
Oxun müsahibətilə keçir xoş əhvalim,
Həlak olardım əgər tərpənəydi yanımdən.

Vusalə mane olan firqət olmaya, ey kaş
Ki, qəmdə mərdümi-çeşmim üzarə tökməyə yaş,
Kilidi rəhmə dilin olmayaydı Nobərə daş,
Qəmi-nihanımı eylər Füzuli ellərə faş,
Əcəb əzabdəyəm naləvü fəğanımdən.

-247-

Ağlaram şiddət ilə kim, şəbi-hicrandır bu,
Dili narahət edən sinədə peykandır bu,



Ağlamaq qüssəvü qəm ixracinə dərmandır bu,
Gör sirişkim şəbi-hicran, demə kim, qandır bu,
Zərrə-zərrə şərari-atəşi-hicrandır bu.

Məzrəi-dildə məhəbbət toxmunu yar əkmiş,
Kərvan qəminə mülki-dili etdi geniş,
Mərhəmətdir dilimə mahliqadən bu gəliş,
Sanma kim, qanlı tikən sinə dəlib, baş çəkmiş
Şöleyi-atəşi-ahi-dili-suzandır bu.

Doyma, pərvaneyi-dil, şəmi-ruxə dönməkdən,
Mane ol atəşi-eşqi-ruxinə sönməkdən,
Pakdil eylə məni qüdrəti-həqdə şəkdən,
Kəsmə ümmid könül başına çizginməkdən,
Ola nagəh, düşə fürsət ələ, dövrandır bu.

Yaridən mən görürəm hicridə min cövrü cəfa,
Cövri-yari bilirəm canü dilə zövqü səfa,
Bilmişəm eşqə düşəndə onu mən əhli-vəfa,
Dəmbədəm canımı incitməyin, ey dərdü bəla!
Lütf edin bir-iki gün kim, sizə mehmandır bu.

Bil qənimət cigərim sinədə yarın oxunu,
Qəmzədən qeyz oxu bu bağrıma hər gün soxunu,
Guşeyi-dildə tutub, hörmət ilə saxla onu,
Nə yağırsan oxun, ey atəşi-dil vəsl günü
Bizə hicran gecəsi şəmi-şəbistandır bu.

Qalıram sübhə kimi hicr şəbi xoşk gəlu,
Ürəyim atəşinə gözdi səpən ahilə su,
Kəsmə məndən nəzəri-mərhəmətin, ey məhru,
Könül istər ki, tuta zülfi-sərindən bir mu,
Vermədən can dilər almaq, sanur asandır bu.

Nobəri, səbr elə ta müşkülün asan olsun
Ki, könül vəsli-ruxi-yar ilə şadan olsun,
İltifatı o məhin dildə nümayan olsun,
Dun demişdin ki, Füzuli mənə qurban olsun!
Sənə qurban olayım, yenə nə ehsandır bu.

-248-

Fəraqi-Leylidə Məcnun çəkib şamü səhər yahu,
Düşüb dəştü biyabanə, tutub vəhşilər ilə xu,
Dili-zarıdə Leylidən ona ilham olub duyğu,
Nihali-dərddir Məcnun, yer etmiş sayəsin ahu,
Başında quş yuvası bərg, əyağında səlasil su.

Neçə müddət sürər bilməm, dili-məhzun bu qəm dövrin,
Nədir həqqi dura bəhsə üzünlə cənnəti hurin,
Müəyyən etmədi canan mənim həqqimdə mənzurin,
Mənə zali-fələk çəkdirdi ol muyi-miyan covrin,
Görün bir tari-muyin necə əjdər etmiş ol cadu.

Xəyal etmə ki, şad olsun fəraqında dili-purğəm,
Təsəvvür eyləmə əskik ola göz mərdümindən nəm,



Qədəm eşq üzrə sabitdir, könül hicranınə möhkəm,
Olur meyli-dil əfsun astanın daşına hərdəm,
Əgərçi rəsmidir yasdıqdan ikrah eyləmək sayru.

Şikayət eyləyim bilməm kimə bəxti-siyahimdən,
Həzər qılmaqda lazımdır qəmi-möhnət sipahimdən,
Dilim istər işıqlansın mənim ol qövsi-mahimdən,
Tərəhhüm qıl bükülmüş qəddimə, vəhm eylə ahimdən,
Sağın çıxmaya nagəh yaydan ol ox, ey kaman əbru.

Rəqibin təninə hər dəm tutur dildən mənim xəşmim,
Məhəbbət bəsləyir yarın vüsalinə dili-pəşmim,
Gözüm yaşilə dəryatək dolan gözdən dedim, keçmim,
Nədir, - dedim, ruxi-safində əksi-mərdümi-çeşmim?
Dedi: gəlmiş gəmilə Rumə dərya qət edib Hindu.

Xəyalə vədeyi-vəslin salıb bir ləhzə dincəldim,
Üzündür cənnətim, xali-siyahin daneyi-kəndim,
Xəyalə Adəmi gətdim, gəlib dünyayə dilləndim,
Qaşın yayi fəraqindən xədəngin kimi incəldim,
Nəcəbr çəkdirir eşqin mənə zülmən, nə gücdür bu.

Əgərçe səbr zamındır şəbi-hicran dəyaqinə,
Gəlibdir fovci-qəm, könlüm dönübdür qəm yatağinə,
Bu qəmdən qan verir Nobər cigərdən göz rəvaqinə,
Füzuli, yox yeri səbr etməyin canan fəraqinə,
Düşüb səhrayə əfğan elədim sən ayru, mən ayru.

-249-

Yetdi çun mahi-siyam, tutmadı meyxar ilə xu,
İçəmədin badeyi-meyxanə, qalıb xoşk gəlu,
Nə cəfa oldu bizə, bəs nə şəraitdir bu,
Rəməzan oldu çəkib şahidi-mey pərdəyə ru,
Mey üçün çəng tutub təziyə açdı giysu.

Saqiyə xələt meyxanədi, manəndi-kəfən,
Çünki, mey oldu bu gün talibi-eyşə qədəğən,
Bami-meyxanəni məskən edəcək zağü zəğən,
Bildi mütrib ki, nədir hal götürdi qopuzün,
Bəzmdən çəkdi ayağını sürahiyyü səbu.

Görməz ol bəzmdə mizrab dəxi taru sədəf,
Ömrümüzdən bu ayı mahi-siyam etdi tələf,
Olaruq bəstə dəhən bu ayı biabü ələf,
Bəzm qanunu pozuldu, nə üçün çəng ilə dəf,
Yığışıb etmədilər hakim eşikində ğulu.

Çun həram oldu günüz nazilə nemət, hamusu,
Aparar bizləri bir ay belə qəflət yuxusu,
Gələ bilməz bizə bu mahidə badə qoxusu,
Rəməzan ayi gərək açıla cənnət qapusu,
Nə rəva kim, ola meyxanə qapusu bağlu.

Lazım oldur ki, gələk naləvü zarə gecələr,



Meydən ötrü axıdaq xuni-cigər, əski-bəsər,
İstexasə eyləyin gəryə ilə ta besəhər,
Fəthi-meyxanə üçün oxuyalım fatihələr,
Ola kim, üzümüzə açıla bir bağlı qapu.

Muddəti-mahi-siyam gözdən axar ruyə dümu,
Rəməzanda olunar taətə ikram, xüşu,
Nə günah eyləmişik başə gəlibdir bu vuqu,
Aftabi-qədəh etməz rəməzan ayi tülu,
Nə bəladır bizə, Yarəbb, nə qara gündür bu?

Kutah oldu əlimiz meykədədə mey payına,
Məşğul olluq bu ayı eydə kimi gün sayına,
Nə olardı ki, bu ay üz çevirib, tez yayına,
İntizari-meyi-gülgun ilə bayram ayına,
Baxa-baxa enəcəkdir gözümüzə qara su.

Bəlkə təyin eyləyə zəfligim hazıq həkim,
Onda meyi-nuşinə bir hökm verə qəlbi səlim,
Nobərə izn verərmi görəsən Allahü əlim,
Rəməzan oldu, budur vəhmi Füzulinin kim,
Neçə gün içməyə mey, zöhd ilə nagəh tuta xu.

-250-

Edərmi dərdimə çarə nigarım, bir gumandır bu,
Onun təsdiqi mübhəmdir, xəyali-cismü candır bu,
Dili-zarə təsəllidir, lisanımda bəyandır bu,

Əgər çıxsaydı dərdin cismdən, derdim ki, candır bu,
Nə hacət dərdini yeydir demək candan, əyandır bu.

Dili-üşşaqi-vəslindir xəyalilə edən təmin,
Fəraqə səbr lazımdır, əzəldən bu olub təyin,
Dözən hicranə hər aşiq nigarından alar təhsin,
Dəmadəm xubilər covrilə artar ləzzəti eşqin,
Yamandır bu ki, təhqiq etmədən derlər yamandır bu.

Vüsali yarədir meylim, dili-zarımda var təcil,
Könül fikrin sanır asan, hesab etmir onu müşkül,
Müjə peykanını gözdən atar üşşaqə ol rugül,
Xədəngi sayəsində xoş keçir övqatını, ey dil
Ki, gülzari-həyatın zinəti sərvi-rəvandır bu.

Sirişki-çeşmi-həsrətlə saraldım, gül kimi soldum,
Axan yaşimlə mən getdim bəla dəryasına doldum,
Olanda qərqi-dəryayi-qəmi-canane baş yoldum,
Tutuşdum atəşi-dildən, cigər qanilə qərq oldum,
Əgərçi bir şərarə oddur ol, bir qətrə qandır bu.

Xəyali-xaməvəslinçun əbəs biganələr düşmüş,
Dolansın başına hər dəm, xəyalə şanələr düşmüş,
Dodağın businə meylə dolu peymanələr düşmüş,
Cahanə qəddin üzrə kakilindən fitnələr düşmüş,
Qiyamət ibtidası, fitneyi-axirzamandır bu.

Hərimi kuyinə cənnət demək, əsla degil murvət,



Edib cürət, deyən olsa, tutar mütləq məni heyrət,
Belə söz söyləyən görsə səni çəkməzmi o xəclət?
Xəbərsiz dərdimiş bənzər səri-kuyinə ol cənnət,
Xəbər verdi mənə ondan gələn adəm, yalandır bu.

Könül hər ləhzə kim, xatir edər ol yari-məhruni,
Sirişkim, ahi-dil bahəm salar tufanə Ceyhuni,
Gərək təkrar edəm, Nobər, Füzulidən bu movzuni,
Füzuli tirə əfqanim qılıbdır ruyi-gərduni,
Hənuz ol mah sormaz kim, nə fəryadu fəğandır bu?

-251-

Bülbüli-dildir edən nalə güli-həmrayə,
Oxşadıbdır özünü naləzəni-şeydayə,
İstəyir sərvi-qədi-başinə salsın sayə,
Aşiq oldum yenə bir tazə guli-rənayə
Ki, salır al ilə hərdəm məni yüz qovqayə.

Göz müqəssirdi görüb yar üzünü, yaxşı bilir,
Dil həman gözdən alıb arizinə mehr salır,
Göz ki, bu həzzi alır, dil nə üçün töhmət alır,
Səxt edib qalibi-biruhimi kim, həbsə salır
Ki, sərasiməvü üryan buraxır səhrayə.

Dərdi-eşqə necə bir çarə edər söylə həkim,
Qüssədən qan qurudub cismidə can ilə rəkim,
Söhbətim ar bilibdir o ləbi qonçətəkim,

Gözümün qanı ilə sinəmi al etdim kim,
Aləti-sənət ola ol büti-bipərvayə.

Həsrəti-ruyi dili-zarimi bir dərdə salıb,
Naləvü dadi-dilim kuyi-sərində ucalıb,
Cismü can taqətini qüssəvü qəm əldən alıb,
Bu bir işdir ki, məni iynə kimi incəldib,
Salır iplik kimi hərdəm bir uzun sövdayə.

Gəlməyir rəhmə onun səxt dili minnət ilə,
Baxıram arizinə, ah çəkib həsrət ilə,
Qalmışam vadiyi-eşq içrə belə heyrət ilə,
Ayağın bağlamış avarələrin sənət ilə,
Yox nihayət səri-kuyində gəzən şeydayə.

Canü dil bir bu qədər atəşi-hicranı çəkib,
Dil fəraqində onun naləvü əfğani çəkib,
Dami-zülfi-siyəhə bu dili-nalani çəkib,
Ləxt-ləxt olmuş ikən qəmzə durəfşini çəkib,
Çarəsaz olmadı bir dəm məni-qəmfərsayə.

Sığınıb mürği-dilim, Nobəri, bircə butağa,
Çox həras ilə baxır vahiməli sol-sağa,
İstəyir kuyi-nigarində sığa bir bucağa,
Yaxa çak edəni başmaq kimi salır ayağa,
Ey Füzuli, bax onun etdiyi istiğnaya.



-252-

Neylüm ki, mehr yoxdur ol yari-bivəfadə,
Hicrani ilə verdim ahilə ömrü badə,
Oldum vüsalə imən, mehrinə qəlbi sadə,
Olsaydı məndəki qəm Fərhadi-mübtəladə,
Bir ah ilə verərdi min Bisütuni badə.

Mən bileydim nigarın yox aşiqə vəfasın,
Kim eyləyir qəmində qəmnak aşinasın,
Vəslindən ayrı salıb geydiri qəm libasın,
Verseydi ahi-Məcnun fəryadımın sədasın,
Quşmu qərar edərdi başındaki yuvadə?

Ol gün ki, düşdüm eşqə təng oldu başə dünya,
Dil sinəm içrə oldu bir əndəlibi-şeyda,
Divanəlik nişanı ruyimdən oldu peyda,
Fərhadə zovqi-surət, Məcnunə seyri-səhra,
Bir rahət içrə hər kəs, ancaq mənəm bəladə.

Eşq əhli malik olmaz dünyadə ixtiyarə,
Dünya təbibi qılmaz ol binəvayə çarə,
Oldu rəvan sirişkim kuyi-sərvi-nigarə,
Əşki-rəvanimə el cəm oldu varə-varə
Kim, oldu varə-varə cəmiyyətim ziyadə.

Aşiq salıbdı yarın kuyi-sərində bəstər,
Gəl bu mərizi-eşqə lütf eylə, çarə göstər,

Hicrində qoyma qalsın rəncurü zarü müztər,
Qanımı gah çeşmin, gəh qəmzən içmək istər,
Qorxum budur ki, nagəh qanlar düşə aradə.

Kuyi-sərində yarın bir gülxən ixtiyar et,
Tut rəhguzari-yarı, meyli-ruxi-nigar et,
Məzuri tac olma, təxtdən özün kanar et,
Sərvərlik istər isən, üftadəlik şuar et,
Ta düşməsə əyağə, çıxmazdı başə badə.

Nobər, sənə təəşüq öyrətdi bu üsuli,
Səbr eylə ta ki, yetsin yarın sənə vüsali,
İncitmə can içində qəmlə dili-məluli,
Gər görmək istəyirsən rəsmi-cəfa Füzuli,
Olma vəfayə talib dünyayi-bivəfadə.

-253-

Baxmışam dilbərimin nərgisi-xumarəsinə,
Tari-zülfində olan rəngi-şəfəq qarəsinə,
Bir əlac istədim ondan dilimin yarəsinə,
İstədim mərhəm oxundan cigərim yarəsinə,
Atdı min ox ki, dəgər hər biri bir parəsinə.

Sənlədir sübhə kimi fikri xəyalım gecələr,
Yatmayan, söylə görüm gündüz ola, necə elər,
Fikri-firqətlə onun huşi gedər, baş gicələr,
Bir-birilə çəkişir gərdi-rəhinçün müjələr,



Gör nə qanlar düşəcəkdir buların arəsinə.

Damənindən yapuşardım ələ düşseydi əgər,
Ərz edərdim ki, dolub qanə fəraqında cigər,
Bəlkə ərzim o məhi-səngdilə etsin əsər,
Çəkməz odlu könül oxları yükün, yar məgər
Çəkərək atə oxun, rəhm edə biçarəsinə.

Şami-hicrində mənim çövrəmi qəmlər bürüyüb,
Qəm yaxamdan yapışıb canimi qussə sürüyüb,
Atəşi-ahi-dilimdəndi sirişkim quruyub,
Hanı göz yaşı kimi əhli nəzər kim, yürüyüb,
Bir icim su verə dəşti-qəmin avarəsinə.

Qətrə-qətrə gözümün yaşları hər yan dağılıb,
Qurtarıb qətrəsini, nəm yerinə qan sağılıb,
Nazər anlar belə bir halətə, birdən ayılıb,
Hər tərəf əşklərimdir görünən, ya yığılıb,
Gəldi su xəlqi sirişkim suyi nəzzarəsinə.

Arzusu dilimin səhl deme, müşküldür,
Namuyəssər bu təmənna dilə çox niskildir,
Hər günün müddəti hicran əminə bir ildir,
Bilmədim kim, nəzər əhli-nəsəq əskildər,
Qəzəb eylər nəzər etməm məhi-ruxsarəsinə.

Atəşi-hicrə yanıb Nobəri də, döndü külə,
Dərdi-dil cəlbi-nəzər oldu, dəxi etmə gilə,

Çarəsiz qoydu səni, gəlmədi o, bilə-bilə,
Ey Füzuli, cigərim qanını qoymaz tökülə,
Can fəda ol sənəmin qəmzeyi-xunxarəsinə.

-254-

Sübh tezdən üz açıb gərdişi-gülzar eylə,
Bülbülə göstər üzün, dərdə giriftar eylə,
Eylə məşgul, fəğan, naləyə sal, zar eylə,
Bağə gir, bülbülə ərzi-güli-ruxsar eylə,
Yıq gülün irzini, bülbül gözünə xar eylə.

Bərgi-güldən döşənib səhni-çəməndə bəstər,
Bülbüli-bağ səni nəğməsi ilə səslər,
Gül degildir qərəzi, sən kimi gülru istər,
Bağ şahidlərinə zülf ilə çeşmin göstər,
Sünbüli dərhəm edib, nərgisi bimar eylə.

Künci-nigah ilə mənim bağrıma qan saçdırma,
Həsrəti-ruyin edib rəngi-ruxun qaçdırma,
Göstərib bülbülə üz, nəğməsini çaşdırma,
Qönçəyə lafi-lətafətdə ağız açdırma,
Ləhzə-ləhzə onu şərməndeyi-guftar eylə.

Sizə adətdi məgər aşiqi hər yan sürümək,
Xahişi-dildi sizə dovri-bərin qəm bürümək,
Aşiq istər ki, səri kudə verib, can çürümək,
Sərvə azadəlik ismilə yaraşmaz yürümək,



Onu bir şiveyi-rəftarə giriftar eylə.

İstəmə dəhri könül, təxti-rəvan tərkin qıl,
Arzuyi-səltənəti eyləmə, can tərkin qıl,
Dövreyi-ömrüdə kəc dövr-zəman tərkin qıl,
Ey könül, cəhd eylə bu dari cahan tərkin qıl,
Xabi-qəflətdə ikən kəndini bidar eylə.

Ey könül, munca fəğan etmə, sənə yoxdu səmər,
Munca nalən eyləmir səngdil ol yarə əsər,
Qəmzə peykanı gələn dəmdə varın olsa xəbər,
Açma ağzını xədəngin görüb, ey zəxmi cigər,
Yetənə razi-nihanım yetər, izhar eylə.

Mərifət əxz elə, ey Nobəri, danalardən,
Tut hesabə özünü aşiqi-rusvalardən,
Çəkmə göz dəhridə bu surəti-zibalardən,
Kəs, Füzuli, təməin qeyri təmənnalardən,
Qanda olsan tələbi-dövləti-didar eylə.

-255-

Könül, bir namə yaz, göndər bu məzmun ilə canane,
Məni Məcnun misal etmə rəhi-eşqində divanə,
Günahkar etmisən tut sal zənəxdani-cahi-zindanə,
Uyub ahuyə Məcnuni-müşktək, düşdü biyabanə,
Nola çəksən onu zənciri-zülfi-ənbərəfşanə.

Yanında bilmirəm canan, nədir təqsiri bu cananın,
Urub qəmzə xədəngilə, tökürsən qeyzilə qanın,
Biladi-eşqdə aya, budurmu rəsmi xubanın,
Çəkər kafir gözün hərdəm cigərdən qəmzə peykanın,
Nə gücdür bu, nə vermiş, alə bilməz bir müsəlmanə?

Fəraq ilə yanır könlüm, qəm ilə dağlanır sinəm,
Dilimdən qussə əl çəkməz, bukadən dideyi-purnəm,
Cigər dağinə dərman yox, nə müjgan zəxminə-mərhəm,[1]
Bəla navəkləri sancılmasınmı bağrıma hər dəm,
Dolanır şanətək hər ləhzə ol zülfi-pərişanə.

Tukənməzmi məgər dildən belə ahü fəğan, bilməm,
Bu bir cani ədavətdir və ya imtəhan, bilməm,
Necə tab eyləyir zəxmi-xədənginə bu can bilməm,
Oxun gəldikcə sinəmdən sədalardır çıxan bilməm,
Dil eylər nalə, ya peykan dəgər sinəmdə peykanə.

Üzüm gülməz, olub ondan ümumə dərdi-dil peyda,
Dilim fəryadı etmişdir məni bir bülbüli-şeyda,
Budur bais ki, mən oldum nümayan dərdilə rüsva,
Sədayi-navəkin çıxdıqca dil xürrəm olur guya,
Bu zindani-bəladən çıxmağa rüxsət verir canə.

Gülü-gülzarçundurmi çəməndə bülbülün yası,

[1] Mətndə "mərhəm" yazılmışdır. Bizcə "məlhəm" olmalıdır.



Onu nalan edir yoxsa nigarın ruyi-rənası,
Salıbdır naləyə gültək ruxi sərvi-dilarası,
Boyanıb qanə, olmuş parə-parə güllər əzası,
Məgər xəncər çəkib sən sərvtək çıxdın gülüstanə?

Gəlib ey Nobəri, təngə hamu bu ahü naləmdən,
Şərabi-işrətü bəzmim tökülmüşdir piyaləmdən,
Həyati-ömri-bağinə kəsilmiş su şəlaləmdən,
Məlamət odunə yandın, Füzuli, çıx bu aləmdən,
Tərəhhüm qıl, rəva görmə ki, aləm odinə yanə.

-256-

Hara getdi görəsən, laləüzarım bu gecə,
Kəsilib tabü-təvan, səbrü qərarım bu gecə,
Xuni-dil gözdən olub qətrə nisarım bu gecə,
Yenə ol mah mənim aldı qərarım bu gecə,
Çıxacaqdır fələyə naleyi-zarım bu gecə.

Bəzmi-işrətgəhinə qoymadı ol şah məni,
Yandırar sübhə kimi şölə çəkən ah məni,
Həsrəti-ruyi edib cismidən ikrah məni,
Şəmvəş məhrəmi-bəzm etmədi ol mah məni,
Yanacaq atəşi-hicrə yenə varım bu gecə.

Rəhm qılmaz tökulən didəmin əşki-tərinə,
Zəxmi-peykani dil-cigərimdədir yenə,
İltifat eyləmədi hicridə qəmpərvərinə,

Nəzrim olsun cigərim parələri itlərinə,
Ol səri-kuyə əgər düşsə güzarım bu gecə.

Yandırar sübhə kimi atəşi-hicri canı,
Mərdümi-çeşm nəzərdən keçirər hər yanı,
Rahət olmaz ürəyim görməsə gər cananı,
Qətlimi şəm kimi sübhə salıb hicranı,
Ola kim, sübh gəlincə gələ yarım bu gecə.

Qılmadı əmtəəyi-eşqimi ol yar xərid,
O da bimehriligin Nobərinə etdi pədid,
Sakit ol, söylədi, heyrət, dəhənə vurdu kilid,
Var idi sübh vüsalinə, Füzuli, ümmid,
Çıxmasa həsrət ilə cani-fikarım bu gecə.

-257-

Rəngi-ruyim saralıb döndü quru kahilərə,
Deyirəm dərdi-dili zarimi dilxahilərə,
Eşqə düşdüm yanaşıb dəhridən ikrahilərə.
Rəhm et, ey şəhi-dil, dərviş çəkən ahilərə
Ki, geda ahi əsər eylər olur şahilərə.

Ahimin yox əsəri, baisi nolmuşdır əcəb,
Noldu məndən yenə ol mahvəşə tərki-ədəb,
Mehr əvəzində eyləyir aşiqə min qəhrü qəzəb,
Mehri yox mahlərə ah əsər etməz, ya rəbb!
Ver bir insaf bu mehri yox olan mahilərə.



Qəmzeyi-peykanın dil mayil olub etdi tələb,
Mən əminəm ki, dirig etməyə ol ali nəsəb,
Belə derlər ki, qurub mahvəşim bəzmü tərəb,
Qaşları taqinə versəm dili-suzan, nə əcəb,
Rəsmidir, asıla qəndil nəzərgahilərə.

Eşq bimarı olan istəməz ol dərdə həkim,
Mehri-yar ilə dolub cismidə qan ilə rəkim,
Hicri-canan olacaq aqibətin can hələ kim,
Maili-sərv qədin vəslinə yetməz, necə kim,
Bəxt şayəstə degil himməti kutahilərə.

Arizin gül kimidir, qönçə ləbin qönçətəkim,
Taqi-əbrulərinə tutmə müjən, ey mələkim,
Badeyi-ləli-ləbin ruhə fərəhdir, nə şəkim,
Saqiyi-bəzmi-cünun nərgisi-məstindir kim,
İçirir badeyi-ləlin dili-agahilərə.

Ey könül, meyl eyləmə hüsnünə mərğublərin,
Bir bəladır aşiqədir surəti mərtubələrin,
Dərdi çoxdur dili-üşaqilərə xubilərin,
Baxma, ey didə, zənəxdaninə məhbubilərin,
Gəzmə qafil, həzər et düşməyəsən çahilərə.

Nobəra, pəndi-riya kim ki, verə eyləmə guş,
Səni hər ləhzə edər əhli-riyalər qəmə tuş,
Badeyi-ləli-ləbi-yarını daim elə nuş,

Ey Füzuli, vərə əhli rəhi-məscid tutmuş,
Sən rəhi-meykədə tut, uyma bu gumrahilərə.

-258-

Saldım xəyalə ruyin, gəldim belə xəyalə,
Heyrət məni götürdi, verdi qəmə həvalə,
Etdim yenə təvəkkül ol heyyi-layəzalə,
Müshəf demək xətadır ol səfheyi-cəmalə,
Bu bir kitab sözdür fəhm edən əhli-halə.

Mehri-ruxun əzəldən qəlbimə dolmasaydı,
Bərgi-nihali-ömrüm hicrində solmasaydı,
Vəslin müqabilində firqət qoyulmasaydı,
Ruxsarə noqtə rəsmi-xət olmasaydı,
Düşməzdi mənzil etmək ruxsarın üzrə xalə.

Sənsiz məhin üzünə aşiq nəzzarə qılmaz,
Əmlakini cahanın qiymətdə dəngə almaz,
Kuyi-sərindən ayrı kaşanələrdə qalmaz,
Heyrani-mahi-ruyin xurşidə mehr salmaz,
Müştaqi-taqi-əbru əskik baxar hilalə.

Nəzzareyi-ruxindən yox gözdə istifadə,
Səndə nə oldu bilməm bu sahədə iradə,
Soylə qalımmi daim hicrində bu cəfadə,
Qondurdu gerd xəttin ayineyi-muradə,
Qıfl vurdu iqdi-zülfün gəncineyi-vusalə.



Ənduhü dərdü möhnət məhzun dilə yanaşdı,
Şəb ta səhər mükəddər, qəmnak, gözü yaşdı,
Tutdum xəyalə ruyin, sanki, gözə sataşdı,
Dövran mənə qələmtək sövda qapısın açdı,
Taqətimi qəmindən döndərdi zəf nalə.

Ey Nobəri, fəğanın ol məhcəmalə yetmiş,
Xəm qəddüm sədası qaşı hilalə yetmiş,
Həddən ziyadə rütbin cahü cəlalə yetmiş,
Rəsmi-vəfa, Füzuli, səndə kəmalə yetmiş,
Xoş kamili-zamansan, əhsəntü bu kəmalə.

-259-

Tərəhhüm eylə, dərgahin dərin üşşaqə baz eylə!
Səri-kuyində xadim qıl, ona lütfün diraz eylə!
Sənin bimari-eşqindir, əlacın karsaz eylə!
Həzər qıl ah odundan, cövrünü üşşaqə az eylə!
Xəsü xaşaki yaxma, şöləsindən ehtiraz eylə!

Səni gördüm, dedim, canan, gözəlsən, hüsndə vahid,
Bu iqrarım olub dildə həvayi-eşqimə şahid,
Odur kim, baş qoyub hərdəm, sücudə olmuşam hamid,
Sənəmlər səcdəsidir bizdə taət, tanrıçun, zahid,
Kimi görsən sən öz dinində təklifi-nəmaz eylə!

Riyayi-taətin zahid, olur zahir sifatında,

Təmə çoxdur məişətçün fənavari həyatındə,
Əgər bir şey bilirsən var, onu göstər nəcatində,
Həqiqət hərfini yazmaq dilərsən lövhi-zatındə,
Xəttin gülruxlərin mənzur tut, məşqi-məcaz eylə!

Əbəsdir bu riya, taət əlin ondan üz, ey zahid,
Həqiqət rahini dildən gərək görsün göz, ey zahid,
Bizi təşviq edir həqqə məlahətli üz, ey zahid,
Sənəmlər səngdillərdir, eşitməzlər söz, ey zahid,
Yetər bihudə pəndin onlara, ərzi-niyaz eylə!

Nəsihət kar gər olmaz, olam mən eşqidən ikrah,
Qalıb ruxsarinə həsrət gözüm, hər dəm çəkər dil ah,
Əzəl gündən səni bildim hamu məhrulərə bir şah,
Sənin nazın görəndə əql qalmır həsbətən lillah,
Aman ver aşiqi-didarə, birdəm tərki-naz eylə!

Müjən peykanına qurban olan üşaqilər çoxdur,
Gözün dövrindəki müjgan dili-üşşaqə bir oxdur,
Kəmandar hamu aləm sənin önündə mənsuxdur.
Yolunda intizari-məqdəminlə xak olan çoxdur,
Xuram et bir qədəm, mən qəmküsarı sərfəraz eylə!

Könül, bu eşqilə sən də cünun halı elə peyda sən,
Dil açdın əndəlibasa, gülüzlü yarə şeyda sən,
Sözünlə Nobəri, bahəm məcalisdə hüveyda sən,
Füzuli, canə tapşırdın xəyalın, imdi rusva sən,
Sənə kim söylədi naməhrəmə ifşayi-raz eylə!



-260-

Qaldı könlüm gecələr naləvü əfqan içrə,
Həsrət etdin gözümü çaki-giriban içrə,
Qüssəvü qəmdir olan bu dili-nalan içrə,
Batalı qanə oxun dideyi-giryan içrə,
Bir əlifdir sanasan kim, yazılıb qan içrə.

Dil yanır, gözdən axır arizi-məhzunimə tər,
Qat olur cari olan göz yaşıma xuni-ciyər,
Dil degil sinədə, bir od dolu məcmərdi məgər?
Yeri var sineyi-suzanimə gulxən desələr,
Bəs ki, yanmışdır oxun sineyi-suzan içrə.

Əbri-zulmatidədir nuri-qəmər bilsə idim,
Tökülər arizimə əşki hədər bilsə idim,
Sərvidən sayəni kəm, xalı səmər bilsə idim,
Canı tən içrə nə saxlardım əgər bilsə idim
Ki, degil gizli qəmi-ləli-ləbin can içrə.

Çaki-sinəmdən edir dildə xədəngin mənzil,
Dilimin gerdi-qəmi göz yaşını eylədi gil,
Gözümün mərdüməki munca oxa razı degil,
Algilən oxlarını didələrimdən, ey dil,
Heyfdir, olmaya nagəh itə müjgan içrə.

Zəxmidən güllər açıb könlüm olub gülbanın,
Atəşi-hicrə yanan dildir olan gülxanın,
Əhsən ey dil, yetişib zəxmlərə al qanın,
Çak könlüm arasından yaraşır peykanın,
İqdi-şəbnəm xoş olur qonçeyi-xəndan içrə.

Bərgi-güldür götürən sorxi üzün rəngindən,
Bülbül əxz etdi dilə nalə dilim həngindən,
Məst olub badi-səhər xali-siyəh bəngindən,
Qəddinə sərv demiş, qönçələrin tənindən,
Duramaz badi-səba hiç gülüstan içrə.

Ah çəkdikcə dolur canü-dilə qussə yeli
Vəqti-xilqət demişəm yar məlalınə, bəli,
Təngdil etmə dəxi, nalən ilən, Nobər, iti,
Ey Füzuli, kimə şərh eyləyəlim ahi-dili,
Yox mənim kimi yanan atəşi-hicran içrə.

-261-

Yandırıbsan tənimi atəşi-hicran içrə,
Hicr odun qoydun əcəb xəstədilü-can içrə,
Ox dəyir bir-birinə sineyi-suzan içrə,
Batalı qanə oxun dideyi-ğiryan içrə,
Bir əlifdir sanasan kim, yazılıb qan içrə.

Doğrudur xəlq əgər çeşminə rəhzən desələr,



Ləbinə qonçə, üzə no güli-xəndan desələr,
Yaxmısan hicr oduna canü dili sən, desələr,
Yeri var sineyi-suzanimə gülxən desələr,
Bəs ki, yanmışdır oxun sineyi-suzan içrə.

Başda idrakı əgər sakin olan görsəydim,
Tərki-xülya eləyib huşim ilə durseydim,
Ömrümü başə kimi sənlə əgər sürseydim,
Canı tən içrə nə saxlardım əgər bilsəydim
Ki, degil gizli qəmi-ləli-ləbin can içrə.

Bir aman ver gözümə əşki-tərimdən, ey dil!
Alma idrakım ilə huşi sərimdən, ey dil!
Qəmzə peykanı keçir dövri-bərimdən, ey dil!
Ala bil oxlarını didələrimdən, ey dil!
Heyfdir, olmaya nagəh itə müjgan içrə.

Bir əcəb güldür üzün rəşki olub dehqanın
Ki, onu rayihəsi məşamidir ürfanın,
Daneyi-dürri-tərin jaləsidir bustanın,
Çak sinəm yarasından yaraşır peykanın,
İqdi-şəbnəm xoş olur qönçeyi-xəndan içrə.

Demirəm bağda bitən sərvlərin şanindən,
Ötə bilməzlər olar sərvqədin yanından,
Əl götürmüş, verəli ellərə imanından,
Qədinə sərv demiş, qonçələrin tənindən,
Duramaz badi-səba hic gülüstan içrə.

Hicr əlindən hara biz, Nobəri, bilməm gedəlim,
Hansı bir rahilə ta bəzmi-nigarə yetəlim,
Gəl çıxıb hər ikimiz dari-fənadən itəlim,
Ey Füzuli, kimə hali-dilimi şərh edəlim,
Yox mənim kimi yanan atəşi-hicran içrə.

-262-

Ayrılıq saldı mənim qəlbimə tutqun sayə,
Vəslinə yetmək üçün vird elədim min ayə,
Bir belə fikr düşüb imdi dili-şeydayə,
Arizin görsə fələk, mehr buraxmaz ayə,
Zərrə-zərrə edib anı buraxar səhrayə.

Cuybari-çəmənə düşdü həman nəqşeyi-ru,
Düşdi bir qətrə tərin, suyi edib ənbərbu,
Müşki-ahuyi-xutən rəşki olub zülfüdə mu,
Ləbiün əksin alıb, bağə girər hərdəm su,
Rəşkidən qan içirir bərgi-güli-rənayə.

Bənzəməz arizinə əksilə dünya dolsa,
Ləbinə oxşamaz ol qonçə bərabər dursa,
Rənci-dildir mənə əğyar, sənə yol bulsa,
Yeridir əksinə ayinə dəmir bənd olsa
Ki, neçün qarşu durur sən kimi bi həmtayə.

Gör nə şey eyləmişəm səcdənə ey gül, təbliğ,



Üzünə qarşı qəmər hardan olar həddə bəliğ,
Taqi-əbruyi-xəmə məh dedilər, xeyli diriğ,
Bulduğu yerdə həsəddən gün urar sayənə tiğ
Ki, rəfiq olmayasən mahi-mələksimayə.

Tiri-müjgan düzülüb dövreyi-çeşmi-məstə,
Sanki, bir fovc gedir qeyzilə bir xəsm üstə,
Canıma qəmzən atar hərdən oxun ahəstə,
Ona peykan deyilir qəmzən üçün peyvəstə,
Toxunur tənə oxu qaşın ucundan ayə.

Meyi-meyxanə degil ləbdəki səhbadır, leyk,
Dodağın bir dolu peymaneyi-minadır, leyk,
Nuşinə aşiq onun bəs ki, muhəyya, leyk,
Ləli-nabın sifəti şəhdi-musəffadır, leyk,
Acı etmiş onu səfrayi-həsəd səhbayə.

Nobəra, etməginən covri görüb, tərki-ədəb,
Baxmaz olsa üzünə yarın, ona var səbəb,
Ahu zar eyləmisən, etdi sənə yar qəzəb,
Yar meylin sənə salmazsa, Füzuli, nə əcəb,
Necə meyl etmək olar sən kimi bir rusvayə.

-263-

Şami-hicran tutmuşam ərzi-səmanı ahimə,
Asıman eylər mənim ahi-dilimdən vahimə,
Ah ona təsir edib istər gələ islahimə,

Su verir hər sübhdəm göz yaşı tigi-ahimə
Kim, tökəm qanın sipəhrin salsa mehrin mahimə.

Qaşinə qiblə deyib imanımı qıldım şikəst,
Badeyi-ləli-ləbi şövqilə başım oldu məst,
Olmuşam zənciri-zülfi-yarım ilə paybəst,
Şəmi-ruxsarı odu qıldı məni atəşpərəst,
Çaki-sinəmdən tamaşa eylə atəşgahimə.

Tutalım dur olmuşam səndən, sənə yetməz əlim,
Rəşk edən əğyar olub, qoymaz səri-kuyə həkim,
Bu səbəbdən bağlanıb yanında ey məhru, dilim,
Tutiyayi-çeşmi-ərbabi-nəzərdir mənzilim,
Gərçi xaki-rəhguzarəm dideyi-bədxahimə.

Qəmdən ayrılmaz dilim çəksəm, aparsam hər yana,
Zülfünə bənd eyləyib tapşırmışam anı sana,
Bir qonaqdır, eyləmək hörmət gərək mütləq ona,
Qəm kimi öldürsə, qanlıtək qaçar ondan bana,
Şahi-dərdəm, iltica eylər ülüvvi-cahimə.

Qəmküsarım yox mənim munca qəmə təqsim üçün,
Olmadı hal əhli bi hali-dilim təqdim üçün,
Söz alıb məndən ola cananimə təhkim üçün,
Bir fəqirəm, durmasın kimsə mənə təzim üçün,
Qanda varsam, ey gözüm, su səp qubari-rahimə.

Aşiqə vacib olub, ey şahi-xuban, xidmətin,



Xidmətindəndir yetən cani-əzizə minnətin,
Minnətimdir eyləmək, olsa mənimlə ülfətin,
Qafiləm sirri-ləbi-canpərvərindən ta xətin,
Qondurubdur gərd mirati-dili-agəhimə.

Təngə gəldim hicridə fəryadü ahü zaridən,
Qeydim ancaq iynətək bir muyu zülfi-taridən,
Mən kimi agah edib, ey Nobəri, əsraridən,
Ey Füzuli, yarə döndərdim üzüm əğyaridən,
Xəsmi çox gördüm, sığındım sidq ilə Allahimə.

-264-

Qələm götürdüm ələ mən də bu iradə ilə,
Şəhir edəm özümü xəlqə qəlbi-sadə ilə,
Nə qurb mənziləti açmaqın ziyadə ilə,
Yürütməyin ərəqi məclis içrə badə ilə,
Həlalzadəni qoymun həramzadə ilə.

Salır xəyalə gözüm hər zaman üzün şəfəqin.
Durur nəzərdə üzarın görəndə gül vərəqin,
Dil onda pur eyləyir qanilə gözüm təbəqin,
Bu tifl-hüsnünə xəttin verər sitəm səbəqin,
Qoyma bu içi qərayi o lovhi sadə ilə.

Cünun eşqi-dilim Qeystək, olubdu sənə,
Gözümdə həsrəti-ruyin, dilimdə dadü nəva,
Gərəkdi göstərəsən Leylitək rusumi-vəfa,

Nola zaman ilə Məcnun müqəddəm olsa məna,
Oyunda şah bərabər degil piyadə ilə.

Həmişə müntəzirin göz yoluna göz tikərək,
İtirdi qarəsini, yaşini üzə tökərək,
Tərəhhüm olmadı səndən ki, ruyini görərək,
Qaşın bəlasına düşdüm, fələk oxun çəkərək,
Bu güclu yayı çəkər oldum ol kəbadə ilə.

Səbatü səbrdə sabitqədəm dürür könlüm,
Xumar gözdə müjən oxların görür könlüm,
Olurmu yarı onun rəhmdil, sorur könlüm,
Qapunda xəm qədimi gəzdirir, yürür könlüm,
İtin dürür, yüğürur hər tərəf qəladə ilə.

Xəyal etməgilən mən kimi olar dilxun,
Əsiri-möhnətü qəm, həddidən məlalı füzun,
Qurtardı dərdü qəmi çekmək ilə dar fünun,
Mənəm müdərrisi-elmi-cünun, hanı Məcnun
Ki, bərmurd ala dövrümdə istifadə ilə.

Hesab yoxdu məlalü qəmə, dilim purxun,
Yığıldı könlümə qəmlər sipahi gunagun,
Düşübdi rişteyi-can Nobəri, tənimdə dugun,
Məni sanıma Füzuli, qəm içrə bir Məcnun
Ki, mən ziyadəyəm ondan qəmi-ziyadə ilə.



-265-

Mərhəm olmaz aşiqin sənsiz dili-suzanına,
Çarə bilməz kimsənə nari-şəbi-hicranına,
Guş tutmaz dilbəri fəryadına, əfqanına,
Aşiq oldur kim, qıla canın fəda cananına,
Meyli-canan etməsin hər kim ki, qılmaz canına.

Rənci-firqət yaridən olmaz məlalı aşiqin,
Səhl olar səbr eyləsə əmri-məhali aşiqin,
Fovci-qəmdir ləşkəri, cahü cəlali aşiqin,
Canım cananə verməkdir kəmalı aşiqin,
Verməyən can etiraf etmək gərək noqsanına.

Ey fəraqi-yaridən rəncur olub nalan olan,
Eşq səhrasın gəzib sərgəştəvü heyran olan,
Rənci-dildir eyləmək hicran şəbi-ahü fəğan,
Vəsl əyyamı verib cananə rahət bulan,
Yeydir ondan kim, salar canın qəmi-hicranına.

Dil ibarətdir fəzayi-eşqidə qəmxanədən,
Mülki-dil mənsub ola bir sərnigun viranədən,
Aşiq oldur çəkməyə can versə əl cananədən,
Eşq rəsmin aşiq örgənmək gərək pərvanədən
Kim, qoyar gördükdə şənin atəşi-suzanına.

Gərçe çoxdur yaridən covrü cəfası aşiqin,
Firqəti hicranidə vardır səfası aşiqin,

Covri-yarı çəkməyə var iltiması aşiqin,
Fani ol eşq içrə kim, bənzər fənası aşiqin
Feyzi-cavid ilə Xızrın çeşmeyi-heyvanına.

Aşiqi-qəmnak edən rənci-şəbi-hicran degil,
Naleyi-bülbül gülün eşqində bir noqsan degil,
Kəbeyi-ruxsarinə can verməyən qurban degil,
Eşq dərdinin dəvası qabili-dərman degil,
Tərki-can derlər bu dərdin mötəbər dərmanına.

Olmayan Məcnun diyari-eşqə, Nobər, getməsin,
Laf edib bihudə bu rahi-cününə yetməsin,
Qeystək eşq əhlini nahəq yerə incitməsin,
Heç kim cananinə can verməyə laf etməsin
Kim, gəlibdir bu sifat ancaq Füzuli şanına[1].

-266-

Dilim dərdə salıb canan, məni qoydun məlal üzrə,
Şəbi-hicranidə qoyma mədamin mahü sal üzrə,
Necə razı olursan mən qaləm bir belə hal üzrə,
Nihali-sərvdir qəddin, qaşın nun ol nihal üzrə,
Misali-nöqteyi nun xalın ol mişkin hilal üzrə.

[1] Təxmisin altında ""Leyli və Məcnun" hekayəsində olan qəzəllərin təxmisi" sözləri yazılmışdır.



Çəkir həsrət gözüm sənsiz mənim, ey nogüli-rəna,
Eşitməzsən açan gültək sədayi-bülbülü, əsla.
Üzün bir güldi gülşəndə, dilim bir bülbüli-şeyda,
Olub heyran götürrəm xəttü xalından nəzər guya,
Gözüm nərdümləridir noqtələr ol xəttü xal üzrə.

Vüsalə arzuməndəm, əlim çatmaz, hələ durəm,
Sənin eşqinlə ellərdə olan rusvayi-məşhurəm,
Kənar oldum xəlayiqdən, diyari-hicridə urəm,
Xəm etdim qamətim, gər tərki-sər qılsam da, məzurəm,
Nə üzrüm var əgər derlərsə olmaz noqtə dal üzrə.

Fəraqın müddəti guya tükənməz, ayu ildəndir,
Sirabi-çeşmüün əşki rəvan bir selsəbildəndir,
Bulanlıq olsa gər yaşım qubari-qəmli göldəndir,
Gözüm peymanəsi məmlu zülali-xuni-dildəndir,
Hübab altındadır ol nöqtə kim, qorlar zülal üzrə.

Bu qədri yaş tökər çeşmim, onu dildar silməz kim,
Mərizi-eşqi-cananəm, üzüm qəmgindi, gülməz kim,
Səmərdir dərdü qəm nəxli, dilim üzrə dərilməz kim,
Yazar göz pərdəsinə əşk şərhi-hal, bilməz kim,
Oxunmaz qan ilə yazılsa xətt ovraqi-al üzrə.

Fəraqində tükənməzdir, rəvan hər yan nəmi-çeşmim,
Olan bir dürri-əşkimdir qəmində həmdəmi-çeşmim,
Tökər sənsiz üzarimə sirişkin hər dəmi çeşmim,
Dəmadəm kilki-müjganilə tifli-mərdümi-çeşmim,

Xətti-sövdayi-xalin məşq edər lovhi-xəyal üzrə.

Yumubdur ağzımı heyrət, məni manəndi-mim etmiş,
Bu qədri rəncilə könlüm sənə mehrin səmim etmiş,
Demə kim, Nobəri dərdi-firavan ilə bim etmiş,
Füzulinin təriqi-nəzmə təbin müstəqim etmiş,
Xəyali-qamətin kim, bir əlifdir etidal üzrə.

-266-

Möhnətü qəm yapışıb çaki-giribanımıza,
Etmədin rəhm neçün naləvü əfqanımıza,
Bəstəri-qəmdə nolar gəlsən əgər yanımıza,
Küfri-zülfün salalı rəxnələr imanımıza,
Kafər ağlar bizim əhvali-pərişanımıza.

Həsədi-qəlbi-ədu etdi dili-zarimə rəşk,
Tənələr daşı dəgər başimə ildən tək-tək,
Durri-əşkimlə dolar giryə qılan dəmdə ətək,
Səni görmək mütəəzzir görünür beylə ki, əşk,
Sənə baxdıqca dolar dideyi-giryanımıza.

Qeyz əlin hər yetənə sarı diraz etməgilən,
Sitəmü cövr dərin qeyriyə baz etməgilən,
Hər kəsin qəlbini sən covrə fəraz etməgilən,
Onu nagəh tökənə covrini az etməgilən,
Az edib covrü cəfalər qılıban canımıza.



Həsrəti-zülfi-ruxun canımı bir dərdə salıb,
Heyrətimdən dilimə bir qəm ilə qüssə qalıb,
Dudi-dil ahimilə ruyi səmayə ucalıb,
Əskik olmaz qəmimiz munca ki, bizdən qəm alıb,
Hər gələn qəmli gedər şad gəlib yanımıza.

Vəslinə mehri-ruxun Nobəri, mötad etdi,
Dəhr qeydindən onun fikrini azad etdi,
Vəsl fikrinə düşüb qəmli dilin şad etdi,
Qəmi-əyyam, Füzuli, bizə bidad etdi,
Gəlmüşüz əcz ilə dad etməyə sultanımıza.

-267-

Yetirib badi-səba naləni cananımıza,
Olub agah bizim dərdi-firavanımıza,
Çarə qılmaq diləyir hali-pərişanımıza,
Yar rəhm etdi məgər naləvü əfqanımıza
Ki, qədəm basdı bu gün külbeyi-əhzanımıza.

Ruzindənmi məgər qıldı bizim səmtə nigəh,
Eşidib naləmizi, halidən olmuş agəh,
Gəlib insafə deyən, rəhm edəcəkdir ol şəh,
Əşk baranı məgər qıldı əsər kim, nagəh
Tökdü bir şaxi-güli-tazə gülüstanımıza.

Mərdümi-çeşmimə hər səmtidə canan görünür,
Pişvaz etmək üçün yarımı canım sürünür,

Nəfəsim təngə düşür, sinədə könlüm dögünür,
Bizdə ah atəşinin yandığı ondan bilinir
Ki, çırağ eylədi rovşən şəbi-hicranımıza.

Dil fəraqında onun xəstələnib, düşkün idi,
Həvəsim vəslinə ol mahvəşin ötkin idi,
Meyli-didari-ruxi-yarımıza hər gün idi,
Bu vüsalə yuxu əhvalı deмək mümkün idi,
Əgər olsaydı yuxu dideyi-giryanımıza.

Vəsl xülyası edər leylimizi misli-nəhar,
Uyğu gəlməz gözə, gun şamilə bir dövrə qərar,
Yarımı mən görürəm gün üzütək vəqti-nəhar,
Bir xəyal ola məgər gördüyümüz, yoxsa ki, yar,
Mütləqa xatirə gəlməz ki, gələ yanımıza.

Dil tərənnümdə olub sinə ərə şadandır,
Üzümüz xəndə, güli-bağ kimi xəndandır,
Nobəra, qəm nə üçün, gördüyümüz canandır,
Gəlün ey canü könül, yar bizə mehmandır,
Can verib dilbərə, minnət qoyalım canımıza.

-268-

Ey rəsalətdə olan qədrilə xatəm ləqəbi[1]

[1] Bu təxmisin əvvəlində, sərlövhə kimi "Dər vəsfi-Həzrəti-Məhəmməd Əleyhüssəlam" sözləri yazılmışdır.



Ürəkdən bizlərə bu rəsm təriqi-ədəbi,
Həqqə dəvət eyləyən bizləri hər ruzü şəbi,
Ey vücudin əsəri, xilqəti-əşya səbəbi!
Nəbi ol vəqt ki, bilfel kərəkməzdi nəbi.

Doldurub mehrin ilə canda cigər qanı rəki,
Şükr ola, bu dilimin olmadı sən həqdə şəki,
Gətirin səcdəyə meracıda fovci-mələki,
Səyyidi-əbtəhiyü məkkiyü ümmiyyü zəki,
Haşimiyyü mədəniyyü qurəyşiyyü ərəbi.

Qıldı nurini üzün nuri gün ilə bədri,
Onların oldu füzun əhli-cahanə qədri,
Əfzələttaət edib xəlqə ləyali-üzri,
Səbqəti-zatf ilə eyvani-risalət sədri,
Şərəfi-əsl ilə fehristi-rüsul müntəxəbi.

Doldurub noh fələki nuri-rəsalət tacın,
Əzmi-meraca sənin həqqidən olmuş nacın,
Oldu dildarinə əffaci-mələk möhtacın,
Əzmi-çərx etdi Məsiha ki, bula meracın,
Yetmədi mənzili-məqsudə təriqi-tələbi.

Aşiqi-sadiqinə gör bu nə dilbərdir kim,
Kufridən tirə dilə nuri-münəvvərdir kim,
Naibi-şiri-xuda, saqiyi-Kovsərdir kim,
Ənbiyadan kimə səntək bu muyəssərdir kim,
Adəmə vəchi-mübahat ola izzü nəsəbi.

Şafei-ruzi cəza sərvəri-üqba sənsən,
Həşridə dərdi-dili-xəlqə müdava sənsən,
Baisikovnü məkan, xilqəti-dünyasənsən,
Xələfi-mötəbəri-Adəmü Həvva sənsən,
Cəələllahü fədaən ləkə ümmi və əbi.

Nobəri, etməgilən mərhəmətindən mədud,
Mehr dildəndir olub vəsfinə şayan mənzum,
Kəsrəti-cürmi onu gərçe edibdir məşrum,
Ya nəbi, qılma Füzulini qapından məhrum,
Əfv qıl, var isə dərgahidə tərki-ədəbi.

-269-

Açdı mehrin dildəki bəstə cahalətdən dəri,[1]
Eylədi mənzuri-dil səntək müqəddəs dilbəri,
Oldu müştaq ruxun mehrin tutan gündən bəri,
Ey vucud-kamilin, əsrari-hikmət məsdəri,
Məsdəri-zatı olan əşya sifatın məzhəri.

Arzuməndə deme, olsun vusal əmri çətin,
Sənin olmuş məxzəni hər bir ülumi-hikmətin,
Bağlamış könlüm səri-kuyin dolanmaq niyyətin,

[1] Bu şeirin də həzrəti-Məhəmməd Əleyhüssəlamın vəsfi olduğu sərlövhədə göstərilmişdir.



Məzhəri hər hikmətin sənsən ki, kilki-qüdrətin
Səfheyi-əflakə nəqş oldu xütuti-əxtəri.

Əql heyrandır sənin mafövq olan idrakına,
Can fəda olsun səri-kuyindəki xaşakına,
İsmi-pakındır fərəhbəxş dili-qəmnakına,
Əxdəri-məsud olan oldur ki, təbi-pakına,
Qabili-lütf ola feyzindən səfayi-covhəri.

Mümkün etseydim düşəm bir də dəri-pakə dəxil,
Türbətin bus eyləyib, mən qədrilə ollam cəlil,
Padişahim olgilan bu arzuməndə dəlil,
Cövhəri məyub olan naqis mənəm ki, müttəsil
Sadədir xəttin xəyalindən zəmirim dəftəri.

Naümmidi-vəsl olub, qəmnak dildən çəksəm ah,
Kim, olar sənsiz məni-dilxunə bir dəm xeyrxah,
Mücrüməm, dərgahinə üz döndərib gətdim pənah,
Dəftəri-əmalımın xətti xətadəndır siyah,
Qan tökər çeşmim, xəyal etdikcə hövli-məhşəri.

Bu yəqindir olaram mehrindən ey canan, cüda,
Bir məhəbbət qeyriyə könlümdə yox həqdən səva,
Gəldi hatifdən mənim guşimə bir boylə səda,
Məhşəri əşkim verər selaba, gər ruzi-cəza
Olmasa məqbul dərgahin sirişgim gövhəri.

Bibədəldir Nobəri, gövhərlə dürri-nabi-çeşm,

Qiymətə uyğun degil gözdən gələn xunabi-çeşm.
Axirət şövqindədir bu gövhəri-ərbabi-çeşm,
Gövhəridir eşq bəhrinin, Füzuli, abi-çeşm,
Leyk bir gövhər ki, lütfi-həqq onadır müştəri.

-270-

Qönçə gültək arizin əğyarimə məstur idi,
Çeşmi əğyarın səni görməkdə mütləq kor idi,
Məhfəlindən ey sənəm, bimehr olanlar dur idi,
Ey xoş ol günlər ki, ruxsarın mənə mənzur idi,
Çeşmi-ümmidim çıraqi-vəslilə purnur idi.

Kami-dil asan mənə, əgyarimə düşvar olub,
Mən də bir fərxündə dil, onlar da ahüzar olub,
Mən əzizəm yarimə, yanında onlar xar olub,
Qürb şövqi afiyətbəxşi-dili-bimar olub,
Vəsl zövqi rahətəfzayi-dili-məhcur idi.

Şerguyəm, şadru, təbimdə nəzmi-məsnəvi,
Kami-dil hasil olub ol mahrudən mənəvi,
Rövşən olmuş arizi şəmilə tirə can evi,
İzzətim şəmi münəvvər, taleim əzmi qəvi,
Dövlətim hökmü rəvan, eyşim evi məmur idi.

Aftabasa üzün şövqi gözümdən getməyib,
Bağı-eşq içrə dilim nəxli səmərsiz bitməyib,
Zəhmətim bihudə, həm səyi-təlaşım itməyib,



Daməni-iqbalimə gərdi-təərrüz yetməyib,
Çeşmi-hasid cövreyi-cəmiyyətimdən dur idi.

Dil təmənnasın edib ol dilbəri-məhru qəbul,
Olmayıb razı qalam qəmxanədə zarü məlul,
Təhniyət məndən sənə, kamə yetişdün ey könül,
Adəm idim, qurbi dərgahində olmuşdum qəbul,
Mənzilim cənnət, meyim kovsər, ənisim hur idi.

Badeyi-ləli-ləbi-yar ilə peymanəm dolub,
Şadam ondan kim, könül məqsudinə bir yol bulub,
Munca lütfi-yaridən əğyarimin rəngi solub,
Bəxt mətlubim müəssər qılmağa məhkum olub,
Dəhr əsbabim mühəyya qılmağa məmur idi.

Oldum eşqi-yar ilə məşhur bir alicənab,
Şadluqimdan istəməm şamü nəharə xordü xab,
Eşqi-canandan mənə ancaq yetər bu intixab,
Hər dua qılsam təvəqqüfsüz olurdu müstəcab,
Hər təmənna eyləsəm, ehmalsız məqdur idi.

Mahruyindən salıb mehrü məhəbbət könlümə,
Vəsli-cananım olub qiymətli sərvət könlümə,
Gəlməyir hicranidən bilmərrə, riqqət könlümə,
Hicr vəhmindən yetirməzdim kudurət könlümə,
Gərçi dövranın müxalif cünbişü məşhur idi.

Qorxuram bu Nobəri axir yetirsin canə çərx,

Ziri xak etsin onun gənci-dilin viranə çərx,
Etməyib çünkim vəfa dunyadə bir insanə çərx,
Nola gər salsa Füzulini qəmi-hicranə çərx,
Vəsl əyyamında ol qafil olan məğrur idi.

-271-

Edib məhcub ruxsarın ziyası mehr rusvai,
Günəşdən ruyi-purnurin xəcalətdə qoyub ayi,
Gözəllikdə məhü xurşid olarmı hüsnün tayi,
Buraxdı xakə hüsnün aftabi-aləmarayi,
Götürdü yer üzündən möcüzi-ləli-Məsihayi.

Səlasil zülfi-purçinin olubdur boynumun toqi,
Qəmimdir Qeysü Fərhadın qəmindən xeyli mafövqi,
Yolunda sərfi-can qıllam onunla var ilə yoxi,
İki gözdən rəvan etmiş sirişkim qamətin şovqi,
Əsayi-möcüzi gör kim, iki bölmüş bu dəryani.

Əlində şanə açdıqca səhərdəm tabi-zülfündən,
Füruşi-ətr əttarə açılmış babi-zülfündən,
Olur xoşhal, ey məhru, dili-əhbab zülfündən,
Bükülmüş qəddimi qurtara gör qullabi-zülfündən,
Xətadır, çəkməsin çox bağrı çökmüş bu sınaq yayi.

Nəzər xurşidvəş ruyə müyəssərdir, demə haşa,
Cəsarət eyləyən kimsə qalar manəndi-nabina,
Dilər görsün qaşın üzdə nigara bu dili şeyda,



Ruxun üzrə xəmi-əbruni görmək istərəm, əmma,
İyən düşvar olur, gün varikən görmək yeni ayi,

Məni həsrət qoyub meygun dodağə, canımı yaxma,
Dili-zarım kəbab etmə, müjən peykanına taxma,
Səri-kuyindəki dadü fəğanım başimə qaxma,
Şərabi-nabə lütf et möhtəsib, çox qəhrlə baxma,
Mükəddər qılma əksi-tirədən qəlbi-müsəffayi.

Səri-kuyində sərgəştə dolannam ahü zar ilə,
Dilimdə atəşi-hicran bu çeşmi-əşkbar ilə,
Könül bəhsə durub baran verən əbri-bahar ilə,
Yedi gündür ol ayi görməzəm, ahim şərar ilə,
Nola qılsam Bənatün-nəş ilə yeksan Sürəyyayi.

Nihan tutma qəmin, Nobər, onu dildarına söylə,
Könül mülkin əbəs vermə bu qarətgər olan xilə,
Bəyan et dərdi-dil yarə, dili suzan olan neylə,
Füzuli, seyli-əşk ilə pərişan olma, səbr eylə!
Ona həm vardır axır[1], tutub durmaz bu dünyani.

-272-

Üzün məndən dolandırdı, vəfasızdır, inandırdı,
Fəraq odilə yandırdı, ta heyyirdə dayandırdı,

[1] Bu sözün altında "Bir gün" sözü yazılmışdır.

Rümuzi-eşqi qandırdı, yatan könlüm oyandırdı,
Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Mələklər yandı ahımdən, muradım şəmi yanmazmı?

Mənim bu dideyi-giryan açıbdır dərdimi hər yan
Gözüm yaşlı, dilim nalan, necə rahətlənər bu can,
Mənə Məcnun verib ünvan olam sərgəteşyi-dovran
Hamu bimarinə canan dəvayi-dərd edər əhsan,
Neçün verməz mənə dərman, məni bimar sanmazmı?

Olub birəhm cananım, atar peykan, tökər qanim,
Dilər ol mahtabanim fəraqı oduna yanim,
Fəraqi-yar mehmanim, vusalə yoxdur imkanim,
Şəbi-hicran yanar canim, tökər qan çeşmi-giryanim,
Oyadır xəlqi əfqanim, qara bəxtim oyanmazmı?

Vüsali-yaridir qayğu, dilim vird eyləyir yahu,
Salıb bəndə məni bir mu, sərü zülfündəki gisu,
Düşüb səhralarə hər su, edib qumri kimi qu-qu,
Güli-ruxsarınə qarşu gözümdən qanlu axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?

Bileydim qəlbini ahən, xəyalimdən dönərdim mən,
Tapardım dilbəri-xahən, nigari-şux, möstəhsən,
Nə etməzdim belə şivən, şəbi-hicran xunrizan,
Qəmim pünhan tutardım mən, edərdim yarimə rovşən,
Desəm ol bivəfa, bilmən, inanarmı, inanmazmı?



Hüzuri-şahidə qabil, təmənnayi-dili-sayil,
Kərəmsiz şahidən aya, nədir fəqr əhlinə hasil,
Rəqibim olmasa hayil, olardım vəslinə nail,
Degildim mən sənə mayil, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil səni görsə utanmazmı?

Nigarım hüsni zibadır, üzü gülbərgi-hümradır,
Qədi sərvi-dilaradır, dilimdə mehri peydadır,
Adım xəlqə hüveydadır, müləqqəb Nobər, imzadır,
Füzuli rindü şeydadır, həmişə xəlqə rusvadır,
Sorun kim, bu nə sövdadır, bu sövdadan usanmazmı?

-273-

Qoydu heyrətdə yenə yar məni-heyrani,
Almadı könlümü bir sözlə ləbi-xəndani,
Müttəsil nalə ilən qoydu dili-nalani,
Getdi əldən sənəmin kakili-mişkəfşani,
Genə dövr etdi pərişan məni-sərgərdani.

Mənlə munis qəmidir, hicri dilü can ilə kim,
Şad edir könlümü bu dideyi-giryan ilə kim,
Qalmışam həsrət ona bu dili-nalan ilə kim,
Öylə mötad olubam ataşi-hicran ilə kim,
Görməsəm yandırar əlbəttə məni hicrani.

Tiri-müjganə sipehr eyləmişəm cismi-duşin,
Dəmbədəm gördi tökən ahilə ruxsarə yaşin,

Saldı biru qəminə bu dili divanə daşin,
Göydə ahim yeli söndürdü çırağın günəşin,
Yerdə əşkim ayağa saldı düri-qəltani.

Bəs ki, çəkmiş gözüm ol ləli-ləbin həsrətini,
Qaldı heyran o kim, gördü gözüm heyrətini,
Yenə heyrətdi qoyan canə gözün minnətini,
Göz bəyazinə çəkər ləllərin surətini,
Dəmbədəm xameyi-müjgan ilə bağrım qani.

Saldı əldən tənimi atəşi-ahi-sərdim,
Düşdi hicran əlinə hər gecə cismi-fərdim,
Ah çəkib dərdimi faş etmək üçün göndərdim,
Çıxdı can, kimsəyə izhar edə bilməm dərdim,
Nə deyim, ah, bu dərdin nə ola dərmanı.

Ey ki, eşqi buraxıb qeyri təriq eyləgilən,
Laübali bu fəna dəhridə xak etmə bədən,
Nəyə meyli-ruxi-yar eyləmədin, soylə nədən,
Ey sitəm daşını biqeydilərə zaye edən!
Yapgilən bir neçə daşilə dili-virani.

Nobəri, canını ver yarə, vusal eylə tələb,
Damənindən yapışıb, eylə rica ruz ilə şəb,
Rəvəşi-eşqdə hər aşiqə vacibdir ədəb,
Versə can, yetməsə canano, Füzuli, nə əcəb,
Hər kişi kim, sevər öz canı üçün canani.



-274-

Tut hesabə dilbərim, bir can fədalərdən məni,
Xadimi-dərgah olan sadiq gedalərdən məni,
İştibah etmə sanıb hər bivəfalərdən məni,
Fariq etdi mehrin özgə məhliqalərdən məni,
Hirz imiş eşqin sənin, saxlar bəlalərdən məni.

Bir nəhayət vergilən nari-şəbi-hicranıma,
Həddən artıq lutf olar bir ləhzə gəlsən yanıma,
Səndədir çarə mənim bu dərdi-bidərmanıma,
Könlüm aldın, göstərib yüz lütfü minnət canıma,
Eylədin müstəğni özgə məhliqalərdən məni.

Mən cünuni eşqinəm, dünyanı tutmuş şöhrətim,
Sənsiz olmuş dəştidə vəhşilər ilə ülfətim,
Tutmadı biqeyd olan insan ilə ünsiyyətim,
Vamiqü Fərhadtək rusvayə vermə nisbətim,
Bir fəqirəm, sanmayın ol xudnümalərdən məni.

Göstərib ruxsarını təndən ayırdın ruhimi,
Qoymusan sinəmdə bimərhəm dili-məcruhimi,
Şərhə-şərhə eyləyib qəmzən təni-məşruhimi,
Şivəvü naz rəf etdin qəmü ənduhimi,
Sehr ilən biganə qıldın aşinalərdən məni.

Dad əlimi dəməni-imdadinə canan, yetir,
Şahmari-zülfündən xovf eyləyən könlüm ötür,

Rəhm qıl bimarıun yanındə bir ləhzə otur,
Qıl təkəllüm zulf ənduhini, könlümdən götür,
Bir füsun ilə xilas et əjdəhalərdən məni.

Ayda şöhrət, ərşidən səhrayə etmiş nur isə,
Yox onun nuru əgər xurşid üzdən dur isə,
Taətin icri həman bir huridən mənzur isə,
Qayəti-zöhdü vərə zahid vusali-hur isə,
Vəchi yox mən eyləmək huriliqalərdən məni.

Nobəri, mən aşiqə əsla məzəmmət qılmaram,
Eşqi yox insan ilə bir dəm rəfaqət qılmaram,
Vəsl ümidi olmasa hicranə taqət qılmaram,
Hər cəfa qılsan, Füzuli, şikayət qılmaram,
Eşq ətvarında sanma bivəfalardən məni.

-275-

Ah kim, ol mahru bilmir mənim əhvalimi,
Qeys təbdil eyləməz fəryadidə imsalimi,
Bilmiş éllər eşqdən başımdə qilü qalimi,
Çöhreyi-zərdimdə gör həmdəm sirişki-alimi,
Ol güli-rənayə bu rəng ilə bildir halimi.

İltimasım ol məhi-tabanındandır dəmbədəm,
İltifatın etməsin bu dərdiməndü zarə kəm,
Rəhm edib bir mən tərəf qoysun qədəm ol möhtərəm,
Ta ki, sərvim başım üzrə basə gahi bir qədəm,



Ey müsəvvir, rahgüzarı üzrə çok timsalimi.

Razıyam qanım tökə ol çeşmi-xummarim mənim,
Yarə qurban gözlərim, olsun dili-zarim mənim,
Neylərəm mən səltənət, tacilə yox karım mənim,
Ey fələk yoxdur libasi-fəqridən arım mənim,
Ətləsindən bilmişəm üstün mühəqqər şalimi.

Arzuməndəm ona dərdi-dili izhar edəm,
Dildə yarın mehrini ta var həyatım var edəm,
Dilbədil ol mahruyi-canan ilə guftar edəm,
Ey xoş ol kim, eşq hərfin bir dəxi təkrar edəm,
Həşr divanında görcək nameyi-əmalimi.

Dərdini aşiq olan qeyrə hekayət eyləməz,
Kəsrəti-hicranına canan nəhayət eyləməz,
Rəhm edib axır mənə lütfü inayət eyləməz,
Heç kim yoxdur ki, naləmdən şikayət eyləməz,
Şükr kim, ərz eyləyən çoxdur sənə əhvalimi.

Bəstəri-bimaridə xabə gedib yarı görəm,
Ol təbibi-dərdidən dərmanımı ta ki, sorəm,
Bəlkə dərman eyləyə bimarə ol kani-kərəm,
Niyyətim oldur ki, ruxsarın görüb canım verəm,
Müshəfi-ruxsar ilə qılsun mübarək Farimi.

Xubilər şahı olan mehparə dilbərdir mənə,
Eşqinə layiq bilən mahi-münəvvərdir mənə,

Ellərə məşhur edən imzadə Nobərdir mənə,
Sübhü şam ol qibleyi-əbru bərabərdir mənə,
Ey Füzuli, tanrı gözdən saxlasın iqbalimi.

-276-

Dildə yoxdur fərəhim dərdü bəladən qeyri,
Şami-hicrində sənin dadü nəvadən qeyri,
Rahəti-çeşm nədir əşki-bükadən qeyri,
Yar qılmazsa mənə covri cəfadən qeyri,
Mən ona eyləməzəm mehrü vəfadən qeyri.

Hörmətin tut gözəlim, getdi, qalıb səndə könül,
Bir nəfəsdir quru bu təndə qalan məndə könül,
Oldu öz padşahi əmrinə bir bəndə könül,
Ey deyən qeyrə könül vermə, hanı məndə könül,
Səri-zülfində olan bəxti qəradən qeyri.

Yandı hicran oduna eşqidə Məcnun dili,
Yetmədi ah, ola kim, daməni-Leylayə əli,
Belə divanə olan xeyli bu dunyaya gəli,
Qıldı Məcnun kimi çoxlar həvəsi-eşq, vəli,
Dözmədi dərdə, məni-bisərü padən qeyri.

Aşiyani-zülfün edib murği-dilim məhçəbinin,
Açılarmı görəsən bəndi könül mətləbinin,
Çoxdu təfəvvuqi dili-zarimə hicran şəbinin,
Ləbinə çeşmeyi-heyvan deməzəm kim, ləbinin



Var min canə yetən feyzi, bəqadən qeyri.

Yanağı bərgi-gül misli, ləbi incə, rəqiq,
Bunu ancaq ki, bilər mən kimi bir əhli-dəqiq,
Məndən özgə kim olar bir belə məhruyə rəfiq,
Ağzının sirrini heç kim edə bilməz təhqiq,
Sirri-qeybi nə bilər kimsə xudadən qeyri.

Nobəri, görmədim ol mahi-cəhanəfruzi,
Dağa salsam dağılar ahi-dili-cansuzi,
Nəyə tənha buraxır hər gecə bu yalquzi,
Ey Füzuli, bizə təqdir qəm olmuş ruzi,
Qılalım səbr, nədir çarə rizadən qeyri.

-277-

Etdi peymanəyə meyi piri muğanım cari,
Saqiyi-eşqim onu tutdu ələ mən sari,
Etdi bihuş həman cam ilə bu huşyari,
Yıxdı saqi, bir əyaq ilə məni-əfkari,
Bir təpik eylədi viran bu kuhən divarı.

O meyi içməgə mən eylədim əz bəs ki, şitab,
Çoxdan istərdim içim yarın əlindən meyi-nab,
Meypərəst olmağıma zahidə yox məndə cavab,
Gah məmur qılır badə məni, gah xərab,
Görünüz gah yapan, gah yıxan memarı.

Yanmadı bəzmdə bir şəm mənim könlümtək,
Qəm çəkən yoxdu cahan içrə dilü koksümtək,
Hicr odu nərm qılıb ahəni-könlüm mumtək,
Gün çıxınca saçuram gövhəri-eşq əncumtək,
Gecələr yadıma gəldikcə məhi-ruxsarı.

Deməyin atəşi-hicrani fəraqındə sönü,
Şami-hicranidə dil atəşi bir şəmə dönü,
Söndürməz giryəli göz mərdümi-əşkilə onu,
Dil yaxar dağ gözun fikri ilə hicr günü,
Bu çiraqiləmi saxlar gecələr bimarı?

Aşiqin canü dili əldə olur sərmayə,
Şövqü zövqilə girər nəqd ilə bu sövdayə,
Sərf edər varını ol sərvqədü rənayə,
Yox özündən xəbəri kim ki, gələr dünyayə,
Bəzmidən dişrə qomaz piri-muğan hüşyarı.

İstifadə edəlim cani-meyi-minadən,
Aşiqə sudi nədir mali-zərü-zibadən,
Zövq alar aşiq olan sərvqədi-rənadən,
Biz üçün qədr bulunmaz, çıxalım dünyadən,
Müştəri yox, necə biz bəkliyəlim bazarı.

Taəti-zöhdü vərə aşiqə nə hacətdir,
Gülxəni-kuyi-sərvi-yari ona cənnətdir,
Nobəri, səcdə qıl ol yarə dəmi-fürsətdir,
Qeydi-təqlid, Füzuli, sənə bir afətdir,



Bir həsar eylə sən ondan özünə zünnarı.

-278-

Öləndə qəbrimə təmir edin bir günbədi-kaşi,
Həsari-günbədim olsun dilimdə dərd sərdaşi,
Məlalım olmasın hər bir yetən biqeydlər faşi,
Tərəşşüh qəbrimin daşından etsə gözlərim yaşi,
Xəyal eylər görən kim, əlidəndir qəbrimin daşi.

Məni sərxoş edən meydir, demə ol çeşmi-xumarın,
Gözün mehri tutub, damə salıbdır zülfi-tərrarın,
Fəğanü nalımə bais olub gisudə bir tarın,
Nə zibasan ki, surət bağlamaz təsviri-ruxsarın,
Təhəyyür surət eylər surətin çəkdikdə nəqqaşi.

Cahan qeydin burax, ey dil, həvəs qıl cami-səhbayə,
Əlində saxla can nəqdin, vusali-yarə sərmayə,
Keçən günlər musavidir şəbi-mazidə royayə,
Nola girdabi-qəmdirsə dili-sərgəştə dünyayə
Sanur kim, cizginir aləm kimin kim, cizginir başi.

Mudamin xabi-qəflətdə müsəlləmdir, qalar cahil,
Cahalətdən oyan, ey dil, vusali-yarə ol mayil,
Miyani-yar ilə sən də təlaş et, olmasın hayil,
Sipehri-purkəvakibdən nədir dərdə dəva hasil?
Xəyal etmə vərə tiryaki-zəhri-qəm bu xaşxaşi.

Xəsarət həddən artıqdır sənin bazari-ömründə,
Qüyudati-cəhan eylə ziyanın var ömründə,
Açar min gül, solar axir həman gülzar ömründə,
Bəqasi mümkün olmaz, olsa gər divari-ömründə,
Məhü xurşididən xiştu bina, əflakidən kaşi.

Qiyudati-cəhan eylər təni-bimarını düşgün,
Cəhanda dil təmənnası məramınca degil mümkün,
Şərabi-ləli-canandır hamu inşaidən üstün,
Verər əmvatə əhya badə, guya kim, çıxıb hər gün,
Salır feyzi-Məsiha badəyə meyxanə xəffaşi.

Dilin etmişdir, ey Nobər, nigarın mehrini peyda,
Onun şövqilə olmuş dil məhəbbət bağinə şeyda,
Sənə hicranı cananın bu növ ilə olur guya,
Füzulini rəhi-eşqində əşki-al edər rüsva,
Bəladır hər kimin yolda ola qəmmaz yoldaşi.

-279-

Görmədim səndə dili-zarə, cəfadən qeyri,
Dildə qəm fovciləri, gözdə bükadən qeyri,
Munisim olmadı bir dadü nəvadən qeyri,
Hasilim yox səri-kuyində bəladən qeyri,
Qərəzim yox rəhi-eşqində vəfadən qeyri.

Eşq sövqində, könül, canını şirin dilə ver,
Yomi-hicran şəbinin müddətini bir ilə ver,



Ney kimi naləyə gəl, dadını eldən elə ver,
Neyi-bəzmi-qəməm, ey ah, nə bulsan elə ver,
Oda yanmış quru cismimdə həvadən qeyri.

Xalı gül üzdə görüb, xar düşübdür gülə püşk,
Ah cansuz dilim, canım onunçun idi xoşk,
Etmişəm kuyi-sərvi-yaridə bir gülxəni-kuşk,
Pərdə cək çöhrəmə hicran günü, ey qanlı sirişk
Ki, gözüm görməyə ol mahliqadən qeyri.

Yaxşı ki, olmadı Fərhad mənim dövrimdə,
Qeysi qoymaz ki, qəmim gəşt eləyə cövrimdə,
Eşq bunyadına var qələyi-möhkəm məndə,
Yetdi bikəsliyim ol qayətə kim, çevrəmdə
Kimsə yox cizginə, girdabi-bəladən qeyri.

Yox üzün misli olan bağıdə güldən özgə,
Nədi şirintər olan səndəki dildən özgə,
Nə salar bəndə məni türrədə teldən özgə,
Nə yanar kimsə mənə ataşi-dildən özgə,
Nə açar kimsə qapım badi-səbadən qeyri.

Keçdi min zəhmət ilə hicridə bu aşiqə leyl,
Hər qədər cövr edəsən artıq olur vəslinə meyl,
Abi-nisan sədəfi-bəhr eləyir daşı süheyl,
Pozma ey movc gözüm yaşı hesabın ki, bu seyl
Qoymadı heç imarət bu binadən qeyri.

Mən necə şükuh bu bəxti-siyah eyləməyim,
Nə səbəb Nobəri, mən yarə pənah eyləməyim,
Əzmi-kuyi-səri-cananıma rah eyləməyim,
Bəzmi-eşq içrə Füzuli, necə ah eyləməyim
Nə təməttö bulunur məndə sədadən qeyri?

-280-

Xovfi-qədri-bəhri-hicran hal-hal eylər məni,
Munca tul firqətin vasil məlal eylər məni,
Şovqu zövqim aqibət Məcnun misal eylər məni,
Heyrət, ey büt, surətin gördükdə lal eylər məni.
Surəti-halım görən surət xəyal eylər məni.

Hər qədər səy eylərəm bir dəm yön almazsan mənə,
Etmisən canım müqəyyəd, qeydə qalmazsan mənə,
Hər qədər rəncur olam bir rəhm qılmazsan mənə,
Munca kim, sən rəhm edib, həm mehr salmazsan mənə,
Sayətək sövdayi-zülfün payimal eylər məni.

Eşqə düşdüm, bilmədim bir bu qədər onda məlal,
Təneyi-əğyaridən başım çəkib min qilü qal,
Olma kim, eydir əgər mən belə qalsam mahü sal,
Manei-tovfiq olur hər necə kim, bu zəfi-hal,
İltifatın arzuməndi-vusal eylər məni.

Daği-pünhani-dilim aya kimə ərz eyləyim,
Faş edib əğyarəmi, gizlin tutum, ya neyləyim,



Yetməyir imdadimə iganə, ya həm köyluyim,
Mən gəda sən şahə yar olmaq yox, əmma neyləyim,
Arizu sərgəşteyi-fikri-mühal eylər məni.

Göz atar müjgan oxun, həm qaşidən xəncər çəkər,
Gəh üzün könlüm açar, gəh həsrətin qəddim bükər,
Qəsdi-can etmək xəyalin varisə söylə, əgər,
Tiri-qəmzən atma kim, bağrım dələr, qanım tökər,
İqdi-zülfün açma kim, aşüftəhal eylər məni.

Dil yaranmışdır məgər ahü fəğanlar eşqinə?
Can gəlib qurban ola mərğubi-canlar eşqinə?
Cismidə dildir olan sərvi-nihanlar eşqinə?
Dəhr vəqf eylər məni novrəs cəvanlar eşqinə,
Hər yetən məhvəş əsiri-xəttü xal eylər məni.

Dəştü səhralərdə mən Məcnun misali qalmaram,
Özümü el ağzına divanəlikdən salmaram,
Kuhkəntək Nobəri, rüsvayi-dövran olmaram,
Ey Füzuli, mən təriqi-eşq tərkin qılmaram,
Bu fəzilət daxili-əhli-kəmal eylər məni.

-281-

Mərdümi-çeşmimdə əsla intizarım qalmadı,
Bu zəmirü sinədə bir ahü zarim qalmadı,
Pakidir ayineyi-qəlbim, qubarim qalmadı,
Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,

Sayətək bir yerdə durmağa qərarım qalmadı.

Dərdi-eşqin çarəsin etməz müəyyən bir həkim,
Mehri-yarimlə dolub xilqət zamanında rəkim,
Qeyri-mümkündür bula təğyiri-surət məsləkim,
Bir gün olmaz tələti-vəslin müyəssər ah kim,
Zərrəcə ol gün yanında etibarım qalmadı.

Olsa mehri dilbərin könlündə məntək hər kəsin,
Tutacaqdır həsrəti-yar ilə qəmlər çövrəsin,
Şami-hicran, atəşi-cansuxin asan bilməsin,
Pak edibdir xatirimdən dəhri-qəm ayinəsin,
Oylə məhv oldum ki, bir zərrə qubarim qalmadı.

Çox dəyər aşiqlərin başı məlamət daşinə,
Dərdin izhar eyləməz bidərd olan yoldaşinə,
Eşq rahindən xəyal etmə ki, aşiq daşinə,
Qəm günü həmdəmlərim qərq oldular göz yaşinə,
Silməyə göz yaşini bur qəmküsarını qalmadı.

Rahi-məqsəd aşiqə əğyaridən məsdud idi,
Bərgi-güldə xartək ənzaridə mövcud idi,
Əbr sanma, göydəki aşiq dilindən dud idi,
Eşq rahində mənə ancaq fəna məqsud idi,
Şükr kim, məqsudə yetdim, intizarım qalmadı.

Rişteyi-canım fəraqi-yaridə düşdü dügün,
Yandı canım atəşi-hicrani ilə büsbütün,



Nobəridən sordular, düşdün rəhi-eşqə neçün?
Ey Füzuli, el hamu əğyarım oldu yar üçün,
Suzi-dildən qeyri bir dilsuz yarım qalmadı.

-282-

Tənə daşilə mənim doldurdular hər yanımi,
Töhmətə tuş eylədi biqeyd olanlar canimi,
Olmadı xamuş edən daği-dili-suzanimi,
Hər görən eyb etdi abi-dideyi-giryanimi,
Eylədim təhqiq, görmüş kimsə yox cananimi.

Mən bəiri-eşqiyəm, əfsar onun dəstindədir,
Sərxoş olmaq halətim, çeşmi-siyah məstindədir,
Murği-dil damə düşüb gisuyi-sərbəstindədir,
Ləhzə-ləhzə xubilər gördüm ki, dil qəsdindədir,
Parə-parə eylədim mən həm dili-suzanimi.

Hər şəbi-hicran gözüm yaşilə tökdi dil yağın,
Az qalıb kim, döndərə giryəm qərayə göz ağın,
Etmədi sağlam dili-zarimdə hicranın dağın,
Çox yetirmə göylərə fəryadım, ey kafir, sakın,
İnciyir nagəh Məsiha eşidib əfğanimi.

Ah odu ilə xoşq olub canım necə gündə kuah,
Bir küsöy mislində kim, atəş yaxıb olmuş siyah,
Mən sənin bimarınam, nə şək yox, nə iştibah,
Qılma hər saət məni rüsvayi-xəlq, ey bərgi-ah,

Eyləmə rövşən şəbi-qəm külbeyi-əhzanimi.

Təneyi-ağyar ilə el içrə mən oldum xəcil,
Əşki-çeşmimdir axan ruxsarə sənsiz müttəsil,
Qəm qubarı qat olur, gözdən gəlir ruxsarə qil,
Çıxma bazari-məlamətdən, sən ey divanə dil,
Müttəsil çaki-giribanım tutar damanimi.

Gözlərindir aşiqi-bimarənin canın alan,
Firqətindir canını düşkün qılıb dərdə salan,
Ey büti-simin bədən, hicran əlindən əlaman,
Hansı bütdür bilmirəm imanimi qarət qılan,
Səndə iman yox ki, sən aldın dinim imanimi.

Dərdi-eşqə Nobəri, dərman verə bilməz həkim,
Kəbəyə varmaq dəxi imdad etməz necə kim,
Qeysi çox gəzdirdilər ol xanədə, bundan qədim,
Ey Füzuli, canə yetmişdim könüldən, şükr kim,
Bağladım bir dilbərə, qurtardım ondan canimi.

-283-

Nəxli-ümmidi-dilin, ey gül, nihalı qalmadı,
Könlümün qəm çəkməyə canımda halı qalmadı,
Mərdümi-çeşmin dəxi əşki-zülalı qalmadı,
Canımın cismilə zövqi-ittisali qalmadı,
Ah kim, sənsiz dirilmək ehtimalı qalmadı.



**Şakir oldum, könlümə zövq artırır təşviqinə,**
**Xadimi-dərgahinəm, baş qoymuşam təzimine,**
**Dəmbədəm şakir olur könlüm sənin təkriminə,**
**Şükrillah, bəxt yar oldu, yetirdim tiğinə,**
**Başımın bir qılca boynumda vəbalı qalmadı.**

**Huşü idrak etmədi tədbir ilə hümmət mənə,**
**Soyləyim dil dərdimi canana, yox fürsət mənə,**
**Mən nedim kim, bu imiş ruzi-əzəl qismət mənə,**
**İstədim ol mahə ərzi-hal edəm, heyrət mənə,**
**Öylə qalib oldu kim, bir söz məcali qalmadı.**

**Vəslə yetməzdir əlim, bilməm nə tədbir eyləyim,**
**Mərdümi-çeşmim necə didarıdən seyr eyləyim,**
**Ta ki, bu mülki-dili-viranəni təmir eyləyim,**
**Bilməzəm xalın xəyalə canda təsvir eyləyim,**
**Dağidən bir yer tənü canımda xali qalmadı.**

**Ruberu gəlsə tutar aşiqlərin heyrət dilin,**
**Xəm qılar qaşın kimi-bari-qəmi-eşqin, bilin,**
**Xeyrxahi olmasan derlər ki, əhli-aləmin,**
**Hər kimi gördünsə qəm üftadəsi tutdun əlin,**
**Vəh ki, məndən qeyri bir qəm payimali qalmadı.**

**Şübhə yox məsud olar bu rahi-eşq ilə gedən,**
**Şami-hicran rəncinə can yandırıb səbr eyləyən,**
**Kəsdi fikri zahidin bu sahədə, bilməm nədən,**
**Ey xoş ol sərməst kim, könlündə şövqü zövqdən,**

Axirət əndişəsi, dünya xəyali qalmadı.

Guşə tutdum şövq ilə meyxanədən canan səsin,
Ləblərindən göstərib üşşaqə gülgun badəsin,
Səsləyir kim talibi-meydir, aparsın hissəsin,
Afərin, ey cam kim, sildin könlüm ayinəsin,
Xatiri-pakimdə dünyanın məlalı qalmadı.

Gizləmək mümkün deyil, axir olar eşq aşikar,
Zərdi-ruxsarım onu faş eyləyər biixtiyar,
Gözdə həsrət, şahidi dil butəsində ahüzar,
Dürd nisbət, payimali-qeyddir hər kim ki, var,
Bəzmi-dəhr içrə hərifi-laübali qalmadı.

Eşqə düş, ey Nobəri, nəssahə etmə məsləhət,
Yox lüzumi eyləmək bu sahələrdə məşvərət,
Qədr çoxdur, aşiqə həddən füzundur mənzilət,
Gör Füzuli, eşq tuğyanın, ədəm mülkün gözət,
Bəzmi-künc et, çun həvanın etidalı qalmadı.

-284-

Bülbülün qətli üçün gülşən açır güllərini,
Şaxədə hazır edir tizü tikan neştərini,
Cəm edir çövrəsinə susənü sünbüllərini,
Sanma kim, bülbül açır üçmağa balü pərini,
Gül yaxıb onu savurmuş göyə xakistərini.



Huşü idrak-sərim tərk qılıb rədd oldu,
Fovci-qəm gəldi, dilin qüvvəsi bihədd oldu,
Rəşki-əğyar yenə ortada sərhəd oldu,
Üzüilə gözüm arasında müjəm sədd oldu
Ki, gözümdən su çıxıb yumaya xaki-dərini.

Söyləmə giryə nədir, firqət olub ona səbəb,
Çəkirəm hicridə mən şamü səhər rəncü təəb,
Üzünə mən baxıram, yarım edir qəhrü qəzəb,
Mövci-əşkim görüb, əbruyə salır çin, nə əcəb
Ki, su vermək çıxarar ol qılıncın cövhərini.

İstərəm dərdi-dili-zarımı yazəm kağıza,
Bildirəm kağız ilə halımı ol gülibəniza,
Dürrtək dişlərini yad edirəm yazə-yazə,
Düşdu vəsfi-düri-dəndani ağızdan-ağıza,
Eşidib saldı bəyabanə dəniz govhərini.

İltifat etsə qula bir dəfə ol şah, nola,
Yad edib bizim səmtə tuta rah, nola,
Kəc nigahindən edə ol sənəm ikrah, nola,
Göz üzün görməsə qanlar tökə gər, ah, nola,
Bir qədəm basə, müşərrəf qıla göz mərdumini.

Tul çəkdi niyə ol mahvəşin əfraqi,
Yetmədi aşiq üçün rəhmü mürüvət çaği,
Əldə sərvətdi onun vəslinə can ovraqi,
Rişteyi-cam bizi tutdu, nola gər saqi.

Gəlsə qurtarə bizi, alə əyağı-tərini.

Nobəra, qorxuludur səndə olan muncə xəyal,
Səni divanə edər, ya yetər canə zəval,
Nəxlidir eşqə dilin Qeys ilə Fərhad nihal,
Oldu nəzzarəmizə cəm, Füzuli, ətfal,
Gəl tutalım bu sipah ilə cünun kişvərini.

-285-

Qurdu hicran dun gecə canımda bəzmi-matəmi,
Giryə diltəng eylədi ta sübh olunca sinəmi,
Xuni-dil oldu rəvan gözdən sirişkim bahəmi,
Tabi-suzi-sinədən əksilməsəydi göz nəmi,
Göz yumub-açınca seylabə verərdim aləmi.

Mövci-qəmdən bəhri-dil tuğyan qıldı gunbəgün,
Badbani-canımı badi-sitəm salmış dügün,
Qorxuram tufani-qəm etsin vücudim qərqi-xun,
Hər gözüm bir mövcisiz dəryadır ol dərya üçün,
Hər qaşımdır mövcdən bir sərnigun olmuş gəmi.

Əhli-eşqi-tutma sən munca nəzərdə qədri kəm,
Çun müqəyyəd eyləyən olmuş onu səntək sənəm,
Sancıb eşqin başıma ey mahi-taban, bir ələm,
Muyi-julidəmdədir cəmiyyəti-əsnafi-qəm,
Mülki-sövdanın budur guya səvadi-əzəmi.



Möhnəti-hicranunun asibanə vəslin kəfil,
Munca firqət çəkdiyim eylər məni eldə xəcil,
Könlümə təskin üçün verrəm nəsihət müttəsil,
Hicr var, ey didə, vəsl əyyamı tökmə xuni-dil,
Saxla kim, əlbəttə, onun həm gələr bir gün dəmi.

Sərxoşam gülgun meyi-ləlinlə, başım nəşəli,
Nərgisi bağ içrə mən gördüm gözüntək sürməli,
Qonçə bir yandan ləbin yadilə başım əngəli,
Adəmidən çox olar səntək pərivəşlər, vəli,
Az olur vaqe pərivəşlərdə səntək adəmi.

Tut zəmiri-sinədə eşqin nihan ol məhvəşin,
Ver təlaşü səy ilə cananə bu cani-pəşin,
Atəşi-hicranı sən, asandı, boylə çox düşün,
Vəsli-yadilə, könül, söndürmə ahim atəşin,
Külbeyi-tarimdən ikrah etməsin hicran qəmi.

Nobəra, sən bəs neçün əhvalını qıldın xərab,
Yoxsa canan gül üzə mişkin saçın salmış niqab,
Gözlə, canan zülf açıb, şanə çəkib, səpsin gülab,
Ey Füzuli, qıldı canım riştəsin purpıçü tab,
Bir pərivəş dilbərin sövdayi-zülfi-çənbəri.

-286-

Həsrəti-ruxsar edib ol mahu-taban məni,
Yandırıb şəmi-ruxə pərvanətək canan məni,

Rahət etməz bir dəmi bu sineyi-suzan məni,
Qərqi-xunab etdi əşk dideyi-giryan məni,
Onca qan tökdi ki, bundan tutdu axir qan məni.

Rişteyi-bəxtim düşüb iqlimi-taledə dugün,
Artırır canan mənə qeyzü etabın günbəgün,
Neylədim bilməm ona, üz döndərir məndən neçün,
Hər tərəf yüz qəm həlakim qəsdin etmiş, Tanrıçun
Bir dəm ey gözdən axan xunabə qıl pünhan məni.

Dəmdədəm meyl artırır, ey mahru, könlüm sənə,
Vəslə yetmək xahişin icz ilə dil söylər sənə,
Hazıram mən can verəm, sən hazır ol can almağa,
Yox məcalım özgə gülruxsarə sənsiz baxmağa,
Oylə kim, öz halıma qılmış qəmin heyran məni.

Dəhrə gəldin sən məgər üşaqidən can almağa,
Həsrəti-ruxsar edib canani dərdə salmağa,
İmdiki məhkumdur, ey mahru, qətlim səna,
Ruzi-vəsl, ey gül, çəkib bir tiğ minnət qoy mənə,
Yoxsa minnətsiz həlak eylər şəbi-hicran məni.

Çareyi-dərdi-dili pünhanımı bilməz həkim,
Səmmlənmiş cismidə zəhr fəraqilə rəkim,
Səhhətim tədbirinə kim söz verə, vardır şəkim,
Qərqi-xunab oldu cismim xakisaz ah, kim,
Dürdvəş saldı əyaqlarə qəmi-hicran məni.



Xəlq sərgəştə görüb Məcnun qoyublar ismimi,
Gərdişim dəştü biyabandır, bilibdir rəsmimi,
Yar ilə əğyaridən fərq etməz, oldum xəsmimi,
Pənbeyi-daği-cünun örtmüş sərasər cismimi
Kim, məlamət qılmaya hər kim görüb üryan məni.

Munca kim, Nobər çəkib hicranıdan rəncü təəb,
Eşq rəsmilə yenə səbr eyləyib tutmuş ədəb,
Mən çəkən covrü cəfavü möhnətə oldur səbəb,
Bir məhi-bimehrəyəm mail, Füzuli, yox əcəb,
Qılsa hər yan, zərrə nisbət, çərx sərgərdan məni.

-287-

Hicranın ilə olmuş qəmin yataqı,
Dildən çəkilməz, oldu ənduhü qəm əyaqı,
Giryan olan gözümdən döndü qarayə ağı,
Mərhəm qoyub önərmə sinəmdə qanlı dağı,
Söndürüb öz əlinlə yandırdığın çırağı.

Təqsirini bilibdir, çıxmaz birunə könlüm,
Agahi-qeyz olubdur, girmiş dirụnə könlüm,
Səhvin düşünmüş axir, bilmiş bu günə könlüm,
Əbrunə der məhi-no, uymuş cününə könlüm,
Nə etibar ona kim, seçməz qaradan ağı.

Nəxli-ümmidə çeşmim tökdü sirişki alın,
Əşki-rəvanim istər tər eyləsin nihalın,

Göz mərdümi olubdur cuybari-gül cəmalın,
Qəddin qəmində sərvin sormağa zəfi-halın,
Gülzaridən kəsilməz irmaqların əyağı.

Dürci-dəhəndə hər söz lələ olar qüttəvər,
Xoş dildə söz bəhası bir gövhərə bərabər,
Söhbət səninlə xoşdur, olsa əgər müəssər,
Dürtək dişin sözünü hər dəm eşitmək istər,
Bəhrin müdam onunçun sahildədir qulağı.

Xubani-dəhr olmuş məftunü dəstgirin,
Xurşididən münəvvər ruyindi, məhcəbinin,
Yoxdur cahanda mislin, surətdə həm qərinin,
Zülfi-siyəh sənəmlər olmuş sənin əsirin,
Eşqində hər birinin öz zülfi boynu bağı.

Nobər, sənə yetibdir divanəlik quruni,
Əhli-zamanə eylər sən həqdə guftuguni,
Əldən buraxmaq olmaz ol ləli-badəguni,
Dövran həvadisindən yox bakımız, Füzuli,
Darül-əmanimizdir meyxanələr bucağı.

-288-

Ağzın sirrinə vaqif olamaz hər başı,
Yaxşı görməz üzünü hər kim olarsa çaşı,
Piləvər fərq eləməz gövhər ilən bir daşı,
Qamətin xidmətinə sərvin əyilməz başı,



Nə bilir əhli-təriqin rəvişin ol naşı.

Mail oldum sənin ol sürməli, süzgün gözünə,
Söz deyən gül dəhənində dilə, şirin sözünə,
Məxfi bir söz var, onu dil demək istər özünə,
Öyünür didə ki, heyranəm əzəldən üzünə,
Oldu məlum bu lafında ki, çoxdur yaşı.

Məni məftun eyləyib hüsnünə səntək mələkim,
Düşəli eşqinə bildim ki, kəsilmiş kələkim,
Qəlblərim göydə fırıldar, ələnibdir ələkim,
Əşq ləlin rəhi-eşqində tutubdur ətəyim,
Qorxuludur, necə salıb gedəlim yoldaşı?

Vermədi sud sənin həqdə olan tədbirim,
Rüknsiz oldu bina eylədiyim təmirim,
Nədi bais bu işə, noldu mənim təqsirim,
Yetdi ol ğayətə zəfim ki, çəkər təsvirim,
Hər zaman daireyi-heyrətə min nəqqaşı.

Rahəti yox dilimin gündə, gecə çeşmidə xab,
Yanıram sübhə kimi, san necə atəşdə kabab,
Naseh eylərsə əgər aşiqə min qeyzü itab,
Möhtəsib, tanrı üçün gəl mənə çox vermə əzab,
Meyli-məscid idimi meykədələr ovbaşı?

Əhli eşqə nə qədər tənü məlamət olunu,
Vəzi-bihudə ilən bağlu qoyarlar qolunu,

Yarı rəhm etsə əgər çareyi-dərdi bulunu,
Kəsdi mən şiftədən əhli-səlamət yolunu,
Bəs ki, ətrafıma cəm oldu məlamət daşı.

Nobəra, lütf eləyər yar, eləsə covr sənə,
Şükr elə kim, belədir eşqdəki rəsmü vəfa,
Səcdə qıl xəm qaşına hərdəm ba həmdü səna,
Ey Füzuli, nə bəla oxları kim, gəlsə sana,
Səbəb ol qaşları yayin gözüdür, ya qaşı.

-289-

Vəsfi-ruxi-nigarə dilin var ləyaqəti,
Nəzmim həlavəti buna vermiş şəhadəti,
Pozmaz pozurulsa rovnəqi-canım bu adəti,
Məhşər günü derəm görüm ol sərvqaməti,
Gər onda həm görünməsə, gəl gör qiyaməti.

Bülbül fəğani qonçələrin bağrını dəlir,
Gül şaxəsində zövqə gəlir, qumri səslənir,
Gülzar bərgi-səbz ilə əlvan çiçəklənir,
Tərki-mey etdin, ey könül, əyyami-gül gəlir,
Əlbəttə, bu işin çəkilər bir nədaməti.

Səhrayə Qeys, dağlara Fərhad tuş olub,
Daği-cünundi cismindəki pənbə, puş olub.
Quşlar tutub başında yuva, dilxamuş olub,
Məcnun ki, padşahi-sipahi-vuhuş olub,



Məntək müsəxxər etmədi mülki-məlaməti.

Min Bisütun həvayə verər çəksəm ah mən,
Məcnunu sanma mən kimi fəryadü naləzən,
Fərhad kuh, Qeys biyabannəşin ikən,
Səhranəvərd ikən, mənə təsviri-Kuhkən
Öyrətdi şəhri-eşqdə rəsmi-iqaməti.

Ceyhun olubdu gözlərim eşqində əşkbar,
Şami-fəraqi-yaridə dil tutmadı qərar,
Ta subh olunca oldu işim nalə, ahü zar
Səngi-məlamət ilə çekin çövrəmə həsar,
Əşkim fənayə verməsin əhli-səlaməti.

Hicran şəbində oldu qəmi-yar həmdəmim,
Bir gün qərar tutmadı hicrində göz nəmim,
Meyxanələrdə piri-muğan qurdu matəmim,
Zahid, çox etmə tən mey üftadəsinə kim,
Çoxları yıxdı piri-muğanın kəraməti.

Diltəng qıldı, Nobəri, cövrü cəfa məni,
Covrü cəfadan etmədi canan rəha məni,
Gözdən salıb o sərvqəddü məhliqa məni,
Qəm zülmətində bulmağa dərdü bəla məni,
Bəsdir, Füzuli, atəşi-ahim əlaməti.

-290-

İnaətdir, verib xaliq sənə, canan, bu ruxsarı,
Sələsil piçi-gisuni, bu çeşmi-məstü xumarı,
Dilə peykan olan gözdür, odur qaşın kamandarı,
Rəvacın nəqdi-peykanila bulmuş hüsn bazarı,
Yetər nəqdin əgər min Yusifin olsan xiridarı.

Açıb balü-pərin bülbül, durub gül cəbhəsi üzrə,
Baxır hərdəm gülə, xarə, güli-gül qönçəsi üzrə
Ki, salsın dəhşətə xarı sürudü nəğməsi üzrə,
Məgər dövri-ruxun xəttin çəkib gül səfhəsi üzrə
Ki, olmuş gövhərəfşan bülbülün pərkar minqarı.

Rəqibi istəməm görmək səri-kuyində, rəşkimdən,
Onu görmək degil mümkün rəvan bu seyli-əşkimdən,
Əgər görsəm həlak ollam, cigərdə zəhri-mişkimdən,
Çəkər min dairə çevrəmdə hirz üçün sirişkimdən,
Xəmidə qəddimin bihudə cizginməz bu purkarı.

Rəhi-eşqi qoyub, qeyri-təriqə üz tutub getmin,
Qələtdir vaizin vəzi, ona huş ilə guş etmin,
Dilərlər tərki-eşq ilə muradü mətləbə yetmin,
Keçər naləm fələkdən, xəm qəddim çəngənə bənzətmin
Ki, çıxmaz pərdədən çənkin sədayi-naleyi-zarı.

Könül hicranə tab etmiş, məlalü möhnətə dözmüş,
Dilindən vəsli-xülyasın müşəkkəl nov ilə pozmuş,



Üzün görsün deyə, hər gün güzərgahində çox gəzmiş,
Yeni ayi fələk səthində min dəfə düzüb pozmuş,
Verincə qaşların taqinə surət hüsn memarı.

Qoyub əbrunu mehraba, məhəbbət əhli dil salmaz,
Əl üzməz eşq rahindən, təriqi-qeyrə yollanmaz,
Nə tutmaz pənd nasehdən, nəsihət guşinə almaz,
Sənəmlər taətin vacib bilən rind əcrsiz qalmaz,
Qılar min rişteyi-təsbihtək bir tari-zünnarı.

Xəzanin bərgitək qəmdən solub ruyim saralmışdır,
Sitəm badi ilə Nobər, olub pəjmurdə solmuşdur,
Olan pəjmurdə halimdən gözüm yaşilə dolmuşdur,
Füzulini dəhanin həsrəti bir dərdə salmışdır,
Nə pünhan etməyi mümkündür ol dərdin, nə izharı.

-291-

Vəsfi-ruxun dəhəndə olubdur dil adəti[1],
Qəlbimdədir həmişə təəşüq əlaməti,
Pozmaz üzülsə rovnəqi-hanın şərayəti,
Ey, hər təkəllümüm xəti-səbzin hekayəti!
Virdim həmişə müshəfi-ruxsarın ayəti!

---

[1] Bu təxmisə sərlövhədə "Də vəsfi-həzrəti-Məhəmməd Əleyhüssəlam" sözləri yazılmışdır.

Könlüm deyir, sən olmusan agah qudsidən,
Razi-nihanı bilmisən ol rahi-qudsidən,
Verdin xəbər zəmanəyə ey şah, qudsidən,
İrmiş səhih nəql ilə ərvahi-qudsidən,
İsayə möcizi-ləbi-ləlin rəvayəti.

Məcnunidən zəmanəyə hər ləhzə var əsər,
Mən olmuşam onun kimi hicrində xunciyər,
Səhranəvərd indi mənəm zarü dərbədər,
Dil kişvərini qarət edərlərdi xubilər,
Mən etməsəydi şəhneyi-şövqün himayəti.

Əfsus yarə yetməz olur aşiqin əli,
Görcək nigarı heyrət ilə bağlanır dili,
Ah ol zaman ki, dildə gedər qəbrə niskili,
Bildim təriqi-eşq xatərnakdır, vəli
Mən dönmərəm bu yolda ölüm olsa qayəti.

Şövq artırar həmişə dilim iştiyaqına,
Zövqim ziyadə oldu mücəzzəb məzaqına,
Zülfündə murği-dil toxunarkan darağına,
Qəddin həlakiyəm, düşə bilməm ayaqına,
Bir dərdə düşmüşəm ki, bulunmaz nihayəti.

Daği-dürunim oldu hamu xəlqə aşikar,
Əzbəs ki, tökdü göz yaşını leylilə nahar,
Heyrət tutar məni əgər olsam sənə düçar,
Mən ki, səni görəndə gedər əldən ixtiyar,



Gəlməz bəyanə möhnəti-eşqin şikayəti.

Şəmi-ruxun tərafinə murği-dil etdi dövr,
Acı tərin məlalilə göz yaşı oldu şur,
Nobər, gedər nə vəqtə kimi hicrilən bu dövr?
Şükr et, Füzuli, etmə fəğan yar qılsa covr
Kim, əhli-eşqə cövrdür onun inayəti.

-292-

Məni canan, xəyalati-ruxun axır cünun etdi,
Əliftək qamətim bükdü, qəmin manəndi-nun etdi,
Gözüm həsrət qalıb vəslə, dilim dərdin fuzun etdi,
Ləbin əksi gözüm yaşını meytək laləgun etdi,
Zənəxdanın muradım dəstgahın sərnigun etdi.

Toxunsa zülfünə hər gün nəsimi-sübhədir minnət,
Neçün kim, müşkbu zülfə toxunduqca çəkər ləzzət,
Müsəlsəl zülfuün rəşki verib ahəngərə zəhmət,
Özün nisbət qılardın zülfünə zəncir hər saət,
Bu sövdalar onu sərhəlqeyi-əhli-cünun etdi.

Səbatü səbr üçün dildə gərək daim ola təmkin,
Yəqindir şad olar axır könül olsa əzəl qəmgin,
Səbatü səbr axırda olar qəndabidən şirin,
Onuntək kim, pərişanlıq ziyasın artırır şəmin,
Mənə cövrün füzun olmaq, sənə meylim füzun etdi.

Cəfavu cövri cananın dili üşşaqi incitməz,
Fəraqin rənci cananın yanında mütləqa, itməz,
Əbəsdir fikri əğyarın, əli dildarıma yetməz,
Müjən peykanların könlüm basar bağrına, vəhm etməz,
Ona cadu gözün guya ki, təlimi-fusun etdi.

Nigarın mərdümi-çeşmə olur münəks ruxsarı,
Təmənnası gözün olmuş həman didar dildarı,
Bu bir lütf Fərhadə, yetib rəssamlıq karı,
Bəqayi-surəti-Şirin üçün tovfik meması,
Binayi-eşqi-Fərhadin əsasın Bisütun etdi.

Müzəkkər oldun ellərdə gözəl ovsafü hüsn ilə,
Tutubdur şöhrətin dəhri, həman əltafi-husn ilə,
Vücudun misli-bir guldur, müəttər saf husn ilə,
Sənə əksin müqabil durduğunçun lafi hüsnlə,
Onun cam içrə heyrət gərğeyi-girdabi-xun etdi.

Əlaci-dərdinə dərman dilər səndən dili-xəstə,
Düşübdür çarəsiz dərdə təmənnayi-vusal üstə,
Olubdur Nobəri, könlüm səri-muyində pabəstə,
Füzulidən səbatü səbrüyuru qəhri az istə
Kim, ol biçarənin dərdin, qəmin həddən füzun etdi.

-293-

Bir od salıbdır canıma ahim şərarəsi,
Ondan yer üzrə güldi qalan bir işarəsi,



Göz yaşımın kəsilməz olub qəmdən arasi,
Xoş gəldi dun ol ayə sirişkim nəzzarəsi,
Boylə olurmu aşiqin işlər sitarəsi.

Olmaz əlac dərdimə dərman, dilə rəqib,
Səhhət verən dəva mənə səndən ola nəsib,
Yarın fəraqi müti edər canə ənqərib,
Ey hər məriz əlacına hökm eyləyən təbib,
Bimari-dərdi-eşq olanın yoxmu çarəsi?

Qəmlər yataqı oldu dilim, möhnətə məkan,
Göz mərdümi sirişkim edər arizə rəvan,
Tufan bir ah dildən olur canda nagəhan,
Çıxmaq dilər səfineyi-tən cünbişilə can,
Dəryayi-eşqdən ki, ədəmdir kənarəsi.

Ahilə dil ki, şölə çəkir, bisəbəb degil,
Can mülki qəm yatagıdı, bəzmü tərəb degil,
Canan cəfası aşiqə rəncü təəb degil,
Derlər ki, var vamiqü Məcnun, əcəb degil,
Dağılmış ola atəşi-ahim şərarəsi.

Qoydun fəribi-al ilə avarə könlümü,
Bimar qıldın eşqilə biçarə könlümü,
Hicranın ilə yandırdın odlarə könlümü,
Nola gətirmədin ələ sədparə könlümü,
Vəhm elədinmi əl kəsə bu şişə parəsi?

Gördün rəva fəraqidə min covri sən mənə,
Bir hüzn evi olubdu bu cism ilə tən mənə,
Daim fəraqi-hüsnü ruxundır mühən mənə,
Səndən həmişə tiri-bəladır gələn mənə,
Belə olurmu aşiqü məşuqəin arası?

Nobər, əlac dərdinə vəsli-nigarı bil,
Canından əl götür, olasan yarə müttəsil,
Səbrin nə xeyri, həsrəti-ruxsarə munca il,
Ey söyləyən Fizuliyə eşq içrə səbr qıl,
Söylə, bu məlhəm ilə kimin bitdi yarəsi.

-294-

Ey könül, bir bu qədər naləvü ah etmə dəxi!
Yandırıb dağü daşı, misli-kiyah, etmə dəxi!
Yar, özün səhv eləyib, nisbəti-mah etmə dəxi!
Ey göz, ol nərgisi-xunxarə nigah etmə dəxi!
Ruzigarım qəmi-hicr ilə siyah etmə dəxi!

Can bu dünyayə dəxi gəlməyəcək, qədrini bil,
Aqibət fani olur ömrün əgər olsa yüz il,
Bari-bəndi-günəhi axirətə qıl yüngil,
Ey gözüm yaşı, bu sərgəştəliyin tərkin qıl,
Sərvqamətlərə qəti-səri-rah etmə dəxi!

Yandırdın canını hicran oduna bilə-bilə,
Fikr, xülyaları sən doldurmusan canü dilə,



Tutdurub mürgi-dili zülfə, onu verdin ələ,
Ey könül, ömrümü verdin yelə aşiqlik ilə,
Baxma hər qönçələbü gülruxə, ah etmə dəxi!

Qəmini salma dili-zarinə bu xubilərin,
Çəkmə xülyasını bu arizi mərtubilərin,
Cövri çoxdur sənə bu surəti mərğubilərin,
Yanma, ey can, xətü ruxsarinə məhbubilərin,
Ehtiyat et ki, günah üstə günah etmə dəxi!

Tökmə ey göz, üzümə həsrətin əşki-təri,
Qanə döndərməgilən hicridə bu dil, cigəri,
Dərbədər etməgilən bir dəxi bu dərbədəri,
Qılma, ey eşq, mənə ərz pəriçöhrələri,
Surəti-halimi ləhv ilə təbah etmə dəxi!

Əl götür bir bu qədər möhnətü həmmu qəmdən,
Gəl xilas et tənimi vərtəli bu qılzımdən,
Çək kənarə məni bu rənc verən həmdəmdən,
Götür ey nəfs, həvavü həvəsin aləmdən,
Hərzə-hərzə tələbi-rifəti-cah etmə dəxi!

Ey gözüm, mənzəreyi-çərx rəvaqın tərk et,
Dövləti cahın, unut qəsr otaqın, tərk et,
Nobəra, sən dəxi bu eşq soraqın tərk et,
Ey Füzuli, meyü məhbub məzaqın tərk et,
Özünü asiyi-dərgahi-ilah etmə dəxi!

-295-

Usan, ey dil, sənə zövqi-çəmən, gülxar yetməzmi?
Sübut, ağyaridən güldə olan bir xar yetməzmi?
Fəraqində gecə-gündüz fəğanü zar yetməzmi?
Könül, yetdi əcəl, zövqi-ruxi-dildar yetməzmi?
Ağardı muyi-sər, sövdayi-zülfi-yar yetməzmi?

Xəcalət çək könül, bezdim əzabi-çeşmi-həsrətdən,
Kənar et başını səngi-məlamətdən, nədamətdən,
Kifayət qıl dəxi, munca fəğani-binəhayətdən,
Yetirdi başını gərdun əyaqə bari-möhnətdən,
Xəyali-həlqeyi-gisuyi-ənbərbar yetməzmi?

Sənə əl tapdı hicranı, rəfiqindir ğəmü möhnət,
Yetişməz kami-dil, yetdi, əvəz ondan dəmi-rəhlət,
Nə müddətdir ki, sən çəkdin ruxi-dildaridən həsrət,
Sənə yetdi əcəl peymanəsin nuş etməyə novbət,
Həvayi-çeşmi-məstü qəmzeyi-xunxarə yetməzmi?

Saraldı ömrüün bağı səmumi-hicr dağından,
Tükəndi roğəni-çeşmin dilü canın çırağından,
Kənar et başını axir qəmi-hicran qucağından,
Yetər oldu qulağa bangi-rəhlət dəhr bağından,
Nə durmuşsan , təmaşayi-güli-gülzar yetməzmi?

Oyan bu xabi-qəflətdən, səri-bihuşi hüşyar et,
Əzabi-xabi-tulindən dilü canın xəbərdar et,



Həvayi-nəfsidən əl çək, bu qədri cürmidən ar et,
Yetər, cəm eylə bari-məsiyət, təğyiri-ətvar et,
Həya qıl, yoxmu insafın, ol kim var yetməzmi?

Budurmu dinin, ey zahid, belə məhzubə imanın,
Səninlə sinədə bahəm gedir vəsvası şeytanın,
Əcəl yetmiş, nədir fikrin, yaxındır kim, çıxa canın,
Hidayət mənzilinə yetdilər səyilə əqranın,
Zəlalət içrə sən qaldın, sənə bu ar yetməzmi?

Yaxıbdır canını hicran, hesab et cism bir küldür,
Hubabasa tənin Nobər, sənin miranə yüngüldür,
Pozulmuş gülşəni-ömrün, demə kim, mövsimi-güldür,
Füzuli, bilmə yetmək mənzili-məqsudə müşküldür,
Tutan daməni-şəri-Əhmədi-muxtar yetməzmi?

-296-

Zəfi-tən bir mu kimi fikrü xəyal eylər məni,
Aqibət səhra gəzən Məcnun misal eylər məni,
Müştəridir dərdü qəm canıma, mal eylər məni,
Oylə şirin ləblərin aşüftə hal eylər məni,
Xəlq Fərhadi-bəladidə xəyal eylər məni.

Möhnətü əndühü qəm can mülkini qılmış binə,
Çərx dövrin döndərir barəmdə hər gün əksinə,
Bir dəmi rahət nəfəs verməz qəmi-hicrin mənə,
Bir könül heç vəchilə irməz dəhanın rəmzinə,

Yox yerə vabəsteyi-əmri-məhal eylər məni.

Olmadı bir rəhnəmun, ya bir rəfiqi-dadixah,
Görmədi bürci-səadət talei-bəxti-siyah,
Dəşt sərgərdaniyəm Məcnun kimi, nə iştibah,
Gerdi-badi-dəşti-qəmtək ey könül, hər ləhzə ah,
Eşqi-sərgərdan bir mişkin ğəzal eylər məni.

Hər qədər səy eyləsəm məqsudi-rahə gəlməzəm,
Vəslinə vasil olub məsrurü şadan gülməzəm,
Göz yaşın hicrində bu giryan gözümdən silməzəm,
Necə ərz edim nigarə hali-zarım bilməzəm,
Sehri-husnü-arizin gördükdə lal eylər məni.

Vəsli- yarə Nobəri, sərmayə sən qoydun canın,
Oylə bir dərdə düşübsən qeyridən yox dərmanın,
Qüssəvü qəmdir şəbi-hicranilərdə hər yanın,
Oylə incəldim xəyali-tari-zülfündən anın
Ey Füzuli, hər görən bir mu xəyal eylər məni.

-297-

Bidar qıldı sübh duayə səba məni,[1]
Saldı xəyali-vəslinə bir məhliqa məni,
Qeydi-cahandan eylədi eşqi rəha məni,

[1] Bu təxmisə sərlövhə kimi "Eyzən, Məcnun dilindən" sözləri yazılmışdır.



Ya rəbb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni!

Agahisən dilimdəki bu ahi-sərdidən
Dərd əhliyəm və leyk nə sərma, bərdidən,
Aləm bilibdi halımı simayi-zərdidən,
Az eyləmə inayətini əhli-dərdidən,
Yəni ki, çox bəlalərə qıl mübtəla məni!

Cahü cəlal, təxti-zebərcəd nə hacətim,
Ruzi-əcəldə fəqirlik olmuş səadətim,
Etmək həmişə dərdə məhəbbətdir adətim,
Olduqca mən götürmə bəladən iradətim,
Mən istərəm bəlanı, çox istər bəla məni!

Könlümdə bu məhəbbəti cananə qıl dürüst,
Artır dilimdə yetməyə cananə cuyu cust,
Ol məhliqayə vasil eylə aşiqi nuxust,
Təmkinimi bəlayi-məhəbbətdə qılma sust,
Ta dust tən edib deməyə bivəfa məni!

Sovtin yetir nigarıma bu ahu zarımın,
Barəmdə nərm qıl dilini gülzarımın,
Səbrin ziyadə eylə dili-biqərarımın,
Getdikcə hüsnün eylə ziyadə nigarımın,
Gəldikcə dərdinə, yetər et mübtəla məni!

Kuyində olsun aşiqə gülxanə xabgah,

Etsin nigarın arizi-gülnarinə nigah,
Kəm etməsin ziyasını məndən o qurs mah,
Mən qandanü mulaziməti-etibarü cah,
Qıl qabili-səadəti-fəqrü-fəna məni!

Eylə zəif cismimi su üzrə çun hübab,
Təndən götür müəşirət əkli-şorbi-xab,
Sənsən edən duaları Yarəbb, müstəcab,
Firqətdə qoyma təndə ola bir məkəscə tab,
Vəslinə mümkün ola yetirmək səba məni!

Üz tutmuşam bəlayi-məhəbbətdə mən sana,
Qəmdən qutar vücudumu, qıl canımı rəha,
Nobər dil açdı dərgəhinə, eylər iltica,
Nəhviyət qılıb nəsib Füzuli kimi mana,
Yarəb, müqəyyəd eyləmə mütləq mana məni!

-298-

Canan diyari-eşqidən eylər səda məni,
Bilmiş fəzayi-eşqidə əhli-vəfa məni,
Tərğibi rahi-eşqə edir bu dua məni,
Yarəbb, bəlayi-eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi-eşqdən etmə cüda məni!

Qət eyləmə ümmidimi bu ahi-sərdidən,
Qurtar məni fəraqındakı ruyi-zərdidən,
Canan yanında eyləmə bimehr mərdidən,



Az eyləmə inayətini əhli-dərdidən,
Yəni ki, çox bəlalərə qıl mübtəla məni!

Dərdü qəmə bu canımı taqətdə bilmə sust,
Təcili gəl nigaridan, ey dərd, gəlmə sust,
Minnət qoyub bu aşiqə, sən eylə olma sust,
Təmkini-bəlayi-məhəbbətə qılma sust,
Ta dust tən edib deməyə bivəva məni!

Yarə yetir sədasını bu ahu zarımın,
Yaşın qurut bu çeşmi-tərü əşkibarımın,
Vəqtin bitir bu hicridəki ruziğarımın,
Getdikcə hüsnün eylə ziyadə nigarımın,
Gəldikcə dərdinə yetər et mübtəla məni!

Mən olmaq istəməm bu fənavari dəhrdə şah,
Nə dövlət istəməmü nə fövcilə bir sepah,
Çəkdirmə hicri-yaridə qəmgin dilimə ah,
Mən qandan mülaziməti-etibari-cah,
Qıl qabili-səadət fəqrü-fəna məni!

Sən qıl əlac dərdimə, əl çəkdi ta həkim,
Sənsən dəvayi-dərdi-dili-aşiqə əlim,
Mehri-nigarı eylə dili-zarə müstəqim,
Eylə zəif, qəl tənimi firqətində kim,
Vəslinə mümkün ola yetirmək səba məni!

İcz əllərini Nobər açıb, üz tutub sana,

Rəhm eyləsən nigar dilin nərm qıl ona,
Üz tutmaram bu dərgəhidən qeyri yana,
Nəhviyyət qılıb nəsibi Füzuli kimi mana,
Yarəb, müqəyyəd eyləmə mütləq mənə məni!

-299-

Dərdimə canan mənim eşqində dərman etmədi,
Xatirim mənzur edib, bir ləhzə şadan etmədi,
Qıldı müşkül kari-bisamanım, asan etmədi,
Açmadı könlüm fələk, ta bağrımı qan etmədi,
Qılmadı xürrəm məni, ta zarü giryan etmədi.

Etdi yarın həsrəti qəmnak, məhzun könlümü,
Qoydu avarə dili-divanə, məcnun könlümü,
Göz yaşımdır eyləyən dəryayi-Ceyhun könlümü,
Qıldı min bidad ilə səd parə purxun könlümü,
Bu çəməndə könlümü bir ləhzə şadan etmədi.

Atəşi-hicranına hər şam yandırdım təni,
Etmədim pərvanətək canım yananda şivəni,
Dəmbədəm şut eylədim, ey şəmi-ruxsarım, səni,
Şükr ki, verdi fələk, no mid edib kamım məni,
Şiveyi-mehrü məhəbbətdən peşiman etmədi.

Aşiqi-ruxsarınam, əldən gedibdir ixtiyar,
Bir bərabərdir mənə hicranidə leylü nəhar,
Dərdi-bidərmanımın dərmanı ancaq səndə var,



Səbr yoxdur mərdümi-aləmdə, vər nə ruzgar,
Hansı müşküldür ki, tədric ilə asan etmədi.

Eşqin ilə olmuşam ellər içində bəxtiyar,
Varımı sərf eylədim can nəqdilə hər nə var,
Nobəra, bihudə mən etdim demə fəryadü zar,
Eşq sövdasında sud etdim mətaim vəsli-yar,
Ey Füzuli, can verən canana noqsan etmədi.

-300-

Ol məhi-taban məni vəslilə şadan etmədi,[1]
Açmadı qönçə ləbin gül kimi xəndan etmədi,
Qəm qoyan viran dili güllü gülüstan etmədi,
Ah kim, bir dəm fələk rəyimcə dövran etmədi,
Vəsl dərmanilə rəfi-dərdi-hicran etmədi.

Başım üstə qoymadı bica yerə gəlsin həkim,
Çun müqəddərdir mənə bu dərd əlilə möhləkim,
Mübtəlayi-dərd olandır məndəki dərdə əlim,
Yarıdan min dərdilər çəkdim, bu həm bir dərd kim,
Bildi min dərdi-dilim, bir dərdə dərman etmədi.

Həsrətində çəkdirib məhzun dilə min ah hüsn,
Qeydi-dünyadan məni şadan edib ikrahü hüsn,

---
[1] Əvvəlində "eyzən təkrar" sözü yazılmışdır.

Göstəribdir şəhri-qəlb aşiqə bir rah hüsn,
Vadiyi-qürbətdə mən can vermişəm ol şah hüsn,
Bir gecə xani-vusali üzrə mehman etmədi.

Mən mərəz bimariyəm zən eylə, fikrə getməyin,
Bir təbibi axtarıb, sərmənzilinə yetməyin,
Eşqdir dərdi-dilim, bu fikrdən həm ötməyin,
Dustlar, çaki-giribanım görüb eyb etməyin!
Ol gülü kim gördi kim, çaki-giriban etmədi!

Fəqr mülkün tut könül, etmə xəyali-səltənət,
Zövqdən min ləhzə artıqdır məlali-səltənət,
Bağı-ömrə tez verər səmmin zəvali-səltənət,
Fəqr mülkün tut gər istərsən kəmali-səltənət
Kim, bu mülkün fəthini fəğfuri-xaqan etmədi.

Mümkün et, mülki-dili abad qıl, sökmək nədir?
Canı ver cananına, təxirlər etmək nədir?
Yaxşılıq nəxlin bitir, pis toxmilər əkmək nədir?
Tiği-bidadınla hərdəm qanımı tökmək nədir?
Ey Fələk, hər kim dəm vurdu eşqdən qan etmədi.

Olmasın üşşaqına cananının iki dili,
Razı olsun dəməni-vəslə yetə aşiq əli,
Mehriban olsun gərək üşşaqına bir xoş dili,
Əhdü peyman etdi yarım kim: "sənə yarəm", vəli
Yarlıq vaxtında öz əhdinə peyman etmədi.



Eşqdə pünhanidir həddən ziyad olmuş rümuz,
Sirri dil aşiq olan kəsdən demə eylər biruz,
Eşq rahi tulidir, getmək gərək şamilə ruz,
Əql meydanını zindani-bəla bilməz hənuz
Kim ki, bir müddət cünun mülkündə seyran etmədi.

Nehri-canan Nobəri, könlündə tutmuşdur qərar,
Bari səngin, naqətək çox eyləyirsən ahu zar,
Sən cərəstək dad edib faş etmə sirrin, zinhar,
Sirri-eşqin etmədi ancaq Füzuli aşikar,
Bu mübarək işi hər kim etdi, pünhan etmədi.

-301-

Hansı dildir kim, onu dildarı viran etmədi?
Hansı canan aşiqin hicrində nalən etmədi?
Həsrəti-ruxsar edib nalənü giryan etmədi,
Ah kim, bir dəm fələk rəyimcə dövran etmədi,
Vəsl dərmanilə rəfi-dərdi-hicran etmədi.

Bərgi-gülru ondadır, həm məndə ruyi-zərd kim,
Həsrəti ruxsarıdan dil çəkdi ahi-sərd kim,
Olmadı onsuz mənə rəhm eyləyən bir mərd kim,
Yaridən min dərd çəkdim mən, bu həm bir dərd kim,
Bildi min dərdi-dilim, bir dərdə dərman etmədi.

Bais oldu könlümə çəkdirməyə min ah hüsn.
Hər qədər cövr etsə də, mən olmaram ikrahi-hüsn.

Cani cismimdən alar, qarşı dura nagah hüsn,
Vadiyi-qürbətdə can verdim, məni ol şahi-hüsn
Bir gecə xani-vüsalı üzrə mehman etmədi.

Dərdimin yox çarəsi, bihudə dərman söyləmün,
Sanmayın sərmazədə, tədbiri-tərçün piləmün,
Hər yetən bidərdə dərdim faş edib səs küləmün,
Dustlar, çaki-giribanım görüb eyb eyləmün!
Ol gülü kim gördi kim, çaki-giriban etmədi!

Dərdi ki, ey dil, sənin cananindəndir mərhəmət,
Vəslinə hicran müsəlləmdir, nə hacət məşvərət,
Aşiqin fikrində yox cahü cəlalü mülkiyət,
Fəqr mülkin tut gər istərsən kəmali-səltənət
Kim, bu mülkün fəthini fəğfuri-xaqan etmədi.

Tutmadın mənzur sən bu naləvü əfğanımı,
Həm təsəvvür etmədin rənci-şəbi-hicranımı,
Qoydun ağlar müttəsil bu dideyi-giryanımı,
Tiği-bidadınla hər ləhzə tökərsən qanımı,
Ey fələk, hər kim dəm vurdu eşqidən qan etmədi.

Xilqət əvvəldə salimi-xülq olur aşiq dili,
Tapşırar dil dilbəri-məhruyəsin sadiq bili,
Tab edər min cövrünə hərdəm ki, yarıdən gəli,
Əhdü peyman etdi yarım kim, "sənə yarəm" vəli,
Yariliq vəxtində öz əhdinə peyman etmədi.



Bu təriqi-eşqidə mübhəm qalır xeyli rümuz,
Hər şəbi-hicran olur ahi-cigərdən cani suz,
Bir bərabərdir ona firqət dəmi şamilə ruz,
Əql meydanını zindani-bəla bilməz hənuz,
Kim ki, bir müddət cünun mülkində seyran etmədi.

Firki-vəslin olmadı Nobər, xəyalından kanar,
Fovci-qəm tutmuş dilin, yoxdur ona bir qəmküsar,
Sənsiz açmaz könlünü min gülşəni-fəsli-bahar,
Sirri-eşqin etmədi ancaq Füzuli aşkar,
Bu mübarək işi hər kim etdi, pünhan etmədi.

-302-

Rəhm et ilahi, aşiqə bu iltica həqqi!
Qəmnak dildə nalə, gözündə buka həqqi!
Canım çəkən fəraqında covrü cəfa həqqi!
Yarəbb, kamali-bargəhi-kibriya həqqi!
Yəni fruği-nuri-ruxi-Mustafa həqqi!

Görmə rəva ki, mən eşidim xəlq tənəsin,
Artur bu həqdə mürği-dilin, səbr çənəsin,
Bidərdə zahir eyləmə eşqim dəfinəsin,
Qıl qərqə bəhri-eşqə vücudim səfinəsin,
Fərmani-Xizra Musanı edən iqtida həqqi!

Eşqim həbib qəlbidən olmuşdi müntəqəl,
Ruhum onu qəbul eyləyib, cismidən əzəl,

Olma riza fəraq verə ömrümə xələl,
Qıl şam hicri sübh vusalilə sən bədəl,
Sübhin dəmindəki nəfəsi-dilguşa həqqi!

Dil razıdır nə qədri görə yaridən sitəm,
Rəncü əzab, cövrü sitəm, möhnətü ələm,
Artır mənə inayətin, ey sahib, kərəm,
Dərdü bəlamı rahi-məhəbbətdə qılma kəm,
Rahi-məhəbbətindəki dərdü bəla həqqi!

Kəm olmasın bu mücrimə lütfü inayətin,
Eylə vəfadə aşiqə şamil himayətin,
Ümmidə bağlıdır kərəmi-binəhayətin,
Əhli-zəlalətəm, mənə göstər hidayətin,
Ehtayi-rahi-rast qılan rəhnümə həqqi!

Şəb ta səhər fəraqında, ey dil, təvəssül et,
Tab eylə hicri-yarına, həqqə təvəkkül et,
Tab eyləyib cəfalarə, eşqin təkəmmül et,
Əndühü dərdə könlümü sahibi-təhəmmül et,
Dərdə təhəmmül eyləyən əhli-riza həqqi!

Təcil qılma vəslə, edib bəs ki, cuyü cost,
Əvvəl fəraqə vasil olur kamə dil nuxust,
Rənci-fəraqə Nobəri, tab eylə, olma sust,
İxlasım et duayə Füzuli kimi durust,
Dərgahidə icabətə layiq dua həqqi!





Yarəbb, vücudi-pənc təni-ali-əba həqqi![1]
Xeyrul-nisadə ismətü erzü həya həqqi!
Müşkülguşayi-hər do cəhan Mürtəza həqqi!
Yarəbb, kəmali-bargəhi-kibriya həqqi!
Yəni fruğü nuri-ruxi-Mustafa həqqi!

Könlümdə hifz qıl bu məhəbbət dəfinəsin,
Faş eyləmə nihan dilimin bu xəzinəsin,
Qıl aşiqin bəlalərə vüshətli sinəsin,
Qıl qərqə bəhri-eşqə vücudum səfinəsin,
Fərmani-Xizrə Musa edən iqtida həqqi!

Hicran şəbində yox dilimin zərrəcə bimi,
Candan əzizdir mənə cananımın qəmi,
Xuncigərdir əkli onun, nuşi göz nəmi,
Sübhi-vusalə eylə bədəl şami-hicrimi,
Sübhin dəmindəki nəfəsi-dilguşa həqqi!

Üz tutmuşam ricayə, dilim dərdli, gözdə nəm,
Rənci-fəraqi-yaridə mərsumidir sitəm,
Sənsən mənə bu eşqi verən sahibi-kərəm,
Dərdü bəlanı rahi-məhəbbətdə qılma kəm,
Rahi-məhəbbətindəki dərdü bəla həqqi!

---

[1] Sərlövhə kimi "Minacati-təkrar" yazılmışdır.

Şamildi külli-aləmə lütfü inayətin,
Məxluqə vacib oldu nəhayət ibadətin,
Sənsən Kərim, var kərəmi-binəhayətin,
Əhli-zəlalətəm, mənə göstər hidayətin,
Ehdayi-rahi-rast qılan rəhnüma həqqi!

Döndər təriqi-həqqə üzarım, təcəmmül et,
Tohidinə lisanidə zikrim təkəmmül et,
Nuş etdiyim bu badəni tahirü təhəllöl et,
Ənduhü dərdə könlümü sahibi-təhəmmul et,
Dərdə təhəmmül eyləyən əhli riza həqqi!

Nobər, dilin ibadəti-dərgahə qılma sust,
Artır dilində doğru rəhi-həqqə cuyü cost,
Vasil məni mərami-dilə etgilən noxost,
İxlasım et duayə Füzuli kimi durust,
Dərgahidə icabətə layiq dua həqqi!

-304-

Yarəbb, kainatü zəminü səma həqqi![1]
Dari-cahan fənadı, diyari-bəqa həqqi!
Mizani-ədl, mərhəməti-ənbiya həqqi!
Yarəbb, kəmali-mərtəbeyi-Mustafa həqqi!

[1] Başlıqda "eyzən minacat" sözləri yazılmışdır



Sidqü səfayi-silsileyi-ənbiya həqqi!

Mehrü məhəbbətində məni eylə bərqərar,
Rağibi-sücudə qıl dilimi leylü nəhar,
Təqvamı qıl mənimlə müdamin paydar,
Səndən yetər vəlilərə təbidü iqtidar,
Sən müqtədayi-aləm edən rəhnüma həqqi!

Düşsəm dəxil dərgahə, icz eyləsəm nolu?
Mehrin dilimdə hər dəmü, hər ləhzə səbr olu,
Nəhi etmədim ki, qüdsidə mən çəkdiyim qolu,
Düşməz hərimi-kuyinə biganələr yolu,
Ol barigahə məhrəm olan aşina həqqi!

Artır mənim iradətimi mehrə günbəğün,
Məmnunəm öz həbibin ey olub qəlbə rəhnəmun,
Münkərlərindi dəhridə məşhur vayğun,
Qəhrindəki siyasətü asib xovf üçün,
Zülfündəki lətafəti-feyzü rica həqqi!

Xəlq olmuşam itaətə zövqü səfa üçün,
Bir tuşədir itaəti-insan bəqa üçün,
Xeyr ibtidadə lazım olar intiha üçün,
Üşşaqə yar qıldıqı cövrü cəfa üçün,
Məşuqə aşiq etdiyi mehrü vəfa həqqi!

Salma bəqadə riştəyi əmalımə dügün,
Asantər et məişəti-dünyamı günbəgün,

Məcnunə eşqi-Leylidə sən sənlə rəhnəmun,
Leylidə zahir elədiyim feyzi-hüsn üçün,
Məcnunə verdiyin qəmü dərdü bəla həqqi!

Nobər, fəna bu dari hesab etmə bir şeyə,
Tərk et fəna cahanı, sual etsələr nəyə,
Tut daməni-nigarı, sənə rəhm edib deyə,
Fəqrü fəna səadəti lütf et Füzuliyə,
Onda olan səadəti-fəqrü fəna həqqi!

-305-

## Füzulidən bir qitəyə təxmis. Mənsub bər xatəmül-ənbiya əleyhüs-səlam[1]

Möcüz ənguştin etmişdir səmadə mahi şəqq,
Ayeyi-Quran sənə nazildi, küllən hər vərəq,
Qoydu şərin aləmə doğru yol ilə bir nəsəq,
Ey vücudi-kamilin ayinədari-feyzi-həqq,
Astanın qibleyi-hacəti-ərbabi-yəqin.

Pak olan bir cism çun sənsən olan manəndi-can,
Olmasan olmazdı bu xilqət, nə bu ünsilə can,
Xatirinçün xəlq edib dünyanı xəllaqi-cəhan,
Ey kamali-rüfətin sərmayeyi-əmnü aman!
Vey cəmali-şövkəti pirayeyi-dünyavü din!

[1] Sərlövhə əlyazmada olduğu kimi verildi.



Sənsən ol kim, olmusan gümrahilərçün rəhnüma,
Feyzi-isminlə durur bipayə noh taqi-səma,
Həqqi isbat eylədin küffari-dinə mərhəba,
Hüsni-rəyin aftabi-aləmi-sidqü səfa,
Xaki-payın mənşəi-cəmiyyəti-ruyi-zəmin.

Feyz verdin xilqəti-əvvəldə cism-adəmə,
Mai tini dönməmiş xilqət məqamında dəmə,
Fəxrə gəldi sülbidə səntək vücud xatəmə,
Gəlməmiş bir sən kimi pakizətinət aləmə,
Te binayi-aləm etmiş nəqşbəndi-maü tin.

Həqqin isbatında sən hər səyini qıldın tamam,
Ta qiyamət var sizə bu əhli-dindən ehtiram,
Müşkiratı eylədin din əhlinə mütləq həram,
Məsnədi-Nuşirəvandır büqəyi-Darüssəlam,
Sənsən istehqaq ilə ol Nuşirəvanə canişin.

Həqqi izhar eyləyən kimdir bu dünyayə səvak,
Yari-ənsarın edib bu həqdə sənlə iştirak,
Müddəilər cümləsi məğlub olubdur ziri-xak,
Cismdir mənidə burci-övliya, sən ruhi-pak,
Bir nigindir Xitteyi-Bağdad, sən nəqşi-nigin.

Həqq yanında xeylidir ey şahi-aləm, hörmətin,
Bu cəhətdən fəxr edər küffarə qarşu ümmətin,
Höuli-məhşərdən nədir baki kim, olsa qürbətin,

Sərvəra, yüz şükr kim, feyzi-kəmali-rüfətin,
Övliya bürcüni etmiş rəşki-Firdovsi-bərin.

Gərdəni-üşşaqədir ol müşk bu zülfün kəmənd,
Ey xoş aşiq ola bu tovqə dildən müstəmənd,
Mehrinə kim dil verə olmaz cahanda qeydmənd,
Xasüam olmuş nəvali-nemətindən bəhrəmənd,
Afərin, ey şəhriyari-mülkpərvər, afərin!

Şakirəm, ey taci-sər kim, möhrə dil verdim səna,
Ruhimə verdin fərəhəfza olan zövqü səfa,
Ey bəsa şadam ki, mən buldum sənintək rəhnüma,
Mən ki, bir kəmtər duaquyəm, nəzər saldın mənə,
Qoymadın xaki-məzəllətdə yatam zarü həzin.

Feyz verdin tifl ikən giryan olan gözdə nəmə,
Guş tutdun həqq deyib mən ağlayanda naləmə,
Pak qıldın qəlbimi, iqrarım oldu xatəmə,
Zaye ikən qədrimi bildirdin əhli-aləmə,
Tirə ikən eylədin xaki-vucudum ənbərin.

Nötfeyi pakilə oldu cismü canım sərbəsər,
Mehrinə aludədir xilqət dəmi xuni-cigər,
Ey bəsa, şadam ki, sən açdın mənim ruyimə dər,
Əbri-lütfün qıldı xari-xoşkimi gülbərgi-tər,
Feyzi-cudun qıldı abi-çeşmimi dürri-səmin.

Qəlbimi pak eyləyib, verdin mənə qəmdən nicat,



Etiraf etdim ki, var axır həyayə bir məmat,
Yox hərasim, ya nəbi, gər səndən olsa iltifat,
Nemətin şükri mənə ərz etdi izhari-həyat,
Şəfqətin tovqi məni qıldı qulami-kəmtərin.

Cismi-pakınla edib, merac qıldın ərşi seyr,
Xətm sənsən ənbiyalardən olan, kəs yoxdu qeyr,
Sən cəhanə gəlməmiş var müxəbbərün rəhbani-deyr,
Qəm degil əhli-qərəz eylərsə məndən məni-xeyr,
Qəm degil əhli-həsəd bağlarsa mən miskinə kin.

Feyzi-tohidə məni raqib edib, vasil qılıb,
Kufri-dinin tutmadım, mən nəfsimi cahil qılıb,
Bargahi-lütfilə gəldim, dilim sail qılıb,
Ruzgarilə mənim məqsudumu hasil qılıb,
Ol ki, mən eylər olur bədxahi-rəbbül-aləmin.

Bərgi-güldə ətr olur, biətrdir yarpaği-bid,
Bu sözüm şöhrətlidir, ellərdə vazehdir pədid,
Hatifi-qeyb ilə mən qıldım belə guftü şənid,
Heç şəkk yox kim, yetər məqsudə, qalmaz naümid,
Xirməni-əltafın ətrafında olanlar xuşəçin.

Nobəri, qəmgin olub çox eyləmə ahü fəğan,
Rəhbərin sahibkərəm mütləq edər lütfun əyan,
Sən Füzuli misli ol, daim bu şahə vəsvxan,
Var ümmidim mehrü mah etdikcə dövran olasan,
Kamiyabü kamiranü kamibəxşü kamibin.

# Əlavələr.

## Füzuliyə həsr olunmuş bir qəzəl Nobər Şiseyi dilindən.

### Arzuyi Nobəri[1]

Nola həmsər olub sənlə, sənə mən çakər olsaydım,
Cahanda sən kimi ürfan dilində əzbər olsaydım,

Çıxıb şəhbari-fikrinlə oleydim eşq səyyahı,
Vücudundə olan bazu əvəzdən mən pər olsaydım.

Çəkəndə nəzmə əşarı, tutanda heyrət əyyamı,
Əlində bir qələm, ya kim, mürəkkəbtək tər olsaydım.

Açanda gülşənı-təbin məhəbbət şamməsində gül,
O gülşən dövrinə mən həm tikantək məcər olsaydım.

Verəndə şəkkər xarə ləbin ənzamə şəhdiyyat,
Olub mulhəq o namində, sözündə şəkkər olsaydım.

1 Sərlövhələr əlyazmada olduğu kimi verildi. Əsərin əlavə hissəsində verilən bu şeirlər Nobərinin Füzuli qəzəllərinə yazdığı təxmislərin sonunda verildiyi üçün təxmislərin bu nəşrində əlavə hissədə verilməsi lazım görüldü. Belə ki, şeirlər bütünlükdə Füzuli ilə əlaqədardır.



Çəkəndə riştеyi-nəzmə kəlami-durrr-şəhvari,
Hüzurunda yanan şəmtək yanıb xakistər olsaydım.

Fəzayi-dildə cövlanə gətirdikcə xəyali-ayətin,
Rikabi tovsəni-fikrə dayanmış mehtər olsaydım.

Səvari-tovsən fikrə olan dəm şeir seyyadı,
Cigərdirin olub, mən də qulami-kəmtər olsaydım.

Deyirdim xeyli məsudəm, gəlib yanında can versəm,
Füzuli, sən kimi mən də cəhanda Nobər olsaydım.

## Füzuliyə nəzirə, müsəddəs

Gülzar içində gördüm o sərvü sənubəri,
Tökmüş üzari-alinə gisuyi-çənbəri,
Tutmuş fəzayi-gülşəni ətrü müəttəri,
Burci-səadətə yetişib bəxtim əxtəri,
Canan, nə seyrdir, nə çəməndir dedim, dedi:
Yarın çəməndə güllərə mehmanındır sənin.

Bu yer Xutənmi, sən də bir ahu ya ğəzal,
Süzgün nigahın örgədib ahuyə ixtisal,
Gülbərib arizində nə zibadı qarə xal,
Cənnətdə Adəmin başına gətdi min məlal,
Ruxsarın üzrə xal nədəndir dedim, dedi:
Vəhm et, bu danə toxmi-cənanındır sənin.

Çəkdi kənarə arizini dışra pərdədən,
Süsən susub dayandı, xəcil oldu yasəmən,
Qönçə təbəssüm eylədi, dağıtdı pirahən,
Yaş tökdü lalə jalə misalı zədən, zədən,
Gülgun yanaqə ləli-yaməndir dedim, dedi:
Ruyimdə busə qiyməti canındır sənin.

Dil sinədə dügündi görəndə üzarını,
Can tərk qıldı hüsnünü, yox etdi varını,
Tərk eylədi vücud tamam ixtiyarını,
Səhrayə tökdü atəşi-ahın şərabını,



Canımdakı bu yanğu nədəndir dedim, dedi:
Müştaqi-vəsl olan dili - suzanındır sənin.

Pozdu rəvaqi-gülşəni gisuyü hüsni-yar,
Bülbül fəğani gülşəni doldurdu zarü zar,
Gül rəşkidən töküb vərəqin oldu şərmsar,
Məbhut oldu gülşənü əşcar nobahar,
Xürrəmsəradı, cayi-mühəndir dedim, dedi:
Gülşən tamam kölbeyi-əhzanındır sənin.

Bülbül sədayi-naləyə artırdı min fəğan,
Gəldi tamam naləyə murgani-gülüstan,
Sərv qəddin dayandırıb ol yari-mehriban,
Bir qönçə üzdi naz ilə, bir söz dedi nihan,
Pünhan bu rəmziniz nə süxəndir dedim, dedi:
Məxfi dedim dodaqimi dərmanındır sənin.

Gülgün ləbi ləbaləb cami-şərabvar,
Meynuşilər əlindən alar görcək ixtiyar,
Sərməst olub bənəfşəvü nərgis dəxi xumar,
Bülbüldi nəğməxanı olan, eylər ahü zar,
Bəzmü tərəbdi, beytül-həzəndir dedim, dedi:
Şərhi-bəyani-dərdi-nihanındır sənin.

Ömrüm səmərlərin yəxasından verib nişan,
Əhya qılıb, bu mürdədilə verdi tazə can,
Göstərdi sim sinəsində məni-zarə bir məkan,
İzhar edib məhəbbətini yarım ol zaman,

Mən zarə bu məhəl qədəğəndir dedim, dedi:
Xatircəm eylədi bu məkanındır sənin.

Sordum mərizi-eşqə nədir, söyləsin əlac,
Verdi cavab, səbrü təhəmmüldir ehtiyac,
Aşiq gərəkdir eşqidə olsun qənimazac,
Bazari-eşqi bir yerə yetsin, tapar rəvac,
Eşqin yarası söylə bitəndir dedim, dedi:
Bitməz bu yarə, xam gümanındır sənin.

Nobər, fəğani-bülbülü bildin nədir qərəz,
Güldənmi aşikarə gəlir onda bu mərəz,
Yoxsa gül ilə arizi-yarı qılır əvəz,
Bildim nədir məramını biçarə əlqərəz,
Amac rəncü zəxmü tikəndir dedim, dedi:
Fəryadü nalə xəlqə nişanındır sənin.



-308-

## Eyzən nəzireyi-müsəddəs
## Nobər Şişeyi

Gördüm çəməndə sərvə muqabil durub nigar,
Sərvi edibdi qaməti-rənası şərmsar,
Gül bərgini ayaqına yarın edib nisar,
Heyrətdədir tamam çəmən, səhni-bağ zar,
Canan, nə sərvdir bu, nə qamət dedim, dedi:
Qəddim sərvəri rəfi-məlalındır sənin.

Baxdım üzari-alinə, gülgun yanağına,
Nərgis misalı çeşminə, meygun dodağına,
Şimşad əlinə, başına, başdan əyaqına,
Gisuyi-mişkbuyinə, nəsrin buxaqına,
Ruxsaridə nə türfə məlahət dedim, dedi:
Qəm çəkmə kim, təmamisi malındır sənin.

Lazım degildi sürmə gözə, vəsmə qaşına,
Ənnik yanaqə, ətr nə lazımdır başına,
Onlar tamam bais olur dil xəraşına,
Məşşatələr düzəldib onu öz məaşına,
Əbrulərində türfə əlamət dedim, dedi:
Səthi-səmadə tazə hilalındır sənin.

Məndən sənə rəqib deyibdirmi iftira?
Böhtan deməden etdimi əğyarım ixtira,
Qeyz eyləmək əlaməti var səndə, qaliba,
Munca bəlayə etmə məni-zari mübtəla,
Səbrim edərmi munca kifayət dedim dedi:
Onlar tamam vezrü babalındır sənin.

Çəkdin cahanda cövrini, dözdüm fəraqına,
Gəşt eylədim bəladü cahanı soraqına,
Göz mayil oldu hüsnünə, dil iştiyaqına,
Bir qul misal başımı qoydum ayaqına,
Lazımmıdır bu aşiqə hörmət dedim, dedi:
Canım tamam malı-həlalındır sənin.

Muddət məni məlamətə tuş eylədi qəmin,
Boynumdadır səlasil əvəzi-zülfi-pünçəmin,
Oldum həmişə fikrü xəyal ilə həmdəmin,
Təslim olarmı Nobərə bu qəlbi möhkəmin,
Şövqin yetirdi nəzmə həlavət dedim, dedi:
Şeirin sübuti-fəzlü kamalındır sənin.





## Dildən razılıq

Ey dil, nə gözəl xəyal edirsən,
Gülzari-məlahətə gedirsən.
Xoş gəldi sənə Füzuli nəzmi,
Zinətli qılır tamam bəzəni.
Gəl nəzmin edək tamam təxmis,
Zövq əhlinə ola işdə tədris,
Ərbabi-kəmalə zövq versin,
Ürfan bu gözəl məqalı görsün.

# NOBƏRİ
# QARA ƏLİYEV

# FÜZULİ QƏZƏLLƏRİNƏ TƏXMİSLƏR

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Yığılmağa verilmiş **05.03.2012**
Çapa imzalanmış **24.03.2012**
Şərti çap vərəqi **29,2.** Sifariş **№314**
Kağız formatı **60x84 1/16.** Tiraj **200**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.